AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

**HABİL HƏSƏNOV**

# AZƏRBAYCAN TARİXİ

**(XVIII əsrin son rübü-XIX əsrin əvvəlləri)**

**Dərs vəsaiti**

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elmi Şurasının 8 iyul 2022-ci il tarixli qərarı ilə (prot № 6) dərs vəsaiti kimi təsdiq olunmuşdur.

**Bakı –2022**

*Elmi redaktor:* **M.İ.Əmrahov,** tarix üzrə elmlər doktoru, professor

*Redaktor:* **Z.H. Kərimov,** tarix üzrə fəlsəfə doktoru, dosent

*Rəyçilər:* **V.H.Əliyev,** AMEA-nın müxbir üzvü, tarix üzrə elmlər doktoru, professor
**S.N.Ramazanova,** baş müəllim

**H.İ.HƏSƏNOV. Azərbaycan tarixi (XVIII əsrin son rübü-XIX əsrin əvvəlləri). Dərs vəsaiti. Bakı: ADPU-nun nəşriyyatı, 2022. – 152 səh.**

Dərs vəsaitində XVIII əsrin son rübü-XIX əsrin əvvəllərində Azərbaycanda baş verən hadisələr, Rusiya və Qacarlar dövləti münasibətlərində Azərbaycanın yeri və Şimali Azərbaycan torpaqlarının çar Rusiyası tərəfindən işğalı yeni yanaşmadan izah olunmuşdur.

Dərs vəsaiti ali məktəblərin bakalavr pilləsi «Tarix müəllimliyi» və «Tarixi-coğrafiya müəllimliyi» ixtisaslarının tələbələri üçün nəzərdə tutulmuşdur. Vəsaitdən pedaqoji universitetlərin digər fakültələrinin tələbələri, əlavə təhsil kurslarının dinləyiciləri, orta ixtisas məktəblərinin tələbələri, müəllimlər, magistirlər və Azərbaycanın XVIII-XIX əsrin əvvəlləri tarixi ilə maraqlananlar faydalana bilərlər.

# ÖN SÖZ

Azərbaycan Respublikası 20 ildən artıqdır ki, dünya birliyinin tam hüquqlu üzvü olan müstəqil bir dövlətdir. Bu müddət ərzində xalqımız ictimai-siyasi və sosial-iqtisadi həyatın bütün sahələrində böyük uğurlar qazanmışdır. Sovet ideoloji buxovlardan azad olan Azərbaycan tarixçiləri tariximizin müxtəlif dövrlərinin və problemlərinin obyektiv şəkildə öyrənilməsi üçün əlverişli imkan qazanmış, bir çox məsələlərin yenidən obyektiv şəkildə işlənməsi zərurətini əsaslandırmışlar. Ümummili lider H.Əliyev 1993-cü il sentyabrın 21-də və 1997-ci il yanvarın 31-də alimlərlə görüşündəki nitqində Azərbaycanın XIX-XX əsrlər tarixinin yenidən doğru-düzgün araşdırlmasını zəruriliyi barədə tövsiyələrini rəhbər tutan Azərbaycan tarixçiləri XVIII əsrin son rübü-XIX əsrin əvvəllərində Rusiya-İran münasibətlərində Azərbaycanın yeri məsələsini tədqiq etməyə başladılar. Bu baxımdan Habil Həsənovun **“XVIII əsrin son rübü-XIX əsrin əvvəlləri”** mövzusunda dərs vəsaiti diqqəti cəlb edir.

Məlumdur ki, çox qədim və zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycanın Rusiya və Qacarlar dövlətləri arasındakı münasibət- lərdə yeri və rolu məsələsi istər çar Rusiyası, istərsə də sovet dövrünün əksər tədqiqatçıları problemin mahiyyətini ciddi şəkildə təhrif etmiş, Rusiyanın Qafqaz siyasətinə bir xeyirxahlıq, himayədarlıq donu geydirilmiş, Qacarlar sülaləsinin hökmdarlarının bu bölgə ilə bağlı siyasətləri ancaq qəsbkarlıq kimi qiymətləndirilmiş, XVIII əsrin sonlarında Qacarlar dövlətinin xarakterində baş vermiş dəyişikliyin üzərindən sükutla keçilmişdir. Bu baxımdan Habil Həsənovun tədqiqat işi bir də ona görə diqqəti cəlb edir ki, müəllif hadisələrə milli dövlətçilik mövqeyindən yanaşaraq hadisələri saf-çürük edir, Rusiyanın Qacarlar münasibətlərində Azərbaycanın yeri müəyyənləşdirilərək, Qacarlar dövründə baş vermiş hadisələrə yeni tarixi baxış formalaşdırmağa səy göstərilir.

Dərs vəsaiti ilə tanışlıq göstərir ki, müəllif problemi araşdırarkən Rusiya Federasiyasının müxtəlif arxivlərində

saxlanılan sənədləri tədiqatta cəlb etmişdir. Rusiya Dövlət Hərb Tarixi Arxivinin (RQVİA) 52 saylı fondunda, Rusiya Dövlət Qədim Aktlar Arxivinin (RQADA) 276 və 1406 saylı fondlarında, Rusiya İmperiyasının Xarici Siyasət Arxivinin (AVPRİ) 77 saylı fondunda saxlanılan sənədlərdən, «Qafqaz Arxeoqrafiya Komissiyasının aktları» (AKAK) adlı sənədlər məcmuəsindəki müqavilələr, raportlar, arayışlar, məktublar, göstərişlər və s., «Osmanlı dövləti ilə Azərbaycan türk xanlıqları arasındakı münasibətlərə dair arxiv bəlgələri» adlı iki cildlik məcmuənin birinci cildində Azərbaycan xanlıqları haqqında Türkiyə arxivlərindən toplanmış materiallardan, həmçinin İngiltərənin Ost-Hind kompaniyasının XIX əsrin ilk illərində İranda səfir olmuş C.Malkolmun ilk mənbə xarakteri daşıyan əsərindən istifadə edən müəllif Rusiyanın Azərbaycana dair planlarına aydınlıq gətirmişdir.

Dərs vəsaitində XVIII əsrin ikinci yarısında yaranmış Azərbaycan xanlıqlarının daxili siyasi vəziyyəti təhlil edilərək bəhs olunan dövrdə təşəkkül tapmış beynəlxalq münasibətlərin Azərbaycan xanlıqlarının siyasi həyatına təsiri öyrənilmiş, Kərim xan Zəndin Azərbaycan xanlıqlarına münasibətdə yeritdiyi siyasətin mahiyyəti açılmış, Rusiyanın Şərq siyasətində Azərbaycanın yeri müəyyənləşdirilmişdir. Müəllif rus-erməni blokunun Azərbaycan torpaqlarını parçalamaq, Azərbaycan ərazisində erməni dövləti yaratmaq planlarını ifşa edərək XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Azərbaycanda Rusiya işğallarının başlanması və Qacarlar dövlətinin buna münasibətini hərtərəfli işıqlandırmışdır.

Dərs vəsatində Azərbaycan tarixində ilk dəfə Ağa Məhəmməd xan Qacarın cənub xanlıqlarını itaətə gətirmək uğrunda mübarizəsi mərhələlərə bölünmüş, hər bir mərhələnin özünəməxsus xüsusiyyətləri müəyyənləşdirilərkən türkçülük ideyaları ön plana çəkilmiş, ilk dəfə olaraq Ağa Məhəmməd Qacarın siyasətində proqressiv cəhətlər qabardılmışdır.

Bütün bunları nəzərə alaraq biz «İran» adlandırılan bu dövləti XVIII əsrin 90-ci illərindən başlayaraq «Qacarlar» dövləti adlandırmağı daha düzgün hesab edirik.

Yeri gəlmişkən, bu dövlət farsdilli tarixi ədəbiyyatda da Qacariyyə kimi adlanmışdır. Əminə Pakrəvan "Abbas Mirzə və Azərbaycan" əsərində məhz belə yazmışdır.

Azərbaycan Sovet tarix elmində də "Qacar səltənəti" ifadəsi işlənmişdir. Rəsmi İran dövləti ifadəsi isə Pəhləvilər dövründən siyasi dövriyyəyə daxil edilmişdir.

Bu mənada H.Həsənovun dərs vəsaiti özünün aktuallığı ilə seçilir.

H.Həsənovun dərs vəsaiti 3 fəsil (o cümlədən 7 yarımfəsil), nəticə və ədəbiyyat siyahısından ibarətdir. Fəsillər və yarımfəsilər ADPU-nun «Tarix müəllimliyi» və «Tarix və coğrafiya müəllimliyi» ixtisasları üzrə Azərbaycan tarixi proqramına uyğun yazılmış, nəticə və ümumiləşdirmələr aparılmışdır.

**Mais Əmrahov**
AMEA-nın A.A. Bakıxanov adına Tarix İntitutunun
şöbə müdiri, tarix üzrə elmlər doktoru, professor

# I FƏSİL
# XVIII ƏSRİN 70-80-Cİ İLLƏRİNDƏ RUSİYA-İRAN MÜNASİBƏTLƏRİNDƏ AZƏRBAYCANIN YERİ

## 1.1. Azərbaycanın daxili siyasi vəziyyəti və beynəlxalq münasibətlərdə yeri

1747-ci ildə Nadir şahın sui-qəsd nəticəsində öldürülməsindən sonra Azərbaycan xalqının tarixində yeni bir mərhələ-xanlıqlar dövrü başlandı. Lakin bir tərəfdən bölgələrdə natural təsərrüfatın hökm sürməsi və onlar arasında iqtisadi əlaqələrin zəifliyi, iqtisadiyyatın tənəzzül etməsi, bir vaxtlar yüz minə qədər və daha çox insanın yaşadığı şəhərlərin hədsiz kiçilməsi, sənətkarlıq və ticarətin ixtisarı ilə əlaqədar olaraq ölkənin ayrı-ayrı bölgələri arasında iqtisadi əlaqələrin zəifləməsi və vahid dövlət üçün vacib olan iqtisadi birliyin, ümumi bazarın olmaması, ölkənin müxtəlif bölgələrində mövcud olan irsi hakimlər institutunun olması iri feodalların müstəqil olmaq meyllərinin güclənməsi, digər tərəfdən isə güclü qonşu dövlətlərin müdaxiləsi ölkədə vahid mərkəzləşdirilmiş dövlətin yaranmasına imkan vermədi. Elə bunların nəticəsi idi ki, XVIII əsrin ortalarında Azərbaycanın siyasi xəritəsində 20-yə qədər müstəqil və yarımasılı feodal dövlətlər olan xanlıqlar yarandı. Ayrı-ayrı xanlıqların tərkibində fəaliyyət göstərən sultanlıqlar (Qazax, Şəmsəddil, İlisu, Ərəş, Qəbələ və s.) və məlikliklər (Xaçın, Çiləbörd, Vərəndə, Dizaq, Gülüstan) ölkədə yaranmış feodal pərakəndəliyini daha da dərinləşdirirdi.

Ara müharibələri ölkə iqtisadiyyatına ağır zərbə vursa da, bu müharibənin təşəbbüskarı və iştirakçısı olan feodal hakimlərin əksəriyyəti bu haqda fikirləşmir, bütün ölkənin və xalqın taleyini düşünmək əvəzinə özlərinin dar iqtisadi və siyasi mənafelərini hər

şeydən üstün tuturdular. İlk dövrlərdə bu mübarizədə Əfşar tayfasından olan feodal hakimlər daha böyük fəallıq göstərirdilər. Hələ Nadir şah (1736-1747) tərəfindən Təbriz hakimi təyin edilmiş Əmiraslan xan Əfşar qısa müddətdə öz hakimiyyətini Ərdəbil və Qaradağ xanlıqlarına yaya bilmişdi. Lakin onun Şimali Azərbaycan xanlıqlarını özünə tabe etmək cəhdləri uğursuzluqla nəticələndi. Şamaxı və Şəki xanları Əmiraslan xanın hakimiyyətini tanımaqdan qəti imtina etdilər. Az sonra, daha doğrusu 1748-ci ilin sonlarında Əmiraslan xanın özü hakimiyyət uğrunda mübarizənin qurbanı oldu.

XVIII əsrin 50-ci illərində Cənubi Azərbaycanda hakimiyyət uğrunda gedən mübarizədə Əfşar tayfasının digər nümayəndəsi, Urmiyanın irsi hakimi Fətəli xan Əfşar xeyli uğur qazana bilmişdi. Nadir şahın sərkərdəsi olmuş əfqan mənşəli Azad xanı öz tərəfinə çəkməklə Fətəli xan Əfşar (1747-1763) hakimiyyət uğrunda mübarizə aparan digər feodal qrupları üzərində real hərbi üstünlük qazandı. 1750-1751-ci illərdə Cənubi Azərbaycanın çox böyük hissəsi, o cümlədən Təbriz, Marağa, Urmiya və Salmas xanlıqları onun hakimiyyəti altına düşmüşdülər.

Azad xan bir hərbçi kimi böyük istedada malik idi. O, hələ Fətəli xan Əfşarla yaxınlaşana qədər Cənubi Azərbaycanda böyük nüfuz qazanmış, Əfşar və Dümbüli tayfa başçıları ilə ittifaqa girərək, hətta Mərkəzi İrana uğurlu yürüş də təşkil etmişdi. Buna baxmayaraq, Azad xanın Azərbaycanda və İranda müstəqil hakimiyyət yaratmaq imkanları olduqca məhdud idi. Əvvəla, Azad xan yerli əhalinin hələ də nifrətlə xatırladığı əfqan işğalı dövrünü yada salırdı. Digər tərəfdən isə onun ordusunda xidmət edən sərkərdələrin və əsgərlərin xeyli hissəsini İranda və Cənubi Azərbaycanda heç də sevilməyən sünnülər təşkil edirdilər. Siyasi məqsədlər güdən bəzi qızılbaş tayfa başçıları və şiə ruhaniləri əfqanlara münasibətdə yerli əhalinin dini hissələrini daha da qızışdırırdılar. Belə bir şəraitdə Azad xanın yerli əhalidən olan nüfuzlu bir şəxsin himayəsinə ehtiyacı var idi. Bu şəxs isə Fətəli xan Əfşar olmuşdu.

Hadisələrin sonrakı gedişi də bu ehtimalın daha düzgün olduğunu təsdiq edir. Belə ki, müəyyən narazılıqdan sonra Fətəli xandan uzaq düşən Azad xan tezliklə böyük uğursuzluqlara düçar oldu. 1757-ci ildə Məhəmmədhəsən xan Qacarla döyüşdə məğlub olduqdan sonra İraqa qaçdı. Bağdad paşasının köməyilə xeyli qüvvə toplamasına baxmayaraq, Azad xan Azərbaycana qayıda bilmədi. Bu dəfə onu Marağa yaxınlığında baş verən döyüşdə keçmiş müttəfiqi Fətəli xan Əfşar ağır məğlubiyyətə uğratdı. 1760-cı ildə öz keçmiş müttəfiqi tərəfindən Təbriz yaxınlığında daha bir məğlubiyyətə uğradılan Azad xan əvvəlcə Kürdüstana, oradan isə Gürcüstan vasitəsilə Şamaxı xanlığına qaçmışdı.

Göründüyü kimi, XVIII əsrin 50-ci illərində Cənubi Azərbaycanda hakimiyyət uğrunda mübarizədə məhz Fətəli xan Əfşar böyük uğurlar qazanmışdı. O, əldə etdiyi bu müvəffəqiyyətlə kifayətlənməyərək öz hakimiyyətini Azərbaycanın şimal xanlıqlarına və Gürcüstana da yaymağa çalışırdı. Vaxtilə Azad xanın hərbi qüvvəsindən məharətlə istifadə edən Urmiya xanı öz hakimiyyətini ayrı-ayrı vaxtlarda Mərkəzi və Qərbi İrana yaya bilmiş, Şimali Azərbaycanın Qarabağ, Şəki və İrəvan xanlıqlarını, habelə Şərqi Gürcüstanı, müvəqqəti də olsa asılı vəziyyətə salmışdı.

Cənubi Azərbaycanda hakimiyyət uğrunda gedən siyasi mübarizənin xarakterik xüsusiyyətlərindən biri burada bütün İranda hakimiyyəti ələ almağa çalışan digər qüvvələrin də fəal iştirak etməsi idi. XVIII əsrin 50-60-cı illərində İranda hakimiyyəti ələ keçirmək istəyən qüvvələr arasında İsfahan xanı Kərim xan Zənd (1705-1779) və Astarabad xanı Məhəmmədhəsən xan Qacar daha böyük fəallıq göstərirdilər. Onlar həm öz aralarında, həm də ayrı-ayrılıqda Fətəli xan Əfşarla mübarizə aparırdılar. Kərim xan Zənd 1758-1759-cu illərdə keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində Məhəmmədhəsən xan Qacar üzərində qələbə çalaraq onu bir rəqib kimi tamamilə aradan çıxara bildi. Əldə edilən bu qələbə onun mövqeyini xeyli möhkəmləndirdi və mərkəzi hakimiyyəti ələ keçirmək imkanlarını daha da artırdı. Heç də təsadüfi deyil ki, bu qələbədən sonra Mərkəzi və Qərbi İranın feodal hakimlərinin

əksəriyyəti Kərim xan Zəndin hakimiyyətini tanımağa məcbur oldular.

Məhəmmədhəsən xan Qacar üzərində əldə edilən qələbə Kərim xan Zəndə Cənubi Azərbaycanı tabe etmək uğrunda mübarizəni yeni qüvvə ilə davam etdirmək imkanı verdi. Bu dövrdə artıq özünün əsas müttəfiqi Azad xanın yardımından məhrum olan Fətəli xan Əfşarın mövqeyi isə xeyli zəifləmişdi. 1762-ci ildə Kərim xanın Xoy və Salmas şəhərləri arasında yerləşən Qaraçəmən düzündə Fətəli xan Əfşarın üzərində qələbə çalması qüvvələr nisbətini kəskin şəkildə onun xeyrinə dəyişdi. Fətəli xan Əfşarın ən yaxın müttəfiqlərindən olmuş Şahbaz xan Dümbülinin, habelə Qarabağ və Qaradağ xanlarının Kərim xan Zəndin tərəfinə keçmələri mübarizənin taleyini həll etdi. Kərim xan Zənd 9 ay davam edən mühasirədən sonra 1763-cü ilin fevralında Fətəli xanın sonuncu iqamətgahı olan Urmiya qalasını ələ keçirdi. Bununla da Azərbaycanın cənub xanlıqlarının əksəriyyəti Kərim xan Zənddən asılı vəziyyətə düşdü. Lakin bu asılılıq əksər hallarda formal xarakter daşıyırdı.

XVIII əsrin 50-60-cı illərində İranda və Cənubi Azərbaycanda hakimiyyət uğrunda gedən mübarizə Azərbaycanın şimalında mövcud olan xanlıqların müstəqilliklərinin möhkəmlənməsi üçün əlverişli şərait yaradırdı. Daima öz aralarında mübarizə şəraitində fəaliyyət göstərməyə məcbur olan Fətəli xan Əfşar, Məhəmmədhəsən xan Qacar və Kərim xan Zənd Azərbaycanın şimal xanlıqlarını asılı vəziyyətə salmaq üçün lazımi qüvvə ayıra bilmirdilər.

Nadir şahın ölümündən sonrakı ilk illərdə Azərbaycanın şimal xanlıqları içərisində **Şəki xanlığı** daha çox fərqlənirdi. Bu xanlığın hakimi Hacı Çələbi (1743-1755) yaranmış vəziyyətdən istifadə edərək öz torpaqlarını genişləndirməyə, hətta, bəzi müəlliflərin göstərdirkləıri kimi, bütün Azərbaycan torpaqlarını Şəki xanlığı ətrafında birləşdirməyə çalışırdı. Lakin maddi və insan ehtiyatlarının kifayət qədər olmaması Hacı Çələbiyə öz planlarını həyata keçirməkdə mane oldu. Onun Təbriz və Qarabağ xanlıqlarına

qarşı təşkil etdiyi yürüşlər uğursuzluqla nəticələndi. Bir neçə il ərzində gürcü çarları ilə aparılan mübarizədə hərbi uğurlar əldə edilsə də, bu xanlığın xeyli zəifləməsinə gətirib çıxardı. Heç də təsadüfi deyil ki, Hacı Çələbinin 1755-ci ildə Şamaxı xanlığına qarşı təşkil etdiyi yürüş onun tam məğlubiyyəti ilə nəticələndi. 1755-ci ildə Hacı Çələbinin ölümündən sonra isə Şəki xanlığı xeyli zəiflədi, hətta müəyyən vaxtlarda Quba xanlığından asılı vəziyyətə düşdü.

Şəki xanlığından fərqli olaraq **Qarabağ xanlığı** bütün xanlıqlar dövrü ərzində Azərbaycanın siyasi həyatında mühüm rol oynamışdır. Xanlığın banisi olan Pənahəli xan (1748-1763) müəyyən vaxtda Nadir şahın ordusunda xidmət etmiş, 1738-ci ildə isə həyatı üçün yaranmış təhlükə ilə əlaqədar Xorasandan Qarabağa qaçmışdı.

Nadir şahın ölümündən sonra Pənahəli xan Qarabağda öz hakimiyyətini bərqərar etmək üçün uzun müddət yerli feodallarla, ilk növbədə isə xristian alban məlikləri ilə mübarizə aparmalı olmuşdu. Hələ Nadir şahın hakimiyyəti dövründə xeyli imtiyazlar əldə etmiş Qarabağın Xaçın, Dizaq, Çiləbörd, Vərəndə və Gülüstan məlikləri mərkəzi xan hakimiyyətinə tabe olmaqdan imtina edərək bütün vasitələrlə Pənahəli xana qarşı mübarizə aparırdılar. Bu mübarizədə onlara ayrı-ayrı vaxtlarda Şəki və Gəncə xanları, habelə Kartli-Kaxetiya çarları yardım göstərirdilər. Lakin Pənahəli xan məliklər arasındakı ziddiyyətlərdən bacarıqla istifadə etdi. O əvvəlcə Vərəndə məliyini öz tərəfinə çəkdi və onun köməyi ilə digər məlikləri də vassal asılılığına sala bildi. Doğrudur, bu asılılıq əksər hallarda formal xarakter daşıyırdı. Rusiyanın və Kartli-Kaxetiya çarlığının güclü təsiri altında olan məliklər əlverişli fürsət tapan kimi Qarabağ xanlarına qarşı çıxış edirdilər.

Azərbaycanın görkəmli dövlət xadimlərindhən olmuş Pənahəli xanın fəaliyyətində Qarabağ xanlığının hərbi cəhətdən gücləndirilməsi önəmli yer tuturdu. Qarabağ xanı Nadir şahın ölümündən sonra getdikcə şiddətlənməkdə olan ara müharibələri şəraitində xanlığın paytaxtı rolunu oynayan şəhər qalanın tikintisinə böyük əhəmiyyət verirdi. O, bu məqsədlə əvvəlcə Bayat və Şahbulaq

qalalarını tikdirmişdi. Onun bu istiqamətdəki fəaliyyətinin ən böyük yekunu **Şuşa qalasının tikintisidir**. Qalanın tikilib Qarabağ xanlığının paytaxtına çevrilməsi 1754-1756-cı illərdə olmuşdur. Üç tərəfdən sıldırım qayalarla əhatə olunmuş Şuşa tezliklə Azərbaycanın ən böyük şəhərlərindən birinə çevrildi.

Hadisələrin sonrakı gedişi göstərdi ki, Pənahəli xan Şuşa şəhərinin əsasını qoymaqla düzgün addım atmışdı. Belə ki, 1757-ci ildə İranda və Cənubi Azərbaycanda hakimiyyət uğrunda mübarizənin əsas iştirakçılarından biri olan Məhəmmədhəsən xan Qacar Qarabağa hücum etdi. Məhəmmədhəsən xan bu yürüşə Azərbaycanın digər xanlarını da cəlb etməyə cəhd göstərdi. Lakin Qacar hakiminin bu cəhdi uğursuzluqla nəticələndi. Gəncəli Şahverdi xan Ziyadoğlu və bəzi Muğan hakimlərindən başqa Azərbaycan xanlarının heç biri onun bu çağırışına qoşulmadı. Görünür elə bunun nəticəsi idi ki, Məhəmmədhəsən xan Qarabağ əhalisinin göstərdiyi ciddi müqaviməti qıra bilmədi. Şuşa şəhərinin bir aydan artıq davam edən mühasirəsi Məhəmməd Həsən xan üçün uğursuzluqla nəticələndi.

Məhəmmədhəsən xan Qacarın hücumu iflasa uğradıqdan az sonra 1759-cu ildə Qarabağ xanlığı İranda və Cənubi Azərbaycanda hakimiyyət uğrunda mübarizənin digər iştirakçısı olan Urmiya hakimi Fətəli xan Əfşarın hücumuna məruz qaldı. Sayca böyük üstünlüyə malik olmasına baxmayaraq, Fətəli xanın Şuşanı hücumla ələ keçirmək cəhdi uğursuzluqla nəticələndi. Hərbi yolla öz məqsədinə çata bilməyən Fətəli xan hiylə yolu ilə Qarabağ xanlığını özündən asılı vəziyyətə sala bildi.

Qarabağ xanlarının fəaliyyətlərinin mühüm istiqamətlərindən birini xanlığın ərazisini genişləndirmək təşkil edirdi. İstər Pənahəli xan, istərsə də onun varisi İbrahimxəlil xan (1763-1806-cı illər) bu məqsədə çatmaq üçün qonşu xanlıqlarla xeyli mübarizə aparmalı oldular. Hər iki xanın uzun müddət apardıqları mübarizə nəticəsində Naxçıvan və İrəvan xanlıqlarına məxsus bir çox mahallar Qarabağ xanlığına birləşdirildi, ayrı-ayrı vaxtlarda Qaradağ, Ərdəbil, Gəncə, Naxçıvan və İrəvan xanlıqları asılı vəziyyətə salındılar.

XVIII əsrin ikinci yarısı-XIX əsrin əvvəlində Azərbaycanın siyasi həyatında **Quba xanlığı** daha mühüm rol oynamışdı. Əsası Hüseynəli xan (1726-1758) tərəfindən qoyulmuş bu xanlıq özünün zəngin maddi və insan ehtiyatlarına, habelə əlverişli hərbi-strateji mövqelərinə görə böyük üstünlüklərə malik idi. Dövrünün çox görkəmli dövlət xadimlərindən olan qubalı Fətəli xan (1758-1789) bu üstünlüklərdən məharətlə istifadə edərək öz hakimiyyətini bütün şimal-şərqi Azərbaycana yaymağa nail oldu. Onun iştirakı və rəhbərliyi altında Salyan, Dərbənd, Bakı, Şamaxı, Cavad, Şəki və Lənkəran xanlıqları Quba xanlığına birləşdirildi.

Qubalı Fətəli xanın Azərbaycan torpaqlarını vahid dövlətdə birləşdirmək siyasəti obyektiv olaraq ölkədə hökm sürən siyasi pərakəndəliyin və ara müharibələrinin aradan qaldırılmasına yönəldilmişdi. Bununla belə, qubalı Fətəli xanın siyasi cəhətdən pərakəndə Azərbaycan torpaqlarını vahid dövlətdə birləşdirmək siyasəti uğlursuzluqla nəticələndi. Bir tərəfdən ölkə daxilində bu siyasətə qarşı çıxan qüvvələrin xeyli güclü olması, digər tərəfdən isə Azərbaycanda mərkəzləşdirilmiş dövlətin yaranması perspektivinin qonşu dövlətlərin, ilk növbədə isə Rusiyanın və İranın mənafeyinə uyğun gəlməməsi bu uğursuzluğun başlıca səbəbləri idi.

Qubalı Fətəli xanın vəfatından sonra onun yaratdığı şimal-şərqi Azərbaycan dövləti dağılmağa başladı. Şəki və Qarabağ xanlarının yardımından istifadə edən Şamaxı xanlığı öz müstəqilliyini bərpa etməyə nail oldu. XVIII əsrin 90-cı illərində müəyyən fasilələrlə bir neçə il davam edən qanlı müharibələrdən sonra Bakı xanlığı da Quba xanlığının asılılığından çıxa bildi.

XVIII əsrin 90-cı illərində ərazi və hakimiyyət uğrunda mübarizə yalnız xanlıqlar arasında deyil, həm də ayrı-ayrı xanlıqların daxilində də geniş miqyas aldı. 1789-1792-ci illərdə Şamaxı xanlığında əvvəllər bu xanlığın hakimləri olmuş Ağası xanın və Məhəmmədsəid xanın oğlanları arasında kəskin mübarizə getdi. Şamaxıda xan hakimiyyətinə sahib olmaq üçün Manaf xan, Əsgər xan və Qasım xan bir-birilə qanlı döyüşlər apardılar. Yalnız 1792-ci ilin əvvəllərində Ağası xanın oğlu Mustafa xanın

hakmiyyəti ələ alması ilə Şamaxı xanlığının daxilində nisbi sakitlik bərqərar oldu.

Şəki xanlığında hakimiyyət uğrunda mübarizə Səlim və Məhəmmədhəsən xan qardaşları arasında gedirdi. XIX əsrin əvvəllərində bu mübarizəyə onların digər qardaşı Fətəli xan da qoşuldu. Şəki xanlığının daxilində hakimiyyət uğrunda gedən mübarizədə Şamaxı və Qarabağ xanları da fəal iştirak edirdilər. Daha çevik siyasət yeridən Səlim xan (1795-1806) bu mübarizəni öz xeyrinə həll etsə də Şəki xanlığında heç də sabitlik yarada bilmədi.

**Bakı xanlığında** hakimiyyət uğrunda mübarizə qubalı Əhməd xanın (1789-1791) və Şeyxəli xanın (1791-1810) bu xanlığı itaətdə saxlamaq uğrunda apardığı mübarizə ilə çulğalaşırdı. Əhməd xanın köməyilə Mirzə Məhəmməd xanı hakimiyyətdən devirib özünü Bakı xanı elan etmiş Məhəmmədqulu xan tezliklə Quba xanlığına tabe olmaqdan imtina etdi. Əhməd xanın ölümündən sonra Qubada hakimiyyətə gəlmiş Şeyxəli xan bu dəfə Mirzə Məhəmməd xanı hakimiyyətə qaytarmaqla Bakı xanlığını asılı vəziyyətə salmaq qərarına gəldi. 1791-ci ildə Şeyxəli xanın Bakı xanlığına hücumu ona gətirib çıxardı ki, Bakı xanlığı Quba xanlığına hər il 24 min manat xərac ödəməyi öhdəsinə götürdü.

1792-ci ildə Məhəmmədqulu xanın ölümündən sonra Bakı xanı elan edilmiş Mirzə Məhəmməd xanın hakimiyyəti uzun sürmədi. Hakimiyyəti ələ keçirən Hüseynqulu xan xanlığın gəlirini bölüşdürməkdən və Şeyxəli xana xərac ödəməkdən imtina etdi. Bundan sonra Şeyxəli xana arxalanan Mirzə Məhəmməd xanla Hüseynqulu xan (1792-1806) arasında hakimiyyət uğrunda mübarizə yenidən başlandı və müəyyən fasilələrlə rus işğalı dövrünə qədər davam etdi.

Göründüyü kimi, XVIII əsrin ikinci yarısında Azərbaycanın şimal xanlıqlarının siyasi həyatında qeyri-sabitlik hökm sürürdü. Xanlıqlar arasındakı çəkişmələrlə yanaşı ağır vergilərə qarşı üsyanlar da ölkədəki siyasi vəziyyəti gərginləşdirdi.

Xanlıqlar dövründg Azərbaycanda hərbi-siyasi sabitliyin olmaması onun beynəlxalq vəziyyətini dg ağırlaşdırdı. Fasiləsiz da-

vam edən ara müharibələri ölkənin müdafiə qabiliyyətini zəiflətdi, xarici düşmənlərin işğalçı yürüşləri üçün əlverişli şərait yaratdı. Azərbaycan İran, Osmanlı dövləti və Rusiya kimi güclü qonşu dövlətlərin maraqlarının toqquşduğu bir nöqtəyə çevrildi.

Azərbaycan ərazisində vahid dövlətin yaranması nə İranın, nə də Rusiyanın maraqlarına uyğun deyildi. XVIII əsrin ikinci yarısında Osmanlı dövləti və Rusiya Azərbaycana bir-birinə qarşı əlverişli mübarizə meydanı kimi baxırdılar. Elə bu baxımdan hər iki dövlət Azərbaycanda, xüsusilə onun Xəzərsahili bölgələrində öz mövqelərinin möhkəmləndirilməsinə böyük əhəmiyyət verirdilər.

Nadir şahın ölümündən sonra İran tarixində feodal ara müharibələrinin yeni, daha dağıdıcı mərhələsi başlandı. Şah taxtı uğrunda mübarizədə fars mənşəli Zənd tayfasının başçısı Kərim xan, türk mənşəli Qacarların başçısı Məhəmmədhəsən xan və b. daha fəal idilər. 1759-cu ildə Kərim xan Zəndin Məhəmmədhəsən xan Qacar üzərində qələbəsi onun hakimiyyətinin daha geniş ərazilərə yayılmasına gətirib çıxardı. Bu qələbədən sonra İraq Əcəmi, Mazandaran, Gilan və Kürdüstan hakimləri onun hakimiyyətini tanıdıqlarını bildirdilər. Kərim xan Zənd elə həmin il öz hakimiyyətini Kirman vilayətinə də yaya bildi. Urmiyalı Fətəli xanla davam edən mübarizə uğurla nəticələndi. 1763-cü ildə il Kərim xan Zənd öz hakimiyyətini Luristan və Xuzistan vilayətlərində də möhkəmləndirdi. İranın yalnız Xorasan və Sistan vilayətləri Kərim xanın hakimiyyətindən kənarda qalmışdılar.

Lakin Kərim xan Zəndin bütün cəhdlərinə baxmayaraq İran ərazisində, xüsusilə onun şimal vilayətlərində siyasi sabitlik yaratmaq mümkün olmadı. Kərim xanın dövründə burada yaranmış sabitlik ancaq görüntü xarakteri daşıdığından XVIII əsrin 60-70-ci illərində İran ərazisi rus və ingilis ticarət kapitalı arasında kəskin mübarizə meydanına çevrildi.

XVIII əsrin ikinci yarısında Azərbaycanın beynəlxalq vəziyyətinə ciddi təsir göstərən dövlətlərdən biri də **Osmanlı dövləti** idi. Osmanlı dövlətində hökm sürən iqtisadi gerilik, sosial və siyasi həyatda özünü getdikcə daha aydın göstərən ziddiyyətlər

dövlətin hərbi sahədə də uğursuzluqlara düçar olmasına səbəb oldu. XVII əsrin sonu-XVIII əsrin əvvəllərində Avstriya, Rusiya və Venesiya ilə aparılan müharibələrdə Türkiyə özünün Şərqi Avropadakı mülklərinin çox böyük hissəsindən məhrum oldu. XVIII əsrin ortalarından başlayaraq Osmanlı dövləti Avropanın inkişaf etmiş dövlətlərinin, ilk növbədə isə İngiltərə və Fransanın xarici siyasətində alətə çevrilməyə başladı. Lakin sadalananlar heç də hələ Osmanlı dövlətinin güclü bir dövlət kimi tamamilə sıradan çıxması demək deyildi. İqtisadi geriliyin hökm sürməsinə baxmayaraq bir tərəfdən ölkənin daxili potensialının hələ də güclü olması, digər tərəfdən isə Avropa dövlətlərinin yardımı onun qüvvələrinin bərpa imkanlarını xeyli artırırdı. Bu dövrdə Türkiyənin hərbi qüvvələri hələ də özünün döyüş qabiliyyətini saxlayırdı. Bu səbəbdən də, Osmanlı dövlətinin Cənubi Qafqazda əsas rəqibi olan çar Rusiyası bu vəziyyətlə hesablaşmağa və bölgədə olduqca ehtiyatlı siyasət yeritməyə məcbur olurdu.

XVIII əsrin ortalarına dair materialların təhlili göstərir ki, özünün hərbi-iqtisadi potensialını nəzərə alan Türkiyə hökuməti Qafqaz siyasətində daha çox gözləmə mövqeyinə üstünlük verirdi. Bunu rus çarı II Yekaterinanın məktubu (1762-1796) da təsdiq edir. Həmin məktubda göstərilirdi ki, «əgər biz öz sərhədlərimizi Qızılyardan İrana tərəf uzatmaq və bu yerləri müdafiə etmək istəsək, İranla bilavasitə qonşu olan Porta (Osmanlı Türkiyəsi) eyni qaydada çıxış edərək özünə yaxın qonşu İran (Azərbaycan) torpaqlarını ələ keçirəcək».

*Cənubi Qafqaz uğrunda mübarizənin ən fəal iştirakçılarından biri Rusiya idi.* Bu dövlət özünün sosial-iqtisadi və hərbi potensialına görə İran və Türkiyədən dəfələrlə güclü idi. İqtisadi və hərbi imkanların yüksəlişi bu dövlətin beynəlxalq nüfuzunun da güclənməsilə müşayət olunurdu. Artıq XVIII əsrin əvvəllərindən başlayaraq Rusiya faktoru beynəlxalq münasibətlərdə mühüm rol oynamağa başlamışdı.

XVIII əsrdə Rusiya özünün güclü ordusuna arxalanan fəal işğalçılıq siyasəti ilə seçilirdi. Bu ölkənin silah zavodlarında hər il,

təxminən, 30 min tüfəng, yüzlərlə top, küllü miqdarda döyüş sursatı istehsal edilirdi. Canlı qüvvə və texniki təchizat baxımından böyük üstünlüyə malik rus ordusu daha çox işğalçı müharibələr aparmaqla məşğul idi. Bəzi tədqiqatçıların hesablamalarına görə, XVII-XVIII əsrlərdə Rusiya imperiyasının ərazisi sutkada, orta hesabla, 130 km artırdı. Yeddillik müharibənin gedişində Prussiya ordusu üzərində çalınan qələbələr Rusiyanın beynəlxalq mövqelərini daha da gücləndirdi.

XVIII əsrin ikinci yarısında Rusiyanın xarici siyasəti qarşısında Qara dəniz sahillərinə çıxmaq, Ukrayna və Belarusiya torpaqlarının işğalını başa çatdırmaq, Polşada və Baltikyanı torpaqlarda möhkəmlənmək kimi təcavüzkar vəzifələr dayanırdı. Bu dövrdə Rusiyanın xarici siyasətinin rəhbərləri Xəzər dənizi hövzəsində möhkəmlənmək və ərazi işğallarını Hindistan istiqamətində cənuba tərəf genişləndirmək məsələsini də daimi diqqət mərkəzində saxlayırdılar.

Rusiyanın işğalçılıq planlarından yaxşı xəbərdar olan qərb diplomatiyası ona mane olmaq üçün bütün XVIII əsr ərzində rus-türk qarşıdurmasından yararlanmağa çalışırdı. İngiltərə XVII əsrin sonlarından başlayaraq bütün XVIII əsr ərzində Türkiyənin antirus siyasətini dəstəkləyirdi. İngiltərə məhz Türkiyənin vasitəsilə Rusiyanın Krımda, Polşada və Xəzər dənizi hövzəsində möhkəmlənməsinə yol verməməyə çalışırdı. İngiltərənin Türkiyə vasitəsilə həyata keçirməyə çalışdığı bu siyasətin mahiyyətini Rusiya hökuməti yaxşı başa düşür və bunun qarşısını almaq üçün əks tədbirlər hazırlayırdı. Rusiyanın xarici siyasətinin rəhbərlərindən biri olan kansler M.İ.Voronsov yazırdı ki, türkləri və tatarları qorxu altında saxlamaq və ticarətdən maksimum yararlanmaq üçün Krım və yaxud Don çayının mənsəbini ələ keçirmək, Qara dənizdə hərbi donanma saxlamaq imkanına sahib olmaq lazımdır.

Bununla belə, rus diplomatiyası XVIII əsrin müxtəlif onilliklərində ingilis təhlükəsini neytrallaşdırmağa və hətta, ondan maksimum faydalanmağa müvəffəq olmuşdu. XVIII əsrin 60-70-ci illəri rus diplomatiyası üçün bu baxımdan daha uğurlu olmuşdu.

XVIII əsrin ikinci yarısında beynəlxalq münasibətlərə ingilis diplomatiyasının təsiri çox güclü idi. Güclü sənaye və maliyyə imkanlarına malik olan İngiltərə dünyanın müxtəlif nöqtələrində mühüm hərbi–strateji əhəmiyyəti olan bazalar yaradır və onların köməyilə müstəmləkələrinin sayını artırırdı. İngilis müstəmləkələrinin genişlənməsində hələ 1600-cü ildə yaradılmış Ost-Hind kompaniyası mühüm rol oynamışdı. Yeddillik müharibədə (1756-1763) Fransanı ağır məğlubiyyətə uğradan İngiltərə Hindistan kimi nəhəng bir ölkənin müstəmləkəyə çevrilməsinin başlanğıcını qoydu. Məhz bu hadisədən sonra ingilislər İrana və Azərbaycana ciddi maraq göstərməyə başladılar. Bu maraq bir tərəfdən Hindistanın təhlükəsizliyini təmin etməklə bağlı idisə, digər tərəfdən həmin ölkələrin əlverişli satış bazarı olması, ən başlıcası isə ingilis toxuculuq sənayesini xammalla təmin etmək üçün böyük imkanlara malik olmaları ilə əlaqədar idi.

İranda öz mövqelərini möhkəmləndirən ingilis ticarət kapitalı burada rus tacirləri ilə uğurla mübarizə aparırdı. Ost-Hind şirkəti İran bazarını ucuz və keyfiyyətli ingilis malları ilə doldurmuşdu. Ost-Hind şirkətinin bayrağı altında fəaliyyət göstərən Bağdad və İran tacirləri buraya müxtəlif çeşidli Avropa malları, o cümlədən mahud, ipək parçalar, ingilis və fransız saatları, ətriyyat, metal məmulatları və hər cür xırdavat gətirirdilər. Rusiyadan bu ölkəyə gətirilən mallar yüksək keyfiyyətli ingilis malları ilə rəqabətə tab gətirə bilmədiyindən rus tacirlərinin bu ölkədəki mövqeləri nəzərə çarpacaq dərəcədə zəifləyirdi.

XVIII əsrin sonu-XIX əsrin başlanğıcında Azərbaycan uğrunda mübarizədə Rusiyanın ciddi rəqibi olan Qacarlar dövlətinin vəziyyəti necə idi?

İran əvvəlkitək geri qalmış feodal, bəzi yerlərdə yarımfeodal-yarımpatriarxal münasibətlərin hökm sürdüyü geri qalmış orta əsr aqrar ölkəsi idi. İran kəndlərində natural təsərrüfat ağalıq edirdi. Bir çox kəndlilər kənd təsərrüfatı ilə yanaşı toxuculuq, ipəkçilik, xalçaçılıq sənətləri ilə məşğul idi. Şəhər sənətkarları orta əsr sex quruluşunu saxlamışdı. Sadə manifakturalara da təsadüf edilirdi.

Daxili ticarərdə ev və şəhər sənətkarları, sadə manifaktura istehsalı geniş yayılmışdı. Onlar başlıca olaraq kiçik və orta tacirlərin əlində toplanmışdı. İri kapital sahibi olan tacirlər az idi. Daxildə ticarət dövriyyəsinin inkişafına və vahid bazarın yaranmasına ölkədəki feodal pərakəndəliyi, müxtəlif hakimlərin qiyamları, hakimlərin özbaşınalığı, yollarda geniş yayılmış quldur talanları, daxili gömrük rüsumu və s. mane olurdu.

İranın siyasi quruluşu feodal monarxiya idi. Ali hakimiyyət qeyri-məhdud ixtiyari olan şaha məxsus idi. Şah bəzən feodal əyanları və ali ruhanilərdən ibarət məşvərətçi hüquqa malik şura çağırırdı.

Köçəri tayfa başçıları olan xanlar böyük müstəqilliyə malik idilər. Onlar hətta nominal tabe olduqları şaha tabe olmaqdan tez-tez boyun qaçırırdılar. Ali ruhanilərlə də şah arasında konfliktlər baş verirdi. Rüşvətxorluq çox geniş yayılmışdı. Bütün rütbələr (hətta hərbi), vəzifələr şah tərəfindən müvafiq qiymətə satılırdı.

Şahın və əyalət hakimlərinin ordusu nizami olmayan feodal könüllülərdən, hərbi-köçəri tayfaların atlılarından ibarət idi. Bu dəstələr öz xanlarına itaət edir, bəzən şahın əmrlərini yerinə yetirmək istəmirdilər.

Qacarların ordusu atlı və piyada hissələrə bölünürdü. 1795-ci ilin yayında Qarabağa yürüşdə 85 minlik hərbiçi iştirak etmişdir. Ordu müəyyən dərəcədə top-tüfənglə də təchiz olunmuşdur. 1797-ci ildə Qarabağa yürüşü zamanı Ağa Məhəmməd şah Qacar Təbrizdə saxladığı üç ağır topunu da Şuşa qalası ətrafında olan kiçik ölçülü toplarına qoşmuşdu. Lazımi qədər azuqə və sursatları yox idi. Sərkərdələri savadsız idi.

## 1.2. XVIII əsrin 70-ci illərində Rusiya-İran münasibətləri və Azərbaycan

Əlverişli coğrafi mövqeyə və zəngin təbii sərvətlərə malik olan Azərbaycan hələ XVIII əsrin əvvəllərindən başlayaraq Rusiyanın Qafqaz siyasətində önəmli yer tuturdu. I Pyotr Rusiyanın beynəlxalq ticarətdə rolunun artırılmasında Azərbaycana xüsusi əhəmiyyət verirdi. Hindistanı

Qərbi Avropa ölkələri ilə birləşdirən tranzit ticarət yolunu Volqa-Xəzər yoluna istiqamətləndirməklə I Pyotr Rusiyanın beynəlxalq ticarətdən götürə biləcəyi gəliri artırmaq istəyirdi. Rusiyanın Xəzərsahili vilayətlərə dair planlarında, şübhəsiz, işğalçılıq məqsədləri də var idi.

Lakin XVIII əsrin əvvəllərində Rusiya hökumətinin həyata keçirdiyi bu siyasəti uzun müddət davam etmədi. 1735-ci ildə rus ordusu Azərbaycanın Xəzərsahili vilayətlərini tamamilə tərk etdikdən sonra Rusiyanın Qafqaz siyasətində uzun müddət davam edən müşahidəçilik hökm sürdü. XVIII əsrin ortalarında Rusiyanın Qafqaz siyasətində müşahidə edilən bu passivlik təsadüfi olmayıb, onun Avropada gedən proseslərə cəlb edilməsi ilə bağlı idi. Digər tərəfdən XVIII əsrin 50-ci illərində Rusiyanın Cənubi Qafqaz siyasətindəki passivlik özünü yalnız hərbi-siyasi sahədə deyil, ticarət əlaqələrinin həcminin kəskin şəkildə aşağı düşməsində də göstərirdi. 1750-ci ildə Rusiyadan Azərbaycana və İrana cəmisi 97.455 manatlıq mal ixrac edilmişdi ki, bu da əvvəlki illərlə müqayisədə olduqca az idi.

Nadir şahın ölümündən sonra müstəqil Azərbaycan xanlıqlarının yarandığı dövrdə də Rusiyanın Qafqaz siyasətində heç bir dəyişiklik baş vermədi. Bununla belə, Rusiyanın beynəlxalq nüfuzu xeyli gücləndi, onun Avropadakı proseslərə müdaxilə imkanları xeyli artdı.Yeddillik müharibə Rusiyanın Qafqaz siyasətində uzun müddət müşahidə edilən qeyri-fəallığa son qoydu. II Yekaterinanın hakimiyyətinin ilk illərində ticarətlə bağlı verilmiş hökumət fərmanları cənub dənizlərinin ölkə iqtisadiyyatı üçün əhəmiyyətini ön plana çəkdi. Qafqazda hegemonluq uğrunda Rusiya-Türkiyə və Rusiya-İran rəqabəti yeni mərhələyə qədəm qoydu.

Rusiyanın Qafqaz siyasətində başlanmış bu dönüşlə eyni vaxtda İranın da Azərbaycanda fəallığının artması müşahidə olunurdu. İranın böyük hissəsini və Cənubi Azərbaycanı nəzarət altına alan Kərim xan Zənd öz hakimiyyətini Azərbaycanın şimal xanlıqlarına da yaymaq qərarına gəlmişdi. Lakin itaət altına alınmış ərazilərdə üsyan təhlükəsinin güclü olması və hərbi qüvvələrin

zəifliyi Kərim xan Zəndi Azərbaycanın şimal xanlıqlarına güc tətbiq etməkdən çəkindirir, diplomatik metodlara üstünlük verməyə vadar edirdi. Rus məmurlarının verdikləri məlumatlardan aydın olur ki, Kərim xan Zənd 1763-1764-cü illərdə Şamaxı və Quba xanlarına müraciət edərək onları İran hakimiyyətini qəbul etməyə dəvət etmişdi [77, v.84]. Lakin İran hakiminin bu müraciəti həm şamaxılı Məhəmməd Səid xan, həm də qubalı Fətəli xan tərəfindən rədd edildi. Məhəmməd Səid xan «xan» titulunu Kərim xan Zəndin fərmanı ilə almasına baxmayaraq bu məsələdə heç bir güzəştə getmək fikrində olmadığını bildirdi.

Diplomatik yolla Şamaxı və Quba xanlıqlarını tabe edə bilməyən Kərim xan Zənd öz məqsədinə çatmaq üçün müharibə yolunu seçmək qərarına gəldi. Şimali Azərbaycana hücum etmək üçün 17 min nəfərlik ordu təşkil edildi. Şirvanlıların pul və girov verməkdən imtina etmələrindən qəzəblənən Kərim xan Zənd Şamaxı üzərinə hücum etmək qərarına gəldi. Lakin qardaşı Zəki xanın üsyan qaldıraraq İsfahanı ələ keçirməsi ona bu planı həyata keçirməyə imkan vermədi.

XVIII əsrin 60-cı illərinin ikinci yarısına aid mənbələrin təhlili Kərim xan Zəndin Qafqaz siyasətinin olduqca qeyri-fəal xarakter daşıdığını göstərir. Bu qeyri-fəallıq özünü 1768-1774-cü illər Rusiya-Türkiyə müharibəsi zamanı da göstərmişdi. Doğrudur, bu müharibə zamanı Gürcüstan ərazisinə rus qoşunlarının yeridilməsi İran hakiminin ciddi narahatlığına səbəb olmuşdu.

Gürcüstanda rus ordusunun yerləşdirilməsi Kərim xan Zəndi iki səbəbdən narahat edirdi. **Əvvəla,** Türkiyə ilə müharibə başa çatdıqdan sonra bu ordunun İran üzərinə hücum etməyəcəyinə heç kim təminat vermirdi. **İkincisi**, Rusiyanın hərbi yardımından istifadə etməklə Kartli-Kaxetiya çarı II İraklinin güclənməsi perspektivi Kərim xan Zəndə yaxşı heç nə vəd edə bilməzdi. Güclənmiş gürcü çarlığı İran hakimiyyətinə tabe olmaqdan imtina etməklə yanaşı, Kərim xanın asılı vəziyyətə salmaq niyyətində olduğu Azərbaycan xanlıqları üçün də təhlükə ola bilərdi. Elə bu səbəblərdən Kərim xan Zənd hər vasitə ilə II İraklini Rusiyanın

təsirindən çıxarmağa çalışırdı. Rus hərbiçisi H.D.Yazıkovun öz hökumətinə göndərdiyi raportundan aydın olur ki, Kərim xanın 1770-ci ilin noyabrında Tiflisə gələn nümayəndəsi gürcü çarından Gürcüstandakı rus qoşunlarını qovmağı xahiş etmişdi. II İraklii İran hakiminin bu xahişini nəinki yerinə yetirmədi, hətta onu Türkiyəyə qarşı aparılan müharibədə iştirak etməyə çağırdı.

Türk sultanı da Kərim xanı Rusiya və Gürcüstana qarşı müharibəyə cəlb etməyə çalışırdı. 1771-ci ildə Ərzurum paşasının elçiləri qiymətli hədiyyələrlə Kərim xanın sarayında olmuş, onu müharibəyə qoşulmiaq üçün dilə tutmuşdular. Lakin öz vəziyyətini yaxşı başa düşən İran hakimi bu təklifləri qəbul etmədi. O, yaxşı bilirdi ki, Rusiya və Gürcüstana qarşı təşkil ediləcək hərbi əməliyyatlar onun İranda onsuz da möhkəm olmayan vəziyyətini daha da ağırlaşdırar, feodal ara müharibələrinin yeni dalğasının başlanmasına gətirib çıxara bilər.

Kərim xan Zəndin vəziyyəti Azərbaycan xanlarına məlum idi. Nadir şahın ölümündən keçən müddət ərzində öz müstəqilliklərini xeyli möhkəmləndirən Azərbaycan xanlıqları, ilk növbədə isə Qarabağ və Quba xanlıqları özlərinin daxili və xarici siyasətlərində tam sərbəst hərəkət edirdilər. Qubalı Fətəli xan Kərim xan Zəndin çağırışlarına cavab vermir, girov göndərməkdən və vergi ödəməkdən imtina edirdi. Qubalı Fətəli xan Kərim xan Zəndin işğalçılıq niyyətlərindən nəinki qorxmur, əksinə, İran hakiminin formal asılılığında olan Cənubi Azərbaycana hərbi yürüş təşkil etməyi planlaşdırırdı. Rusiya-Türkiyə müharibəsi (1768-1774) dövründə Azərbaycanda gedən siyasi prosesləri diqqətlə izləyən rus konsulları və casusları qubalı Fətəli xanın Cənubi Azərbaycan və İranla bağlı planları haqqında olduqca maraqlı məlumatlar verirlər. Artıq bu dövrdə şimal-şərqi Azərbaycanı öz nəzarəti alıtan alan Fətəli xan bununla kifayətlənmək istəmir, hakimiyyətini daha böyük ərazilərə yaymağa çalışırdı. Rus konsulu Q.Boqolyubov yazırdı ki, hazırda qonşu xanlıqların böyük hissəsini tutan Fətəli xanın qarşısını almaq üçün bölgədə heç bir qüvvə yoxdur. Özünün bütün Azərbaycan torpaqlarını vahid dövlətdə birləşdirmək planının

həyata keçirilməsində Fətəli xan Şamaxıya böyük əhəmiyyət verirdi. Azərbaycan torpaqlarının mərkəzində yerləşən Şamaxıda möhkəmlənməklə Quba hakimi qonşu torpaqları, ilk növbədə isə Şəki və Qarabağ xanlıqlarını ələ keçirmək üçün özünə əlverişli istinadgah yaratmaq istəyirdi.

Qubalı Fətəli xanın planları yalnız Azərbaycanın şimal torpaqları ilə məhdudlaşmayıb daha böyük məqsədlər güdürdü. Şəki və Qarabağ xanlıqlarının ələ keçirilməsi əslində Fətəli xanın öz hakimiyyətini Cənubi Azərbaycana və hətta İrana yaymaq planının ilkin mərhələsini təşkil edirdi.

Fətəli xanın planlarında yalnız Azərbaycan torpaqlarının deyil, İranın özünün də təsir altına alınması mühüm yer tuturdu. Özünü Səfəvi hökmdarı II Təhmasibin oğlu kimi qələmə verən və İran taxtının qanuni varisi hesab edən Süleyman Mirzə adlı bir şəxsin beş ildən artıq bir müddət ərzində Qubada saxlanılması heç də əbəs deyildi. Süleyman Mirzənin Rusiya hökumətinə ünvanladığı iki məktubun məzmunundan da görünür ki, o, İranda şah taxtına sahib olmaq niyyətindədir. Buradan belə nəticə çıxarmaq olar ki, Fətəli xan Kərim xan üzərində qələbədən sonra İranda hakimiyyətə öz adamı olan Süleyman Mirzəni gətirmək istəyir. Lakin Dağıstan feodalları ilə münasibətlərin gərginləşməsi Quba xanının planlarının reallaşdırılmasına imkan vermədi.

XVIII əsrin 70-ci illərinin ortalarından başlayaraq *Azərbaycan Rusiya-İran münasibətlərində önəmli yer tutmağa başladı.* Osmanlı Türkiyəsi ilə müharibədə əldə edilən qələbə və əlverişli şərtlərlə 1774-cü ildə Kiçik Qaynarça sülhünün bağlanması Rusiyanın Azərbaycanda gedən siyasi proseslərə daha fəal müdaxilə etməsi üçün əlverişli şərait yaratdı. Azərbaycanı özünün itaətdən çıxmış torpaqları hesab edən İran isə hər vasitə ilə bunun qarşısını almağa çalışırdı. Bütün bunlar isə Azərbaycanda, ilk növbədə qubalı Fətəli xanın yaratdığı şimal-şərqi Azərbaycan dövləti ətrafında siyasi mübarizənin kəskinləşməsi fonunda baş verirdi.

Qeyd edildiyi kimi, qubalı Fətəli xan XVIII əsrin 60-70-ci illərində Şimal-Şərqi Azərbaycan torpaqlarını öz hakimiyyəti

altında birləşdirməyə müvəffəq olmuşdu. O da məlumdur ki, Fətəli xan bununla kifayətlənməyərək öz mülklərini şimal və cənub istiqamətlərində genişləndirərək vahid və güclü Azərbaycan dövləti yaratmaq istəyirdi. Bu isə özlərinin dar feodal maraqlarını hər şeydən üstün tutan qonşu feodal hakimlərin narahatlığına səbəb olurdu. Təsadüfi deyil ki, XVIII əsrin 70-ci illərinin birinci yarısında Fətəli xana qarşı iki feodal bloku təşəkkül tapmışdı. **Birinci bloka** Şəki, Qarabağ xanları və Fətəli xan tərəfindən öz mülklərindən məhrum edilmiş Şamaxılı Ağası xan daxil idi. **İkinci blokun** tərkibi daha geniş idi. Qaraqaytaq usmisi Əmir Həmzənin başçılıq etdiyi bu bloka Cənubi Dağıstanın Qazıqumuq, Avar, Tabasaran, Canqutay, Tavlin və b. hakimləri daxil idi. Rusiya-Türkiyə müharibəsi dövründə Rusiyanın təsiri ilə Azərbaycanın daxili işlərinə qarışmaqdan müvəqqəti əl çəkmiş Kartli-Kaxetiya çarı II İrakli hər iki bloka fəal yardım göstərirdi.

1773-cü ilin sonlarında **birinci bloka** daxil olan *Qarabağ, Şəki və Avar hakimləri Fətəli xanın hakimiyyəti altında olan Şamaxıya hücum etdilər*. Düşmənin üstün qüvvələri qarşısında tab gətirə bilməyən Quba xanı Şamaxını tərk etməli oldu. Şamaxıda Sərkarlar nəslindən olan Ağası xanın hakimiyyəti bərpa edildi. Lakin separatçı qüvvələrin bu qələbəsi uzun çəkmədi. Baş verən döyüşdə məğlub olan Ağası xan qaçdı, onun müttəfiqi Avar hakimi Nutsal xan isə aqquşalılar tərəfindən öldürüldü. Beləliklə, Fətəli xana düşmən olan qüvvələrin onun dövlətini parçalamaq cəhdləri iflasa uğradı.

1774-cü ildə Fətəli xan daha bir ciddi sınaqla üzləşməli oldu və çox ağır vəziyyətə düşdü. Quba xanının Şamaxının müdafiəsi ilə məşğul olmasından istifadə edən Cənubi Dağıstan feodalları qəflətən onun mülklərinə hücum etdilər. Fətəli xanın düşmən hücumunu dəf etmək üçün tələsik topladığı ordu yetərli olmadı. 1774-cü ilin iyul ayında Xudat yaxınlığındakı Gavduşan düzündə baş vermiş döyüşdə Quba xanı ağır məğlubiyyətə uğradı. O, çox böyük itkilər verdiyindən öz düşmənləri ilə yeni döyüşə girməyə cəsarət etməyərək Salyana çəkilməyə məcbur oldu. Fətəli xan 1775-

ci ildə Rusiya hökumətinə göndərdiyi məktubunda Gavduşan döyüşünün ağır nəticələrindən bəhs edərək yazırdı ki, Qaraqaytaq usmisinin başçılıq etdiyi qüvvələr Dərbənd və Salyandan başqa onun hakimyyəti altında olan bütün torpaqları tutaraq öz aralarında bölüşdürmüşlər. Beləliklə, Fətəli xanın çox böyük qüvvə hesabına yaratdığı Şimal-Şərqi Azərbaycan dövlətinin mövcudluğu ciddi təhlükə altına düşdü.

İtirilmiş torpaqları öz qüvvəsi ilə qaytara bilməyəcəyini başa düşən Fətəli xan kömək üçün Rusiyaya müraciət etməli oldu. O, Salyanda olarkən öz yaxın adamı dərbəndli Mirzə Bayatı rus imperatriçası II Yekaterinanın sarayına göndərdi.

Dövrün hadisələrinin təhlili göstərir ki, Rusiyanın Qafqaz siyasəti olduqca ehtiyatlı xarakter daşıyırdı. Rus diplomatiyası hər vasitə ilə Türkiyəni vaxtından əvvəl qıcıqlandırmamağa çalışırdı. İmeretiya çarı Solomonun Rusiya himayəsinə qəbul olunmaq xahişinin rədd edilməsi də məhz bu faktorla əsaslandırılmışdı.

*Rusiyanın **Azərbaycana dair işğalçılıq planları** onu İranla da ehtiyatlı davranmağa vadar edirdi*. Bu məsələdə rus diplomatiyası üçün ən arzuolunmaz vəziyyət İranın birləşərək güclü dövlətə çevrilməsi idi. Rusiyanın hakim dairələri belə hesab edirdilər ki, kənardan olan hər hansı müdaxilə İranı düşdüyü ağır vəziyyətdən çıxarmaq üçün təkan rolunu oynaya bilər. Rusiyanın İstambuldakı fövqəladə səfiri N.V.Repninə verilmiş hökumət təlimatında Türkiyəni İranın daxili işlərinə qarışmaqdan çəkindirmək tapşırığı da bu məqsədə xidmət edirdi. Repninə Türkiyə hökumətini İranın indiki zəif vəziyyətində saxlanılması həm Rusiya, həm də Türkiyə üçün faydalı olduğuna inandırmaq tapşırılmışdı. Göründüyü kimi, Rusiya Qafqaz məsələsini öz xeyrinə həll etmək, Azərbaycan torpaqlarını işğal etmək siyasətini reallaşdırmaq üçün İrandakı pərakəndəliyin saxlanılmasında daha çox maraqlı idi.

Qeyd olunanlardan belə nəicəyə gəlmək olar ki, XVIII əsrin 70-ci iillərinin ortalarında Rusiya Qafqazda gedən proseslərə münasibətdə müvəqqəti olaraq «qarışmamaq» siyasətini həyata keçirməyə çalışsa da, qubalı Fətəli xanın kömək xahişinə müsbət

cavab verildi. Rusiya hökuməti bunu **birincisi,** Rusiyaya -münasibətdə dostluq siyasəti yeridən Fətəli xanı müdafiə etmək; **ikincisi**, rus təbiətşünas alimi S.Qmelin öldürdüyünə görə Qaraqaytaq usmisi Əmir Həmzəni cəzalandırmaq üçün etmişdi. Fikrimizcə, Rusiya hökuməti qubalı Fətəli xana hərbi yardım göstərməklə Qafqazda rus qoşunlarının peyda olmasına İran və Türkiyənin necə reaksiya verəcəklərinin aydınlaşdırmaq məqsədini güdürdü.

1775-ci ilin martında general de-Medemin komandanlıq etdiyi rus qoşunu Fətəli xanın köməyinə göndərildi. Qaraqaytaq usmisi Əmir Həmzəyə qarşı yönəlmiş hərbi əməliyyat qısa müddət ərzində uğurla başa çatdı. Əmir Həmzə ağır məğlubiyyətə uğrayaraq öz mülklərinə çəkildi. Fətəli xan itirilmiş torpaqları geri qaytardı və Şimal-Şərqi Azərbaycan dövlətini öz əvvəlki sərhədləri çərçivəsində bərpa etdi. Ən başlıcası isə, Sərkarlar nəslindən olan keçmiş Şamaxı xanları Fətəli xanın hakimiyyətini tanımağa məcbur oldular.

Rus ordusunun köməyilə hakimiyyətin bərpa edən Fətəli xan Rusiya ilə daha da yaxınlaşmaq qərarına gəldi. O, 1775-ci ilin yazında Mirzəbəy Fərhadbəyovun başçılıq etdiyi nümayəndə heyətini Rusiyaya göndərdi. Rus ordusunun köməyilə hakimiyyətini bərpa edən Fətəli xan minnətdarlıq əlaməti olaraq Dərbəndin açarlarını rus çarı II Yekaterinaya göndərdi. Şimal-Şərqi Azərbaycan dövlətinin Rusiyanın himayəsi alıtna keçməsi haqqında müzakirələr aparmaq üçün Quba xanının səfirinin başçılıq etdiyi elçilər Rusiyada böyük hörmətlə qarşılandı. Səfirliyin çar hökuməti qarşısında qaldırdığı əsas məsələ–Quba xanlığının Rusiyanın himayəsinə qəbul edilməsi məsələsi üç dəfə imperatriçanın yanında fəaliyyət göstərən Dövlət Şurasının iclaslarında müzakirə edildi. Müzakirələrin belə sürəkli və uzun müddət davam etməsi göstərirdi ki, çar hökuməti Fətəli xanın Rusiya himayəsinə keçmək xahişinə cavab verməkdə xeyli çətinlik çəkmişdi. Şübhəsiz ki, Rusiya hökuməti Azərbaycanın çox mühüm strateji və iqtisadi əhəmiyyəti olan bir bölgəsinə nəzarəti dinc yolla ələ keçirməyin özü üçün müsbət nəticələrini yaxşı başa düşürdü. Lakin Rusiya hökuməti belə bir addımın dövlətlərarası

münasibətlərin hökmən gərginləşdirəcəyini də nəzərə almağa məcbur idi. Məhz bu səbəbdən Rusiya hökuməti Fətəli xanın təklifini qəbul etməkdən imtina etdi. Rusiyanın Xarici İşlər kollegiyasının rəhbəri N.İ.Paninin Quba xanına ünvanlanmış məktubunda göstərirlirdi ki, «rus imperator sarayı, sizə bəslədiyi əsl xeyirxah münasibətə baxmayaraq, özünə dəxli olmayan bir məsələdə nə iştirak etmək, nə də sizə kömək göstərmək fikrində deyildir».

Rus diplomatiyası Quba xanlığını himayəyə qəbul etməkdən imtina etməyin əsas səbəbi kimi İranla münasibətləri pisləşdirmək istəməməsini göstərirdi. N.İ.Paninin Fətəli xana göndərdiyi məktubunun məzmunundan aydın olur ki, Rusiya hələ də Dərbəndi və ümumiyyətlə, bütün Quba xanlığını İran torpaqları hesab edir. Rus diplomatı daha sonra bildirdi ki, Rusiya hələ qədim zamanlardan İranla dostluq əlaqələri saxlayır və Fətəli xana görə bu münasibətləri korlamaq fikrində deyil. O, Quba xanına məsləhət görürdü ki, öz düşmənlərinə qarşı mübarizə üçün İran hökumətindən kömək istəsin.

Hadisələrin gedişi göstərir ki, bu dövrdə rus diplomatiyası Quba xanlığı ilə münasibətlərdə açıq şəkildə manevr edirdi. Rusiya hökuməti yaxşı başa düşürdü ki, indiki şəraitdə Qafqazda möhkəmlənmək üçün atılacaq hər hansı bir addım hökmən İran və Türkiyə ilə münasibətlərin kəskinləşməsinə gətirib çıxaracaqdır. Bu isə Kiçik Qaynarça sülhündən sonra Rusiyanın bölgədə qazandığı uğurların təhlükə altına düşməsinə gətirib çıxara bilərdi.

Məlumdur ki, General de-Medemin başçılığı altında rus ordusunun Dərbəndə yeridilməsi, Mirzəbəy Fərhadbəyovun başçılığı ilə Quba xanlığının səfirliyinin Rusiyaya göndərilməsi Rusiya-İran münasibətlərinin də xeyli gərginləşməsinə səbəb oldu. İstər Azərbaycanda, istərsə də İranda rus ordusunun Dərbəndi işğal etməsi və tezliklə cənuba tərəf yürüşünü davam etdirəcəyi haqqında xəbərlər yayılmağa başladı. Fətəli xanın ölkəni vahid dövlətdə birləşdirmək siyasətinin qatı əleyhidarları olan şəkili Hüseyn xan və şamaxılı Ağası xan daha çox təşvişə düşdülər və kömək üçün İrana

müraciət etdilər. Ənzəlidə rus konsulunun səlahiyyətlərini yerinə yetirən K.Latınsev 1775-ci ilin dekabrında yazırdı: «şamaxılı Ağası xan və şəkili Hüseyn xan öz elçilərini gilanlı Hidayət xanın yanına göndərərək bildirmişlər ki, guya rus ordusu Dərbəndi tutmuş və Şamaxıya onların üzərinə gəlmək niyyətindədir».

Fətəli xanın Rusiya himayəsinə keçmək üçün cəhd göstərməsi və rus qoşunlarının Dərbəndə daxil olması İranda böyük təlaşla qarşılandı. Yayılan xəbərlərdən bərk qorxuya düşən Gilanlı Hidayət xan rus ordusunun İrana yaxınlaşması haqqında Kərim xan Zəndə məlumat vermiş və ondan nə etmək lazım olduğunu soruşmuş, cavab gözləmədən Ənzəli limanını möhkəmləndirmək üçün tədbirlər görməyə başlamışdı.

Rus ordusunun Dərbəndə daxil olması ilə əlaqədar İranda yaranmış narazılıq çar hökumətini də narahat edirdi. Ancaq, bu heç də Rusiyanın Qafqaza dair işğalçılıq planlarından imtina etməsi demək deyildi. Hadisələrin sonrakı gedişi göstərdi ki, bu dövlət növbəti işğallara sakit beynəlxalq münasibətlər şəraitində hazırlaşmaq istəyirdi.

Lakin görülən bu tədbirlər İranın hakim dairələrini sakitləşdirmədi. Kərim xan Zəndin ən çox güvəndiyi adamlarından olan gilanlı Hidayət xan Fətəli xanın düşmənlərinə, ilk növbədə isə Ağası xana yardım göstəriləcəyi haqqında vədlər verdi. Əsas diqqət isə qubalı Fətəli xanın Rusiyanın təsir dairəsindən çıxarılmasına yönəldildi. Mənbələrin və tarixi ədəbiyyatın verdiyi məlumatlardan aydın olur ki, Kərim xan Zənd bu məqsədə çatmaq üçün ciddi səylər göstərmişdi. Hidayət xan vasitəsilə Fətəli xana külli miqdarda pul və hədiyyə göndərən Kərim xan Zənd Fətəli xanla qohumluq əlaqələri yaratmaqla onu öz təsiri alıtna almağa cəhd göstərdi. İran hakimi özünün Xudat və Ağamir adlı elçilərini Fətəli xanın bacısı Fatma xanımı oğlu Əbülfət xana almaq üçün Qubaya göndərdi.

Rus ordusunun köməyilə itirilmiş torpaqlarını geri qaytarmış, çox böyük çətinliklərə baxmayaraq hələ də vahid Azərbaycan dövləti yaratmaq planlarından imtina etməmiş Fətəli xanın Kərim xanla münasibətləri xeyli maraq doğurur. Zənd hökumətinin

zəifliyinə baxmayaraq İranın güclü ehtiyatlara malik olduğunu yaxşı bilən Quba hakimi onunla çox ehtiyatlı davranması, Gavduşan döyüşündəki ağır məğlubiyyətdən sonra Kərim xanın təkliflərindən açıq şəkildə imtina etməməsi Fətəli xanın uzaqgörənliyini sübut edir.

Yaranmış bu çətin şəraitdə Fətəli xan manevr etmək yolu ilə vaxt qazanmağa çalışır, Kərim xan Zəndlə bütün təmaslar haqqında özünə dost hesab etdiyi Rusiyanın hakim dairələrinə məlumat verirdi. Kərim xan Zəndin ilk elçilərini cavabsız qoyan Fətəli xan, ikinci səfirliyin müqabilində öz elçisi Mirməhəmməd Hüseyni İranın o dövrdəki paytaxtı Şiraza göndərdi. 1776-cı ilin yazında Mirməhəmməd Hüseyn daha bir İran elçisi ilə qayıtdı. İranın Quba xanlığına göstərdiyi bu təzyiqlər haqqında məlumatlar vaxtlı-vaxtında Fətəli xan tərəfindən ruslara çatdırılırdı. Qafqazda işləyən rus məmurlarından biri yazırdı ki, qubalı Fətəli xan ona Kərim xan Zəndin Quba xanlığına, lazım gələrsə yardım göstərmək istəyi haqqında məlumat vermişdi.

Fətəli xanın İranın təzyiqləri haqqında ruslara müfəssəl məlumat verməsi heç də təsadüfi olmayıb müəyyən məqsədlər güdürdü. Quba hakimi İranın öz hakimiyyətini Xəzərsahili vilayətlərə yaymaq istəyinə Rusiyanın necə qısqanclıqla yanaşdığını yaxşı bilirdi. Buna baxmayaraq, İran və Türkiyə ilə münasibətləri gərginləşdirmək istəməyən Rusiyanın hakim dairələri, Fətəli xanın dəfələrlə xahiş etməsinə baxmayaraq, de-Medemin ordusunun əsas hissəsini Dərbənddən çıxarmışdılar. Görünür, Fətəli xan burada saxlanılmış 500 nəfərlik dəstənin də tezliklə Dərbəndi tərk edəcəyini bilir və bunun qarşısını almağa çalışırdı. O, ruslara bildirirdi ki, hazırda ağır vəziyyətdə olan Quba xanlığı İran hücumlarının qarşısını almaq iqtidarında deyil. Kərim xan Zəndin təkidli tələblərinin rədd edilməsi isə bu hücumun baş verməsi ehtimalını saxlamaqdan irəli gəlirdi.

Göstərilən bütün cəhdlərə baxmayaraq Fətəli xan İranın hakimiyyətini tanımaqdan imtina etdi. Belə olduqda İranın hakim dairələri öz məqsədlərinə çatmaq üçün başqa vasitələrə-şər və

böhtana əl atmağa başladılar. Hadisələrin gedişi göstərdi ki, Kərim xan hökuməti Şimal-şərqi Azərbaycanda öz hakimiyyətini bərqərar etmək üçün olduqca sadə, lakin çox məkrli bir plan hazırlamışdı: Quba xanlığı ilə Rusiyanın münasibətlərini pisləşdirməklə Fətəli xanı təkləmək, sonra isə onu güc yolu ilə İran hakimiyyətini tanımağa məcbur etmək.

Planın birinci hisəsinin həyata keçirilməsinə hələ rus qoşunları Dərbənddə olarkən başlanıldı. Onu da göstərmək lazımdır ki, planın hər iki hissəsinin həyata keçirilməsində həlledici sima gilanlı Hidayət xan idi. O, müxtəlif vasitələrlə Rusiyanın hakim dairələrində Fətəli xanın etibarlı tərəfdaş olmaması və ikiüzlü siyasət yeritməsi haqqında fikir yaratmağa cəhd göstərirdi.1776-cı ilin iyununda Ənzəlidəki rus konsulu K.Latınsevə guya Fətəli xan tərəfindən Kərim xan Zəndə göndərilmiş bir məktub göstərildi. Məktubda Fətəli xan guya Dərbənddəki rus qoşunlarını qovmaq üçün Kərim xan Zənddən çoxlu qoşun göndərməsini xahiş edirdi [88, v.108]. Hidayət xanın Rusiyanın xüsusi xidmət orqanlarında çalışan erməni casusları vasitəsilə yaydığı məlumatda isə göstərilirdi ki, Fətəli xan Kərim xandan ordu deyil, 300 min manat pul göndərməyi xahiş etmişdi. Guya o, bu pula dağıstanlılardan tutacağı muzdluların köməyilə Dərbənddəki rus əsgərləri üzərinə hücum edərək onları şəhəri tərk etməyə məcbur edəcəkdir. Fətəli xanın təklənməsinə yönələn hər iki məlumat Rusiyanın Qafqaz siyasəti ilə məşğul olan bütün qurumlarına çatdırıldı. Rusiyanın hakim dairələri Fətəli xanı xəyanətdə günahlandırmağa başladılar. Fətəli xanın bütün cəhdlərinə baxmayaraq, Rusiyanın bu mövqeyində heç bir dəyişiklik baş vermədi.

Təxminən elə həmin vaxt Rusiyanın Quba xanlığı ilə münasibətlərini daha da pisləşdirən yeni bir hadisə baş verdi. Rus taciri Y.Skvortsova məxsus yük gəmisi Dərbənd yaxınlığında qəzaya uğradı. Fətəli xan qəzaya uğramış gəmi heyətini və malları xilas etmək üçün təcili tədbirlər gördü. Məhz onun səyləri nəticəsində ümumi dəyəri 25 min rubl olan 470 pud xam ipək, ipək parça və digər mallar tapılaraq Rusiyanın rəsmi şəxslərinə təhvil

verildi. Fətəli xanın itmiş malların tapılması üçün maksimum səy göstərdiyini Rusiyanın Xarici İşlər Kollegiyasının başçısı H.U.Panin də xüsusi qeyd etmişdi. O, Fətəli xana rus tacirlərinə yardımına görə öz təşəkkürünü bildirmişdi.

Lakin tezliklə itmiş rus mallarının tapılması zamanı özünü göstərən Quba-Rusiya əməkdaşlığı düşmənçiliklə əvəz olundu. Quba xanlığının düşmənləri Rusiyaya məlumat verməyə başladılar ki, güya sahil boyunda yaşayan əhali Fətəli xanın əmrilə qəzadan xilas olmuş gəmi heyətini öldürmüş, dalğaların sahilə atdığı malları isə toplayaraq onunla bölüşdürmüşlər. Rusiya hökuməti vəziyyəti aydınlaşdırmaq üçün öz erməni agentlərini – Mirzəbəy Vahanovu və Minas Diqlyansevi qəza yerinə göndərdi. Məhz onların gəlişindən sonra Rusiyanın Fətəli xana bəslədiyi soyuqluq açıq düşmənçiliklə əvəz olundu. Öz erməni xislətlərinə sadiq qalan bu iki agent heç bir əsası olmayan şaiyələri toplayaraq əsl həqiqət kimi öz ağaları olan ruslara çatdırdılar. M.Vahanov öz danosunda göstərirdi ki, guya qəzadan xilas olmuş 6 nəfər tacir–iki erməni və dörd iranlı Şah dağın ətəyindəki kəndlərdən birində gizlədilmiş, mallar isə bütünlüklə yerli əhali tərəfindən mənimsənilmişdir. M.Diqlyansev isə daha uzağa gedərək bildirirdi ki, Fətəli xan yerli əhali tərəfindən qarət edilmiş malların bir qismini Bakı xanına göndərərək onları gizlətməyi əmr etmişdi.

Quba xanlığının Rusiya ilə münasibətlərinin pisləşməsinə gilanlı Hidayət xan da öz «töhfəsini» verdi. O, çar hökumətinin Ənzəlidəki konsulu K.Latınsevi öz sarayına dəvət edərək Skvortsovun qəzaya uğramış gəmisi ilə bağlı özünün uydurduğu «faktları» ona təqdim etdi. Gilan xanı iddia edirdi ki, Skvortsovun gəmisində olan 700 min rubl dəyərində olan malların hamısı Fətəli xan tərəfindən mənimsənilmiş, gəmi heyəti isə qətlə yetirilmişdir. Özünü Skvortsovun gəmisində qəzaya uğramış İran tacirlərinin mənafelərinin müdafiəçisi kimi qələmə verən Hidayət xan əslində həm də Quba xanlığı ilə Rusiyanın münasibətlərinin səviyyəsini öyrənmək istəyirdi. Hidayət xan rus konsuluna bildirmişdi ki, o, Fətəli xanı Rusiya tabeliyində olan hesab etdiyindən İran

tacirlərinin mallarının ondan alınıb sahiblərinə verilməsini tələb edir. Gilan xanı çox güman ki, İranın Quba xanlığı üzərinə hücum edəcəyi təqdirdə Rusiyanın necə reaksiya verəcəyini bilmək istəyirdi.

İranın hakim dairələrinin qubalı Fətəli xana münasibətdə yeritdiyi siyasətin əsl mahiyyətini düzgün başa düşən K.Latınsev Xarici İşlər Kollegiyasına göndərdiyi məlumatda bildirirdi ki, İranda Fətəli xana ancaq ona görə nifrət edirlər ki, o, rus ordusunu Dərbəndə buraxmışdır.

Fətəli xan da öz ünvanına yönəlmiş ittihamları bütün qüvvəsi ilə təkzib edir, bu məsələdə heç bir günahı olmadığını sübut etməyə çalışır, hətta bu məqsədlə Rusiyanın hakim dairələrinə beş məktub göndərmişdi. Quba xanı məktublarda öz ünvanına deyilənlərin hamısını böhtan adlandırır və hər iki tərəfin iddialarının araşdırılması üçün birgə komissiya yaradılmasını tələb edirdi.

Lakin qubalı Fətəli xanın bütün cəhdlərinə baxmayaraq Rusiyanın hakim dairələrinin ona qarşı düşmənçilik münasibətləri daha da dərinləşdi. Qafqaz xəttindəki rus qoşunlarının komandanı general de-Medem qəzaya uğramış gəminin itmiş bütün mallarını Fətəli xandan almaq üçün onun Rusiyaya göndərdiyi iki elçisini – Mirzəbəy Fərhadbəyovu və Hacı bəyi girov kimi Qızlyarda saxladı. Bununla kifayətlənməyən rus generalı Fətəli xana qarşı güc tətbiq etməyi və öz hökumətindən bu məqsədlə ona hərbi qüvvə göndərməyi xahiş etdi. Lakin II Yekaterina hökuməti general de-Medemin təklifini qəbul etmədi. İmperatriçanın 15 dekabr 1776-cı il tarixli sərəncamında bildirdi ki, «İrana məxsus yerlərdə» rus ordusunun hərbi əməliyyat aparması Rusiyanın xarici siyasətinə uyğun gəlmir.

Göründüyü kimi, İran hökumətinin, ilk növbədə isə gilanlı Hidayət xanın Quba xanlığının Rusiya ilə münasibətlərinin gərginləşdirilməsinə yönəldilmiş siyasəti öz nəticəsini verdi. 1777-ci ildə Dərbənddə saxlanılmış 500 nəfərlik rus hərbi dəstəsi Qafqaz xəttinə qaytarıldı. Quba xanlığının Rusiya ilə münasibətlərinin pisləşməsi Fətəli xanın düşmənlərinin yenidən fəallaşmasına gətirib

çıxardı. Qazıqumuq hakimi özünün Quba xanlığına olan ərazi iddialarını yenidən irəli sürdü. Qaraqaytaq usmisi və Tabasaran qazisi daha irəli gedərək Fətəli xanı hakimiyyətdən devirmək və keçmiş Dərbənd xanı Məhəmmədhüseyn xanın oğlunu onun yerinə qoymaq planını hazırladılar. Onlar öz planlarını həyata keçirmək üçün hətta Rusiyaya da müraciət etdilər.

Rusiya himayəsindən məhrum olan və keçmiş düşmənləri ilə təkbətək qalan Fətəli xan bundan sonra İran təxribatlarının hədəfinə çevrildi. Rusiyanın müdaxilə etməyəcəyinə əmin olan gilanlı Hidayət xan Quba xanlığına qarşı açıq hücumlara başladı. Gilan xanının bu hücumuna Fətəli xanın birləşdirmə siyasətinin düşmənləri olan şamaxılı Ağası xan və Qaraqaytaq usmisi Əmir Həmzə fəal yardım göstərdilər.

Hidayət xan növbəti zərbəni 1778-ci ilin yanvarında Quba xanlığından asılı olan Lənkəran xanlığına endirdi. Qəfil hücuma məruz qalan Lənkəran əhalisi öz yaşayış yerlərini tərk edərək dağlara çəkildi və Gilan ordusuna müqavimət göstərdi. Hidayət xanın növbəti hücum hədəfi Salyan oldu. O, 1778-ci ilin aprelində Salyanı ələ keçirib qarət etdi və Kür çayı sahilində şamaxılı Ağası xanın qüvvələri ilə birləşdi. Müttəfiqlər hələ 1768-ci ildə Quba xanlığının tərkibinə qatılmış Cavad xanlığı üzərinə hərəkət etdilər. Fətəli xan düşmən hücumunun qarşısını almaq üçün hərbi hazırlıq işlərinə başlasa da tezliklə onu dayandırmağa məcbur oldu. Əmir Həmzə bildirdi ki, Fətəli xan Hidayət xana qarşı hərəkət edərsə, o, Dərbəndə hücum edəcəkdir [45, s.134]. Beləliklə, Fətəli xanın köməyindən məhrum olan Cavad hakimi Həsən xan Hidayət xanın üstün qüvvələri qarşısında tab gətirməyib təslim oldu. Cavad şəhəri dağıdıldı və qarət edildi. Bununla belə, Kərim xan Zəndin və onun əlaltısı olan Hidayət xanın Şimali Azərbaycan torpaqlarında möhkəmlənmək cəhdləri uğursuzluqla nəticələndi, 1779-cu ildə Kərim xan Zənd vəfat etdi və İranda hakimiyyət uğrunda mübarizənin yeni, daha qanlı mərhələsi başlandı.

## 1.3. Rusiyanın Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq planı

Kərim xan Zəndin ölümündən sonra İranda hakimiyyət uğrunda mübarizə olduqca mürəkkəb şəraitdə gedirdi. Bu mübarizə bir tərəfdən zəndlərlə yenidən tarix səhnəsinə çıxmış Qacarlar arasında, digər tərəfdən isə bu tayfalardan hər birinin daxilində gedirdi. Qacarlar arasında Məhəmmədhəsən xanın oğlu Ağa Məhəmməd xan xüsusilə fərqlənirdi. O, hələ atasının sağlığında Zəndlərə qarşı müharibələrdə fəal iştirak etmiş, 1762-1779-cu illərdə isə girov kimi Kərim xan Zəndin paytaxtı Şiraz şəhərində yaşamışdı. Kərim xan Zəndin ölümündən sonra öz ata yurdu Mazandarana qayıdan Ağa Məhəmməd xan qısa mübarizədən sonra öz hakimiyyətinin bütün Qacarlar tərəfindən tanınmasına nail olmuşdu.

Ağa Məhəmməd xan hakimiyyət uğrunda apardığı mübarizədə Qacarların və digər Azərbaycan türk tayfalarının yardımına arxalanırdı. Qacarlar hakimi hakimiyət uğrunda mübarizəsinin ilk günlərindən başlayaraq ən zəngin vilayətlərin idarəçiliyini, sarayda ən yüksək vəzifələri Azərbaycan türk tayfalarının, ilk növbədə isə Qacarların nümayəndələrinə tapşırırdı.

Ağa Məhəmməd xan Qacar Zəndlərin siyasətindən narazı olan qüvvələrin yardımından da məharətlə istifadə edirək torpaq paylamaq, müxtəlif vəzifələrə təyin etmək yolu ilə həmin xanları öz tərəfinə çəkirdi. Bu səbəbdən də Zənd tayfasının daxilində gedən mübarizə Qacarların başçısının hakimiyyət uğrunda mübarizəsini xeyli asanlaşdırırdı.

XVIII əsrin 80-cı illərinin əvvəllərində Mazandaran, Astrabad və Gilanı ələ keçirən Ağa Məhəmməd xan bu vilayətlərin idarəçiliyini qardaşı Murtuzaqulu xana tapşırdı. Gilan kimi çox zəngin bir vilayətin idarəçiliyindən məhrum olan Hidayət xan kömək üçün Azərbaycanın şimal xanlıqlarına müraciət etməli oldu. Bir qədər əvvəl şimal-şərqi Azərbaycan torpaqlarına dağıdıcı yürüşlər etməsinə baxmayaraq Ağa Məhəmməd xanın daha

təhlükəli olduğunu başa düşən Fətəli xan ona yardım göstərməyi qərara aldı.

Təbii ki, əldə olunan uğura baxmayaraq Ağa Məhəmməd xan hakimiyyət uğrunda mübarizəsinin ilkin mərhələsini uğurla başa çatdıra bilmədi. XVIII əsrin 80-cı illərinin əvvəllərində Zəndlər arasında gedən mübarizədə Əlimurad xanın qələbə çalması Qacarlar hakiminin öz hakimiyyətini daha geniş ərazilərə yaymaq planına ağır zərbə endirdi. Əlimurad xan Qacarlar üzərində çaldığı bir neçə qələbədən sonra hakimiyyətini şimal-şərqi İrana yaymağa müvəffəq oldu. Hidayət xan yenidən Gilan hakimi təyin edildi. Əlimurad xan hətta Murtuzaqulu xan Qacarı da öz tərəfinə çəkməyə müvəffəq oldu.

Lakin qazanılmış bu qələbələr heç də Əlimurad xanın hakimiyyətinin möhkəmliyi və bütün İranda yayılması üçün yetərli deyildi. İstər Zəndlərin öz daxilindəki ayrı-ayrı qüvvələr, istərsə də Qacarlar onun elə də möhkəm olmayan hakimiyyətinə istənilən an son qoya bilərdilər. Vəziyyətinin olduqca ağır olduğunu başa düşən Əlimurad xan özünə İrandan kənarda himayədar axtarmağa başladı və kömək üçün Rusiyaya müraciət etdi. Yeni Zənd hakiminin bu müraciətini heç də təsadüfi hesab etmək olmaz. O görünür, Rusiyanın Xəzər dənizi hövzəsinə dair işğalçılıq planları ilə yaxşı tanış idi. Rusiyaya bir qarış da olsun torpaq vermək fikrində olmayan Ağa Məhəmməd xandan fərqli olaraq Əlimurad xan hərbi yardım müqabilində Azərbaycanın və İranın Xəzərsahili vilayətlərini, habelə Azərbaycanın İrəvan, Naxçıvan, Qarabağ və Qaradağ xanlıqlarını II Yekaterina hökumətinə güzəştə getməyə hazır olduğunu bildirdi. Ancaq Rusiyanın hakim dairələri göstərilən Azərbaycan torpaqlarının Əlimurad xandan heç bir asılılığı olmadığını yaxşı bilsə də, Əlimurad xanın təklifini Azərbaycan torpaqlarını ələ keçirmək üçün hüquqi əsas kimi dəyərləndirirdi.

Məlumdur ki, XVIII əsrin 70-ci illərinin sonlarından başlayaraq Rusiyanın Qafqaz siyasətində kəskin dəyişikliklər baş verdi. Bu dəyişikliyin kökündə 1768-1774-cü illərdə baş vermiş Rusiya-Türkiyə müharibəsində əldə edilmiş uğurlar dayanırdı.

Həmin müharibənin nəticəsi kimi 1774-cü ildə imzalanmış Kiçik Qaynarca sülhünə görə Rusiya ilk dəfə Qara dənizdə ticarət donanması saxlamaq hüququ qazandı və Krım yarımadası Osmanlı dövlətinin nəzarətindən çıxdı. Bununla da Rusiya gələcəkdə Krımın işğalı üçün əlverişli şərait yaratdı. Bu müqavilə Rusiyanın özünü beynəlxalq aləmdə xristianların müdafiəçisi kimi tanıtmasına gətirib çıxardı. Çar hökuməti erməni və gürcü məsələsində Türkiyənin daxili işlərinə qarışmaq imkanı qazandı. Sülh nəticəsində Rusiya nəinki Qara dənizdə öz mövqelərini xeyli möhkəmləndirdi, həm də bütün Cənubi Qafqazda və Xəzər dənizi hövzəsində gedən proseslərə daha fəal müdaxilə etmək imkanı əldə etdi.

Rusiya Cənubi Qafqazda yeritdiyi siyasətdə «xristian təəssübkeşliyi», «xristian həmrəyliyi» kimi vasitələrdən geniş istifadə edirdi. Hələ 1722-ci ildə I Pyotr «bədbəxt ermənilərə və gürcülərə zalım müsəlmanlara qarşı mübarizədə yardım göstərmək» bəhanəsilə Cənubi Qafqaza qoşun yeritmişdi. I Pyotrun bu siyasətini davam etdirən II Yekaterina hökuməti də Cənubi Qafqazın xristian əhalisindən, ilk növbədə isə ermənilərdən öz məqsədlərinə çatmaq üçün məharətlə istifadə edirdi. Bütün Gürcüstanı Kartli-Kaxetiya çarı II İraklinin hakimiyyəti altında birləşdirərək gücləndirmək və tarixi Azərbaycan torpaqları hesabına erməni çarlığı yaratmaq son məqsədə-bütün Cənubi Qafqaza sahib olmaq məqsədinə çatmaq üçün əsas vasitə hesab edilirdi. Öyrənilən dövrdə bölgədə yaranmış hərbi-siyasi şərait, ilk növbədə İran dövlətinin zəifliyi, Azərbaycan xanlıqları arasında daima davam edən çəkişmələr və Osmanlı dövlətinin hərbi uğursuzluqları Rusiyanın Cənubi Qafqaza, eləcə də İran və Türkiyəyə dair planlarının həyata keçirilməsi üçün əlverişli şərait yaradırdı.

İlk növbədə Rusiya hökuməti Cənubi Qafqazda və Xəzər dənizi hövzəsində zəifləmiş mövqelərini gücləndirmək üçün qəti addımlar atmaq qərarına gəldi. Əlbəttə, XVIII əsrin 70-ci illərinin sonu–80-ci illərinin əvvəllərində Rusiyanın Xəzər dənizi hövzəsində fəallaşmasının səbəblərini bu ölkənin yalnız ticarət maraqları ilə izah etmək düzgün olmaz. Mənbələr göstərir ki, II

Yekaterina hökuməti çox geniş işğalçılıq planları hazırlamışdı. Bu planların arasında «Yunan layihəsi» adı altında Osmanlı dövlətinə qarşı yönəlmiş və beynəlxalq aləmdə böyük əks-səda doğurmuş plan xüsusi yer tuturdu. Plan müəllifləri türkləri Avropadan qovmağı və onların torpaqlarında Rusiyanın himayəsi altında yunan imperiyası yaratmağı nəzərdə tuturdular. Digər tərəfdən, türklərin Avropadan qovulması və Osmanlı dövlətinin parçalanması bu dövrdə Avropa diplomatiyasında ən dəbdə olan mövzulardan biri idi və II Yekaterina türk torpaqlarını «bərabərlik prinsipi» əsasında bölüşdürmək haqqında Avstriya imperatoruna müraciət etmişdi. Deməli «yunan layihəsi» hər iki tərəf üçün məqsədəuyğun plan idi.Planı həyata keçirmək üçün Rusiya Krımı ələ keçirmək, Türkiyəni iki cəbhədə-Balkanlarda və Cənubi Qafqazda vuruşmağa məcbur etməklə onun qüvvələrini parçalamaq istəyirdi.

Rusiyanın hakim dairələri Cənubi Qafqaza və Xəzər dənizi hövzəsinə dair planlardan **biri** yaranmış əlverişli beynəlxalq vəziyyətdən istifadə edərək Xəzər dənizi hövzəsində rus ticarət kapitalının mövqelərini möhkəmləndirmək və Hindistanla birbaşa ticarət əlaqələri yaratmaq istəyirdi. Bu planın həyata keçirilməsi ilk növbədə Rusiyanın Xəzər dənizindəki mövqelərinin möhkəmliyindən asılı idi. II Yekaterinanın sərəncamı ilə Xəzər dənizinin cənubuna göndərilməli olan hərbi qüvvələr Rəşti ələ keçirib burada rus ticarət faktoriyasının əsasını qoymalı idi.

Rusiyanın Qafqaz siyastəində özünü aydın göstərən **ikinci istiqamət** Krımın işğalı ilə sıx bağlı idi. Bu məqsədlə bir-biri ilə sıx bağlı olan üç vəzifənin yerinə yetirilməsi vacib idi. ***Birincisi,*** türk ordusunun qüvvələrini parçalamaq, onu iki cəbhədə vuruşmağa məcbur etmək, **ikincisi,** Dərbənddən Bakıya qədərki Azərbaycan torpaqlarının işğalı, **üçüncüsü**, Cənubi Qafqazda xristian faktorunun gücləndirilməsinə nail olmaq. Rusiyanın hakim dairələri Cənubi Qafqazın tamamilə işğal edilməsinin beynəlxalq aləmdə mənfi əks-səda doğuracağından ehtiyat edir və burada Rusiyadan asılı oyuncaq xristian dövlətləri yaratmağı planlaşdırırdılar.

Rusiyanın hakim dairələrində Azərbaycan torpaqları hesabına erməni dövləti yaratmaq planı ideyasının formalaşmasında erməni xadimləri böyük canfəşanlıq göstərmişdilər. XVIII əsrin ikinci yarısında İranda və Cənubi Qafqazda yaranmış yeni siyasi vəziyyət erməni ideoloqlarını daha da fəallaşdırdı. Onlar «yazıq, başıbəlalı erməni milləti» haqqında bütün dünyaya car çəkir, erməni çarlığını bərpa etmək üçün Qərbi Avropanın aparıcı dövlətlərindən və Rusiyadan kömək göstərilməsini xahiş edirdilər.

XVIII əsrin II yarısında erməni ideoloqlarının erməni çarlığı yaratmaq ideyasında iki mərhələ özünü aydın şəkildə göstərirdi. Birinci mərhələ əsrin 50-60-cı illərini əhatə edir. Bu mərhələdə İosif Emin adlı erməni ideoloqu xüsusilə canfəşanlıq göstərmişdi. O, ermənilərin, görünür hələ müstəqil dövlət yaratmağa və onu idarə etməyə qadir olmadıqlarını başa düşdüyündən, Cənubi Qafqazda vahid erməni-gürcü dövləti yaratmaq planını irəli sürmüşdü. Bu planı gerçəklşədirmək üçün İngiltərədən fərqli olaraq Rusiyanın hakimi dairələri İosif Eminin 1761-ci ildə bu planla əlaqədar etdiyi müraciəti rəğbətlə qarşıladı. Çünki, Rusiya Osmanlı dövlətinə qarşı müharibə və təxribatlarda erməni faktorundan istifadə etmək məqsədini güdürdü. Bununla belə, bu planın həyata keçirilməsi həm də Kartli-Kaxetiya çarı II İraklidən asılı idi. Həmin dövrdə Osmanlı dövləti ilə münasibətləri kəskinləşdirməkdən ehtiyat edən II İraklii isə bu planı qəbul etməkdən imtina etdi.

Ermənilərin Cənubi Qafqazda və Türkiyə torpaqlarında öz dövlətlərini yaratmaq planlarının ikinci mərhəlsi 1768-1774-cü illər Rusiya Türkiyə müharibəsinin sona çatmasından sonra başlayır. Müharibəni qələbə ilə başa vuran Rusiya Cənubi Qafqazda və Xəzər dənizi hövzəsində öz mövqelərini möhkəmləndirmək üçün daha fəal siyasət yeritməyə başladı. Çar hökuməti bu siyasəti həyata keçirərkən hərbi-siyasi metodlarla yanaşı xristian faktorundan da geniş istifadə edir, işğalçılıq məqsədlərini ***«məzlum erməniləri müdafiə etmək»*** şüarı ilə pərdələyirdi. Bu baxımdan Rusiyanın Qafqaz siyasəti ermənilərin tarixi Azərbaycan torpaqları hesabına dövlət yaratmaq planları ilə üst-üstə düşürdü.

Krımı işğal etməyə hazırlaşan Rusiya hökuməti 1780-ci ilin yanvarından Cənubi Qafqaza və Xəzər dənizi hövzəsinə hərbi yürüş təşkil etmək üçün hazırlıq işlərinə başladı. Quru və dəniz yolu vasitəsilə həyata keçirilməli olan bu yürüşə komandanlıq məşhur sərkərdə A.V.Suvorova tapşırıldı. Bu ordu birləşməsinin qarşısında türk komandanlığının diqqətini əsas əməliyyat meydanından yayındırmaq, Azərbaycan və Dağıstan hakimlərinin türklərlə birləşməsinə yol verməmək vəzifəsi qoyulmuşdu. A.V.Suvorova verilmiş hökumət təlimatının mətnindən aydın olur ki, o, rus tacirlərinin təhlükəsizliyini təmin etmək bəhanəsi ilə mühüm strateji əhəmiyyəti olan Dərbənd, Bakı və Rəşt limanlarını ələ keçirməli idi. Bu səbəbdən də, Həştərxana gələn A.V.Suvorov yürüşün həyata keçirilməsi üçün ciddi hazırlıq işlərinə başladı. O, Xəzərsahili vilayəitlərin vəziyyəti haqqında müfəssəl məlumat topladıqdan sonra yürüşün planının hazırlayıb hökumətə təqdim etdi.

Yaranmış vəziyyəti öz məkrli planlarını həyata keçirmək üçün çox əlverişli hesab edən erməni siyasətbazları daha da fəallaşdılar. Bu dəfə siyasi səhnəyə *Movses Safarov, İvan Lazarev və İosif Arqutinski* kimi erməni xadimləri çıxdılar. Onlar İosif Eminin «vahid gürcü-erməni dövləti» yaratmaq planından tamamilə imtina edərək Rusiyanın himayəsi altında ayrıca erməni dövləti yaratmaq istəyirdilər. Bu ermənilər məqsədlərinə çatmaq üçün Rusiya hakimiyyətinin yuxarı eşalonunda yüksək vəzifə tutan Q.A.Potyomkin, A.A.Bezborodko və A.V.Suvorov kimi dövlət məmurları və hərbçilərlə sıx əlaqə yaratmağa nail olmuşdular. Cənubi Qafqaza göndərilməsi nəzərdə tutulan rus ordusunun komandanı təyin edilmiş A.V.Suvorov bu məsələdə daha böyük fəallıq göstərirdi. O, məhz ermənilər vasitəsilə Cənubi Qafqazdakı hərbi-siyasi vəziyyət haqqında məlumat toplamağa çalışırdı. Ermənilər bundan maksimum yararlanmağa cəhd göstərərək rus generalına saxtakarlıqla dolu olan məlumatlar çatdırırdılar. Məqsəd rus ordusunun Cənubi Qafqaza yürüşünün reallaşmasına nail olmaq, gürcü və ermənilərdən silahlı yardım alan bu ordunun köməyilə erməni dövləti yaratmaq idi.

Ayrı-ayrı erməni liderləri Rusiyanı saxta məlumatlarla təchiz etməklə kifayətlənməyərək daha irəli gedir, gələcək erməni dövləti haqqında planlar tərtib edərək öz ağalarına təqdim edirdilər. Belə planlardan birini İ.Lazarev «Ermənilər yaşayan ərazilərin siyasi vəziyyəti və erməni dövlətinin bərpası haqqında tədbirlər» adı altında tərtib edərək 1780-ci ilin əvvəlində A.V.Suvorova təqdim etmişdi. Planın əsas ideyasını, şübhəsiz ki, Rusiyanın protektorluğu altında erməni dövləti yaratmaq təşkil edirdi. Bu dövlətin İrəvan xanlığı və Osmanlı dövlətinin əraziləri hesabına yaradılması nəzərdə tutulurdu.

Ermənilər adları çəkilən ərazilərlə kifayətlənməyərək Azərbaycanın digər tarixi torpağı olan Qarabağı da yeni yaradılacaq erməni dövlətinin tərkibinə qatmaq məqsədilə Qarabağı erməni torpağı, burada yaşayan xristian əhalini isə erməni kimi qələmə verirməklə Rusiyanı Cənubi Qafqaza ordu yeritməyə şirnikdirir, nəinki Qarabağın, eləcə də Dərbənd, Şamaxı və Gəncəni də işğal etməyin mümkünlüyünü ona inandırmağa çalışırdılar. Cənubi Qafqaza dair iştəhası böyük olan Rusiyanın hakim dairələri ermənilərin bu təkliflərini rəğbətlə qarşılayırdılar. Lakin yürüşə hazırlıq işləri haqqında xəbərlərin İran, Türkiyə və Qərbi Avropa ölkələrində düşmənçiliklə qarşılanması səbəbindən Rusiya hökuməti 1781-ci ildə qəflətən Cənubi Qafqaza və Xəzər dənizi hövzəsinə ordu göndərməkdən imtina etdi.

Lakin bu heç də Rusiyanın öz işğalçılıq planlarından imtina etməsi demək deyildi. I Pyotrun qəsbkarlıq ənənələrini davam etdirən II Yekaterina Xəzər dənizinə nəzarəti tamamilə öz əlinə almağa çalışır, bu dəniz vasitəsilə Hindistanla ticarət əlaqələrini gücləndiməyə can atırdı. 1781-ci ilin yazında qraf Voynoviçin komandanlığı altında Xəzər dənizinin cənubuna göndərilmiş hərbi-dəniz ekspedisiyası qarşısında məhz bu vəzifələrin yerinə yetirilməsi qoyulmuşdu. Qraf Voynoviç bu vəzifələrdən əlavə, Xəzər dənizində yerli hakimlərə məxsus bütün növ gəmilərin üzməsinə son qoymalı, rus tacirlərinin gömrük rüsumlarının ödənilməsindən azad olunmalarına nail olmalı idi.

Voynoviçin ekspedisiyası 1781-ci ilin mayında Xəzər dənizinin cənubunda yerləşən Astrabad körfəzinə çatdı və buradakı adalardan birini ələ keçirdi. Gələcəkdə bu ada Rusiya-Hindistan ticarət əlaqələrinin mühüm dayaq məntəqələrindən birinə çevrilməli idi. Voynoviçin komandası burada qaldığı bir neçə ay ərzində ticarət faktoriyasının normal fəaliyyəti üçün xeyli tikinti işləri gördü. Lakin ruslar nəzərdə tutduqları işləri sona çatdıra bilmədilər. Bu dövrdə İranda hakimiyyət uğrunda gedən mübarizə ruslara Xəzər dənizinin cənubunda möhkəmlənməyə imkan vermədi. Voynoviçin komandasını düşmənçiliklə qarşılayan Ağa Məhəmməd xan Qacar onun yaratdığı ticarət faktoriyasını dağıtdı, özünü isə həbs etdi. Rusiya hökuməti Voynoviçi İran əsirliyindən çox çətinliklə xilas edə bildi.

Beləliklə, qraf Voynoviçin ekspedisiyası qarşısında qoyulan əsas vəzifə–Xəzər dənizinin cənubunda ticarət faktoriyası yaratmaq vəzifəsi iflasa uğradı. Astrabad körfəzini tələsik tərk edən Voynoviç 1782-ci ilin avqustunda Bakı limanına daxil oldu. Məqsəd rus tacirlərini gömrük haqqı ödəməyə məcbur edən Məlik Məhəmməd xanı cəzalandırmaq idi. Voynoviçə verilmiş rəsmi dövlət sərəncamında göstərilirdi ki, rus tacirlərinin hüquqlarını qorumaq üçün Bakı xanından 50 min rubl almaq, Bakını toplarla dağıtmaq, Məlik Məhəmməd xanı digər xanla əvəz etmək lazımdır [133, s.108]. Lakin hələ 1767-ci ildən Bakı xanlığını nəzarətdə saxlayan qubalı Fətəli xan ruslara Bakıda dağıntı törətməyə imkan vermədi. Həmin il avqustun 13-dən 26-dək aparılan danışıqlar zamanı Fətəli xan öz üzərinə Bakı və Dərbənd limanlarında rus tacirlərindən gömrük haqqı alınmayacağı haqqında öhdəlik götürdü. Bununla da baş verə biləcək hərbi münaqişənin qarşısı alındı.

Göründüyü kimi, Voynoviçin ekspedisiyası onun qarşısına qoyulan vəzifələrin az bir hissəsini yerinə yetirə bildi. Bununla belə, bu ekspedisiyanın Xəzər dənizində görünməsi Azərbaycanda, İranda və hətta Türkiyədə ciddi narahatlığa səbəb oldu. Rus hərbi gəmilərinin Bakı limanına daxil olması Osmanlı sarayında narazılığa gətirib çıxardı.

Bütün bunlara baxmayaraq Rusiya böyük inadkarlıqla öz sərhədlərini cənub istiqamətində genişləndirmək siyasətini davam etdirirdi. 1782-ci ildə Rusiya Krım məsələsini öz xeyrinə həll etmək istiqamətidə qəti addım atmaq qərarına gəldi. Rus diplomatlarının böyük ümid bəslədikləri və eyni zamanda Qərbi Avropa dövlətləri tərəfindən ciddi narahatçılıqla qarşılanan məşhur «Yunan layihəsi» yenidən gündəmə gətirildi. Əvvəlki illərdə olduğu kimi, yenə də Xəzər dənizi hövzəsinə və Cənubi Qafqaza böyük ordu korpusu göndərmək qərara alındı. II Yekaterina hökuməti bu yürüş nəticəsində hələ I Pyotrun dövründə işğal edilmiş əraziləri yenidən zəbt etmək və Cənubi Qafqazda Rusiyanın himayəsi altında erməni dövləti yaratmaq planını həyata keçirmək istəyirdi. Sonuncu vəzifənin yerinə yetirilməsində ermənilərin xidmətindən geniş istifadə etmək nəzərdə tutulurdu.

Rusiyanın Cənubi Qafqaza yeni yürüşə hazırlaşması haqqında məlumatlar erməni qəsbkarları tərəfindən böyük sevinc və ümidlə qarşılandı. Bu dəfə Rusiyada yaşayan ermənilərin arxiyeskopu İ.Arqutinski ön plana çıxdı. Onun Rusiyanın hakimiyyət orqanlarına təqdim etdiyi saxta məlumatlarda az qala bütün Azərbaycan torpaqları, habelə Gürcüstan erməni torpağı kimi qələmə verilirdi. İ.Arqutinski 1782-ci ilin sonlarında tərtib etdiyi həmin məlumatında Cənubi Qafqazdakı siyasi vəziyyəti ermənilərin mənafelərinə uyğun şəkildə təsvir etməklə kifayətlənmir, rus komandanlığına hansı yollarla hərəkət etmək, Azərbaycan xanları ilə necə davranmaq haqqında məsləhətlər də verirdi.

Ermənilər rus ordusunun 1782-ci ilə nəzərdə tutulan yürüşünə daha böyük ümidlər bəsləyir və erməni dövlətinin yaradılmasını artıq yaxın gələcəyin işi hesab edirdilər. Onlar hətta bir qədər qabağa gedərək gələcəkdə bu dövlətin təhlükəsizliyinin təmin edilməsinin qayğısına da qalırdılar. İ.Arqutinski bu məqsədlə yeni yaradılacaq erməni dövləti ilə Rusiya arasında müqavilə layihəsi də hazırlamışdı.

Rusiya hökuməti yürüşün uğurla nəticələnməsi üçün Xəzər dənizinə yiyələnməyi və Cənubi Qafqazın xristian əhalisi ilə ittifaq

yaratmağı öz qarşısına birinci dərəcəli vəzifə kimi qoyurdu. Bölgədə nəzərdə tutulan dəyişikliyin əsas məzmununu isə burada erməni dövlətinin yaradılması təşkil edirdi. Q.A.Potyomkin Bezborodkaya yazdığı məktubunda göstərirdi ki, Rusiya hökuməti-nin Qafqaz siyasətinin əsas məqsədi Bakıya qədər olan Xəzərsahili əraziləri ələ keçirmək, Qarabağ və Qaradağ xanlıqlarının torpaqları hesabına erməni dövləti yaratmaqdır. Q.A.Potyomkin öz qohumu, Qafqazdakı rus ordusunun baş komandanı P.S.Potyomkinə göndərdiyi məxfi sərəncamda yazırdı ki, qarabağlı İbrahimxəlil xanı təxirəsalınmadan devirmək lazımdır ki, onun torpaqlarında «erməni vilayəti» təşkil edilsin.

Qarabağda erməni dövləti yaratmaq üçün aparılan erməni-rus danışıqlarından İbrahimxəlil xanın dəqiq məlumatı var idi. Rusiyanın II İraklinin sarayındakı nümayəndəsi Y.Reyneqsinin məlik Abova göndərdiyi məktub İbrahimxəlil xanın əlinə keçmişdi. Həmin məktubda isə rus qoşunlarının tezliklə Cənubi Qafqaza yürüş edəcəyindən, Qarabağ xanının hakimiyyətdən devriləcəyindən və onun torpaqlarında erməni dövləti yaradılacağından söhbət gedirdi. Yaranmış real təhlükə Qarabağ xanını ehtiyat tədbirləri görməyə məcbur etdi. İbrahimxəlil xan ilk növbədə Şuşa qalasının müdafiəsini möhkəmləndirmək məqsədilə şəhər qarnizonunun sayını artırdı, rus ordusunu Qarabağa dəvət edən xristian məliklərə qarşı cəza tədbirləri gücləndirildi.

Bununla belə, İbrahimxəlil xan yaxşı başa düşürdü ki, yalnız bu tədbirlərlə erməni xəyanətinin qarşısını almaq, güclü rus ordusuna müqavimət göstərmək mümkün deyil. Elə buna görə də o, vəziyyətdən diplomatik vasitələrin köməyilə çıxmaq qərarına gəldi. Əsas məqsəd bir sıra güzəştlərə getmək yolu ilə öz xanlığının təhlükəsizliyi üçün Rusiyadan təminat almaq idi. Görünür bu təminatın şərtləri II İraklinin 1783-cü ildə Rusiya ilə bağladığı Georgiyevsk müqaviləsinin şərtlərinə uyğun olmalı idi. Rusiya hökumətinin bu məsələyə münasibətini öyrənmək istəyən İbrahimxəlil xan öz nümayəndəsi Mirzə Vəlini Tiflis vasitəsilə Mozdoka, P.S.Potyomkinin qərargahına göndərdi. Mirzə Vəli xanın

məktubunu rus generalına təqdim etdi. Məktubda Qarabağ xanı onu çox ciddi narahat edən bir məsələni aydınlaşdırmaq istyirdi: «Əgər xan Rusiya təbəəliyini qəbul edərsə, onun daxili işlərinə və mülklərinin idarəçiliyinə heç kimin qarışmayacağına, düşmənlərinə qarşı mübarizədə ona yardım göstəriləcəyinə təminat veriləcəkmi?». Fikrimizcə, xanın məktubunun tonu, daha doğrusu, onun tələb şəklində tərtib olunması P.S.Potyomkinin xoşuna gəlməmişdi. Qarabağ xanının səfirinin rus generalı tərəfindən soyuq qarşılanmasında, şübhəsiz ki, məliklərin də rolu az olmamışdı. Beləliklə, Mirzə Vəlinin bu elçiliyi uğursuzluqla nəticələnmişdir.

Vəziyyətin tezliklə daha da ağırlaşa biləcəyindən ehtiyat edən İbrahimxəlil xan Rusiyaya özünün müttəfiqi II İraklii vasitəsilə təsir göstərməyə çalışdı. Onun növbəti elçisi Hacı İsmayıl Tiflisə gələrək II İraklii ilə görüşdü. Bu görüşdə də əsas məsələ İbrahimxəlil xanın Rusiya himayəsini qəbul edəcəyi təqdirdə onun xanlığının ərazi bütövlüyünə zəmanət verilməsi idi. Göründüyü kimi, Qarabağ xanı çox böyük təkidlə özünün təhlükəsizliyinə və xanlığının ərazi bütövlüyünə Rusiyadan təminat almaq istəyirdi. Lakin İbrahimxəlil xanın bu cəhdi də uğursuzluqla nəticələndi. Rusiyanın II İraklinin sarayındakı yeni nümayəndəsi S.Burnaşov İbrahimxəlil xanın Rusiya kimi böyük bir dövlətin qarşısında tələb qoymasını narazılıqla qarşıladı.

Məlumdur ki, Rusiya 1783-cü ildə Cənubi Qafqaza planlaşdırdığı hərbi yürüşü növbəti dəfə təxirə salmalı idi. Bu elə həmin il rus diplomatiyasının əldə etdiyi iki böyük uğurla bağlı oldu. Bu uğurlardan birincisi Krımın dinc yolla ilhaq edilməsi, ikincisi isə Kartli-Kaxetiya çarlığının Rusiyanın himayəsi altına keçməsi haqqında Georgiyevsk müqaviləsinin imzalanması idi. Rus diplomatiyası belə hesab edirdi ki, bütün bunlardan sonra Cənubi Qafqaza qoşun yeridilməsi Osmanlı dövləti ilə münasibətlərin yenidən kəskinləşməsinə gətirib çıxara bilər.

Bütün bunlar Rusiyanın Qafqaz siyasətində müəyyən dəyişikliklərə səbəb oldu. Hərbi yürüşün təxirə salınması Azərbaycan torpaqları hesabına erməni dövləti yaratmaq planının da

müvəqqəti olaraq təxirə salınması ilə nəticələndi. Yeni yaranmış siyasi şərait Rusiyanın Qarabağ xanlığına münasibətlərinə də təsirsiz ötüşmədi. Əgər rus diplomatiyası Qarabağ xanının indiyə qədər göndərdiyi elçiləri soyuq qarşılayıb onun təkliflərinə etinasızlıq göstərirdisə, bundan sonra vəziyyət bir qədər dəyişdi. İbrahimxəlil xanın xristian məliklərə qarşı cəza tədbirlərini gücləndirəcəyindən ehtiyat edən çar hökuməti ona daha böyük diqqət göstərməyə başladı. P.Q. Potyomkin 1784-cü ilin yayında Qarabağ xanının növbəti elçisi olan Musa sultanı təxirə salmadan Peterburqa yola saldı. Peterburqda Musa sultanı böyük təmtəraqla qarşılayıb ona böyük bir dövlətin elçisi kimi yanaşmağa başladılar.

Rusiyanın İbrahimxəlil xana münasibətlərində baş vermiş bu dəyişiklik erməni xadimlərini ciddi təşvişə saldı. İ.Arqutinski «İbrahimxəlil xanın Rusiyaya müraciətini eşidib Rusiya hakim dairələrinin erməniləri unudaraq Qarabağ xanı ilə müqavilə bağlayacağından qorxurdu». Elə bu səbəbdən də İ.Arqutinski Q.A.Potyomkinə 10 sentyabr 1784-cü il tarixli məktubunda bildirdi ki, əgər Rusya Qarabağ xanlığı ilə müqavilə bağlayıb onu öz himayəsinə qəbul edərsə, bu Qarabağda yaşayan xristian məliklərə aid edilməməlidir, daha doğrusu, məliklər Qarabağ xanlığının tərkib hissəsi kimi tanınmamalı, Rusiya onlarla ayrıca müqavilə imzalamalıdır.

Lakin erməni xadimlərinin «təşvişə düşmələri» üçün heç bir səbəb yox idi. Rusiyanın İbrahimxəlil xana münasibətdə nümayiş etdirdiyi yeni davranış ikiüzlü xarakter daşıyır və səmimiyyətdən tamamilə uzaq idi. Əslində, çar hökuməti Qarabağda erməni dövləti yaratmaq planından imtina etmir, yeni yaranmış siyasi şəraitlə əlaqədar onu müvəqqəti olaraq təxirə salırdı. Qarabağ xanına münasibətdə yeridilən bu siyasətin əsl məqsədi isə məliklərin təhlükəsizliyini təmin etmək idi. Rusiya bu məqsədlə İbrahimxəlil xanı öz nəzarətində saxlamağa nail olmaq istəyirdi. Qarabağ xanının müraciəti ilə tanış olan II Yekaterina onunla II İrakli arasında imzalanmış Georgiyevsk müqaviləsinin şərtlərinə bənzər şərtlərlə müqavilə bağlamağın mümkünlüyü haqqında Q.A.Potyomkinə

göstəriş verdi. Bu zaman əsas şərt kimi xanın Rusiyaya sədaqətliliyi və ona bac ödəməyə hazır olması götürülməli idi.

Hadisələri gedişi göstərdi ki, Rusiya heç də Qarabağ xanlığını öz himayəsi altına almaq və İbrahimxəlil xanı hakimiyyətdə saxlamaq niyyətində deyildi. Planlaşdırılan hərbi yürüşün təxirə salınmasına baxmayaraq, Qarabağda erməni dövləti yaratmaq məsələsi hələ də öz aktuallığını saxlayırdı. Digər tərəfdən Rusiya İbrahimxəlil xanın səmimiyyətinə inanmır və onun Osmanlı dövləti ilə sıx əlaqələri olmasından şübhələnirdi.

İbrahimxəlil xan da öz hakimiyyəti üçün yaranmış təhlükəni aradan qaldırmaq istəyirdi və bunun üçün Osmanlı sultanı I Abdullaya məktub göndərmişdi. İbrahimxəlil xanın Osmanlı dövləti ilə sıx əlaqə yaratmaqda əsas məqsədi Osmanlı dövlətini Cənubi Qafqaza hərbi müdaxiləyə təhrik etmək və bununla da rus-gürcü-erməni blokunun bölgədə hegemonluğa nail olmasının qarşısını almaq idi.

Krımın itirilməsi və Kartli-Kaxetiya çarlığının Rusiya himayəsinə keçməsi ilə barışa bilməyən Osmanlı dövləti də yeni rus işğallarının qarşısını almaq üçün Azərbaycan və Dağıstan hakimlərinin ittifaqını yaratmağa çalışırdı. Osmanlı hökuməti Azərbaycan və Dağıstan hakimlərinə məktubla müraciət edərək onları kafirlərə qarşı birləşməyə çağırırdı Rus işğalına qarşı yönələn bu ittifaqda İbrahimxəlil xan da mühüm rol oynaya biləcəyini düşünən Osmanlı sultanı 1783-cü ilin sonlarında göndərilən türk elçisi Xəlil əfəndi iqamətgah kimi Şuşa şəhərini seçmişdir.

1784-1785-ci illərdə Cənubi Qafqazda olmuş növbəti türk sultanının elçisi İbrahim əfəndi də İbrahimxəlil xanla sıx əlaqədə fəaliyyət göstərirdi. Bundan ciddi narahat olan ermənilər və gürcü çarı II İrakli Rusiyaya danoslar göndərərək bunun qarşısını almağa çağırırdılar. Mənşəcə erməni olan rus agenti Yakovlev özünün P.S.Potyomkinə ünvanlanmış 3 fevral 1785-ci il tarixli donosunda yazırdı ki, türk sultanı I Abdulla (1774-1789) və İbrahimxəlil xan bir-birinin sarayına elçilər göndərmiş və Qarabağ xanı türk sultanının göndərdiyi hədiyyələrə minnətdarlıq əlaməti olaraq top-

lardan yaylım atəşi açdırmışdır. Gürcüstandakı rus qoşunlarının komandanı S.D.Burnaşov isə yazırdı ki, türk sultanının göndərdiyi çoxlu pula və hədiyyələrə cavab olaraq Avar hakimi Ümmə xan və qarabağlı İbrahimxəlil xan birləşərək Gürcüstana hücum etməyə hazırlaşırlar. Əldə olan məlumatlar göstərir ki, İbrahim əfəndinin səfirliyinin üzvləri Qarabağ xanlığı ilə yanaşı Şamaxı, Şəki və Xoy xanlıqlarında da olmuş və ittifaq yaratmağa cəhd göstərmişdilər.

Belə bir şəraitdə rus diplomatiyası İbrahimxəlil xanı qeyri-müəyyənlikdə saxlamaqla bütün vasitələrlə onu məliklərə qarşı qəti addım atmaqdan çəkindirməyə çalışırdı. Musa sultanın iki ildən çox Peterburqda olmasına baxmayaraq, Rusiya Qarabağ xanına konkret bir cavab verməyə tələsmirdi. Eyni zamanda İbrahimxəlil xana «ermənilərə toxunmamaq» barədə göstərişlər verilir, ermənilərə isə tezliklə hərbi yardım göstəriləcəyi haqqında vədlər verilirdi.

Rusiyanın Cənubi Qafqaza ordu yeritmək və Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq planını müvəqqəti olaraq təxirə saldığı bir şəraitdə İranda baş verən hadisələr rus diplomatiyasını yenidən bu məsələlərə qayıtmağa şirnikləndirdi. Yuxarıda göstərildiyi kimi, 1779-cu ildə Kərim xan Zəndin ölümündən sonra İranda hakimiyyət uğrunda başlayan yeni çəkişmələr müvəqqəti olaraq Əlimurad xanın qələbəsi ilə nəticələndi. 1783-cü ilin sonunda İsfahanı özünün paytaxtı elan edən Əlimurad xan hakimiyyətini möhkəmləndirmək və bütün İrana yaymaq uğrunda mübarizəyə başladı. Lakin hərbi potensialının zəif olması ona bu planı həyata keçirməyə imkan vermirdi. Belə olduqda Əlimurad xan qonşu dövlətlərdə kömək axtarmağa başladı və nəzərlərini Rusiyaya dikdi. Bu dövlətin İranın və Azərbaycanın Xəzərsahili torpaqlarını ələ keçirmək planları ilə yaxından tanış olan Əlimurad xan bundan öz hakimyyətini möhkəmləndirmək üçün istifadə etmək qərarına gəldi. Əlimurad xan, görünür, Rusiyanın Azərbaycan ərazisində erməni dövləti yaratmaq niyyətindən də xəbərdar idi. Rusiya ilə yaxınlaşmağa ilk növbədə öz hakimiyyətinin təhlükəsizliyini təmin etmək üçün bir vasitə kimi

baxan Əlimurad xan çar hökuməti ilə əlaqə yaratmaq üçün imkanlar axtarmağa başladı. Belə bir imkan çox tezliklə yarandı.

Rusiya hökuməti İranda hakimiyyət uğrunda gedən çəkişmələri diqqətlə izləyir və bundan öz işğalçı məqsədlərini həyata keçirmək üçün faydalanmağa çalışırdı. 1783-cü ilin sonunda Əlimurad xanın öz rəqibləri üzərində üstünlük qazandığını görən Ənzəlidəki rus konsulu Tumanovski milliyyətcə erməni olan elçisi Popovu onun iqamətgahına, 1784-cü ilin əvvəlində Qafqazdakı rus qoşunlarının komandanı P.S. Potyomkin digər bir erməni–Tokatlovu təbrik məktubu ilə Əlimurad xanın sarayına göndərdi. Tezliklə Əlimurad xan öz elçisi Məhəmməd xanı cavab məktubu ilə Rusiyaya yola saldı. Rusiyanın hakim dairələrinə təqdim olunmuş həmin məktubun məzmunu göstərir ki, İranda şah taxtına sahib olmağa can atan Əlimurad xan öz məqsədinə çatmaq üçün böyük güzəştlərə getməyə hazır idi. O, özünün İran şahı kimi tanınması, Osmanlı Türkiyəsinə və rəqiblərinə qarşı müharibədə hərbi yardım göstərilməsi müqabilində hələ I Pyotrun dövründə işğal olunmuş Xəzərsahili torpaqları, habelə Qarabağ, Naxçıvan, İrəvan və Qaradağ xanlıqlarını Rusiyaya güzəştə getməyə hazır idi. Göründüyü kimi, İran hakimi güzəşt kimi ondan heç bir asılılığı olmayan Azərbaycan torpaqlarını seçmişdi. Məktubda həmçinin, Rusiya üçün əlverişli şərtlərlə ticarət müqaviləsi imzalamaq da təklif olunurdu.

Əlimurad xan şah taxtına sahib olmaq naminə həm İran, həm də Azərbaycan torpaqlarını satmağa hazır idi. O özünün əsas rəqibi olan böyük türk sərkərdəsi Ağa Məhəmməd xan Qacarın qraf Voynoviçin ekspedisiyası ilə əlaqədar Rusiya ilə münasibətlərinin pisləşməsindən də öz xeyrinə istifadə etmək istəyirdi.

Əlimurad xanın təklifi ilk dövrdə Rusiyanın hakim dairələri üçün olduqca gözlənilməz oldu və hətta müəyyən qədər çaşqınlıq yaratdı. Şah kimi tanınmaq müqabilində təklif edilən güzəştin miqyası çox böyük idi. Lakin tezliklə bu təklifin Rusiya üçün hansı müsbət nəticələrə gətirib çıxaracağını dərk edən rus diplomatları Əlimurad xanla daha intensiv əlaqə yaratmaq üçün ciddi fəaliyyətə

başladılar. Əlimurad xan isə öz müraciətində Rusiya üçün çox əlverişli olan üç məsələni xüsusilə qabardırdı. **Birinci məsələ** ticarətlə bağlı idi. Əlimurad xan bildirirdi ki, o, Rusiya ilə yaxınlaşmaq naminə fransızlarla əməkdaşlıqdan imtina etmişdir və İranda rus ticarətinin inkişafı üçün əlindən gələni etməyə hazırdır. **İkinci məsələ** İran şahı kimi tanınmaq müqabilində ərazi güzəştlərini nəzərdə tuturdu. Rusiyanın Cənubi Qafqaza hərbi ekspedisiya göndərmək planından müvəqqəti olaraq imtina etməsindən sonra bu məsələ xüsusilə cəlbedici görünürdü. İran tərəfinin təklif etdiyi ərazi güzəştləri Rusiyaya həm İranın özünə, həm də Osmanlı dövlətinə qarşı nəzərdə tutulan **«bufer dövlətlər»** yaratmaq planını reallaşdırmaq üçün əlverişli şərait yarada bilərdi.

Rusiyanın Qafqaz siyasətinin həyata keçirilməsində həlledici simalardan olan Q.A.Potyomkin II Yekaterinaya ünvanladığı raportunda İran hakiminin bu təklifindən istifadə etməyi, onun güzəştə gedəcəyi ərazilərdə xristian dövlətləri yaratmağı tövsiyə edirdi. O, həmin raportunda yazırdı: «Bundan böyük xeyir götürmək, erməni diyarını və Albaniyanı təşkil etməli olan hissəni dincliklə qurmaq olar».

Rusiyanın hakim dairələri arasında gedən yazışmalardan aydın olur ki, onlar Əlimurad xanın güzəştə gedəcəyi Azərbaycan torpaqlarında **iki xristian-erməni dövləti** yaratmağı planlaşdırırdılar. Rus diplomatlarından biri bu münasibətlə yazırdı: ***«İndi İran işləri özünün ən münasib həllinə yaxınlaşır. Müstəqil erməni vilayətinin birini II İraklinin çarlığının sərhəddi yaxınlığında, digərini isə Xəzər dənizi sahillərində, İranla sərhəddə yaratmaq lazımdır»***. Bu dövlətlərdən birini **«Ermənistan»,** digərini isə **«Albaniya»** adı altında yaratmaq nəzərdə tutulurdu.

Mənbələrin təhlili göstərir ki, Rusiyanın hakim dairələrində Azərbaycan torpaqlarında yaradılması nəzərdə tutulan **«erməni çarlığı»***nın sərhədlər təxminən Dərbənddən Gilana qədər uzanan Xəzərsahili torpaqları əhatə etməli idi.* Yeni yaradılacaq **«alban çarlığı»** *ancaq Kür çayından Gilana qədərki Xəzərsahili torpaqları əhatə etməli idi.* ***Kürdən şimaldakı torpaqlar, daha doğrusu***

***Dərbənddən Bakıya qədərki ərazilər bilavasitə Rusiya imperiyasının tərkibinə qatılmalı idi.***

Əlimurad xanın müraciətində irəli sürülən **üçüncü məsələ** Osmanlı Türkiyəsi ilə bağlı idi. Rusiya özünün Qafqaz siyasəti üçün ən böyük təhlükə hesab etdiyi bu dövlətə qarşı İranla hərbi ittifaq yaratmağa böyük əhəmiyyət verirdi.

İran hakiminin irəli sürdüyü təkliflərin çox əlverişli olmasına baxmayaraq Rusiyanın hakim dairələrinin ona cavabı bir illəngidi. Cavabın bu qədər ləngiməsini bir-biri ilə sıx bağlı olan iki səbəblə əlaqələndirmək olar. **Birincisi,** Rusiyanın hakim dairələrinin bəzi üzvləri arasında hərbi qüvvə tətbiq etmədən «bufer dövlətlər» yaratmaq məsələsinin dinc yolla həllinə inam az idi. **İkincisi,** Rusiya hökuməti Əlimurad xanın Ağa Məhəmməd xanla mübarizəsinin son nəticəsini bilmədən qəti addımlar atmaq istəmirdi.

Cavabın uzun müddət ləngiməsi Əlimurad xanın elçisində Rusiya hökumətinin səmimiliyinə şübhə yaratmağa başladı. Onun əlində bunun üçün kifayət qədər əsaslar da var idi və bu qubalı Fətəli xanın Rusiyaya etdiyi təkliflərlə bağlı idi. Azərbaycan torpaqlarını vahid dövlətdə birləşdirməyə çalışan *Fətəli xan Cənubi Azərbaycan və hətta İranı da öz təsiri altına almağa çalışırdı.* O, bu məqsədlə Səfəvi hökmdarı II Təhmasibin guya Nadir şahın edamından xilas olumuş oğlu Abbas Mirzəni öz yanında saxlayır və əlverişli şərait yaranan kimi onu İran şahı elan etməyi planlaşdırırdı. Bununla belə, Fətəli xan bu planı yalnız öz qüvvəsi ilə həyata keçirməyin çətin olacağını da başa düşürdü. Elə buna görə də o, P.S.Potyomkinə müraciət edərək Abbas Mirzəni hər iki tərəf üçün əlverişli olan şərtlərlə İran taxtına əyləşdirməyi təklif edirdi.

Fətəli xanın təklifi Rusiyanın hakim dairələri tərəfindən qəbul edilmədi. **Əvvəla**, Fətəli xanın güclənməsi və onun öz hakimiyyətini daha böyük ərazilərə yayması Rusiyanın Cənubi Qafqazda xristian faktorunu gücləndirmək planları ilə ziddiyyət təşkil edirdi. **İkincisi,** Fətəli xanın təklifinin qəbul edilməsi Rusiyanın Əlimurad xanla apardığı danışıqların pozulmasına gətirib çıxara bilərdi. Buna baxmayaraq, Fətəli xan 1784-cü ilin yayında,

daha doğrusu, Əlimurad xanın elçisi Məhəmməd xanın Georgiyevskdə Rusiyadan cavab gözlədiyi bir vaxtda, Cənubi Azərbaycana yürüş etdi və heç bir müqavimətə rast gəlmədən Ərdəbil və Meskini ələ keçirdi. Onun bu addımı ruslar tərəfindən qəzəblə qarşılandı. P.S.Potyomkin Fətəli xandan Cənubi Azərbaycanı tərk etməyi tələb etdi. Rusiya ilə münasibətlərin pisləşməsinin mənfi nəticələr verəcəyindən ehtiyat edən Quba xanı bu tələbi yerinə yetirməyə məcbur oldu.

*Rusiyanın hakim dairələrində isə Əldimurad xanın təklifləri ətrafında müzakirələr davam edirdi*. Yalnız 1784-cü ilin sonlarına yaxın rus diplomatları Əlimurad xanın təkliflərinin Rusiya üçün çox əlverişli olması haqqında yekdil fikrə gələ bildilər. Həm A.A.Bezborodko, həm də Q.A.Potyomkin II Yekaterinanı göstərilən ərazi güzəştləri müqabilində Əlimurad xanı İran şahı kimi tanımağın çox faydalı olduğuna inandıra bildilər.

1784-cü ilin sonunda Rusiya hökuməti Əlimurad xanın təkliflərini müqavilə formasında rəsmiləşdirmək üçün polkovnik V.C.Tomaranın başçılığı altında İrana nümayəndə heyəti göndərmək haqqında qərar qəbul etdi. Tomaranın qarşısında irəli sürülən ərazi güzəştləri haqqında təkliflərin İranın özü üçün də sərfəli olduğunu Əlimurad xana bir daha başa salmaq vəzifəsi qoyulmuşdu. Ümumiyyətlə, Əlimurad xan İran şahı kimi tanınması müqabilində Rusiyanın aşağıdakı şərtlərini qəbul etməli idi:

***Birincisi***, o, Dərbəndin və bizə lazım olan və bizim birləşdirməyə qərar verdiyimiz digər yerlərin bizə məxsusluğunu tanısın;

***İkincisi,*** o, bizim İranla sərhədlərimizi aydın və dəqiq müəyyənləşdirsin;

***Üçüncüsü***, çar İraklinin torpaqlarının sərhədləri bizim təklifimizə uyğun şəkildə müəyyənləşdirilsin;

***Dördüncüsü***, Ermənistan diyarının müstəqilliyi bərpa edilsin;

***Beşincisi,*** Alban çarlığını və yaxud vilayətini təşkil edəcək torpaqlar haqqında aydın qərar qəbul edilsin;

***Altıncı,*** xüsusi ticarət müqaviləsinin bağlanması haqqında düşünmək;

***Yeddinci***, həmin xan bizimlə Ottoman Portasına qarşı müdafiə ittifaqı bağlasın».

Göründüyü kimi, Rusiyanın hakim dairələri Əlimurad xanın təkliflərinin reallaşmasından ciddi nəticələr gözləyirdi. Çar hökuməti Əlimurad xanın köməyilə Osmanlı dövlətini zəiflətmək, Cənubi Qafqaz məsələsini birdəfəlik öz xeyrinə həll etmək və rus tacirləri üçün İranda əlverişli şəraitin yaradılmasına nail olmaq istəyirdi.

Rusiyanın Əlimurad xanın köməyilə Cənubi Qafqazda böyük ərazilərə nəzarət edəcəyi perspektivi İngiltərə və Fransa dövlətlərini narahat etməyə bilməzdi. Bu dövlətlər Rusiyanın sərhədlərinin cənub istiqamətində genişlənməsini özlərinin şərq ölkələrindəki mənafeləri üçün ciddi təhlükə sayır və hər vasitə ilə bunun qarşısını almağa çalışırdılar. Fransız diplomatı Ferryer-Sovbefin 1784-cü ilin martında İrana gəlməsi və Əlimurad xanın ölümünə qədər orada qalması məhz bu məqsədə xidmət edirdi. P.Q.Butkov yazır ki, fransız diplomatın qarşısında Əlimurad xanı Rusiya ilə ittifaqdan və ona ərazi güzəştləri etməkdən çəkindirmək vəzifəsi qoyulmuşdu. P.S.Potyomkinin Q.A.Potyomkinə ünvanladığı 15 sentyabr 1785-ci il tarixli raportundan aydın olur ki, Ferryer-Sovbef Əlimurad xanın vəziri ilə görüşərək Rusiya ilə yaxınlaşmanın İran üçün hansı təhlükə törədəcəyi haqda ətraflı söhbət aparmışdı. Danışıqlarda Rusiyanın Krımı ilhaq etməsi, Osmanlı dövlətinə dair işğalçılıq planları və Gürcüstana ordu yeritməsi kimi məsələlər ön plana çəkilmişdi.

Fransız diplomatının apardığı bu danışıqlar Azərbaycan torpaqlarını öz aralarında bölüşdürməyə çalışan Rusiya ilə İran arasında gedən danışıqlara ciddi təsir göstərdi. Əlimurad xan özünün Rusiya ilə danışıq aparan nümayəndələrinə ərazi güzəştləri haqqında əvvəllər verilmiş vədlərdən imtina etmək haqqında tapşırıq verdi. ***Bununla da*** *Rusiyanın Azərbaycan torpaqlarını ələ keçirərək burada erməni dövləti yaratmaq üçün nail olmağa çalışdığı hüquqi əsas onun əldindən alındı.*

# II FƏSİL

# XVIII ƏSRİN 80-90-CI İLLƏRİNDƏ AZƏRBAYCAN UĞRUNDA RUSİYA-QACARLAR QARŞIDURMASININ GÜCLƏNMƏSİ

## 2.1. Rusiya və Qacarlar dövləti münasibətlərinin kəskinləşməsində Azərbaycan amili

Əlimurad xanın ölümündən sonra İranda hərbi-siyasi vəziyyətin dəyişməsi, Rusiyanın Osmanlı dövləti ilə yeni müharibəyə hazırlaşması İranın və Rusiyanın Azərbaycana dair yeritdikləri siyasətə də ciddi təsir göstərirdi. İranın siyasi səhnəsində getdikcə möhkəmlənməkdə olan, tərəfdarlarının sayını sürətlə artıran Ağa Məhəmməd xan Qacar öz hakimiyyətini ən azı keçmiş Səfəvilər dövlətinin sərhədləri daxilində yaymaq niyyətində idi. Şah taxtına yiyələnmək naminə böyük əzmkarlıq nümayiş etdirən, daha çox öz gücünə arxalanan Qacarlar hakimi öz məqsədinə çatmaq üçün Əlimurad xandan fərqli olaraq, hər hansı bir dövlətə, o cümlədən Rusiyaya heç bir ərazi güzəşt etmək niyyətində deyildi.

İranda yaranmış yeni şərait rus diplomatiyasını hər şeyi yenidən başlamağa məcbur edirdi. Görünür hələ də Əlimurad xanın təkliflərinin təsiri altında olan rus hökuməti oxşar şəraitin yenidən təkrarlanacağına ümid bəsləyirdi. Bunun üçün isə, hər şeydən əvvəl, İranda hakimiyyət iddiaçılarının imkanlarını öyrənmək, onların ən güclüləri ilə əlaqə yaratmaq tələb olunurdu. İrandakı qeyri-müəyyənlik şəraitində rus diplomatiyası şah taxtına iddialı olan bir neçə nəfəri diqqət mərkəzində saxlamağa başladı. 1785-ci ilin mayında İrana göndərilmiş erməni mənşəli Yakov Tokotlovun qarşısında daha güclü iddiaçılarla əlaqə yaratmaq vəzifəsi qoyuldu. Q.A.Potyomkin Qafqazdakı rus qoşunlarının komandanı P.S.Potyomkinə məsləhət görürdü ki, əgər Əlimurad xan üzərindəki qələbədən sonra Ağa Məhəmməd xan öz üstünlüyünü itirməyibsə

onunla isti münasibətlər yaratmaq lazımdır. Əgər ondan daha güclüsü meydana çıxıbsa, onda onu Rusiya imperiyasının himayəsinə sığınmağa təhrik etmək lazımdır. Q.A.Potyomkinin fikrincə, Əlimurad xan ölsə də, şah taxtına sahib olmaq arzusunda olanlar hələ çoxdur. Rus diplomatiyası şah taxtına ən güclü iddiaçıya kömək göstərib onu hakimiyyətə gətirməklə Əlimurad xanın vəd etdiyi Azərbaycan torpaqlarına sahib olacağına ümid bəsləyirdi.

XVIII əsrin 80-cı illərinin ortalarında rus diplomatiyası eyni vaxtda İranda hakimiyyət iddiaçılarından iki nəfərlə–Zəndlər tayfasından olan Cəfər xanla və Ağa Məhəmməd xan Qacarla əlaqələr qurmağa çalışırdı. Bunlardan birincisi Cəfər xan Zənd Mərkəzi İranda daha güclü mövqeyə malik idi. O, Əlimurad xanın ölümündən sonra Qəzvin, Kaşan, İsfahan və Şirazı ələ keçirib özünü hökmdar elan etmişdi. Lakin bu heç də hələ Cəfər xanın Zəndlərin yeganə liderinə çevrilməsi demək deyildi. Əsas rəqiblərinin Qacarlar olmasına baxmayaraq, Zəndlər daxili çəkişmələrinə bir an olsa fasilə vermirdilər. Zəndlər əslində bir-birini məhv etməklə Ağa Məhəmməd xan Qacarın bütün İranda hakimiyyəti ələ keçirməsini asanlaşdırır və sürətləndirirdilər.

Bütün bu məsələlər haqqında daha ətraflı məlumatı olmayan Rusiya höküməti Əlimurad xanın varisi kimi Cəfər xanla əlaqə yaratmağı qərara aldı. Bu vəzifənin yerinə yetirilməsi bir qədər əvvəl Əlimurad xanla danışıqlar aparmaq üçün təşkil edilmiş rus səfirliyinin başçısı V.C.Tomara həvalə edildi. V.Tomara ilkin olaraq Cəfər xanın hakimiyyətinin möhkəm olub-olmamasını, onun xalq arasında nə dərəcədə nüfuz sahibi olmasını aydınlaşdırmalı idi. Tiflisdə yerləşən V.C.Tomara öz hököməti adından hakimiyyətə gəlməsi münasibətilə Cəfər xana təbrik məktubu göndərdi. Məktubda həm də yeni Zənd hakiminə hakimiyyətdə möhkəmlənmək üçün Rusiya imperiyasının himayəsindən istifadə etmək imkanını əldən verməmək məsləhət görülürdü. Bununla belə, Rusiyanın Cəfər xanla əlaqə yaratmaq cəhdi uğursuzluqla nəticələndi. Əsas diqqəti onun hakimiyyətini qəbul etmək istəməyən zəndlərə və Ağa

Məhəmməd xan Qacara qarşı mübarizəyə yönəldən Zənd hakimi Rusiyanın təklifinə heç bir reaksiya vermədi. Qacarlarla aparılan mübarizə isə onun tezliklə siyasi səhnəni tamamilə tərk etməsinə gətirib çıxardı. 1785-ci ilin sonunda Ağa Məhəmməd xan Qacar Cəfər xan üzərində qələbə çalaraq zəndlərin paytaxtı İsfahanı ələ keçirdi.

*Rusiyanın Ağa Məhəmməd xan Qacarla münasibətləri daha mürəkkəb və ziddiyyətli xarakter daşıyırdı.* ***Bu onun daha güclü dövlət xadimi və siyasətçi olması ilə bağlı idi.*** Onun Rusiya ilə münasibətində ilk gərginlik isə hələ 1781-ci ildə qraf Voynoviçin ekspediyası ilə bağlı yaranmışdı. Az sonra Qacarlar hakimi bu gərginliyi aradan qaldırmaq üçün öz səfirini Rusiyaya göndərmişdi. Rəsmi olaraq «sülh və dostluq əlaqələri yaratmaq» üçün göndərilən bu elçilik uğursuzluqla nəticələndi. Bir tərəfdən qraf Voynoviçin ekspedisiyasına göstərilmiş düşmənçiliyin əvəzini çıxmaq, digər tərəfdən isə Əlimurad xanla aparılan danışıqları uğurla başa çatdırmaq istəyən Rusiya hökuməti Ağa Məhəmməd xanın səfirini ağır ittihamlarla geri qaytardı.

Lakin bu uğursuzluq Ağa Məhəmməd xanı Rusiya ilə münasibətləri qaydaya salmaq fikrindən döndərmədi. O, öz məqsədinə çatmaq üçün rus tacirləri ilə yaxşı rəftar etməyə başladı. Rus konsulu Tumanovski 1784-cü ildə məlumat verirdi ki, hazırda Ağa Məhəmməd xan rus ticarətinin inkişafı üçün əlverişli şərait yaratmağa çalışır. Bununla belə 80-ci illərin ortalarında Rusiya ilə münasibətlərin qaydaya salınmasını Ağa Məhəmməd xanın yeritdiyi siyasətin aparıcı istiqamətini hesab etmək olmaz. Bu dövrdə onun yeritdiyi siyasətin əsas məqsədi İranda şəriksiz hökmranlığa nail olmaq idi.

Dövrün görkəmli dövlət xadimi olmuş Ağa Məhəmməd xanın hakimiyyət zirvəsinə yüksəlişi heç də asan olmamış və amansız mübarizə ilə zəngin olan bir neçə mərhələdən keçmişdir. O, 1762-1779-cu illərdə Kərim xan Zəndin əsiri kimi Şirazda yaşamışdı. Şəxsi azadılqlarının xeyli məhudlaşdırılmasına baxmayaraq Şiraz həyatı onun bir dövlət xadimi kimi yetişməsində mühüm rol oyna-

mışdı. İngilis müəllifi Malkolmun verdiyi məlumatdan aydın olur ki, Kərim xan Zənd, əsir olmasına baxmayaraq, Ağa Məhəmməd xana yaxşı münasibət bəsləmiş, onu hətta dövlətin idarə edilməsi işlərinə də cəlb etmişdi.

1779-cu ildə Kərim xan Zəndin ölümündən sonra azadlığa çıxan Məhəmməd xan bir neçə yaxın adamı ilə Şirazdan qaçaraq öz ata-baba yurdu olan Astrabada gəldi. Bu zaman onun qarşısında duran əsas vəzifə özünün Qacarların hakimi kimi tanınmasına nail olmaq idi. Onu da qeyd etmək lazımıdr ki, Ağa Məhəmmməd xan uzun müddət öz tayfasından ayrı yaşamasına baxmayaraq onlarla əlaqəni heç vaxt kəsməmişdi. Bütün əsirliyi dövründə o, Qacarların güclənməsinə xeyli qüvvə sərf etmişdi, elə bunun nəticəsi idi ki, Qacarlar çox asanlıqla onu öz hakimləri kimi tanıdılar. Bununla da Ağa Məhəmməd xan Qacar güclü iqtisadi potensiala və hərbi-strateji mövqeyə malik olan Astrabad və Mazandaran vilayətlərinin hakiminə çevrildi. Uzun müddət Kərim xanın vassalı kimi Gilanı idarə etmiş Hidayət xan bu vilayətdən qovuldu və onun yerinə Ağa Məhəmməd xanın qardaşı Murtuzaqulu xan təyin edildi. Beləliklə də, Ağa Məhəmməd xan öz rəqiblərinə qarşı mübarizədə çox güclü bir dayaq qazandı.

Ağa Məhəmməd xan hakimiyyət uğrunda mübarizə apararkən özünü yerli əhalinin psixologiyasını yaxşı bilən, əsas rəqiblərinin qüvvələrini düzgün qiymətləndirməyi bacaran, lazım gəldikdə çox qətiyyətli və hətta qəddar olan bir siyasətçi kimi göstərmişdi. Onun arxalandığı əsas qüvvə, şübhəsiz ki, qacarlar tayfası idi. O, hakimiyyətinin ilk illərindən başlayaraq həlledici vəzifələrə daha çox qacarları təyin edirdi. Ağa Məhəmməd xan, şəraitdən asılı olaraq, türkçülükdən də yararlanır və Azərbaycan xanlarının rəğbətini qazanmağa nail olurdu. Zəndlərlə mübarizənin qızğın çağında o, Urmiya hakimi Əli xana yazırdı ki, İranda farsların hakimiyyətə gəlməsinin qarşısını almağın yeganə yolu türk tayfalarının möhkəm birliyinə nail olmaqdır.

Görkəmli sərkərdə və mahir siyasətçi olmasına baxmayaraq, hakimiyyət uğrunda mübarizənin ilk dövrləri Ağa Məhəmməd xan

üçün olduqca çətin bir şəraitdə keçirdi. Bəzi hallarda rəqiblər üzərində əldə edilən parlaq qələbələri məğlubiyyətlər əvəz edirdi. 1782-ci il Ağa Məhəmməd xan üçün xüsusilə ağır olmuşdu. Qacarlara qarşı ilk və sonuncu dəfə vahid qüvvə kimi çıxış edən zəndlər, Ağa Məhəmməd xanı ağır məğlubiyyətə uğratdılar. Bu məğlubiyyət Ağa Məhəmməd xan üçün xeyli ağır nəticələrə gətirib çıxardı. Mühüm iqtisadi və strateji əhəmiyyəti olan Gilan itirildi. Uzun müddət Kərim xan Zəndin vassalı kimi bu vilayəti idarə etmiş Hidayət xan öz hakimiyyətini bərpa etdi. Ağa Məhəmməd xan tərəfindən Gilan hakimi təyin edilmiş Murtuzaqulu xan əvvəlcə Zəndlərin tərəfinə keçmiş, vilayət üzərində nəzarəti itirdikdən sonra isə kömək üçün Rusiya hökümətinə və Azərbaycan xanlarına müraciət etmişdi.

Ağa Məhəmməd xanın öz qardaşları ilə münasibətləri həmişə gərgin olmuşdur. Murtuzaqulu xanın xəyanətindən sonra bu gərginlik açıq düşmənçilik xarakteri almışdı. Ağa Məhəmməd xan qardaşlarından hər birinə öz hakimiyyəti üçün potensial təhlükə kimi baxırdı. Malkolmun verdiyi məlumatdan aydın olur ki, Ağa Məhəmməd xanın 8 qardaşından ancaq ikisi öz əcəli ilə ölmüşdür. Qardaşlardan Rzaqulu xanın, Mustafa xanın, Cəfərqulu xanın və Əliqulu xanın şikəst edilmələri və öldürülmələri bilavasitə Ağa Məhəmməd xanın adı ilə bağlı idi.

1784-cü ilin sonlarından başlayaraq Zəndlərlə Qacarlar araşında münasibətlər yenidən gərginləşdi. Ağa Məhəmməd xanı bir rəqib kimi tamamilə sıradan çıxarmaq qərarına gələn Əlimurad xan oğlu Şeyx Veysi böyük bir ordu ilə onun üzərinə göndərdi. İlk döyüşdə Zəndlər qələbə çalsalar da, tezliklə bütün qüvvələrini səfərbər edən Ağa Məhəmməd xan Şeyx Veysin ordusunu darmadağın etdi. 1785-ci ilin əvvəllərində Əlimurad xanın vəfat etməsi Zəndlər üçün daha ağır zərbə oldu. Bundan sonra isə zəndlər qacarlara qarşı vahid qüvvə şəklində vuruşmaq imkanını tamamilə itirdilər. Zəndlərin təkbaşına vuruşan ayrı-ayrı tayfa başçılarının müqavimətini qırmaq isə Ağa Məhəmməd xan üçün çətinlik törətmədi. O, 1785-ci ilin sonlarında kiçik bir dəstə ilə Zəndlərin

nəzarəti altında olan torpaqlara yürüşə başladı. Qısa müddət ərzində Tehran, Qum və Kaşan işğal olundu. Əlimurad xanın ölümündən sonra İsfahanda möhkəmlənmiş onun qardaşı şəhərin müdafiəsini təşkil edə bilməyərək qaçmağa məcbur oldu.

1785-ci ili Qacarlar dövlətinin yaradılmasında həlledici il adlandırmaq olar. Həmin ildə İranda çox güclü maddi və insan ehtiyatları olan bir çox vilayət Ağa Məhəmməd xanın nəzarəti altına keçdi. Bu isə onun gələcəkdə daha böyük miqyasda mübarizə aparmaq imkanlarını xeyli artırırdı. Tehranın yeni yaranmış dövlətin paytaxtı kimi seçilməsində, şübhəsiz ki, bu amilin də nəzərə alınması mühüm rol oynamışdı. Digər tərəfdən, Tehran şəhəri qacarların məskunlaşdıqları Astrabad və Mazandarana bitişən ərazidə yerləşirdi. Bu isə Ağa Məhəmməd xana istənilən vaxt öz həmtayfalarının köməyindən istifadə etmək imkanı yaradırdı.

Beləliklə, 1785-ci ilin sonu-1786-cı ilin əvvəllərində İran torpaqlarının çox böyük bir hissəsi Qacarların nəzarəti altına keçdi. Yalnız bundan sonra Ağa Məhəmməd xan Azərbaycan torpaqları uğrunda mübarizəni ön plana çəkməyə başladı. Bəs bu dövrdə Azərbaycanda, xüsusilə Qacarlar mülklərinə yaxın yerləşən Cənubi Azərbaycanda vəziyyət necə idi?

İranda hakimiyyət uğrunda mübarizənin alovlandığı bir dövrdə Cənubi Azərbaycan torpaqlarının vahid dövlətdə birləşdirilməsi üçün əlverişli imkan yaranmışdı. Bu imkanın reallığa çevrilməsi istiqamətində Xoy hakimi Əhməd xan (1763-1786) ciddi fəaliyyət göstərirdi. Urmiya gölündən şimalda yerləşən bu xanlıq kiçik bir ərazini əhatə etməsinə baxmayaraq, mühüm strateji əhəmiyyətə malik idi. Xanlıq Osmanlı dövləti, Maku, Naxçıvan, Qaradağ, Təbriz və Urmiya xanlıqları ilə həmsərhəd idi.

Xoylu Əhməd xan hakimiyyət uğrunda mübarizənin sirlərinə yaxşı bələd olan, bölgədə cərəyan edən hadisələrin mahiyyətini dərindən başa düşən, özünün və rəqiblərinin qüvvələrini düzgün qiymətləndirməyi bacaran bir dövlət xadimi idi. Qacarlarla Zəndlər arasında hakimiyyət uğrunda mübarizənin kəskinləşməsi nəticəsində Cənubi Azərbaycanda yaranmış boşluqdan istifadə edən

Əhməd xan nəinki öz hakimiyyətini möhkəmləndirdi, həm də qonşu torpaqları ələ keçirmək uğrunda mübarizəyə başladı. Onun fəaliyyətində pərakəndə Azərbaycan torpaqlarını vahid dövlətdə birləşdirmək uğrunda mübarizə özünü aydın şəkildə göstərirdi.

Əhməd xanın ilk hədəfi Qaradağ xanlığı oldu. Azərbaycanın kiçik xanlıqlarından olan bu xanlıq XVIII əsrin 80-cı illərində Mustafa xan adlı hakim tərəfindən idarə edilirdi. Georgiyevsk müqaviləsi ilə bağlı Rusiyanın Gürcüstanda təmsilçisi olmuş S.D.Burnaşovun məlumatından aydın olur ki, Qarabağlı İbrahimxəlil xanla birləşən Əhməd xan 1782-ci ildə Qaradağ xanlığını ələ keçirib bölüşdürmüşdü. Müəyyən vaxt ərzində Qaradağ xanlığının idarəçiliyi Xoy və Qarabağ xanlarının təyin etdikləri nümayəndələr vasitəsilə həyata keçirilmişdi. Bir qədər sonra isə onlar qarşılıqlı razılıq əsasında Mustafa xanın hakimiyyətini bərpa etmişdilər.

Xoylu Əhməd xan öz hakimiyyətini Naxçıvan xanlığına da yaymaq üçün uzun müddət mübarizə aparmalı olmuşdu. Bu dövrdə Naxçıvan xanlığı Azərbaycanın ən zəif xanlıqlarından biri olub qonşu xanlıqlar arasında kəskin mübarizə obyektinə çevrilmişdi. Xoylu Əhməd xanla yanaşı Naxçıvan xanlığı uğrunda qarabağlı İbrahimxəlil xan, irəvanlı Hüseynəli xan və Kartli-Kaxetiya çarı II İrakli də mübarizə aparırdılar. Adları çəkilən hakimlərdən hər biri öz adamını hakim təyin etməklə Naxçıvana sahib olmağa çalışırdı. Tərəflər Naxçıvan xanlığını təkbaşına itaət altında saxlamağın mümkün olmadığını görüb kəngərli tayfasından olan Abbasqulu xanı hakimiyyətə gətirmək haqqında razılığa gəlmişdilər.

Diplomatik yolla Naxçıvanda möhkəmlənməyin mümkün olmadığını görən Əhməd xan məsələni hərbi yolla həll etmək qərarına gəldi. Abbasqulu xanın Naxçıvan xanlığına məxsus iki kəndin Xoy xanlığına verməkdən imtina etməsi hərbi əməliyyatlara başlamaq üçün bəhanə oldu. Ağır məğlubiyyətə uğrayan Abbasqulu xan hakimiyyətdən devrildi və onun Əhməd xanın əlaltısı olan əmisi oğlu Cəfərqulu xan Naxçıvan xanı təyin edildi. Lakin Cəfərqulu xanın hakimiyyəti uzun müddət davam etmədi. İrəvan, Qarabağ

xanları və Kartli-Kaxetiya çarı II İrakli Əhməd xandan Naxçıvan xanlığının daxili işlərinə qarışmamağı və öz qoşunlarını oradan çəkməyi tələb etdilər. Əhməd xan bununla razılaşmağa məcbur oldu.

Naxçıvan xanlığını ələ keçirməyin mümkün olmadığını görən Əhməd xan məqsədinə çatmaq üçün Əlimurad xanın adından və köməyindən istifadə etmək qərarına gəldi. O, eyni zamanda Naxçıvana iddia edən hakimlərlə münasibətlərin daha da pisləşməsinin qarşısını almaq üçün bir sıra diplomatik addımlar da atdı. Kartli-Kaxetiya çarı II İrakliyə göndərdiyi məktubunda Əhməd xan Naxçıvana ordu yeridilməsi planını Əlimurad xanın adı ilə bağlayırdı. II İraklinin arxasında Rusiyanın dayandığını yaxşı bilən Xoy xanı bu dövlətlə də münasibətlərini qaydaya salmaq üçün bir sıra addımlar atdı. 1783-cü ildə II İraklinin vasitəçiliyi ilə Rusiyaya nümayəndə heyəti göndərib bu dövlətin himayəsi altına keçmək istədiyini bildirdi.

II İraklinin bir sıra Azərbaycan xanları ilə Rusiya arasında vasitəçilik etməsi heç də təsadüfi deyildi. Belə ki, Rusiya özünün Azərbaycana dair işğalçılıq planlarında II İrakliyə böyük önəm verirdi. II İrakli öz nüfuzundan istifadə edərək Azərbaycan xanlarının İran və Osmanlının təsiri altına düşmələrinin qarşısını almalı idi. Gürcü çarı bunun müqabilində Rusiyanın köməyilə özünün Azərbaycana dair işğalçılıq planlarını yerinə yetirəcəyinə ümid bəsləyirdi. İrəvan, Naxçıvan və Gəncəni artıq öz «mülkü» hesab edən II İrakli Azərbaycanın cənub torpaqlarına da göz dikmişdi. O, rus ordusunun Cənubi Qafqaza yürüşünün hələ də gözlənildiyi 1784-cü ilin yazında II Yekaterina hökumətinə göndərdiyi məktubda yazırdı: «Hesab edirəm ki, Rusiyanın Adribejanı (Cənubi Azərbaycan nəzərdə tutulur – H.H.) ələ keçirməsi, sonra isə onun bir hissəsini mənə verməsi sərfəlidir».

Rusiyanın hakim dairələri nəinki onun işğalçılıq planlarına qarşı durmur, əksinə onu daha da şirnikləndirirdilər. Qafqazdakı rus qoşunlarının komandanı P.S.Potyomkin S.D.Burnaşova yazırdı ki, Rusiyanın himayəsi çarlığın güclənməsinə çalışan II İraklinin nəinki əl-qolunu bağlamır, əksinə onu daha da möhkəmləndirir. Bu dövrdə

Cənubi Qafqazda güclü gürcü çarlığının olması Rusiya üçün çox sərfəli idi. Bir sıra hallarda açıq təcavüz imkanlarından məhrum olan II Yekaterina hökuməti öz planlarını bu çarlıq vasitəsilə həyata keçirmək istəyirdi. Öz dövrünün məlumatlı adamlarından olan xoylu Əhməd xan bütün bunlardan yaxşı xəbərdar idi. O, bütün mümkün vasitələrlə rus-gürcü blokunun Azərbaycana dair işğalçılıq planlarının qarşısını almağa çalışır və bu məsələdə daha çox Osmanlı dövlətinin yardımına arxalanırdı. Bütün bunlar göstərir ki, Əhməd xanın 1784-cü ildə himayə üçün Rusiyaya müraciəti heç də səmimi olmayıb manevr xarakteri daşıyırdı. Əhməd xan müəyyən vaxtlarda özünü Əlimurad xanın təbəəsi kimi qələmə versə də, Azərbaycan torpaqlarının hər hansı bir qonşu dövlət tərəfindən işğalının qarşısını almağa çalışırdı. Bu məsələdə onun mövqeyi Osmanlı dövlətinin mövqeyi ilə üst–üstə düşürdü. Əhməd xanın rus-gürcü blokuna qarşı dura biləcək real qüvvə olduğunu nəzərə alan Osmanlı sultanı ona sərəsgər titulu vermişdi.

Əlimurad xanın Azərbaycan torpaqlarını bölüşdürmək üçün Rusiya ilə apardığı danışıqlar Xoy xanlığı ilə Osmanlı dövlətini daha da yaxınlaşdırdı. Həmin danışıqların gedişindən yaxşı xəbərdar olan Əhməd xan türk sultanına müraciət edərək bildirmişdi ki, bu danışıqlar yalnız Azərbaycan xanlıqları üçün deyil, Osmanlı dövləti üçün də böyük təhlükə yaradır. Danışıqların uğurla nəticələnəcəyi təqdirdə Osmanlı dövləti ilə həmsərhəd olan Azərbaycan torpaqlarında erməni çarlığının yaradılması bu dövlət üçün daimi təhlükə mənbəyinə çevrilə bilərdi. Öz məktubunda bütün bunları öz plana çəkən Əhməd xan türk sultanından ona 2 min nəfərlik ordu və toplarla kömək göstərməyi xahiş etmişdi. Lakin özü ağır vəziyyətdə olan Osmanlı hökuməti Əhməd xana ordu ilə kömək göstərməkdən ismtina etmiş, yalnız bir neçə top göndərməklə kifayətlənmişdi.

Güman etmək olar ki, Əhməd xan Osmanlı dövlətindən almaq istədiyi hərbi qüvvədən yalnız rus-gürcü blokuna qarşı mübarizə üçün deyil, həm də Naxçıvan xanlığında möhkəmlənmək üçün istifadə etmək məqsədi güdürdü. Bu köməyi ala bilməyən Xoy

xanının Əlimurad xana müraciət etməsi də bunu təsdiq edir. Özünü hələ də Azərbaycan xanlarının ali hökmdarı hesab edən Əlimurad xan Əhməd xanın xahişini yerinə yetirmək qərarına gəldi. Onun sərkərdəsi Gürşirəlinin başçılıq etdiyi İran ordusu Naxçıvana yeridildi və Əhməd xanın əlaltısı olan Cəfərqulu xan hakimiyyətə gətirildi.

Əhməd xanın Naxçıvanda möhkəmlənməsi həm II İraklini, həm də Qarabağlı İbrahimxəlil xanı hiddətləndirdi. Gürcü çarı hədə-qorxu ilə dolu məktubunda Xoy xanından Naxçıvanı tərk etməyi tələb etdi. Tezliklə II İrakli və İbrahimxəlil xan Naxçıvana hərbi yürüş təşkil etmək üçün ordu toplamağa başladılar. Təkcə İbrahimxəlil xanın bu yürüş üçün ayırdığı süvari dəstənin sayı 2 min nəfərə çatırdı. Vəziyyətin getdikcə ağırlaşdığını görən Əhməd xan hiylə yolu ilə özünə qarşı yönəlmiş ittifaqı parçalamaq qərarına gəldi. O, İbrahimxəlil xana müraciət edərək birlikdə Təbriz xanlığı üzərinə hücum etməyi və onu öz aralarında bölüşdürməyi təklif etdi. Rus tarixçisi P.Q.Butkov yazdığı kimi, tərəflər əvvəlcə Təbriz xanlığını ələ keçirib öz aralarında bölüşdürmək, sonra isə Abbasqulu xanı Naxçıvanda hakimiyətə gətirmək haqqında razılığa gəlmişdilər.

Əslində isə Əhməd xanın faktiki olaraq öz hakimiyyəti altında olan Təbriz xanlığının bir hissəsini İbrahimxəlil xana güzəştə gedəcəyi inandırıcı görünmürdü. Bu xanlıq hələ Kərim xan Zəndin hakimiyyətinin son dövrlərindən Xoy xanlığından asılı vəziyyətə salınmışdı. Həmin dövrdə Təbriz xanlığını idarə edən Nəcəfqulu xan tələb olunan vaxt Əhməd xana pul və ordu göndərirdi. Doğrudur, Nəcəfqulu xanın ölümündən sonra hakimiyyətə gəlmiş Xudadad xan Əhməd xana tabe olmaqdan imtina etmişdi. Lakin hərbi cəhətdən xeyli zəif olan Təbriz xanlığının yenidən itaətə gətirilməsi Xoy xanı üçün elə bir çətinlik törədə bilməzdi. Əslində Əhməd xan İbrahimxəlil xanı Təbriz üzərinə birgə yürüşə dəvət etməklə onun II İrakli ilə ittifaqda Naxçıvan üzərinə yürüşünün qarşısını almaq məqsədi güdürdü. Hadisələrin sonrakı gedişi də bunu təsdiq edir.

Əhməd xanın təklifi ilə Naxçıvan üzərinə yürüşdən imtina edib Təbriz üzərinə yürüşə hazırlaşan İbrahimxəlil xan tezliklə aldadıldığını başa düşdü. 1785-ci ilin sonlarında Təbrizə hücum edən Əhməd xan yerli əyanların köməyilə onu ələ keçirdi. Əsir götürülən Xudadad xanın əvəzinə onun qardaşı Təbriz xanı təyin edildi.

Əhməd xan Naxçıvan məsələsində müəyyən güzəştə getməyə məcbur oldu. İbrahimxəlil xanın Naxçıvana hücum etməyə hazırlaşması xəbərini eşidən Xoy xanı Abbasqulu xanın yenidən burada hakimiyyətə gətirilməsinə razılıq verdi. Maraqlı burasıdır ki, Naxçıvanda baş verən bu hakimiyyət dəyişikliyi ancaq Əhməd xanın adından həyata keçirilmişdi. Əhməd xanın bu münasibətlə verdiyi fərmanda iki əsas məsələ öz əksini tapmışdı. Birinci, Abbasqulu xan Xoy xanlığına tabe olmaq şərti ilə hakimiyyətə gətirildi, ikinci, bütün Naxçıvan əhalisindən yeni hakimə sözsüz tabe olmaq tələb edilirdi.

Xoylu Əhməd xanın Azərbaycan torpaqlarını vahid dövlətdə birləşdirmək siyasətində İrəvan xanlığı da mühüm yer tuturdu. Mühüm strateji əhəmiyyəti olan bu xanlıq hələ 1759-cu ildən Kartli-Kaxetiya çarlığından asılı vəziyyətə düşmüşdü. Belə vəziyyət Azərbaycan xanları ilə yanaşı bölgənin daha güclü dövlətləri olan İran və Osmanlının da mənafelərinə toxunurdu. Lakin II İraklinin arxasında güclü rus imperiyasının dayanması bu dövlətlərin ona qarşı hərbi tədbirlər görmələrinə imkan vermirdi. XVIII əsrin 80-ci illərinin əvvəllərində Rusiyanın Azərbaycan və Osmanlı torpaqları hesabına erməni dövləti yaratmaq planlarının reallaşması üçün aparılan işlərin intensivləşdiyi bir şəraitdə İrəvan xanlığının hərbi yolla gürcü çarlığının asılılığından azad edilməsinin Rusiya ilə münaqişə yaradacağından ehtiyat edən sultan hökuməti məsələni daha çox Azərbaycan xanlarının əli ilə həll etmək istəyirdi. İrəvan məsələsinin həllində osmanlı hökuməti xoylu Əhməd xana daha çox ümid bəsləyir və digər Azərbaycan xanlarını onun ətrafında birləşməyə çağırırdı. Türk sultanının xüsusi fərmanı ilə Əhməd xan Kartli-

Kaxetiya çarlığına qarşı təşkil ediləcək birləşmiş qüvvələrin baş komandanı təyin edilirdi.

İrəvan məsələsinin diplomatik yolla həlli üçün şərait yarandığı şəraitdə Türkiyəyə meylli İrəvan hakimi Qulaməli xan 1784-cü ildə sui-qəsd nəticəsində öldürüldü. Hakimiyyətə 12 yaşlı oğlu Məhəmməd xan gətirildi. Onun anası gürcü qızı idi. Mühüm strateji əhəmiyyəti olan İrəvan qalasının tamamilə II İraklinin hakimiyyəti altına düşəcəyindən ehtiyat edən türk sultanı və xoylu Əhməd xan daha qətiyyətli addımlar atdılar. Hərbi əməliyyatların qaçılmaz olduğunu görən Türkiyə hökuməti müharibəyə hazırlaşmağa başladı. Lakin 1785-ci ildə Əhməd xanın atdığı addım müharibənin qarşısını aldı və İrəvan xanlığının tamamilə gürcü çarlığının hakimiyyəti altına düşməsinə imkan vermədi. O, özünün möhkəm iradəli 30 yaşlı qızını, 13 yaşlı Məhəmməd xana ərə verdi.

Əldə edilən böyük uğurlara baxmayaraq, Əhməd xanın Azərbaycan torpaqlarını birləşdirmək siyasəti uğursuzluqla nəticələndi. O, 1786-cı ilin əvvəllərində Kərim xan Zəndin əsirliyində olmuş qardaşı Şahbaz xanın oğlanları tərəfindən qətlə yetirildi. Xoy xanlığından asılı vəziyyətə düşmüş Naxçıvan, İrəvan, Təbriz və Qaradağ xanlıqları yenidən müstəqil oldular. Bununla da Cənubi Azərbaycanda daxili siyasi çəkişmələrin yeni mərhələsi başlandı. Yaranmış şərait artıq İranın çox böyük hissəsini öz hakimiyyəti altına almış Ağa Məhəmməd xan Qacarın Cənubi Azərbaycanı tutmaq işini xeyli asanlaşdırdı.

Beləliklə, Azərbaycan torpaqları yenidən yenicə yaranmaqda olan Qacarlar dövləti ilə Rusiya arasında mübarizə hədəfinə çevrildi. Rusiya Azərbaycan torpaqlarını ələ keçirmək, orada erməni dövləti yaratmaq və Gürcüstanı gücləndirməklə Cənubi Qafqazda və Xəzər dənizi hövzəsində öz mövqelərini möhkəmləndirmək planından imtina etməmişdi. Krımın işğal edilməsinə nail olan və Gürcüstanda möhkəmlənən Rusiya yeni şəraitdə bölgədə yaranmış reallıqlarla hesablaşmağa məcbur oldu. Rus diplomatiyası İranda və Cənubi Azərbaycanda cərəyan edən hadisələrə münasibətdə gözləmə mövqeyində dayandı. Hakim dairələrin ayrı-ayrı nüma-

yəndələri arasında gedən yazışmaların məzmunundan aydın olur ki, Əlimurad xanın ölümündən sonrakı ilk illərdə Rusiyanın İran siyasətində bir qeyri-müəyyənlik hökm sürürdü. Ağa Məhəmməd xanın və yaxud onun müxalifətdə dayanan qardaşlarının dəstəklənməsi məsələsinin aydınlaşdırılması üçün bir neçə il vaxt sərf etmək lazım gəldi. Ağa Məhəmməd xanın təqibləri nəticəsində mülklərindən məhrum olmuş Murtuzəli və Mustafa xan öz qardaşlarına qarşı mübarizə üçün Rusiyadan kömək istədilər. P.S.Potyomkin qardaşların kömək xahişi ilə Şimali Qafqaza gəlmiş nümayəndəsinə nə cavab vermək lazım olduğunu öyrənmək üçün Q.A.Potyomkinə müraciət etdi. İrandakı vəziyyətin aydınlaşmasını, daha doğrusu hakimiyyət uğrunda mübarizədə kimin üstünlük qazanacağını gözləmək qərarına gələn Rusiya hökuməti cavab verməyə heç də tələsmədi. Q.A.Potyomkin 1785-ci ilin oktyabrında II Yekaterinaya ünvanlanmış məktubuda yazırdı ki, Ağa Məhəmməd xanın təqibinə məruz qalan qardaşlar xalq arasında xeyli nüfuza malikdirlər və onlar gələcəkdə Rusiya üçün faydalı ola bilərlər. Ağa Məhəmməd xan Rusiyanın İrandan gözlədiyi güzəştlərə getməzsə, onda qardaşlardan ona qarşı istifadə etmək lazım gələcəkdir.

İranda güclənməkdə olan Ağa Məhəmməd xanla münasibətlərdə Rusiya ***iki əsas məqsəd*** güdürdü. ***Birincisi,*** İranda, xüsusilə Gilanda, rus ticarətinin inkişafı üçün əlverişli şərait yaratmaq; ***ikincisi***, Azərbaycan torpaqlarının ələ keçirilməsi üçün Ağa Məhəmməd xanın razılığını almaq. Əslində Ağa Məhəmməd xan Qacar Rusiya ilə normal diplomatik münasibətlərin yaradılmasında və qarşılıqlı fayda verəcək ticarət əlaqələrinin inkişafında maraqlı idi. Ağa Məhəmməd xan Qacar İsfahanı ələ keçirdikdən sonra Q.A.Potyomkinə göndərdiyi məktubunda Rusiya ilə dostluq əlaqələri yaratmaq və onunla ticarət əlaqələrini gücləndirmək istəyini xüsusi vurğulayırdı.

Rusiyanın hakim dairələrində özünə qarşı olan inamsızlığı aradan qaldırmaq və onunla daha da yaxınlaşmaq üçün Ağa Məhəmməd xan mümkün olan bütün vasitələrdən istifadə edirdi. Bu

məsələdə ona Rusiyanın Cənubi Qafqazda ən etibarlı müttəfiqi olan II İrakli də yardımçı ola bilərdi. 1787-ci ildə II İrakli öz elçisi vasitəsilə Ağa Məhəmməd xanın İranda hakimiyyətə gəlməsi münasibətilə təbrik etmiş və onunla dostluq əlaqələri yaratmaq istədiyini bildirmişdi. Qacarlar hakimi məhz həmin elçi vasitəsilə II İraklidən Rusiya ilə Qacarlar arasında dostluq münasibətlərinin yaranmasında vasitəçi olmağı xahiş etmişdi. S.D.Burnaşovun verdiyi məlumata görə Ağa Məhəmməd xan bu işdə göstərəcəyi xidmət müqabilində II İrakliyə Azərbaycan torpaqları hesabına müəyyən ərazi güzəştləri edəcəyinə söz vermişdi.

Ağa Məhəmməd xanı Rusiya ilə diplomatik əlaqələr yaratmaq cəhdləri öz müsbət nəticəsini göstərməyə başladı. Rus tacirlərinin İranın şimal vilayətlərindəki ticarət əməliyyatlarının uğurla davam etməsinin tamamilə Ağa Məhəmməd xandan asılı olduğunu başa düşən Rusiya hökuməti onunla əlaqə qurmağa başladı. 1787-ci ilin əvvəllərində knyaz Potyomkin Ağa Məhəmməd xanı hakimiyyətə gəlməsi münasibətilə təbrik etdi. Ağa Məhəmməd xan ona cavab olaraq öz elçisini Rusiyaya göndərdi və bu dövlətlə dostluq əlaqələri yaratmaq fikrində olduğunu bir daha təsdiq etdi.

Bütün bunlara baxmayaraq, Rusiyanın hakim dairələrində Ağa Məhəmməd xana olan inamsızlıq və soyuqluğu aradan qaldırmaq mümkün olmadı. Bu, hər şeydən əvvəl, Ağa Məhəmməd xanın Rusiyaya hər hansı ərazi güzəşt etmək fikrindən uzaq olması və onun həddən artıq güclənərək bu dövlətin işğalçılıq planlarına əngəl törədəcəyi ehtimalı ilə bağlı idi. Güclü İran dövlətinin yaranması Rusiyanın artıq öz nüfuz dairəsi hesab etdiyi Cənubi Qafqazın itirilməsinə və onun Hindistana dair planlaşdırdığı işğalçı tədbirlərin qarşısının alınmasına gətirib çıxara bilərdi. Bütün bunları nəzərə alan rus diplomatları Ağa Məhəmməd xanın elçisinə soyuq münasibət göstərdilər və onu Peterburqa göndərməkdən imtina etdilər. Rusiya hökuməti bundan sonra özünün İran siyasətində Ağa Məhəmməd xana deyil, onun əsas rəqiblərindən olan Murtuzaqulu xana üstünlük verməyə başladı.

Ağa Məhəmməd xan isə bütün maneələri böyük səbr və inadkarlıqla dəf edərək özünün əsas məqsədinə–hakimiyyətini Səfəvilərin əhatə etdiyi bütün ərazilərə yaymaq məqsədinə çatmaq üçün fəaliyyətini davam etdirirdi. Mərkəzi və şimal-şərqi İranda möhkəmləndikdən sonra o, Cənubi Azərbaycanı tabe etmək uğrunda ayrı-ayrı qruplara bölünərək öz ərazilərini genişləndirmək uğrunda bir-biri ilə amansız mübarizə aparan Azərbaycan xanlarına qarşı mübarizəyə başladı.

Əsas mübarizə iki feodal qruplaşması arasında Təbriz xanlığına sahib olmaq uğrunda gedirdi. Bunlardan ***birinə*** Qaradağ, Sərab və Xoy xanlıqları, ***ikincisinə*** isə Urmiya, Marağa və Təbriz xanlıqları daxil idi. Lakin birinci qruplaşmaya daxil olan xanlar 1787-ci ildə Təbriz şəhəri üzərinə hücum edib onu mühasirəyə alsalar da, ələ keçirə bilmədilər. Bu məsələdə Xoylu Əhməd xanın ölümündən sonra Cənubi Azərbaycanın ən güclü hakiminə çevrilmiş Urmiya hakimi Əli xanın Təbriz xanına köməyi həlledici rol oynamışdı.

Təbriz uğrunda Azərbaycan xanları arasında gedən mübarizənin diqqətini çəkən başqa bir məqamı isə Ağa Məhəmməd xanın da ona müdaxilə etməsi idi. Gürcü çarı II İraklinin İrana göndərdiyi elçləri Osip Baqratov və Zaxari Sisianovun verdikləri məlumatdan aydın olur ki, Ağa Məhəmməd xan Cənubi Azərbaycan xanlarının Təbriz uğrunda apardıqları mübarizədə ikinci qruplaşmanın tərəfini saxlayır, onlara hərbi yardım göstərəcəyi haqqında vədlər verirdi. Əslində bu, Qacarlar hakiminin Cənubi Azərbaycana planlaşdırdığı yürüş üçün bəhanə rolunu oynaya bilərdi.

Bununla belə, Ağa Məhəmməd xan Cənubi Azərbaycana yürüş təşkil etməzdən əvvəl uğur qazanmaq üçün bir sıra diplomatik gedişlər etdi. O, ilk növbədə ona daha ciddi müqavimət göstərə biləcək urmiyalı Əli xanı zəiflətmək üçün tədbirlər gördü. Hələ 1763-cü ildə Kərim xan Zənd tərəfindən edam edilmiş Fətəli xan Əfşarın oğlanlarını ona qarşı qaldırmağa cəhd göstərdi. Bu cəhdin uğursuzluqla nəticələnməsinə baxmayaraq Cənubi Azərbaycanın və

Qərbi İranın bir sıra güclü tayfa başçıları Qacarlar hökmdarının hakimiyyətini qəbul etdilər. Bu, urmiyalı Əli xanın vəziyyətini daha da ağırlaşdırdı. Tərəfdarlarının sayının getdkcə azaldığını görən Əli xan Ağa Məhəmməd xana qarşı mübarizə aparmaq üçün özünə müttəfiqlər axtarmağa başladı. Qarabağlı İbrahimxəlil xana qarşı birgə mübarizə aparmaq təklifini alan Əli xan eyni təkliflə qacarların barışmaz düşməni olan Cəfər xan Zəndə müraciət etmişdi. Hələ öz müstəqilliklərini saxlamış Azərbaycan xanlarından da hərbi qüvvə göndərmək tələb edildi.

Hadisələrin sonrakı gedişi göstərdi ki, Ağa Məhəmməd xanın ***Cənubi Azərbaycanı türkçülük ideyası ətrafında birləşdirmək*** və dinc yolla özündən asılı vəziyyətə salmaq cəhdi uğursuzluğa düçar oldu. Azərbaycan xanlarının əksəriyyəti ona inanmır və hər vasitə ilə öz müstəqilliklərini qoruyub saxlamağa çalışırdılar. Bu məsələdə, görünür, Ağa Məhəmməd xanın urmiyalı Əli xanla rəftarı da az rol oynamamışdı.

Qacarlar təhlükəsinin getdikcə real xarakter aldığını görən Azərbaycan xanları böyük təlaşla vəziyyətdən çıxış yolu axtarırdılar. Onlardan bəziləri vahid və müstəqil Azərbaycan dövlətinin yaradılması zərurətini başa düşür və bunu Ağa Məhəmməd xana qarşı mübarizədə yeganə çıxış yolu hesab edirdilər. Belə bir ideya ilə ilk dəfə Təbriz hakimi Rza xan çıxış etmişdi. Lakin o, bu ideyanı daxili qüvvələrin səfərbər edilməsi hesabına yox, Osmanlı dövlətinin vasitəçiliyi hesabına həyata keçirmək istəyirdi. Ümumiyyətlə, bu dövrdə öz aralarında birləşə bilməyən Azərbaycan xanlarının əksəriyyəti Ağa Məhəmməd xanın hakimiyyəti altına düşməkdən xilas olmağın əsas yolunu Osmanlı dövlətinin göstərəcəyi hərbi yardımda görürdülər. Azərbaycan xanlarından irəvanlı Məhəmməd xanın, marağalı Əhməd xanın, qaradağlı Mustafaqulu xanın və xoylu Hüseyn xanın 1790-cı ildə türk sultanı III Səlimə müraciətləri də bu məqsədə xidmət edirdi. Lakin bu dövrdə Rusiya imperiyasına qarşı müharibə aparan və olduqca ağır hərbi durumda olan Sultan hökuməti Azərbaycan xanlarına heç bir yardım göstərmədi.

1790-cı ildə Ağa Məhəmməd xan Qacar Cənubi Azərbaycan xanlıqlarının asılı vəziyyətə salınmasında ciddi uğurlar qazandı. Müstəqillikləri üçün real təhlükənin olmasına baxmayaraq, Azərbaycan xanları yenə də öz qüvvələrini birləşdirə bilmir və qacarlarla müharibə meydanında tək qalırdılar. Urmiyalı Məhəmmədqulu xan, sərablı Sadıq xan Şəqaqi buna oxşar tale yaşamalı oldu.

Cənubi Azərbaycanın bu iki güclü hakimi üzərində çalınmış qələbələr Ağa Məhəmməd xanın hakimiyyətinin bütün bölgəyə yayılması işində həlledici rol oynadı. Azərbaycan xanlarının birləşə bilmək qabiliyyətində olmadıqlarını görən Qacarlar hakimi 1791-ci ildə daha qətiyyətli addımlar atdı. Ağa Məhəmməd xan Azərbaycan xanlarından onun hakimiyyətini qeyd-şərtsiz tanımağı və itaət əlaməti olaraq öz arvad-uşaqlarından girov göndərməyi tələb etdi. Artıq çıxılmaz vəziyyətdə olduqlarını başa düşən Təbriz, Ərdəbil, Qaradağ, Xoy və Naxçıvan xanları onun bu tələbini yerinə yetirməyə məcbur oldular. Başqa yolla Sərabda öz hakimiyyətini bərpa edə bilməyəcəyini görən Sadıq xan Şəqaqi bağışlanmaq xahişi ilə Ağa Məhəmməd xana müraciət etdi. Ağa Məhəmməd xanın hakimiyyətini qəbul etmiş Azərbaycan xanları ona hər il xərac ödəmək şərtilə öz hakimiyyətlərini saxlaya bildilər.

Ağa Məhəmməd xan Qacar 1790-1791-ci illərdə yalnız Cənubi Azərbaycanda deyil, zəndlərə qarşı mübarizədə də böyük uğurlar qazandı. Doğrudur, 1790-cı ildə onun zəndlərin sonuncu sığınacaqlarından olan Şiraz şəhərini ələ keçirmək cəhdi uğursuzluqla nəticələnsə də, Ağa Məhəmməd xan 1791-ci ildə yenidən Şiraza hücum etdi və onu mühasirəyə aldı. Mühasirənin uzanacağından ehtiyat edən Qacarlar əvvəllər dəfələrlə sınaqdan keçirdiyi düşməni daxildən parçalamaq taktikasını burada da işə saldı. Nəticədə Şirazın kələntəri Hacı İbrahim, eləcə də şəhərin tacir və sənətkarlarının böyük hissəsi Ağa Məhəmməd xanın tərəfinə keçdi. Bununla da Ağa Məhəmməd xan bütün İranı və Cənubi Azərbaycanı öz nəzarəti altına almışdı. Bütün bunlar ona Rusiya təsirinin xeyli güclü olduğu Cənubi Qafqazı, ilk növbədə isə Şimali

Azərbaycan torpaqlarını ələ keçrmək üçün hazırlıq işlərini gücləndirmək imkanı yaratdı.

Bu dövrdə bütün Cənubi Qafqazda olduğu kimi, Şimali Azərbaycanda da siyasi vəziyyət olduqca mürəkkəb olaraq qalırdı. İndiyə qədər Azərbaycan torpaqlarının vahid mərkəzdə birləşdirilməsi istiqamətində xeyli uğurlar qazanmış qubalı Fətəli xan bu işi başa çatdırmaq üçün çox ciddi maneələrlə rastlaşırdı. İranda getdikcə güclənməkdə olan Ağa Məhəmməd xan Qacar, Rusiyanın himayə etdiyi II İrakli, Azərbaycana tez-tez soyğunçu yürüşlər edən Dağıstan hakimləri, Azərbaycanın öz daxilindəki müxalif qüvvələr, ilk növbədə qarabağlı İbrahimxəlil xan və nəhayət, Rusiyanın təcavüzkarlıq və düşmənçilik siyasəti Fətəli xandan çox çevik siyasət yeritməyi və öz qüvvələrini daim səfərbər vəziyyətdə saxlamağı tələb edirdi. Quba xanlığına münasibətdə on ildən artıq düşmənçilik siyasəti yeridən Rusiya ilə münasibətlərin nizama salınması xüsusilə böyük əhəmiyyət kəsb edirdi. Məhz Rusiyanın yeritdiyi məkrli siyasət nəticəsində o, 1784-cü ildə ələ keçirdiyi Ərdəbil və Meşkindən imtina etmiş, Qarabağ xanlığı üzərinə təşkil etdiyi həlledici yürüşü yarımçıq dayandırmalı olmuşdu.

Lakin Osmanlı dövləti ilə 1787-1791-ci illər müharibəsi ərəfəsində Rusiyanın Cənubi Qafqazda yeritdiyi açıq xristianpərəst siyasətində ciddi dəyişiklik baş verdi. II İraklini Cənubi Qafqazın hegemon qüvvəsinə çevirmək, Azərbaycan torpaqları hesabına erməni çarlığı yaratmaq siyasəti nəinki özünü doğrultmadı, əksinə, Azərbaycan xanlarının Rusiya ilə münasibətlərinin pisləşməsinə gətirib çıxardı. Bu isə Osmanlı dövləti ilə müharibənin başlayacağı təqdirdə Rusiyanın Cənubi Qafqazdakı mövqeləri üçün ciddi təhlükə törədə bilərdi. Cənubi Qafqazda Osmanlı dövlətinə qarşı ikinci bir cəbhənin açılması üçün kifayət qədər qüvvəsinin olmadığını başa düşən çar hökuməti diplomatik vasitələrlə Kartli-Kaxetiya çarlığının təhlükəsizliyini təmin etmək istəyirdi. Rus diplomatiyası bu məqsədə çatmaq üçün hətta II İrakliyə Osmanlı dövləti ilə sülh danışıqları aparmaq haqqında göstəriş də verdi. Guya Rusiyanın xəbəri olmadan aparılan bu danışıqlar 1786-cı ilin

yayında başladı və gözlənildiyi kimi, heç bir nəticə vermədi. Hər vasitə ilə Gürcüstanı Rusiyanın təsirindən çıxarmağa çalışan Sultan hökuməti müəyyən güzəştlər müqabilində II İrakli qarşısında bir sıra tələblər qoydu. Bu tələblər sırasına 1783-cü ildən Tiflisdə yerləşdirilən rus qoşunlarının çıxarılması, Kartli-Kaxetiya çarlığının Osmanlı dövlətinin himayəsi altına keçməsi kimi çox mühüm məsələlər daxil idi. Osmanlı dövlətinin edəcəyi güzəştlərin sırasına isə Azərbaycanın Gəncə və İrəvan xanlıqları üzərində II İraklinin hakimiyyətinin tanınması və Dağıstan hakimlərinin Gürcüstan üzərinə soyğunçu yürüşlərinin qarşısının alınması məsələləri daxil edilmişdi.

Rusiyanın istəyi əsasında və gizli nəzarəti altında başlanmış bu danışıqlar elə onun istədiyi vaxt (1787-ci ilin iyulunda) və istədiyi nəticələrlə də başa çatdı. Osmanlı sultanının tələblərini yerinə yetirmək istəməyən II İraklii danışıqları dayandırmadı. Bununla belə, Kartli-Kaxetiya çarı Axalsı hakimi Süleyman paşa ilə, O.P.Markovanın «separat sülh» adlandırdığı müqavilənin imzalanmasına nail oldu. Çar İraklinin Gürcüstandakı rus ordusunun sayının 3 min nəfərdən artıq olmayacağı öhdəliyi müqabilində Süleyman paşa Dağıstan hakimlərinin onun mülklərinə hücumlarının qarşısını alacağına söz verirdi. Bununla da Rusiya 1787-1791-ci illər müharibəsi dövründə Osmanlı dövlətinin Gürcüstan üzərinə gözlənilən hücumunun qarşısını almağa müvəffəq oldu və Cənubi Qafqazda onun mövqelərinin zəifləməsinə gətirib çıxara biləcək hərbi əməliyyatların qarşısını ala bildi.

Osmanlı dövləti ilə müharibə təhlükəsinin getdikcə artması və İranda öz mövqelərini tədricən möhkəmləndirən Ağa Məhəmməd xanın Rusiyanın Cənubi Qafqazdakı mənafeləri üçün ciddi təhlükə törətməyə başlaması çar hökumətini qubalı Fətəli xana münasibətdə yeritdiyi siyasətə yenidən baxmağa məcbur etdi. Bu dövrdə Rusiya hökuməti Cənubi Qafqazda mövcud olan siyasi vəziyyəti olduğu kimi qoruyub saxlamağı özünün Qafqaz siyasətinin əsas vəzifəsi hesab edirdi. Buna nail olmağın əsas yolunu isə qubalı Fətəli xanla münasibətləri yaxşılaşdırmaqda, onun II İraklii ilə az qala 30 il

davam edən, düşmənçiliyinə son qoymaqda görürdü. Rusiya hökumətinin dəyişilmiş yeni şəraitə uyğun həyata keçirmək istədiyi bu siyasət Q.A.Potyomkinin Qafqaz xəttindəki rus qoşunlarının 1787-ci ildə təyin edilmiş yeni komandanı general P.Tekelliyə məktubunda aydın ifadə olunmuşdu. Məktubda Q.A.Potyomkin yeni baş komandana uzun müddət bir-biri ilə düşmənçilik edən Kartli-Kaxetiya çarı II İraklii ilə İmeretiya çarı Davidi barışdırıb bir ittifaqda birləşdirməyi tövsiyyə edirdi. Onun fikrincə, onların qubalı Fətəli xanla birləşmiş ümumi qüvələri Rusiyanın istənilən düşməni üzərində qələbə çalmağa qadir olacaqdır.

Göründüyü kimi, Rusiya Fətəli xanı özünün Cənubi Qafqazda əsas dayaqlarından birinə çevirmək istəyirdi. Fətəli xanın Azərbaycan torpaqlarını birləşdirmək siyasətində Rusiyanın yardımını qazanmağa çalışdığı bir şəraitdə bu vəzifəni həyata keçirmək rus diplomatiyası üçün elə bir çətinlik törədə bilməzdi. Rusiya məhz Fətəli xanın əli ilə özünün əsas düşmənlərini cəzalandırmaq, müttəfiqlərini isə gücləndirmək istəyirdi. Təsadüfi deyil ki, Fətəli xanın II İrakli ilə barışması məhz Rusiyanın vasitəçiliyi ilə həyata keçirilmişdi . Nə qədər ağır olsa da etiraf etmək lazımdır ki, Rusiyanın işğalçılıq siyasətinin girovuna çevrilmiş Cənubi Qafqazın bu iki güclü dövlət xadimi Rusiyanın təkidi ilə barışmaq qərarına gəlmiş, bu istiqamətdə ilk addım Fətəli xan tərəfindən atılmışdır. O, II İrakliyə məktub yazaraq onunla dostluq münasibətləri qurmaq istədiyini bildirmişdir. Rusiyanın Cənubi Qafqazda fəallığının xeyli azalması şəraitində Qacarlar təhlükəsinin artması fonunda gürcü çarı Quba xanının təklifi ilə razılaşmışdır.

Rusiyanın vasitəçiliyi ilə Kartli-Kaxetiya çarlığı və Quba xanlığı arasında aparılan danışıqlar 1787-ci ilin əvvəllərində ittifaq müqaviləsinin bağlanması ilə nəticələndi. Bu müqavilənin imzalanması Fətəli xanın çoxdan düşündüyü planların həyata keçirilməsi üçün əlverişli imkanlar açırdı. Bu planların sırasına uzun müddət Quba xanının Azərbaycan torpaqlarını birləşdirməsi yolunda ciddi əngələ çevrilən Qarabağ xanlığına və əlbəttə ki, Ağa Məhəmməd xana qarşı mübarizə daxil idi.

Fətəli xanın birinci dərəcəli məsələ kimi qarşıya qoyub həll etmək istədiyi hər iki vəzifə həm Rusiyanın, həm də Kartli-Kaxetiya çarlığının bu dövrkü xarici siyasət kursuna uyğun gəlirdi. Gəncə xanlığına sahib olmaq məsələsi uzun müddət müttəfiqlik münasibətlərində olmuş II İrakli ilə İbrahimxəlil xanı düşmənə çevirmişdi. 1786-cı ildə Gəncədə çevriliş edən İbrahimxəlil xan burada hakimiyyətə öz tərəfdarı olan Cavad xanı gətirdi. Bu II İraklinin indiyə qədər Gəncədən əldə etdiyi çox böyük gəlirdən məhrum olması demək idi. Fətəli xanla bağlanmış ittifaq Kartli-Kaxetiya çarlığının Gəncə üzərində hakimiyyətinin bərpa olunması üçün əlverişli şərait yarada bilərdi.

Qubalı Fətəli xanın Qarabağa planlaşdırdığı yürüş Rusiya üçün də əlverişli idi. Belə ki, Rusiyanın hakim dairələri Qarabağ xristian məliklərindən İbrahimxəlil xanın onları sıxışdırması haqqında həyəcan dolu məktublar almağa başlamışdılar. Bu çar hökumətinin Qarabağ ərazisində erməni dövləti yaratmaq planlarını zərbə altında qoya bilərdi. Əldə olan məlumatlar göstərir ki, İbrahimxəlil xan xristian məkliklərin seperatizminə son qoymaq üçün xeyli fəallaşmışdı. Rusiyanın bölgədə fəallığının bir qədər zəifləməsindən istifadə edən Qarabağ xanı xristian məliklərini zərərsizləşdirmək üçün qəti addımlar atmağa başlamışdı. Rusiyanın Gürcüstandakı nümayəndəsi S.D.Burnaşovun 1787-ci ildə P.S. Potyomkinə unvanlanan məktubunda göstərilirdi ki, bütün məlikləri həbs edən İbrahimxəlil xan onların xəyanətlərinin üstünü açmağa nail olmuşdur. Məliklər etiraf etmişdilər ki, onlar doğrudan da Rusiyanın köməyilə Qarabağda erməni dövləti yaratmağa çalışırlar.

Lakin görülən bu tədbirlərə baxmayaraq, İbrahimxəlil xan məlikləri tamamilə zərərsizləşdirməyə nail ola bilmədi. Şuşa həbsxanasından qaçan Məlik Məclum və məlik Abov II İraklinin himayəsinə sığındılar. Gəncə məsələsini öz xeyrinə həll etmək üçün əlverişli şəraitin yetişdiyini zənn edən gürcü çarı yürüşə başladı. Bu yürüşdə məliklərlə yanaşı, S.D.Burnaşovun başçılıq etdiyi rus taboru da iştirak edirdi. Lakin Osmanlı dövləti ilə yeni müharibənin başlanması ilə əlaqədar çar hökumətinin rus qoşunlarını geri

çağırmasına səbəb oldu. Bu da II İraklinin öz məqsədinə çatmasına imkan vermədi.

Bu dövrdə Fətəli xanın Cənubi Azərbaycana yürüş etmək və bu torpaqları öz xanlığına birləşdirmək planları da Rusiyanın İran siyasəti ilə uyğunluq təşkil edirdi. Doğrudur, Rusiyanın hakim dairələri Fətəli xanın çox güclənməsini də istəmirdilər. Onlar yaxşı bilirdilər ki, Quba xanı hətta Rusiyanın köməyi ilə bütün «İrana sahib olsa» belə, Bakı və Dərbəndi bu dövlətə güzəştə getməyəcəkdir. Bununla belə, Osmanlı dövləti ilə müharibənin tezliklə başlayacağı ehtimalı Rusiyaya İranda getdikcə güclənməkdə olan Ağa Məhəmməd xana qarşı qüvvə ayırmağa imkan vermirdi. Əlimurad xandan fərqli olaraq, Ağa Məhəmməd xanın Rusiyaya heç bir ərazi güzəşti etməyəcəyinə bu dövlətdə tam yəqinlik olmasına baxmayaraq Murtuzaqulu xanın öz qardaşına qarşı mübarizə üçün kömək xahişi məhz bu səbəbdən cavabsız qalmışdı.

1787-ci ildə Fətəli xanın Rusiyanın diplomatik dairələrində yaxşı tanınan nümayəndəsi Mirzə Sadıq P.S.Potyomkinin Şimali Qafqazda yerləşən qərargahına gəldi. Xan Mirzə Sadıq vasitəsilə göndərdiyi məktubunda Rusiyanı İrana qarşı birgə hərbi yürüş təşkil etməyə çağırırdı. Fətəli xan rus diplomatlarını inandırmağa çalışırdı ki, yürüş Rusiya üçün böyük fayda verəcəkdir. P.S.Potyomkin bu təklifi cavabsız qoysa da, Fətəli xanın elçisinə Quba xanlığının Rusiyanın himayəsi altına keçməsini rəsmiləşdirmək üçün sənədlər təqdim etdi. Bu əslində Rusiyanın Fətəli xanın Cənubi Azərbaycana yürüşünə razılıq verməsi demək idi.

Rusiyadan heç bir yardım ala bilməyən Murtuzaqulu xan kömək üçün Azərbaycan xanlarına, ilk növbədə qubalı Fətəli xana müraciət etməli oldu. Yaranmış şəraiti öz planlarını həyata keçirmək üçün əlverişli hesab edən Quba xanı bundan istifadə etmək qərarına gəldi. 1788-ci ildə Fətəli xan və ondan asılı olan Lənkəran xanı, təxminən 1000 nəfərlik qoşunla Murtuzaqulu xana yardım göstərdilər.

Eyni zamanda Xəzər dənizinin cənubda kapitan-leytenant Akleçevin komandanlığı altında bir rus hərbi gəmisi ona dəstək

verirdi. Murtuzaqulu xan, qısa müddətə də olsa, Gilanda öz hakimiyyətini bərpa edə bildi. Az sonra o, Ağa Məhəmməd xanın daha böyük bir ordusunu məğlub edərək geri çəkilməyə məcbur etdi. Onun qazandığı bu uğurda, şübhəsiz ki, Fətəli xanın da rolu var idi. Həlledici döyüş zamanı Ağa Məhəmməd xana yaxınlıqları ilə seçilən Rza xan və Abbas xan əsir götürüldülər. Murtuzaqulu xan onları əsirlikdə saxlamaqla özünün Ağa Məhəmməd xanın girovluğunda olan ailəsinin təhlükəsizliyini təmin etmək istəyirdi.

Murtuzaqulu xan vasitəsilə əldə edilən bu qələbə Fətəli xanı daha da ruhlandırdı və onu Cənubi Azərbaycana yürüşə hazırlıq işlərini daha da sürətləndirməyə vadar etdi. O, qarşıda duran yürüşün detallarını müzakirə etmək üçün II İraklii ilə bir daha görüşmək qərarına gəldi. 1789-cu ilin əvvəllərində Şəmkir çayı sahilində baş verən görüş zamanı qərara alındı ki, II İrakli Cənubi Qafqazda siyasi sabitliyə nəzarət etsin, Fətəli xan isə Cənubi Azərbaycana yürüşə başlasın. Lakin həmin görüş zamanı xəstələnən ***Fətəli xan 1789-cu il martın 22-də Bakıda vəfat etdi***. Beləliklə, qəfil ölüm Fətəli xanın planlarını yarımçıq qoydu.

## 2.2.XVIII əsrin 90-cı illərində Rusiya və Qacarlar dövlətləri arasında qarşıdurmanın daha da güclənməsi

***1787-1791-ci illər Rusiya-Türkiyə müharibəsi*** Rusiyanın Qafqaz siyasətində böyük dəyi- şiklik yaratmadı. İlk baxışdan belə görünürdü ki, bu müharibədə əldə edilən qələbə nəticəsində Qara dənizdə tamamilə möhkəmlənən Rusiya özünün Qafqaz siyasətində daha böyük fəallıq göstərməyə başlayacaq. Osmanlı dövlətinnin Qafqazda gedən proseslərə müdaxiləsinin minimuma endirilməsi də belə düşünməyə əsas verirdi. Lakin heç də belə olmadı. Rusiyanın Qafqaz siyasətində XVIII əsrin 80-ci illərinin ortalarından başlanmış süstlük göstərilən müharibədən sonra da davam etməkdə idi. Tədqiqatçıların bir çoxu bunun səbəbini bu dövrdə Rusiya xarici siyasətinin əsas diqqətinin Qərbi Avropada gedən siyasi proseslərə cəlb olunması ilə izah edirlər. Doğrudan da bu dövrdə rus

diplomatiyası Böyük Fransa burjua inqilabına (1789-1794) qarşı mübaprizəyə və Polşanın bölüşdürlüməsinə böyük diqqət verirdi. Lakin məsələ yalnız bununla bitmirdi.

*Böyük Fransa burjua inqilabına (1789-1794)* qarşı mübarizə şəraitində Rusiyanın İngiltərə ilə yaxınlaşması daha intensiv xarakter alırdı. Hakimiyyətin yuxarı eşalonunda getdikcə güclənən ingilispərəst qüvvələr Rusiyanın şərq ölkələri ilə əlaqələrinin əhəmiyyətini azaldır və hökuməti daha çox İngiltərə ilə münasibətləri gücləndirməyə sövq edirdilər. Bu işdə özlərinin ingilispərəst mövqeləri ilə seçilən Voronsovlar ailəsi xüsusi fəallıq göstərirdi. Rusiyanın müxtəlif quberniyalarında çox böyük mülklərə, dəyirmanlara, balıq vətəgələrinə, fabrik və zavodlara sahib olan bu ailə istehsal etdiyi məhsulun böyük hissəsini İngiltərə bazarına çıxarır və çox böyük gəlir götürürdü. Onu da qeyd etmək lazımdır ki, hökumətdə yüksək vəzifələr tutan Voronsovların Rusiyanın xarici siyasət kursunun müəyyənləşdirilməsində böyük rolu var idi. Təkcə onu göstərmək kifayətdir ki, bu ailənin üzvü olan M.U.Voronsov kansler, A.R.Voronsov Kommers-Kollegiyanın sədri, S.R.Voronsov isə Rusiyanın İngiltərədəki səfiri vəzifəsini tutmuşdular.

Hökumətdə yüksək vəzifələr tutan ingilispərəst qüvvələr, ilk növbədə onların iradəsinin ifadəçisi olan səfir S.R.Voronsov XVIII əsrin 90-cı illərində Rusiyanın şərq siyasətini hər vasitə ilə gözdən salır, əsas diqqəti Qərb ölkələri ilə həm siyasi, həm də iqtisadi əlaqələrin gücləndirilməsinə yönəldirdi. Onun fikrincə nə Qara dəniz, nə də Cənubi Qafqaz Rusiyanın mənafeləri baxımından elə də böyük əhəmiyyət kəsb etmirlər. O, öz məktublarının birində yazırdı ki, Baltik dənizindəki Helsinqfors və Sleaborq limanlarını «otuz Krımlara» dəyişməz.

S.R.Voronsov Rusiyanın Qafqaz siyasəti haqqında da eyni fikirdə idi. O, hələ 1786-cı ildə yazırdı ki, gürcüləri müdafiə etməklə Rusiyanın hansı maraqlarının ödəniləcəyi onun üçün anlaşılmaz olaraq qalır. Onun fikrincə, Rusiyadan çox uzaqda yerləşən Gürcüstana dəstək olmaq Rusiya üçün həm iqtisadi, həm də siyasi cəhətdən sərfəli deyildir.

Göründüyü kimi, XVIII əsrin 90-cı illərində Rusiyanın xarici siyasət kursunun müəyyənləşdirilməsində hökumətdəki ingilispərəst qüvvələr mühüm rol oynayırdılar. Əslində ingilis diplomatiyasının özü tərəfindən yaradılmış bu vəziyyətdən İngiltərə hökuməti məharətlə istifadə edirdi. Bir tərəfdən ölkə iqtisadiyyatının xammala olan tələbatı tam ödənilir, digər tərəfdən isə İngiltərə hökuməti Fransa burjua inqilabına qarşı mübarizədə güclü müttəfiq əldə edirdi. 1793-cü ildə Rusiya Fransanın digər ölkələrlə ticarət əlaqələrini kəsməklə İngiltərəyə kömək göstərmək üçün Aralıq dənizinə donanma göndərdi. Rusiyanın xarici siyasət kursunda müşahidə edilən bu vəziyyət, şübhəsiz ki, onun Qafqazda fəallığının xeyli azalmasına səbəb olurdu.

Lakin bu heç də Rusiyanın özünün Cənubi Qafqazdakı maraqlarından tamamilə imtina etməsi demək deyildi. Əsas diqqəti Qərbi Avropada gedən proseslərə yönəltməsinə baxmayaraq, rus diplomatiyası Cənubi Qafqazın, o cümlədən Azərbaycan torpaqlarının Qacarlar dövlətinin hakimiyyəti altına düşməsi perspektivini yaxına buraxmaq istəmirdi. Cənubi Qafqazın tamamilə işğalı üçün kifayət qədər qüvvə ayıra bilməyən çar hökuməti bölgədəki qeyri-müəyyənliyin və pərakəndəliyin olduğu kimi qorunub saxlanmasına daha çox maraq göstərirdi. Azərbaycanın şimal xanlıqlarının əksəriyyəti ilə əlaqə saxlayan rus diplomatiyası onların daha çox dinc vasitələrlə Rusiyanın təsiri altında qalmalarına çalışırdı. Ayrı-ayrı xanlarla aparılan yazışmalarda Rusiya hökuməti özünü Azərbaycan xanlarının dostu, onların müstəqilliklərinin və təhlükəsizliklərinin təminatçısı kimi göstərmək istəyirdi. Bu dövrdə ***Rusiyanın Azərğaycanda yeritdiyi siyasətdə iki məqam*** *diqqəti xüsusilə cəlb edir.* ***Birinci***, Azərbaycan xanlarını Qacarlar təhlükəsi ilə qorxudaraq onların Rusiyanın himayəsini qəbul etmələrinə nail olmaq. İmperatriçanın yanında fəaliyyət göstərən Dövlət Şurasının qəbul etdiyi qərarlardan birində göstərilirdi ki, Azərbaycan xanları arasında gedən ara müharibələrinə müdaxilə etmədən onların Rusiya himayəsini qəbul etmələrinə nail olmaq lazımdır. ***İkinci məqam*** Rusiyanın Azərbaycanda yeritdiyi siyasətin təcavüzkar,

işğalçı mahiyyətini aydın şəkildə göstərir. Qafqaz xəttində rus qoşunlarının komandanı vəzifəsində P.Tekellini əvəz etmiş general İ.Qudoviçə göndərilmiş hökumət təlimatında bu özünü daha aydın göstərirdi. Hökumət yeni komandandan Rusiyanın yeritdiyi siyasətə tərəfdar çıxmayan Azərbaycan xanlarını cəzalandırmağı tələb edirdi. Bu məqsədlə xanların qarşı-qarşıya qoyulması, lazım gələrsə, silahdan istifadə etmək tövsiyyə edilirdi.

Bütün bunlara baxmayaraq, XVIII əsrin 90-cı illərinin I yarısında Rusiyanın Azərbaycan və xüsusilə Qacarlara münasibətdə yeritdiyi siyasətdə qeyri-müəyyənlik özünü aşkar şəkildə göstərirdi. Hökumətin aydın siyasi xəttinin olmaması yerlərdə fəaliyyət göstərən rus hərbçiləri və diplomatları üçün böyük çətinliklər yaradırdı. İstər Xəzər dənizindəki rus hərbi donanmasının komandanı kapitan P.Şişkin, istərsə də general İ.Qudoviç Ağa Məhəmməd xanın Şimali Azərbaycana hücumu təqdirində necə hərəkət edəcəklərini bilmirdilər. Bu baxımdan kapitan Şişkinin İ.Qudoviçə ünvanlanmış 27 avqust 1791-ci il tarixli raportu xüsusi maraq doğurur. Ağa Məhəmməd xanın öz düşmənləri üzərində çaldığı qələbələrdən, Murtuzaqulu xanın Gilandan qovulmasından bəhs edən Şişkin Qacar hakiminin son yeddi il ərzində rus tacirlərinə heç bir ziyan vurmadığını xüsusi qeyd edirdi. Ən başlıcası isə o, Qudoviçdən «Ağa Məhəmməd xanın güclənməsinə yol verməmək, onun tədbirlərinə mane olmaq, qüvvələrini necə və nə ilə məhdudlaşdırmaq üçün hansı ölçülərin görülməsi» haqqında təlimat verilməsini xahiş edirdi.

Əldə olan məlumatlar göstərir ki, bu dövrdə Rusiya hökuməti Cənubi Qafqazda və İranda gedən siyasi proseslər haqqında operativ məlumata malik deyildi. Bu sahədə vəziyyətin hədsiz dərəcədə pis olmasından ciddi narahat olan II Yekaterina yazırdı ki, Amerika və Sibirdən məlumatları Qafqaza nisbətən daha tez almaq mümkündür. Görünür elə bunun nəticəsi idi ki, XVIII əsrin 90-cı illərində Rusiya hökumətinin Cənubi Qafqaza və İrana dair qəbul etdiyi bəzi qərarlar gecikmiş xarakteri daşıyır və heç də həmişə dəyişmiş şəraitə uyğun olmurdu. Ağa Məhəmməd

xanın bütün İranı və Cənubi Qafqazın ələ keçirilməsi üçün bütün qüvvələri səfərbər etmək işlərinə başladığı bir şəraitdə çar hökuməti onun hələ də Rusiyanın mənafelərinə zidd olan hər hansı bir addım atacağına inanmırdı. İ.Qudoviçin «Ağa Məhəmməd xan Rusiya əleyhinə aşkar düşmənçiliklə çıxış edərsə, necə hərəkət etməli» sorğusuna hökumətin birbaşa cavab verməməsini də bu arxayınçılıqla izah etmək lazımdır.

*İ.Qudoviçin sorğusu* 1792-ci il mayın 28-də imperatriça yanında fəaliyyət göstərən Dövlət Şurasının xüsusi iclasında müzakirə edildi və belə bir fikir ifadə olundu ki, hazırki şəraitdə Ağa Məhəmməd xanın Rusiyanın mənafelərinə zidd addım atacağı gözlənilmir. Şuranın bu münasibətlə qəbul etdiyi qərarda göstərilirdi ki, Qacarlar hakiminin Rusiyaya qarşı düşmənçilik nümayiş etdirmədiyi bir şəraitdə onun əleyhinə hər hansı bir addım atmaq məqsədəuyğun deyildir. Əksinə, Qudoviçə məsləhət görülürdü ki, Qacarların başçısı ilə mülayim rəftar etsin və onu Rusiyanın himayəsi altında olan xanların üzərinə hücum etmək fikrindən çəkindirsin. Bununla belə, Dövlət Şurası İ.Qudoviçə bəzi ehtiyat tədbirləri görməyi də məsləhət görürdü. O, Ağa Məhəmməd xanın hücumunun baş verəcəyi təqdirdə Azərbaycan xanlarının ona qarşı birgə çıxış etmələrinə çalışmalı idi.

Rusiyanın hakim dairələrində hökm sürən arxayınçılığın bir səbəbi də onların Qacarlar ordusu haqqında çox pis fikirdə olmaları ilə bağlı idi. Belə bir fikrin yaranmasında İ.Qudoviçin hökumətə verdiyi yanlış məlumatlar az rol oynamamışdı. O yazırdı ki, İran ordusunun silahları ancaq fitilli tüfənglərdən və zəif toplardan ibarətdir. Öz fikrinə davam edən general göstərirdi ki, tamamilə intizamsız kütlədən ibarət olan bu ordu ilə Ağa Məhəmməd xan heç İrəvan və Qarabağ xanlıqlarını da ələ keçirə bilməz.

Rusiyanın hakim dairələrindəki bu arxayınçılığa baxmayaraq Cənubi Qafqaz hakimlərinin vəziyyəti sürətlə ağırlaşırdı. Artıq İran və Cənubi Azərbaycanı itaət altına alan Ağa Məhəmməd xan Qacar Cənubi Qafqazın ələ keçirilməsini yaxın gələcəyin işi hesab edirdi. Öz hakimiyyətini bu bölgəyə yaymaq məsələsində çox qətiyyətli

olan Qacarlar hakimi bu zaman həm Rusiya, həm də Osmanlı faktorunu nəzərə almaya bilməzdi. O, diplomatik yollarla bu dövlətlərin Cənubi Qafqaz məsələsində tutduqları mövqeni yumşaltmağa, onlarda yarana biləcək hərbi münaqişələrin qarşısını almağa çalışırdı. 1791-ci ildə Ağa Məhəmməd xan II Yekaterinaya Rusiya ilə münasibətləri ən yüksək səviyyəyə qaldırmaq niyyətində olduğunu bildirmişdi. Az sonra isə Rusiya ilə qədim tarixə malik olan əlaqələri kəsməmək haqqında Qacarlar dövləti ayrıca qərar qəbul etmişdi.

Ağa Məhəmməd xan Cənubi Qafqaza sahib olmaq məsələsində Osmanlı dövlətinin hansı mövqedə dayanacağına məsələsinə daha böyük əhəmiyyət verirdi. Onun bu məqsədlə İstanbula göndərdiyi elçi sultan hökumətini öz hökmdarının planları ilə tanış etməli idi. Elçi Gürcüstan məsələsi üzərində xüsusi dayanaraq bildirirdi ki, bu ölkə hələ qədim zamanlardan İrana məxsus olduğundan Ağa Məhəmməd xanın oraya hücumuna türk hökuməti etiraz etməməlidir. O, eyni zamanda Ağa Məhəmməd xanın türk sultanına onu İran şahı kimi tanınması arzusunda olduğunu bildirmişdi.

Rusiyanın İstanbuldakı səfiri M.İ.Kutuzov Osmanlı-Qacarlar danışıqlarının nəticələri haqqında öz hökumətinə digər mənbələrlə təsdiq olunmayan, bununla belə xeyli maraq doğuran məlumat vermişdi. Səfir yazırdı ki, türk sultanı Ağa Məhəmməd xanın təklifləri ilə tamamilə razılaşmış və onu Gürcüstanı işğal etdikdən sonra İran şahı kimi tanıyacağına söz vermişdi. Təəccüblü burasıdır ki, Osmanlı sultanı Ağa Məhəmməd xanın irəli sürdüyü təklifləri qeyd-şərtsiz qəbul etmişdi.

Osmanlı-Qacarlar danışıqları haqqında kifayət qədər yazılı məlumatların olmaması danışıqlar zamanı müzakirə edilmiş məsələlər haqqında qəti və konkret fikir söyləməyə imkan vermir. Sonralar çar hökumətində və rəsmi rus tarixşünaslığında bu danışıqların məzmunu haqqında söylənilən fikirlər isə koknret faktlardan daha çox ehtimallara əsaslanır. Bu ehtimalların əsasını isə Ağa Məhəmməd xanın 1795-ci ildə İrəvan xanlığının ərazisindən keçməklə Gürcüstana yürüşü zamanı Osmanlı dövləti-

nin sərhədlərində yaranmış duruma əsaslanır. II Yekaterina 1796-cı il fevralın 19-da Azərbaycana yürüş üçün nəzərdə tutulmuş orduya komandan təyin edilən V.Zubovun adına göndərdiyi buyruqda yazırdı ki, Qacarlar hakimi bu yürüş zamanı Diyarbəkir, Bəyazit, Qars və Ərzurum paşalıqları ilə həmsərhəd torpaqlardan keçsə də heç bir yerdə türk sərhədlərini pozmamışdı. Sultan hökuməti ilə Qacarlar hakimi arasında gizli razılaşma olduğuna işarə verən imperatriça göstərirdi ki, sərhədyanı türk paşaları Qacarlar ordusunun türk sərhədlərini pozmaması müqabilində bu ordunu lazımi ərzaq və sursatla təmin edirdilər. Onun fikrincə yürüş zamanı səfərbər olunmuş türk ordusu Osmanlı sərhədlərinin təhlükəsizliyinin təmin edilməsindən daha çox Qacarlar ordusuna lazımi hərbi kömək göstərmək üçün nəzərdə tutulmuşdu.

Cənubi Qafqaz məsələsində Osmanlı dövlətinin, ən azı, bitərəf qalacağına getdikcə daha çox əmin olan Ağa Məhəmməd xan, Rusiyanın da belə mövqe nümayiş etdirəcəyinə ümid bəsləyirdi. Maraqlı burasıdır ki, Qacarlar hakimi Rusiya ilə saxladığı diplomatik münasibətlər zamanı nə Gürcüstanı, nə də Azərbaycanın şimal xanlıqlarını danışıqlar predmetinə çevirməmişdi. Əslində o, bununla göstərilən ərazilərin Rusiyaya heç bir dəxli olmadığını nümayiş etdirirdi.

*1791-ci ildə Cənubi Azərbaycanın işğalını başa çatdıran Ağa Məhəmməd xan* növbəti ildə Şimali Azərbaycana yürüş edəcəyi haqqında xəbərlər yaymağa başladı. Lakin 1792-ci ildə İsfahan uğrunda Lütfəli xan Zəndlə müharibə ona bu planını göstərilən vaxtda həyata keçirməyə imkan vermədi. Bununla belə, onun tezliklə Cənubi Qafqaza hücum edəcəyi haqqında xəbərlər Azərbaycan xanları arasında ciddi təşvişə səbəb oldu. Müstəqillikləri üçün yaranan təhlükənin çox real olduğunu başa düşən həmin xanlar bir tərəfdən öz qüvvələrini birləşdirməyə cəhd göstərir, digər tərəfdən isə kömək üçün Osmanlı dövləti və Rusiyaya müraciət edirdilər. Hadisələrin gedişi göstərir ki, Osmanlı dövlətinin Ağa Məhəmməd xanla danışıqlarından xəbərsiz olan Azərbaycan xanları Rusiyanın yox, məhz bu dövlətin köməyinə

daha çox ümid bəsləyirdilər. Bu öyrənilən dövrdə guya Azərbaycanda Rusiyaya güclü meylin olması haqqında Sovet tarixşünaslığında geniş təbliğ olunan fikirlərin heç bir əsası olmadığını sübut edir.

Şimali Azərbaycan xanlıqlarının Ağa Məhəmməd xanın gözlənilən hücumuna qarşı mübarizənin təşkilatçısı kimi qarabağlı İbrahimxəlil xan çıxış etdi. Onu da göstərmək lazımdır ki, qubalı Fətəli xanın ölümündən sonra İbrahimxəlil xan Cənubi Qafqazın ən güclü hökmdarlarından birinə çevrilmişdi. Bununla belə o, Ağa Məhəmməd xana qarşı təkbaşına mübarizə aparmağın mümkün olmadığını yaxşı başa düşürdü. O, həm də yaxşı bilirdi ki, Qacarlar hakiminin hücumu təqdirində dağıntılara məruz qalan ilk ərazilərdən biri Qarabağ olacaqdır. Azərbaycanın Lənkəran və İrəvan xanlıqları da belə vəziyyətdə idilər. Lənkəran xanlığının vəziyyəti xüsusilə ağır idi. Bu xanlığın başçısı olan Mir Mustafa xan daima Ağa Məhəmməd xanın düşmənlərinə, ilk növbədə isə Murtuzaqulu xana yardım göstərdiyinə görə onun qəzəbinə düçar olmuşdu. 1791-ci ildə Lənkəran xanı Murtuzaqulu xanla birlikdə 12 minlik Qacarlar ordusunun məğlub edilməsində iştirak etmişdi. Göründüyü kimi, Ağa Məhəmməd xanın hücumuna qarşı birgə mübarizə zərurəti Qarabağ, Lənkəran və İrəvan xanlıqlarını təbii müttəfiqlərə çevirirdi. İbrahimxəlil xanın təşəbbüsü ilə yaranan ittifaqa Qarabağ, Lənkəran və İrəvan xanlıqlarından başqa Kartli-Kaxetiya çarı II İrakli və Avar hakimi Ümmə xan da daxil olmuşdular.

Lakin bir tərəfdən göstərilən hakimlərin vacib anda öz qüvvələrini lazımi yerdə cəmləşdirə bilməmələrinin çətinliyi, onların bir-birinə inamsızlığı birləşmiş qüvvələrin Ağa Məhəmməd xanın çox güclü ordusunun hücumuna tab gətirəcəyinə ümidləri azaldırdı. Türk mənbələrindən birində göstərilirdi ki, bütün Azərbaycan və Dağıstan hakimləri öz aralarında razılığa gəlib qüvvələrini birləşdirsələr belə, təxminən 30-40 min nəfərlik bir ordu yarada bilərlər. Bu isə təkcə daimi hərbi birləşmələrinin sayı 40-50

min nəfər olan və daha yaxşı silahlanan Ağa Məhəmməd xanın ordusunun qarşısını almaq üçün heç də yetərli deyildi.

Yaranmış vəziyyət Azərbaycan xanlarını kömək üçün Osmanlı dövlətinə müraciət etməyə vadar edirdi. Hələ 1787-1791-ci illər Rusiya-Osmanlı müharibəsinin gedişində Qacarlar təhlükəsinin güclənməsiindən narahat olan Qarabağ və İrəvan xanları kömək üçün sultan III Səlimə (1789-1807) müraciət etmişdilər. Qacarlar təhlükəsinin getdikcə güclənməsi ilə əlaqədar sonralar belə müraciətlər daha intensiv xarakter almışdı. İbrahimxəlil xan sultan III Səlimə ünvanlanmış məktublarından birində yazırdı ki, Ağa Məhəmməd xan tezliklə «Araz çayını keçərək əvvəlcə mənim, sonra İrəvan xanı Məhəmməd xanın, daha sonra isə Gürcüstan üzərinə hücum» edəcəkdir. İbrahimxəlil xan məktubda əlavə edirdi: «Sizdən ricam budur ki, bizləri qoruyub, bizə kömək və insaniyyətinizi əsirgəməyəsiniz».

*1793-cü ildə Ağa Məhəmməd xan Azərbaycanın şimal xanlıqlarını ələ keçirmək üçün* ***ilk*** *cəhd göstərdi. O, öz sərkərdəsi Süleyman xan vasitəsilə İrəvan, Naxçıvan, Qarabağ və Quba xanlarına müraciət edərək onları Qacarlara tabe olmağa çağırdı.* Ağa Məhəmməd xan bu xanları həm də Gürcüstana planlaşdırdığı yürüşdə iştirak etməyə dəvət edirdi. Lakin, Qacarlar hakiminin bu cəhdi uğursuzluqla nəticələndi.

*1794-cü ildə Qacarlar dövləti Azərbaycanın şimal xanlıqlarını tabe etmək üçün* ***ikinci*** *cəhd göstərdi.* 4 min nəfərlik Qacar ordusu Xudafərin körpüsünü keçərək Qarabağ xanlığının ərazisinə daxil oldu. Lakin Ağa Məhəmməd xan Qacar bu dəfə də müvəffəqiyyət qazana bilmədi. Qarabağ xanlığının və Kartli-Kaxetiya çarının birləşmiş qüvvələri bu ordunu məğlubiyyətə uğradaraq geri çəkilməyə məcbur etdi. Bununla belə, Azərbaycan xanları yaxşı başa düşürdülər ki, göstərilən uğursuzluqlar Ağa Məhəmməd xanı düşündüyü planı həyata keçirməkdən çəkindirməyəcək. Doğrudan da, 1794-cü ildə zəndlərin sonuncu nümayəndəsi Lütfəli xan üzərində Kirmanda qəti qələbə çalan

Qacar hakimi öz nəzərlərini yenidən Azərbaycanın şimal xanlıqlarına yönəltdi.

Osmanlı mənbələrinin məlumatlarından aydın olur ki, Azərbaycan xanları nəinki Ağa Məhəmməd xanın tezliklə hücuma başlayacağı haqqında xəbərdar idilər, hətta onun hansı istiqamətlər üzrə hərəkət edəcəyini də bilirdilər. 1795-ci ildə İstanbulda olmuş İrəvan hakimi Məhəmməd xanın elçisi Hacı Zeynal ağa bildirirdi ki, Ağa Məhəmməd xan ramazan ayının sonlarında Tehrandan çıxaraq Qarabağ xanlığı ilə İrəvan xanlığı arasında yerləşən Göyçə gölünün ətrafına gələcək və buradan İrəvan, Gəncə, Qarabağ xanlıqları və Kartli-Kaxetiya çarlığı üzərinə yürüşlər təşkil edəcək. Elçi daha sonra bildirirdi ki, Qacarlar hakiminin bu hücumunun qarşısını almaq üçün qarabağlı İbrahimxəlil xan, gəncəli Cavad xan, Kartli-Kaxetiya çarı II İrakli, şəkili Məhəmmədhəsən xan (mənbədə Məhəmmədhəsən xan səhvən Şirvan xanı kimi göstərilir – H.H.), şamaxılı Mustafa xan və Avar hakimi Ümmə xan öz aralarında razılığa gəlmişlər. Xan Osmanlı sultanından xahiş edirdi ki, hərbi əməliyyatlar zamanı İrəvan xanlığının əhalisini qətl və qarətlərdən xilas etmək üçün onlara Osmanlı ərazisində sığınacaq verilsin.

İrəvan xanının elçisi ilə təxminən, eyni vaxtda İbrahimxəlil xanın elçisi Seyid Abdulla Çələbi də İstanbulda olmuş və öz xanının məktubunu türk sultanına təqdim etmişdi. Qarabağ xanı öz məktubunda Ağa Məhəmməd xanla ona qarşı birləşmiş hakimlərin qüvvələr nisbətini müqayisə edir və sonuncuların qüvvələrinin Qacarlar hakiminin hücumunu dəf etmək üçün yetərli olmadığını bildirirdi. O, öz məktubunun sonunda osmanlı sultanından hərbi yardım göstərməsini xahiş edirdi.

Ağa Məhəmməd xanın hücum təhlükəsinin getdikcə gücləndiyi bir şəraitdə Quba, Bakı və Lənkəran xanlıqlarının yeritdikləri siyasət də xeyli maraq doğurur. Xəzər dənizi sahillərində yerləşən bu xanlıqlar Rusiyanın xarici siyasətində xüsusi yer tuturdular. Bir tərəfdən Xəzərsahili vilayətlərin xammalla zəngin olması, digər tərəfdən isə Dərbənd, Bakı və Lənkəran şəhərlərinin bir liman kimi mühüm əhəmiyyət kəsb etmələri ona

gətirib çıxarır ki, çar hökuməti bütün XVIII əsr ərzində bu xanlıqları diqqət mərkəzində saxlayırdı. Belə vəziyyət XVIII əsrin 90-cı illəri üçün də xarakterik idi. Bu dövrdə Rusiya Cənubi Qafqazda elə bir fəallıq göstərməsə də, Xəzərsahili vilayətlərə sahib olmaq fikrindən əl çəkməmişdi. İ.Qudoviç yazırdı ki, *mülkləri dənizin sahilində yerləşən bütün xanlar, hərbi yolla da olsa, Rusiyanın himayəsini qəbul etməyə məcbur edilməlidirlər.*

Həm də Azərbaycanın başqa xanlıqları ilə müqayisədə *mülkləri dənizin sahilində yerləşən* xanlıqlar Rusiya ilə daha çox təmasda idilər. Bir tərəfdən *coğrafi yaxınlıq*, digər tərəfdən isə *sıx ticarət əlaqələri* bu xanlıqların Rusiya ilə əlaqələrinin daha ardıcıl olmasına gətirib çıxarırdı. Bakı və Quba xanları Rusiya ilə ticarət əlaqələrindən böyük gəlir əldə edirdilər. Bu xanlar bəzi vaxtlarda öz aralarındakı münasibətləri həll etmək üçün də Rusiyaya müraciət edirdilər. Buna misal olaraq, qubalı Şeyxəli xanın və bakılı Hüseynqulu xanın 1791-ci ildə İ.Qudoviçə müraciətlərini göstərmək olar. Hər iki xan öz aralarındakı mübahisəni Rusiyanın köməyilə həll etmək istəyirdi. Çox təəssüf ki, sonralar da davam etmiş belə müraciətlər sovet dövrü tarixşünaslığında Azərbaycanda Rusiyaya güclü meylin olmasını təsdiq edən faktlar kimi qələmə verilmişdir. Qubalı Şeyxəli xanın timsalında bunun heç də belə olmadığını sübut etmək elə də çətin deyildir.

1791-ci ildə qardaşı Əhməd xanın (1789-1791) vəfatından sonra ***Quba xanı*** olmuş ***Şeyxəli xan (1791-1810)*** hakimiyyətinin ilk illərində əsas diqqəti atası Fətəli xanın ölümündən sonra müstəqil olmuş Bakı və Şamaxı xanlıqlarının yenidən asılı vəziyyətə salınmasına yönəltmişdi. O, bu məqsədlə Bakı hakimləri Məmmədqulu və Hüseynqulu xanla bir neçə il davam edən mübarizə aparmışdı. Gənc Quba xanı bu mübarizənin gedişində,yuxarıda göstərildiyi kimi, kömək üçün Rusiyaya bir neçə dəfə müraciət etmişdi. Lakin bu müraciətlərin heç birində Rusiyaya hər hansı ərazi güzəştindən və yaxud onun himayəsi altına keçməkdən söhbət getmirdi.

Şeyxəli xan Quba xanlığının himayəyə alınmasını xahişi ilə Rusiyaya ilk dəfə 1793-cü ildə müraciət etmişdi. Bu heç də bir çoxlarının iddia etdiyi kimi, Rusiyaya meylin təzahürü olmayıb Ağa Məhəmməd xanın Azərbaycana yürüş edəcəyi təhlükəsinin daha real olması ilə bağlı idi. Bununla belə, Şeyxəli xan İ.Qudoviçin razılığına baxmayaraq, Rusiyanın himayəsi altına keçməyi nəzərdə tutan andlı öhdəliyi imzalamaqdan imtina etmişdi. İ.Qudoviçin hesabatı əsasında Şeyxəli xanın müraciətini müzakirə edən Dövlət şurası 1794-cü ildə ona heç bir təzyiq göstərməmək haqqında qərar qəbul etmişdi.

1794-cü ildə Şeyxəli xanı yardım xahişi ilə Osmanlı dövlətinə müraciət etdi. Lakin real yardım göstərmək imkanından məhrum olan Sultan hökuməti, digər Azərbaycan xanlıqları kimi, Quba xanına da boş vəd verməklə kifayətləndi. Şeyxəli xan isə eyni vaxtda həm Osmanlı dövləti, həm Rusiya, həm də Qacar dövləti ilə diplomatik əlaqələr saxlayırdı. Himayə haqqında yazılı öhdəliyi imzalamaqdan imtina etməsinə baxmayaraq, Şeyxəli xan öz elçisi Mirzə Həsənin İ.Qudoviç tərəfindən Peterburqa göndərilməsinə nail oldu. Mirzə Həsənin Peterburqda olduğu bir vaxtda isə o, kömək üçün yenidən Osmanlı sultanına müraciət etdi. Şeyxəli xanın bu müraciətinin məqsədi Rusiyaya qarşı mübarizə aparmaq üçün vəsait almaq idi. Şeyxəli xan 1795-ci ilin mayında Dərbənddə Ağa Məhəmməd xanın elçisini böyük hörmətlə qəbul etmiş və onun vasitəsilə Qacarlar dövlətinin himayəsi altına keçməyə hazır olduğunu bildirmişdi.

Şeyxəli xanın davranışı ilk baxışda onun qonşu dövlətlərlə münasibətlərdə ardıcıl siyasət yeritməyən bir hakim olması təsəvvürünü yaradır. Lakin onun fəaliyyətini diqqətlə izlədikdə məsələnin heç də belə olmadığı aydınlaşır. Əslində isə Rusiya, Osmanlı və Qacarlar dövlətləri arasında manevr edən Şeyxəli xanın başlıca məqsədi öz müstəqilliyini qoruyub saxlamaq idi. Eyni zamanda o, bu dövlətlərdən alacağı yardım hesabına öz maliyyə vəziyyətini düzəltmək, vaxtilə Quba xanlığından asılı vəziyyətdə olmuş xanlıqları yenidən itaət altına almaq istəyirdi.

Təxminən, belə bir xarici siyasət Bakı xanlığı üçün də xarakterik idi. Bütün vasitələrlə Quba xanlığının asılılığından çıxmağa çalışan bakılı Hüseynqulu xan buna Rusiyanın köməyilə nail olmaq istəyirdi. Rusiya hökuməti yaranmış vəziyyətdən öz işğalçılıq məqsədlərini həyata keçirmək üçün istifadə etmək qərarına gəldi. Bununla belə, Rusiya hökuməti Bakı xanlığını öz himayəsinə almaq məsələsində çox ehtiyatlı hərəkət edirdi. Elə bu ehtiyatlılığın nəticəsi idi ki, Hüseynqulu xanın müraciəti bir il ərzində Rusiyanın müxtəlif hakimiyyət dairələrində müzakirə edildi. İlk dəfə müzakirə 1795-ci il fevralın 23-də Dövlət Şurasında olsa da qəti qərar qəbul etmək mümkün olmadı. Qubalı Şeyxəli xanın Bakı xanlığını öz ərazisi hesab etməsi və bu haqda Rusiya hökumətini məlumatlandırması Dövlət Şurasının qəti qərar qəbul etməsinə imkan vermədi.

1795-ci ilin martında Hüseynqulu xan Rusiya himayəsinə keçmək üçün növbəti dəfə müraciət etdi. Yalnız bundan sonra II Yekaterina hökuməti Bakı xanlığını öz himayəsi altına almağa razılıq verdi və Bakı xanına himayəçiliyin şərtlərini özündə əks etdirən ***andlı öhdəlik*** təqdim etdi. *Andlı öhdəliyə əsasən bundan sonra Bakı xanları və onların varisləri Rusiya hökuməti tərəfindən təsdiq edilməli, onlar Rusiyanın himayəsində olmayan dövlətlərlə Qafqaz xəttindəki rus qoşunları komandanının icazəsi olmadan əlaqəyə girməməli, xanlığın ərazisində rus tacirləri üçün normal şərait yaratmalı, Bakı limanında daima rus hərbi gəmisinin dayanmasına icazə verməli, mübahisəli məsələləri rus konsulu ilə birgə həll etməli və Quba xanlığına xərac ödəməkdə davam etməli idilər* . Göründüyü kimi, Rusiya hökuməti hətta Ağa Məhəmməd xanın yürüşdə olduğu bir dövrdə belə öz ehtiyatlı siyasətindən imtina etməmiş, Şeyxəli xanla münasibətləri kəskinləşdirmək istəməmişdi. Bakı xanının irəli sürülən bu şərtlərlə Rusiyanın himayəsinə keçməyə razı olmasına baxmayaraq, çar hökuməti son nəticədə andlı öhdəliyi təsdiq etməkdən imtina etdi. Çox güman ki, bu rus ordusunun Cənubi Qafqaza planlaşdırılan yürüşü ilə bağlı idi.

Rusiyanın Cənubi Qafqazda göstərdiyi qeyri fəallıq, Osmanlı dövlətinin isə bölgəyə təsir imkanlarının hədsiz dərəcədə məhdudlaşması Ağa Məhəmməd xanın planlarının həyata keçirilməsi üçün əlverişli şərait yaradırdı. Qacarlar dövləti ilə Osmanlı dövləti arasında Cənubi Qafqaz məsələsində razılaşmanın əldə edildiyini təsdiq edən rəsmi sənəd olmasa da, hadisələrin gedişi göstərir ki, türk sultanı Ağa Məhəmməd xanın bu bölgənin işğalına, şifahi şəkildə də olsa, xeyir-dua vermişdi. Maraqlı burasıdır ki, Azərbaycan xanlarının əksəriyyəti Osmanlıdan Ağa Məhəmməd xana qarşı mübarizə üçün kömək istədikləri halda sultan III Səlim onları öz qüvvələrini Rusiyaya qarşı birləşdirməyə çağırırdı. O, Azərbaycan xanlarının çoxsaylı müraciətlərinə göndərdiyi cavablarından birində yazırdı ki, rusların məqsədi bizim qanunlarımızı alt-üst etməkdən ibarətdir. Ona görə də ayıq olun, onların fitnəsinə uymayın. Osmanlı hökuməti Cənubi Qafqazda gedən proseslərə münasibətdə daha çox seyrçi mövqe tutmuş və tərəflərdən hər hansı birinə yardım etməmək haqqında qərar qəbul etmişdi.

Artıq Osmanlı dövlətinin Cənubi Qafqaz məsələsində heç bir maneçilik törətməyəcəyinə əmin olan Ağa Məhəmməd xan üçün ən əhəmiyyətli iş Rusiyanın mövqeyini öyrənmək idi. Bu məqsədlə o, özünün iki nəfər edçisini İ.Qudoviçin Georgiyevsk şəhərindəki iqamətgahına göndərdi. Lakin onlara Ağa Məhəmməd xanın səlahiyyətli nümayəndələri olduqlarını təsdiq edən heç bir rəsmi sənəd verilməmişdi. Bu səfirlik haqqında əldə olan məlumatların təhlili əsasında *elçilərin qarşısında aşağıdakı vəzifələrin qoyulduğunu ehtimal etmək olar*: ***birinci,*** Rusiyanın hakim dairələrinə Ağa Məhəmməd xanın Cənubi Qafqaza hücum etmək fikrində olmadığına inandırmaq; ***ikinci,*** Rusiyanın himayəsinə sığınmış Murtuzaqulu xanın əsirliyində olan Abbas xanı azad etmək; üçüncü, Ağa Məhəmməd xanın Rusiya ilə ticarət əlaqələrini inkişaf etdirməkdə maraqlı olduğunu sübut etmək; dördüncü Qafqaz xəttindəki rus ordusunun sayı və vəziyyəti haqqında məlumat toplamaq.

Rusiyanın hakim dairələri Ağa Məhəmməd xanın elçilərinin soyuq qarşılasalar da, onlar öz qarşılarına qoyulan əsas vəzifələrin öhdəsindən gəldilər. Ağa Məhəmməd xan əmin oldu ki, Şimali Azərbaycana hücum edəcəyi təqdirdə burada rus ordusu ilə toqquşmalı olmayacaqdır.

Öz planlarının həyata keçirilməsi üçün mövcud vəziyyətin çox əlverişli olduğuna əmin olan ***Ağa Məhəmməd xan Qacar 1795-ci il yayın əvvəllərində üç istiqamətdən Şimali Azərbaycana yürüşə başladı***.

Ağa Məhəmməd xan Qacar 1795-ci ildə Cənubi Qafqaza təşkil etdiyi yürüş zamanı xeyli uğur qazansa da, son məqsədinə nail ola bilmədi. Bir tərəfdən yerli əhalinin göstərdiyi ciddi müqavimət, digər tərəfdən isə Rusiya ilə münasibətlərin həddsiz dərəcədə kəskinləşməsi Cənubi Qafqazın Qacarlar dövlətinin tərkibinə qatılmasına imkan vermədi. Ən başlıcası isə bu yürüş, indiyə qədər Ağa Məhəmməd xanın Cənubi Qafqaza yürüş etməyəcəyinə əmin olan Rusiyanı, gec də olsa, qəti addımlar atmağa məcbur etdi.

Ağa Məhəmməd xan Qacarın 1795-ci ildə Şimali Azərbaycana və Gürcüstana hücumu Rusiyanın hakim dairələrində ciddi təşviş yaratdı. Doğrudur, çar hökuməti Qacarlar ordusunun bu hücumundan olduqca gec xəbər tutdu. Bunu hökumətin Ağa Məhəmməd xanla necə davranmaq haqqında İ.V.Qudoviçə 1795-ci ilin sentyabrında göndərdiyi təlimatı da təsdiq edir. Qacarlar ordusunun artıq Tiflisin həndəvərinə çatmasından xəbərsiz olan hökumət İ.V.Qudoviçə məsləhət görürdü ki, II İrakliyə hərbi yardım göstərsin və başlıcası isə, Ağa Məhəmməd xanı Azərbaycana, xüsusilə onun Xəzərsahili vilayətlərinə hücum etməkdən çəkindirsin. Bu fakt göstərir ki, Rusiya hökuməti Azərbaycanın Xəzərsahili və ondan qərbdə yerləşən vilayətlərini, o cümlədən Dərbənd, Bakı, Lənkəran və Qarabağ xanlıqlarını ələ keçirməkdə çox israrlıdır. Rusiya höküməti vurğulayırdı ki, Ağa Məhəmməd xanı yalnız o vaxt şah kimi tanıya və hətta ona yardım göstərə bilər ki, o, göstərilən xanlıqların işğalından imtina edib, öz ordusunu türk torpaqlarına yönəltsin. Göründüyü kimi, Rusiya hökuməti

diplomatik vasitələrlə Ağa Məhəmməd xanı özünün nüfuz dairəsi də hesab etdiyi Azərbaycan torpaqlarına hücumdan çəkindirməyə və onu Osmanlı dövləti ilə toqquşdurmağa çalışırdı. Lakin Rusiya bu planlarını həyata keçirə bilmədi. Təlimat İ.V.Qudoviçə çatarkən Qacarlar ordusu artıq Tiflisi viran qoyub qışlamaq üçün Muğan düzünə gəlmişdi.

Qacarlar ordusunun hücumu xəbərini eşidən çar hökuməti onu cəzalandırmaq üçün Cənubi Qafqaza kiçik hərbi birləşmələr göndərmək qərarına gəldi. *1795-ci ilin dekabrında polkovnik Sıraxnevin başçılığı altında Gürcüstana 6 topu olan iki batalyon, Azərbaycanın Xəzərsahili vilayətlərinə isə 3365 nəfərlik hərbi birləşmə göndərdi.* Ağa Məhəmməd xanın, təxminən, *60 min nəfərlik ordusuna qarşı* belə kiçik hərbi birləşmələrin göndərilməsi Rusiyanın Cənubi Qafqazda gedən proseslərdən xəbərsiz olduğunu göstərirdi. Bunu çar hökuməti bir qədər sonra başa düşdü və şəraitə uyğun addımlar atmağa başladı. 1796-cı ilin qışında gənc general V.A.Zubovun komandanlığı altında Cənubi Qafqaza böyük ordu göndərmək haqqında qərar qəbul edildi. V.A.Zubovun qarşısında bir neçə vəzifə qoyulmuşdu. Bu vəzifələrdən biri *Cənubi Qafqazda xristian faktorunun gücləndirilməsinə* böyük önəm verirdi. ***Azərbaycanın İrəvan, Naxçıvan və Gəncə xanlıqlarının işğalı hesabına Kartli-Kaxetiya çarlığının sərhdəlrini Araz çayından Türkiyə sərhədlərinə qədər uzatmaq nəzərdə tutulurdu*.**

*V.A.Zubovun yürüşü zamanı qarşıya qoyulan vəzifələrdən biri də erməni məsələsi idi.* Şübhəsiz ki, bu məsələnin yenidən qabardılmasında Rusiyada yaşayan ermənilərin çox böyük rolu olmuşdu. Onlar yaranmış fürsətdən istifadə edərək Azərbaycan torpaqları hesabına erməni dövləti yaratmaq məsələsini yenidən gündəmə gətirmək istəyirdilər. Məhz onların təsiri nəticəsində II Yekaterinanın V.A.Zubova verdiyi əmrdə göstərilirdi ki, ***«…Qarabağın erməni məlikləri və əhalisi bizim Ararat patriarxının başçılığı ilə Rusiya himayəsinə daxil edilsin*»**. Bu göstərişi əldə rəhbər tutan V.Zubov 1796-cı ilin sonlarında Gəncəni işğal etmək üçün göndərdiyi general Rimski-Korsakova verdiyi əmrdə bildirirdi

ki, «bizim pravoslav məzhəbimiz xristianları müsəlmanların əsarətindən tezliklə xilas etməyi tələb edir».

Bununla belə, Rusiya hökuməti bu yürüş zamanı erməni məsələsini XVIII əsrin 70-80-ci illərində olduğu kimi kəskin və dəqiq formada qoymurdu. Əgər əvvəllər çar hökuməti Azərbaycan torpaqları hesabına erməni dövləti yaratmaq məsələsini özünün Qafqaz siyasətinin prioritet istiqamətlərindən biri hesab edirdisə, V.Zubovun yürüşü zamanı bu məsələyə münasibət çox ehtiyatlı xarakter daşıyır və mümkün qədər gizli saxlanılırdı. Elə bunun nəticəsi idi ki, V.Zubovun məsləhətçisi təyin edilmiş arxiyepiskop İ.Arqutinskinin onun xəbəri olmadan Qarabağ məliklərinə guya rus ordusunun «əsas məqsədi erməniləri müsəlmanların zülmündən azad etməkdir» sözləri ilə müraciət etməsi Rusiyanın hakim dairələrinin ciddi narazılığına səbəb olmuşdu. Rusiya erməni məsələsinin Azərbaycan xanları və əhalisi arasında ciddi narazılıq yaradacağından ehtiyat edir və hər vasitə ilə onun gizli saxlanılmasına çalışırdı. Bu məsələ V.Zubovun general Rimski-Korsakova verdiyi əmrdə daha aydın əks olunmuşdur. O yazırdı ki, müsəlmanların bu məsələ haqqında vaxtından əvvəl xəbər tutmalarına, bu məsələdən artıq xəbərdar olan Qarabağ məliklərinə və digər xristianlara isə vaxtından əvvəl çıxış etməyə imkan vermək olmaz.

Rusiya hökumətinin qarabağlı İbrahimxəlil xana münasibətində də dəyişiklik baş vermişdi. Əgər 80-ci illərdə II Yekaterina İbrahimxəlil xanı təcili olaraq devirmək və onun torpaqlarında erməni çarlığı yaratmaq tələb edirdisə, 1796-cı ildə V.A.Zubova «Ağa Məhəmməd xana möhkəm və mərdanə müqavimət göstərmiş şuşalı İbrahimxəlil xana yardım göstərmək» haqqında tapşırıq verirdi. *Bu bütövlükdə Rusiya hökumətinin Azərbaycan xanlarına və bölgənin müsəlman əhalisinə münasibətdə yeritdiyi hiyləgər siyasətin təzahürü idi.* Ağa Məhəmməd xana qarşı müsəlman əhalinin yaşadığı ərazilərdə uzun müddət müharibə aparacağını düşünən çar hökuməti artıq müsəlmanlarla xristianların ittifaqından dəm vurmağa başlamışdı, məqsəd bu qüvvədən Ağa

Məhəmməd xana qarşı istifadə etmək idi. II Yekaterina V.Zubova göstərişində yazırdı ki, «Ağa Məhəmməd xanın ordusunu hər yerdə məğlubiyyətə uğratmaq üçün Şuşa xanı bərpa edildikdən sonra onu Arazın sağ sahilinə keçirmək və burada onun Azərbaycan xanları ilə (Cənubi Azərbaycan xanları nəzərdə tutulur–H.H.) birləşərək Ağa Məhəmməd xanın devrilməsinə çalışmaq lazımdır».

***Rus ordusunun 1796-cı il yürüşünün əsas məqsədi, şübhəsiz ki, Azərbaycan və İran torpaqlarını işğal etmək idi.*** Çar hökuməti bu məqsədə çatmaq üçün ümumi sayı *33 min nəfərdən çox olan böyük bir ordu ayırmışdı.* ***İki korpusa ayrılan bu ordu Dərbənd və Dəryal keçidləri vasitəsilə Cənubi Qafqaza daxil olmalı və 1796-cı ilin yayına qədər Şimali Azərbaycanın işğalını başa çatdırmalı idi.*** V.Zubovun tabeçiliyinə verilmiş Xəzər hərbi donanması isə bu müddət ərzində Bakı və Gilanı işğal etməli və Gilanda Murtuzaqulu xanın hakimiyyətini bərpa etməli idi. Rus komandanlığı 1796-cı ilin payızında yenidən hərbi əməliyyatlara başlamağı və Cənubi Azərbaycanı işğal etməyi planlaşdırırdı. Eyni zamanda *Xəzər donanmasının köməyilə Astrabad və Mazandaranın, habelə Xəzər dənizinin şərq sahillərinin ələ keçirilməsi nəzərdə tutulurdu.* Bununla da Xəzər dənizinin bütün sahilləri və limanları Rusiyanın nəzarəti altına keçirdi.

*Bakı limanının möhkəmləndirilməsi və yenidən qurulması üçün nəzərdə tutulan işlər də Rusiyanın Azərbaycanda həmişəlik möhkəmlənmək fikrində olduğunu sübut edir.* Bakının həm iqtisadi, həm də hərbi-strateji əhəmiyyətini nəzərə alan çar hökuməti burada bir neçə mühüm tədbir həyata keçirmək istəyirdi. II Yekaterinanın V.Zubova göndərdiyi 26 iyul 1796-cı il tarixli göstərişindən aydın olur ki, çar hökuməti Bakı limanını yenidən qurmağı, döyüşən ordunun ehtiyacı üçün ərzaq anbarları, hərbi qospital tikdirməyi, habelə burada güclü hərbi donanma yerləşdirməyi planlaşdırırdı. Bütün bu işlərin həyata keçirilməsi üçün 283859 rubl pul ayırmaq nəzərdə tutulmuşdu.

*Ermənilər V.Zubovun yürüşündən Azərbaycan xalqına maddi və mənəvi zərbə vurmaq üçün istifadə edirdilər*. Bü yürüşdə iştirak

edən erməni mənşəli zabit Pavel Qaryagin çox qəddarlıq edirdi. O, Gəncə, Şəmkir, Şirvan, Qarabağ, Dərbənd, Bakı və digər məntəqələrdə əhalinin talan edilməsində, var-yoxunun əlindən alınmasında yaxından iştirak edərək, çoxlu insan qanı axıtmışdı.

*Bununla belə, bütün cəhdlərinə baxmayaraq Rusiya hökuməti Azərbaycana dair işğalçılıq planlarını yerinə yetirə bilmədi.* Rus ordusunun Şimali Azərbaycanın xeyli hissəsini işğal etməsinə baxmayaraq, II Yekaterinanın ölümü (1796 noyabr) V.Zubovun yürüşünün yarımçıq dayandırılmasına səbəb oldu. Hakimiyyətə gələn I Pavel (1796-1801) rus ordusunun Azərbaycandan çıxarılması haqqında əmr verdi.

Bu dövrdə Qacarlar dövlətinin də Şimali Azərbaycanı işğal etmək cəhdi baş tutmadı. Artıq şah titulunu qəbul etmiş Ağa Məhəmməd şah Qacar 1797-ci il yürüşü zamanı Şuşada qətlə yetirildi. Qacarlar ordusu başı pozuq halda Azərbaycanın şimal ərazilərini tərk etdi.

# III FƏSIL

# XVIII ƏSRİN SONU-XIX ƏSRIN ƏVVƏLİNDƏ AZƏRBAYCAN RUSİYA VƏ QACARLAR MÜNASİBƏTLƏRİNİN DÜYÜN NÖQTƏSİNDƏ

## 3.1.XVIII əsrin sonu - XIX əsrin əvvəlində Rusiya və Qacarlar dövlətlərinin Qafqaz siyasətində Azərbaycanın yeri

XVIII əsrin sonu-XIX əsrin əvvəllərində də Azərbaycanda olduqca mürəkkəb sosial-iqtisadi və siyasi şərait qalmaqda davam edir- di. Ayrı-ayrı feodal hakimlərin ölkəni vahid dövlətdə birləşdirmək cəhdləri uğursuzluqla nəticələnmişdi. Torpaq və sərvətlərini artırmaq uğrunda bir-biriləri ilə daimi müharibə aparan feodal hakimlər özlərinin şəxsi mənafelərini ümumilli mənafedən üstün tuturdular. Hətta Ağa Məhəmməd şah Qacarın və V.Zubovun başçılığı altında rus ordusunun işğalçı yürüşləri belə bu hakimləri vahid dövlət yaratmaq, öz qüvvələrini birləşdirərək ölkənin ərazi bütövlüyünü qorumaq istiqamətində fəaliyyət göstərməyə məcbur edə bilməmişdi. Ağa Məhəmməd şah Qacarın və V.Zubovun yürüşləri həm də ölkə iqtisadiyyatına ağır zərbə vurmuş, onun müdafiə qabiliyyətini daha da zəiflətmişdi. Bu yürüşlər son nəticədə iflasa uğrasalar da Şimalı Azərbaycanın Rusiya tərəfindən işğalı təhlükəsi hələ də sovuşmamışdı.

V.Zubovun və Ağa Məhəmməd şah Qacarın yürüşlərindən keçən qısa müddət ərzində Qacarların və Rusiyanın Qafqaz siyasətində müvəqqəti və nisbi sakitlik hökm sürməyə başladı. Bu bir tərəfdən hər iki dövlətdə baş vermiş hakimiyyət dəyişikliyi, digər tərəfdən isə Rusiyanın Qərb siyasətinin fəallaşması ilə bağlı idi. *1797-ci ilin iyununda Ağa Məhəmməd şah Qacarın Şuşada qətlə yetirilməsi İranda siyasi vəziyyəti xeyli gərginləşdirdi*. Hələ Ağa Məhəmməd şah Qacarın sağlığında onun qardaşı oğlu Fətəli xanın taxt-tacın vəliəhdi elan edilməsinə baxmayaraq ayrı-ayrı feodal qrupları hakimiyyəti ələ keçirmək uğrunda mübarizəyə başladılar.

Bu mübarizədə Fətəli şahın (1797-1834) Fars vilayətinin hakimi olan qardaşı Hüseynqulu xan Qacar, Ağa Məhəmməd şahın qardaşı Əliqulu xan Qacar, Zəki xan Zəndin oğlu Məhəmməd xan və Cənubi Azərbaycandan Sadıq xan Şəqaqi iştirak edirdilər.

Zəndlər tayfasından olan Məhəmməd xan qısa müddətdə İsfahanı ələ keçirdi və orada möhkəmləndi. Yeni Qacarlar şahı lur və zənd tayfalarının yardımına arxalanan Məhəmməd xanın qiyamını yatırmaq üçün xeyli qüvvə səfərbər etməyə məcbur oldu. Qiyamdan az sonra Fətəli şahın hakimiyyətini tanımağa məcbur olan Hüseynqulu xan Qacar Şirazın hakimi təyin edildi. Lakin onun yeni şahla münasibətləri gərgin olaraq qalmaqda davam edirdi. Şirazla kifayətlənməyən Hüseynqulu xan Kirman və İsfahanın da idarəçiliyinin ona tapşırılmasını tələb edirdi.

Cənubi Azərbaycanda böyük nüfuza malik olan Sadıq xan Şəqaqi Fətəli şah üçün daha ciddi problemlər yaratdı. Belə ki, hakimiyyət dəyişikliyindən istifadə edən Şəqaqi xanı qısa müddət ərzində bütün Cənubi Azərbaycanı ələ keçirmiş və Qəzvində möhkəmlənmişdi. Hökumət qoşunları ilə mübarizədə qələbə çalacağına ümid bəsləməyən Sadıq xan Fətəli şaha tabe olduğunu bildirdi və bunun müqabilində Sərab hakimi təyin edildi. Lakin Sadıq xan Şəqaqi ilə Fətəli şah arasında mübarizə bununla bitmədi. Onlar arasında mübarizənin yenidən qızışmasında Təbriz hakimi Cəfər xan mühüm rol oynadı. Cəfər xana etibar etməyən Fətəli şah onu qardaşı ilə əvəz etmək qərarına gəlmişdi. Arxiv sənədlərindən birində göstərilir ki, Qacarlar şahı bu planı həyata keçirmək üçün Cəfər xanı öz yanına çağırmışdı. Lakin şahın niyyətindən xəbərdar olan Təbriz hakimi onun əmrini yerinə yetirməkdən imtina etmiş və kömək üçün qonşu Azərbaycan xanlarına müraciət etmişdi. Azərbaycan xanları Qacarlar hakimiyyətinə qarşı öz qüvvələrini birləşdirmək üçün daha bir cəhd göstərmişdilər. Rus konsulu M.Skibinevski yazır ki, yeni şahın əmrini yerinə yetirməkdən imtina edən Cəfər xan qarabağlı İbrahimxəlil xan və Sadıq xan Şəqaqi ilə ittifaqa girdi. Lakin Fətəli şah qiyamçılara öz qüvvələrini birləşdirməyə imkan vermədi. Onun qiyamçılara qarşı göndərdiyi

10 min nəfərlik ordu 1797-ci ilin sonlarında Təbrizdən üç günlük məsafədə yerləşən Xalxal düzənliyində düşərgə saldı. Tezliklə baş verən döyüş müttəfiq ordularının məğlub edilməsilə nəticələndi. Cənubi Azərbaycan xanlarının əksəriyyəti öz mülklərindən və əmlaklarından məhrum edildi.

***1798-ci il martın 22-də özünü şah elan edən Fətəli şah*** istər daxili, istərsə də xarici siyasətdə Ağa Məhəmməd şahın siyasətini davam etdirirdi. Əvvəllər olduğu kimi, *Fətəli şahın dövründə də yüksək dövlət vəzifələrinə əsasən Azərbaycan–türk tayfalarının, ilk növbədə qacarların nümayəndələri təyin edilirdilər. Qacarlar ordusunun da əsasını Azərbaycan türkləri təşkil edirdi.*

Ağa Məhəmməd şahın dövründə olduğu kimi, Fətəli şahın hakimiyyətinin ilk illərində də Qacar ordusu qeyri-nizami xarakter daşıyırdı. Yalnız hərbi zərurət yaranan zaman ayrı-ayrı tayfalardan və şəhər əhalisindən toplanan bu ordudan daha çox daxili sabitliyin təmin edilməsində istifadə edilirdi. Taxtın vəliəhdi təyin edilmiş Abbas Mirzə ordunun yenidən qurulması üçün müəyyən addımlar atdı. Yalnız Azərbaycan türklərindən toplanan ilk nizami hərbi hissə təşkil edilməyə başladı. *İlk nizami hissə hər birində 1000 sərbaz olan 12 alaydan ibarət idi.* Alaylardan 2-si əfşar, 2-si Şəqaqi tayfalarından, 2-si mərəndlilərdən, habelə hərəsindən 1 alay olmaqla kənqli və dümbüli tayfalarından, İrəvan, Təbriz və Qaradağ əhalisindən təşkil olunmuşdu. Bununla belə, orduda hökm sürən özbaşınalıq, texniki təchizatın aşağı səviyyədə olması onun döyüş qabiliyyətini xeyli azaldırdı. Görünür elə bunun nəticəsi idi ki, Fətəli şah Azərbaycanın şimal xanlıqlarını itaət altına almaq üçün hərbi təzyiq metodları ilə yanaşı, dinc vasitələrdən, ilk növbədə isə «nigah diplomatiyası»ndan da istifadə etməyə çalışırdı.

İranda və Cənubi Azərbaycanda öz mövqelərini möhkəmləndirən Fətəli şah Cənubi Qafqazın, o cümlədən Şimali Azərbaycan xanlıqlarının itaət altına alınması üçün addımlar atmağa başladı. Əsas diqqət Fətəli şahın hakimiyyətini qəbul etməkdən imtina edən Şimali Azərbaycan xanlıqlarının–İrəvan, Qarabağ və Lənkəran xanlıqlarının ələ keçirilməsinə yönəldildi. 1798-ci ildə Pirqulu xan

Qacarın başçılıq etdiyi İran ordusu İrəvan xanlığına yeridildi. Şahın tapşırığını yerinə yetirən Qacarlar sərkərdəsi Azərbaycan xanlarına müraciət edərək onlardan Qacarlar dövlətinin hakimiyyətini tanımağı tələb etdi. O, bu tələbi yerinə yetirməkdən imtina edənləri hərbi qüvvə tətbiq etməklə hədələyirdi.

Kifayət qədər hərbi gücü olmayan Qacarlar dövləti öz planlarını həyata keçirmək üçün «nigah diplomatiyası»ndan geniş istifadə etməyə çalışırdı. Bu taktika ilk növbədə Lənkəran və Qarabağ xanlıqlarına münasibətdə tətbiq edildi.

Məlumdur ki, Xəzər dənizinin cənub-qərb sahillərində yerləşən Lənkəran xanlığı həm Rusiya, həm də İran üçün mühüm əhəmiyyət kəsb edirdi. Coğrafi baxımdan İran üçün daha əlçatan olan Lənkəran xanlığı XVIII əsrin 80-90-cı illərində dəfələrlə bu dövlətin hücumlarına məruz qalmışdı. Bu hücumlar hər dəfə böyük dağıntılarla müşayət olunsa da, lənkəranlı Mir Mustafa xan öz müstəqilliyini qoruyub saxlaya bilmişdi. Bu məsələdə Xəzər dənizi hövzəsində İranla rəqabət aparan Rusiyanın göstərdiyi yardımlar az rol oynamamışdı. Əlbəttə, yeni Qacarlar hökmdarının bütün bunlardan xəbəri var idi. Bununla belə o, Mir Mustafa xana öz qızını onun oğluna ərə vermək barədə təklif etdi. Bu təklifin arxasında nəyin dayandığını yaxşı başa düşən Lənkəran xanı onu yerinə yetirməkdən imtina etdi. Şübhəsiz ki, o, bu məsələdə Xəzər dənizində yerləşən rus hərbi donanmasının yardımına arxalanırdı.

Lənkəranlı Mir Mustafa xan kimi qarabağlı İbrahimxəlil xan da Fətəli şahın qohum olmaq təklifini qəbul etmək niyyətində deyildi. Lakin bu dövrdə Qarabağ xanlığının vəziyyəti daha ağır idi. Ağa Məhəmməd şah Qacarın yürüşləri nəticəsində xanlığın iqtisadiyyatına ağır zərbə vurulmuşdu. Bu isə İbrahimxəlil xana İran ordusunun hücumlarını yalnız öz qüvvəsi hesabına dəf etməyə imkan vermirdi. Onun Qacarlar ordusunun hücum edəcəyi təqdirdə ruslardan kömək alacağına bəslədiyi ümid də özünü doğrultmadı. Belə ki, Gürcüstanda yerləşən rus hərbi komandanlığı Qarabağ xanının hərbi yardım haqqında müraciətini cavabsız qoydu. Bütün

bunlar İbrahimxəlil xanı Fətəli şahın təklifi ilə razılaşmağa məcbur etdi.

Bütün Cənubi Qafqazı, o cümlədən Şimali Azərbaycan xanlıqlarını öz hakimiyyəti altına almağa çalışan Fətəli şah bu zaman bölgədə çox güclü mövqelərə malik olan Rusiya faktorunu nəzərdən qaçıra bilməzdi. Kartli-Kaxetiya çarlığının hələ 1783-cü ildən Rusiyanın himayəsində olması, Xəzər dənizində rus hərbi donanmasının üstün mövqe tutması, eyni zamanda bu dövlətin Azərbaycan xanlıqları ilə sıx diplomatik əlaqələr saxlaması Fətəli şahı daha ehtiyatlı olmağa vadar edirdi. Fətəli şah yaxşı başa düşürdü ki, Rusiyanın bitərəfliyini təmin etmədən Cənubi Qafqazın itaətə gətirilməsi heç də asan olmayacaq. 1798-ci ildə Seyid Həsənin başçılığı altında Peterburqa göndərilmiş Qacarlar dövlətinin nümayəndə heyətinin qarşısında məhz bu vəzifənin yerinə yetirilməsi qoyulmuşdu. Qacarlar hökuməti ticarət əlaqələrində bəzi güzəştlər hesabına Rusiya hökumətinə Cənubi Qafqazda gedən proseslərə müdaxilə etməkdən imtina etməyi təklif edirdi. Lakin hər şey İran hökumətinin gözlədiyinin əksinə alındı. Rusiya hökuməti Seyid Həsənə bildirdi ki, bundan sonra İran hökuməti özünün «Kartli çarına, onun mülklərinə, həmçinin Şamxala, Dərbənd, Bakı xanlarına, eləcə də Xəzər dənizi ilə Gürcü vilayətləri arasında yerləşən bütün torpaqlara hər cür iddiadan» tamamilə imtina etməlidir.

İran nümayəndə heyətinə verilən bu kəskin cavaba baxmayaraq I Pavelin Qafqaz siyasəti onun hakimiyyətinin ilk dövrlərində heç də sabit və ardıcıl deyildi. Anası II Yekaterinanın yeritdiyi davakar xarici siyasət nəticəsində əldən düşmüş rus xalqına istirahət verəcəyini elan edən yeni hökmdar anasının dövründə həyata keçirilən bütün tədbirlərdən imtina etdi. Qonşu dövlətlərin işğalı üçün görülən hərbi hazırlıq tədbirləri ləğv edildi, Azərbaycanda olan rus ordusu geri çağırıldı, Qafqaz xəttindəki rus ordusunun mövqelərini daha da möhkəmləndirmək üçün yeni qalaların tikintisi dayandırıldı. Bununla belə, Pavelin «sülhsevər» xarici siyasəti heç də ardıcıl olmayıb daha çox ikili xarakter

daşıyırdı. Rusiyanın Qafqazda yeritdiyi ənənəvi təcavüzkar siyasətə ilk dövrlərdə laqeydlik göstərən I Pavel Fransa burjua inqilabına qarşı anasının yeritdiyi düşmənçilik siyasətini davam etdirmək niyyətində idi.

Pavelin Napoleon Fransasına qarşı bəslədiyi dərin nifrət İngiltərə və Rusiya hökumətində olan ingilispərəst qüvvələr tərəfindən daha da qızışdırılırdı. Napoleonun Korfu adasını işğal etməsindən məharətlə yararlanan bu qüvvələr onun tezliklə Rusiyanın Qara dəniz sahillərinə hücum edəcəyi haqqında şayiələr yaymağa başladılar. Əslində, Rusiyanın hakim dairələrində Fransaya qarşı düşmənçilik əhvali-ruhiyyəsinin qızışdırılması heç də təsadüfi olmayıb İngiltərənin mənafeyinə xidmət edirdi. İngilis diplomatiyası Napoleonun Misirə yürüşünü yalnız Osmanlı dövləti üçün deyil, həm də Rusiya üçün ciddi təhlükə yaradacağı haqqında rus diplomatiyasında rəy formalaşdırmağa nail oldu. İngilis diplomatiyası bununla da özünün əsas düşməni olan Fransaya qarşı mübarizədə daha iki güclü müttəfiq əldə etmiş oldu. Məhz ingilis diplomatiyasının vasitəçiliyi ilə 1798-ci ilin dekabrında Rusiya ilə Osmanlı dövləti arasında 8 il müddətinə ittifaq müqaviləsi bağlandı. Az sonra İngiltərə də bu ittifaqa qoşuldu. Avropaya göndərilmiş rus ordusu burada çaldığı qələbələrlə əslində İngiltərəyə çox böyük xidmət göstərmiş oldu.

XVIII əsrin sonu-XIX əsrin əvvəllərində beynəlxalq münasibətlər sisteminə İngiltərə ilə Fransa arasında gedən rəqabət güclü təsir göstərirdi. Bu dövlətlərdən hər biri Qacarlar və Osmanlının hesabına Yaxın və Orta Şərqdə öz mövqelərini möhkəmləndirməyə çalışırdılar. Fransız diplomatiyası daha böyük fəallıq göstərirdi. Hələ 1797-ci ildə iki nəfər fransız diplomatı Tehrana gələrək Qacarlar dövləti ilə diplomatik münasibətlər yaratmağa cəhd göstərmişdilər. Qacarlar dövləti ilə imzalanmaq üçün gətirilmiş müqavilə layihəsində Fransanın bu dövlətin ərazisində mövqelərini möhkəmləndirməyi nəzərdə tutan maddələr əks olunmuşdu. Lakin Ağa Məhəmməd şah Qacarın öldürülməsi Fransanın bu planının həyata keçirilməsinə imkan vermədi. Mü-

qavilə bağlamaq səlahiyyəti olmayan baş vəzir Hacı İbrahim fransız diplomatlarını əliboş geri qaytardı. Bununla belə, Fransa 1798-ci ildə Yaxın Şərqdə və Aralıq dənizi hövzəsində öz mövqelərini möhkəmləndirmək istiqamətində bir sıra qətiyyətli addımlar atdı. Həmin il Aralıq dənizində çox mühüm strateji əhəmiyyəti olan Malta adası ələ keçirili və Misirə qoşun yeridildi. Fransız diplomatiyası sultan hökumətini inandırmağa çalışırdı ki, Misirə qoşun yeridilməsi heç də Osmanlı torpaqlarının işğalı demək deyildir və burada əsas məqsəd Osmanlı dövlətindən qopmuş bu ərazidə ticarət yollarının təhlükəsizliyini təmin etməkdir.

Fransanın atdığı bu addımlar Rusiyanın İngiltərə və Osmanlı dövləti ilə yaxınlaşmasına, hətta onların arasında Fransaya qarşı hərbi ittifaqın yaradılmasına gətirib çıxardı. Lakin bu ittifaqın ömrü elə də uzun çəkmədi. İngiltərənin Misir uğrunda Fransa ilə ölüm-dirim mübarizəsinə girişməsi və 1800-cü ildə Malta adasını işğal etməsi Rusiyanın bu ölkə ilə müttəfiqlik münasibətlərini açıq düşmənçiliklə əvəz etdi. Rusiyanın hakim dairələrində hətta İngiltərəyə qarşı hərbi əməliyyatlar təşkil etməyin zəruriliyi haqqında fikirlər səslənməyə başladı. Pavel kazak ordusunun atamanı Orlov-Denisova göndərdiyi sərəncamında yazırdı ki, ingilislərə onların gözləmədiyi yerdən zərbə endirmək lazımdır. Onun fikrincə bunun üçün ən yaxşı yer Hindistan ola bilər. Onu da göstərmək lazımdır ki, bütün bunlar Rusiyanın Fransa ilə münasibətlərinin istiləşməsi fonunda baş verirdi.

Pavelin hakimiyyətinin ilk dövrlərində Rusiyanın Qafqaz siyasəti bütünlüklə Qərb siyasətindən asılı vəziyyətə salınmışdı. Gah Fransa, gah da İngiltərə ilə yaxınlaşan Rusiya özünü Qafqazdakı mövqelərinin qorunmasına və möhkəmləndirilməsinə elə də ciddi yanaşmırdı. XVIII əsrin 70-80-ci illərində Qafqazda çox böyük fəallıq göstərən Rusiya bu dövrdə göstərilən bölgəni sanki ununtmuşdu. Vəziyyət o həddə gəlib çıxmışdı ki, Rusiyanın Cənubi Qafqazda əsas müttəfiqi olan Kartli-Kaxetiya çarlığı bu dövləti 1783-cü ildə imzalanmış Georgiyevsk müqaviləsilə öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməkdə günahlandırmağa

başlamışdı. Kartli-Kaxetiya çarlığının Peterburqdakı səfiri Çavçavadze 1797-1798-ci illərdə Rusiya hökumətindən ağır vəziyyətə düşmüş Gürcüstanın müdafiəsi üçün təcili tədbirlər görməyi tələb etdi. Lakin bu tələb yerinə yetirilməmiş qaldı.

1798-ci ilin yanvarında II İraklinin ölümündən sonra Gürcüstanda vəziyyət daha da ağırlaşdı. II İraklinin varisi XII Georgi ölkədə başlanmış çəkişmələrin qarşısını almaqda acızlik çəkirdi. XII Georgini çar kimi tanımaqdan imtina edən şahzadələr hakimiyyəti ələ keçirmək üçün mübarizəyə başladılar və kömək üçün qonşu Azərbaycan xanlarına, Dağıstan hakimlərinə və hətta Qacarlara müraciət etdilər. Qacarlar dövlətinin yeni başçısı Fətəli şah XII Georgidən onun asılılığını qəbul etməyi tələb etdi və əks təqdirdə Gürcüstana dağıdıcı yürüş təşkil edəcəyini bildirdi.

Rusiyanın hakim dairələrinin Gürcüstanı düşdüyü bu ağır vəziyyətdən xilas etmək üçün heç bir addım atmadığını görən XII Georginin vəliəhdi şahzadə David Fətəli şahın fərmanını rus dilinə tərcümə edərək Xarci İşlər Kollegiyasına göndərdi. Həmin fərmana əlavə olaraq göndərilmiş məktubda göstərilirdi ki, Rusiya hökuməti təcili tədbirlər görməyəcəyi təqdirdə Gürcüstan Fətəli şahın hakimiyyətini qəbul etməyə məcbur olacaqdır. Bundan bir qədər sonra şahzadə David Rusiyaya məktubla müraciət edərək bildirirdi ki, öz müttəfiqindən kömək ala bilməyən XII Georgi İrana nümayəndə heyəti göndərmək üçün hazırlıq işlərinə başlamışdır.

Gürcüstanın Qacarlar dövlətinin hakimiyyəti altına keçmək təhlükəsinin getdikcə güclənməsi Rusiyanın hakim dairələrini sanki yuxudan oyatdı. Onlar yaxşı başa düşürdülər ki, Gürcüstanın itirilməsi əslində Rusiyanın Qafqaz siyasətinin tamamilə iflasa uğraması deməkdir. Bu təhlükə Fransa və İngiltərənin Qacarlar dövləti hüdudlarında fəallaşması fonunda daha real görünməyə başlamışdı. Fransa hökumətinin 1798-ci ildə ingilisləri şərq ölkələrindən qovmaq haqqında qəbul etdiyi qərara cavab olaraq İngiltərə hökuməti özünün Qacarlar ərazisindən fəaliyyətini daha da gücləndirdi. Kapitan C.Malkolmun başçılığı altında İrana gəlmiş ingilis nümayəndə heyəti Fətəli şah hökumətini İngiltərə üçün çox

əlverişli olan ticarət müqaviləsi imzalamağa razı sala bildi. Bir qədər qabağa gedərək bildirək ki, 1801-ci ildə imzalanmış bu müqavilə ingilis tacirlərinə Qacarlar dövlətinin bütün ərazisində sərbəst ticarət etmək hüququ verirdi. Maraqlı burasıdır ki, bu müqavilə faktiki olaraq xeyli əvvəl Qacarların təsir dairəsindən çıxmış Şimali Azərbaycan xanlıqlarına və Gürcüstana da şamil edilirdi. Müqaviləyə görə ingilis tacirlərinə Təbriz-Tiflis-Poti yolu ilə ticarət etmək hüququ verilirdi. Eyni zamanda İngiltərəyə Xəzər dənizinə çıxış imkanı da yaradılırdı. Belə ki, ingilis hökumətinə Lənkəran sahillərində həm ticarət, həm də hərbi məqsədlər üçün nəzərdə tutulan liman tikməyə imkan yaradılırdı.

Göründüyü kimi, *ingilis diplomatiyası İran vasitəsilə Rusiyanın uzun müddət özünün nüfuz dairəsi hesab etdiyi Qara dəniz və Xəzər dənizi hövzəsində möhkəmlənməyə can atırdı.* Bu isə Rusiyanın öz sərhədlərini cənuba doğru daha da genişləndirmək planını ciddi təhlükə altına ala bilərdi. Bütün bunlar rus diplomatiyasını hərəkətə gəlməyə vadar etdi. 1798-1799-cu illərdə Gürcüstanın təhlükəsizliyinin təmin edilməsi istiqamətində bir sıra qəti addımlar atıldı. Xarici işlər kollegiyası Rusiyanın Gürcüstan üzərindəki protektor öhdəliyini, eləcə də XII Georgini gürcü çarı, oğlu Davidi isə onun vəliəhdi kimi təsdiq etdi. Götürülmüş öhdəliklərin yerinə yetirilməsi istiqamətində real işlər görüldü. General Lazarevin komandanlığı altında bir rus alayı Tiflisə yeridildi. P.İ.Kovalenski isə Rusiyanın Gürcüstandakı səlahiyyətli naziri təyin edildi.

XVIII əsrin sonu-XIX əsrin əvvəllərində hədsiz dərəcədə kəskinləşmiş beynəlxalq münasibətlər şəraitində Azərbaycan istər Qacarlar dövlətinin, istərsə də Rusiyanın xarici siyasətində əsas mübarizə obyekti kimi qalmaqda davam edirdi. Bununla belə, V.Zubovun və Ağa Məhəmməd şah Qacarın yürüşlərindən sonrakı ilk illərdə bu dövlətlərdən heç biri öz məqsədlərinə çatmaq üçün hərbi qüvvədən istifadə etməyə tələsmirdilər. Yuxarıda göstərildiyi kimi, hərbi və iqtisadi cəhətdən çox zəif olan Qacarlar dövləti Azərbaycan xanlıqlarını itaətə gətirmək üçün daha çox «nigah diplo-

matiyası»ndan, hədə-qorxu gəlmək və dilə tutmaq metodlarından istifadə etməyə çalışırdı.

Qacarlar dövləti ilə müqayisədə xeyli güclü olan Rusiya Azərbaycanda daha fəal siyasət yeridirdi. Bu dövrdə rus diplomatiyası əsas diqqəti Azərbaycanda Qacarlar, hakimiyyətinin bərpa edilməsinə yol verməməyə, Gürcüstanın təhlükəsizliyinin təmin edilməsinə və Xəzərsahili vilayətlərdə rus tacirlərinin mənafelərinin qorunmasına yönəltmişdi. Fransa burjua inqilabına qarşı mübarizəyə böyük qüvvə ayıran Rusiya hökuməti bu məqsədlərə çatmaq üçün daha çox diplomatik vasitələrə üstünlük verirdi. Çar hökuməti bir çox hallarda özünü Azərbaycan xanlıqlarının təhlükəsizliyinin təminatçısı kimi qələmə verir, onların arasında yaranan ixtilafların həllində münsif rolunda çıxış edirdi. Ədalət naminə qeyd edək ki, bu dövrdə bir çox Azərbaycan xanları öz aralarındakı mübahisələri həll etmək üçün Rusiyaya müraciət edirdilər. Bu isə ona Azərbaycanın daxili işlərinə qarışmaq, burada öz mövqelərini möhkəmləndirmək üçün əlverişli şərait yaradırdı. Bu dövrdə özlərinin dar feodal mənafelərindən çıxış edən ayrı-ayrı Azərbaycan xanları Rusiyaya kömək və himayə xahişi ilə müraciət etməklə özləri üçün necə böyük təhlükə yaratdıqlarını başa düşmürdülər. Xanlar sadəlövhcəsinə inanırdılar ki, Rusiyadan alınan kömək və himayə onların müstəqilliklərinə təhlükə yaratmayacaq. Çar hökuməti isə ancaq bəzi kiçik məsələlərdə güzəştə getməklə onlarda bu fikri daha da möhkəmləndirirdi.

XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Bakı və Quba xanlıqları arasındakı gərgin münasibətlər və bu xanlıqlardan hər birinin daxilində hakimiyyət uğrunda gedən çəkişmələr Rusiyanın bu bölgəyə müdaxiləsi üçün əlverişli şərait yaradırdı. 1792-ci ildən Bakı xanlığında hakimiyyəti ələ keçirmiş Hüseynqulu xan uzun müddət həm qubalı Şeyxəli xanla, həm də əmisi Mirzə Məhəmməd xanla mübarizə aparmalı olmuşdu. 1797-ci ilin əvvəllərində V.Zubovun başçılıq etdiyi rus işğalçı ordusu Azərbaycanı tərk etdikdən sonra bu mübarizə yeni qüvvə ilə qızışdı. Tezliklə Bakı və Quba xanlıqlarında gedən proseslərə Şamaxı hakimi Mustafa xanın

qoşulması vəziyyəti daha da gərginləşdirdi. Göstərmək lazımdır ki, rus qoşunlarının Azərbaycanı tərk etməsindən sonra istər Bakı, istərsə də Quba xanlığında, qısa müddətə də olsa, ikihakimiyyətlilik bərqərar oldu. Hələ 1759-cu ildən Quba xanlığının tərkibinə qatılmış Dərbənd xanlığında Fətəli xanın kiçik oğlu Həsən xanın hakimiyyəti bərqərar oldu. Şeyxəli xanın Dərbəndi yenidən Quba xanlığının tərkibinə qaytarmaq cəhdi uğursuzluqla nəticələndi. Şeyxəli xanın Bakı və Salyanı yenidən itaətə gətirmək cəhdləri də müvəffəqiyyətsizliyə duçar oldu. Şeyxəli xanın Dərbənd məsələləri ilə məşğul olmasından və Bakı xanlığının Hüseynqulu xanla Mirzə Məhəmməd xan arasında bölüşdürülərək daha da zəifləməsindən şamaxılı Mustafa xan istifadə etdi. O, əvvəlcə Salyanı, sonra isə Bakı xanlığını özündən asılı vəziyyətə saldı. Həmin dövrə aid mənbələrdən birinin verdiyi məlumata görə Bakı xanı hər il Şamaxı xanlığına 120 min manat həcmində xərac ödəməyi öhdəsinə götürdü.

Göründüyü kimi, XVIII əsrin sonlarında Azərbaycanın Xəzərsahili bölgələrində dərin siyasi böhran hökm sürürdü. Müasirlərdən biri yazırdı ki, «qubalılar və dərbəndlilər yaxşı hakimin olmaması və ara müharibələri nəticəsində tamamilə müflisləşmişlər». Vəziyyətdən öz gücləri ilə çıxa bilməyən Azərbaycan xanları Rusiyaya müraciət etməyə başladılar. 1798-ci ildə qubalı Şeyxəli xan öz elçisi Mədəd bəyi Rusiyaya göndərdi. Mədəd bəy Rusiya hökuməti qarşısında aşağıdakı üç məsələni qaldırıb həll etməli idi:

**1.** *Rus ordusunun 1796-cı il yürüşü zamanı Həştərxana apardığı Quba və Dərbənd sakinlərinin geri qaytarılmasına və xanlığa vurulmuş maddi ziyanın ödənilməsinə nail olmaq*;

**2.** *Şeyxəli xanın və onun təbəələrinin ehtiyacları üçün gömrük haqqı ödənilmədən 6 min pud dəmir tədarükünə icazə almaq*;

**3.** *Quba xanlığının Rusiyanın himayəsinə qəbul olunması üçün məsələ qaldırmaq.*

Şeyxəli xan ***birinci məsələnin həll edilməsinə*** daha böyük diqqət verirdi. Onun elçisinin Rusiya hökumətinə təqdim etdiyi məktubdan aydın olur ki, rus ordusunun 1796-cı il yürüşü zamanı

Quba xanlığına vurulmuş ziyanın ümumi məbləği 200 min tüməndən artıq idi. Bu məbləğin xeyli hissəsini rusların özləri ilə apardıqları xristian kəniz və qulluqçularının dəyəri təşkil edirdi.

Şeyxəli xanın bu məsələ ilə əlaqədar olan müraciəti Rusiyanın Xarici İşlər Kollegiyasında müzakirə edildi və faktiki olaraq onun yerinə yetirilməsindən imtina olundu. Xanlığa dəymiş maddi ziyanın əsas hissəsinin məhz Şeyxəli xanın rus ordusuna göstərdiyi müqavimət nəticəsində baş verdiyi bildirilirdi. Quba xanlığından aparılmış xristianların geri qaytarılması məsələsinə gəldikdə isə, hökumətin qərarında göstərilirdi ki, onlar Rusiyaya könüllü getmişlər və geri qayıtmağı arzulamırlar.

Şeyxəli xanın Rusiya hökuməti qarşısında qaldırdığı ***ikinci məsələ****–onun və təbəələrinin ehtiyacları üçün dəmir buraxılması məsələsi müsbət həll edildi.*

Məlumdur ki, Rusiya hökuməti XVIII əsr ərzində Şərq ölkələrinə, o cümlədən Azərbaycana dəmir ixracını ciddi nəzarət alıtnda saxlayırdı. Azərbaycanın dəmirə olan tələbatının böyük hissəsinin Rusiya hesabına ödənildiyini yaxşı bilən çar hökuməti bundan siyasi məqsədlər üçün istifadə edirdi. Azərbaycan xanlıqlarının Rusiya dəmirindən istifadə etməklə öz müdafiə qabiliyyətlərinin gücləndirəcəklərindən ehtiyat edən çar hökuməti 1785-ci ildə onun bölgəyə ixracını tamamilə dayandırmışdı. Yalnız müəyyən hallarda, daha doğrusu Rusiyanın siyasi maraqlarının ödənildiyi hallarda ayrı-ayrı hakimlərə dəmir buraxılmasına icazə verilirdi. Elə bu səbəbdən də çar hökuməti Şeyxəli xanın xahişini yerinə yetirmək qərarına gəldi. Pavelin şəxsi göstərişinə əsasən Quba xanlığına birdəfəlik 6 min pud dəmir buraxılması haqqında qərar qəbul edildi.

*Rusiya hökuməti* ***Şeyxəli xanın üçüncü xahişini*** *daha böyük həvəslə yerinə yetirirdi.* Pavelin 1799-cu il 1 sentyabr tarixli sərəncamında göstərilirdi: «Biz Sizi və Sizin bütün vilayəti həvəslə əvvəlki təbəəliyimizə və himayəmizə götürürük».

Bəhs olunan dövrdə *Rusiyanın* ***Bakı xanlığı ilə münasibətləri*** daha mürəkkəb və gərgin xarakter daşıyırdı. Bu bir çox cəhətdən

xanlığın düşdüyü ağır vəziyyətlə bağlı idi. Çox əlverişli coğrafi mövqeyə və zəngin təbii ehtiyatlara malik olan bu xanlıq uğrunda Rusiya və Qacarlarla yanaşı Quba və Şamaxı xanlıqları da mübarizə aparırdılar. Bakı hakimi öz müstəqilliyi üçün Qacarların yaratdığı təhlükənin aradan qaldırılmasına nail olsa da bunu digər qüvvələr haqqında söyləmək olmaz. Yuxarıda göstərildiyi kimi, bakılı Hüseynqulu xan hər il öz gəlirinin xeyli hissəsini Şamaxı xanlığına verməyə məcbur olmuşdu. Rusiya hökumətinin Xəzər dənizi hövzəsində həyata keçirdiyi müstəmləkəçilik siyasəti Bakı xanlığının bu dövlətlə münasibətlərinə ciddi təsir göstərirdi.

Rus ordusunun 1796-cı il yürüşünün iflasa uğramasından sonra Rusiyanın Bakı xanlığı ilə münasibətləri açıq düşmənçilik xarakteri almağa başladı. Rusiya kimi nəhəng bir dövlətdən çəkinməyən Hüseynqulu xanın atdığı addımlar da bu məsələdə az rol oynamamışdı. Belə ki, 1797-ci ildə Azərbaycanı tərk edən rus ordusu Bakı xanlığına xeyli maddi ziyan vurmuşdu. Yüzlərlə gənc oğlan və qız əsir götürülmüş, neft anbarları yandırılmış, Bakı xanının və əyanların əmlakı müsadirə edilmişdi.

Rusiya hökumətinin Azərbaycanda ticarət sahəsində yeritdiyi hegemonluq siyasəti onun Azərbaycan xanlıqları ilə, ilk növbədə isə Bakı xanlığı ilə münasibətlərinin pisləşməsində az rol oynamamışdı. Bu dövrdə Rusiya-Azərbaycan ticarətinin qeyri-bərabər xarakter daşıması özünü tam aydınlığı ilə göstərirdi. Ölkədə vahid mərkəzləşmiş dövlətin olmaması Azərbaycan tacirlərini Rusiya bazarlarında tam hüquqsuz vəziyyətə salırdı. Ayrı-ayrı Azərbaycan xanlarının vəziyyəti düzəltmək istiqamətində atdıqları addımlar isə heç bir nəticə vermirdi. Bakı xanlığından olan tacirlərin Rusiya bazarlarında döyülməsi, öldürülməsi, mallarının müsadirə edilməsi, onlardan müəyyən olunmuş miqdardan artıq gömrük haqqı toplanılması geniş miqyas almışdı.

Bundan fərqli olaraq, Rusiya hökuməti öz tacirlərinin Azərbaycan xanlıqlarındakı vəziyyətini ciddi nəzarət altında saxlayır, onların mənafelərinin qorunması üçün hərbi qüvvə tətbiq etməkdən belə çəkinmirdi. Məlumdur ki, 1732-ci ildə bağlanmış

Rəşt müqaviləsinə görə rus tacirləri Səfəvilər dövlətinin ərazisində gömrük haqqı ödəməkdən azad edilmişdilər. Səfəvilər dövlətinin çoxdan süqut etməsinə baxmayaraq, Rusiya Azərbaycan xanlarından bu müqavilənin şərtlərinə əməl etməyi tələb edir, özü isə hətta xanların özlərinə məxsus olan mallardan gömrük haqqının toplanılmasında heç bir güzəştə getmirdi.

Rusiya hökumətinin yeritdiyi bu hegemonluq siyasəti Azərbycan xanlarına, ilk növbədə isə Rusiya-Azərbaycan ticarətinin mühüm mərkəzi olan Bakı xanlığına böyük ziyan vururdu. Bu ziyanın həcmini qismən azaltmağa çalışan bakılı Hüseynqulu xan müxtəlif bəhanələrlə rus tacirlərindən və gəmi sahiblərindən pul toplamağa çalışırdı. Rus tacirlərində bununla əlaqədar yaranmış narazılıqlara isə çar hökuməti çox kəskin reaksiya verirdi. Qarşılıqlı sıxışdırmalar və ittihamlar ona gətirib çıxardı ki, Rusiya hökuməti Bakı xanlığına qarşı hərbi güc tətbiq etməyə əl atdı. Xəzər dənizindəki rus hərbi donanmasının komandanının əmrilə Bakı şəhəri top atəşinə tutuldu. Müqavimət göstərə bilməyən Hüseynqulu xan geri çəkilməyə məcbur oldu.

Rusiyanın hərbi güc tətbiq etməsi bakılı Hüseynqulu xanı kömək üçün İrana müraciət etməyə məcbur etdi. Azərbaycan xanlarının İranla münasibətlərini diqqətlə izləyən Həştərxan qubernatoru Knorrinq bu müraciətin nəticələri haqqında maraqlı məlumat verir. O, yazır ki, Hüseynqulu xanın İran tacirləri ilə davranışından narazı olan Fətəli şah ona yardım göstərməkdən imtina etdi. Başqa çıxış yolu qalmayan Bakı xanı Rusiya ilə danışıqlara başlamağa məcbur oldu.

Yaranmış münaqişə ilə əlaqədar Ənzəlidən Bakıya gəlmiş rus konsulu M.Skibinevski 1800-cü il fevralın 21-də bakılı Hüseynqulu xanla danışıqlara başladı. Rusiyanın ciddi təzyiqi altında olan Bakı hakimi ona diqtə edilən şərtlərlə razılaşmağa məcbur oldu. Əldə olunmuş razılığa əsasən bütün mübahisəli məsələlər bundan sonra ancaq Rusiya qanunları əsasında həll edilməli idi. Qazanılmış bu uğurla kifayətlənməyən çar hökuməti Hüseynqulu xan əldə olunmuş razılaşmanı daha yuxarı dairələrdə təsdiq edirmək üçün addımlar

atmağa vadar etdi. Həmin ilin yazında Bakı xanının Peterburqa gələn elçisi Mirzə Hadi bəy danışıqlara başladı. Danışıqların əsas mövzusunu Bakı xanlığının Rusiyanın himayəsi altına qəbul olunması və ticarətdə olan mübahisəli məsələlərin həll edilməsi təşkil edirdi. Əsas diqqət *rus və Azərbaycan tacirlərinin qarşılıqlı şəkildə sıxışdırılmalarının qarşısının alınmasına, rus tacirlərinin gömrük haqqı ödəməsinə, rus gəmilərinin Bakı tacirləri tərəfindən icarəyə götürülməsi qaydalarının müəyyənləşdirilməsinə, rus odusunun, eləcə də tacirlərinin Bakı əhalisinə vurduqları ziyanın ödənilməsinə* və s. məsələlərə yönəldilmişdi.

Qeyd olunan məsələlərin əksəriyyətini öz xeyrinə həll edən çar hökuməti cüzi güzəştlərə getməklə Bakı xanlığını Rusiya himayəsinə keçməyə təhrik etməyə çalışırdı. Bakı xanlığını öz himayəsinə götürməyi onun üçün böyük güzəşt kimi qələmə verən rus diplomatiyası bunu rəsmiləşdirmək üçün tərtib edilmiş andlı öhdəliyin mətnini təsdiq etmək üçün Hüseynqulu xana göndərdi.Lakin Hüseynqulu xan andlı öhdəliyi təsdiq etmək üçün heç də tələsmirdi.

*Rus diplomatiyasının diqqət mərkəzində olan Azərbaycan xanlıqlarından biri də **Lənkəran xanlığı** idi.* Əlverişli coğrafi mövqeyə malik olan bu xanlıqda möhkəmlənmək həm Rusiya, həm də Qacarlar dövləti üçün mühüm əhəmiyyət kəsb edirdi. Təsadüfi deyil ki, hakimiyyətini yenicə möhkəmləndirən Fətəli şah Lənkəran xanlığını «nigah diplomatiyası»nın köməyilə öz təsiri altına almağa cəhd göstərmiş, lakin uğursuzluğa düçar olmuşdu. Lənkəranlı Mir Mustafa xan öz hakimiyyətinin və xanlığının təhlükəsizliyinin təmin edilməsini Rusiya himayəsinə sığınmaqda görürdü. Bu isə çar hökumətinin Xəzər dənizi hövzəsində öz işğalçılıq planlarını həyata keçirməsi üçün əlverişli şərait yaradırdı. Elə bu səbəbdən də lənkəranlı Mir Mustafa xanın himayə üçün etdiyi xahiş Rusiyanın hakim dairələri tərəfindən böyük məmnuniyyətlə qarşılanmışdı. Pavel 1800-cü ildə Lənkəran xanlığının Rusiya himayəsinə qəbul edilməsinə razılığını bildirmiş və bu haqda imzaladığı fərmanı Mir Mustafa xana göndərmişdi. Lənkəran xanlığının Qacarlar tərəfindən

gözlənilən hücum təhlükəsindən qorunması üçün də müvafiq addımlar atılmışdı. Pavelin 14 fevral 1800-cü il tarixli sərəncamına əsasən xanlığın yaxınlığında yerləşən Sarı adasında rus hərbi gəmisi keşik çəkməyə başlamışdı.

Əldə olan məlumatların təhlili göstərir ki, Pavel özünün Qafqaz siyasətində daha çox diplomatik vasitələrə üstünlük verirdi. O, hər vasitə ilə bölgə hakimlərini Rusiyanın himayəsi altına keçməyə şirnikləndirirdi. Rusiyanın Gürcüstandakı naziri təyin edilmiş P.Kovalenskiyə «rus taxt-tacına meyl göstərən hakimlərin sayını artırmaq» haqqında xüsusi göstəriş verilmişdi. Bu baxımdan 1800-cü il daha «məhsuldar» olmuş, dərbəndli Həsən xanın, qubalı Şeyxəli xanın, Dağıstan hakimlərindən şamxal Mehdi xanın, usmi Rustəm xanın, avarlı Ümmə xanın, Tabasaran qazısı Rüstəmin elçiləri Peterburqda olmuş, Rusiya himayəsinə keçməyi arzuladıqlarını bildirmişdilər. Pavel bu hakimlərdən hər birinin adına xüsusi buyruq vermiş və onlara öz aralarında ittifaq yaratmağı məsləhət görmüşdü. Şübhəsiz ki, bu ittifaqın yaradılması Qacarlar dövlətinin Cənubi Qafqaza gözlənilən hücumunun qarşısını almaq üçün nəzərdə tutulurdu.

Ümumiyyətlə, götürdükdə, *Pavelin Qafqaz siyasətində Azərbaycan və Dağıstan hakimlərinin ittifaqının yaradılması mühüm yer tuturdu*. Əsas diqqəti Fransa burjua inqilabına qarşı mübarizəyə yönəldən rus çarı Cənubi Qafqazın Qacarların hakimiyyəti altına keçməsinin qarşısını almaq üçün lazımi miqdarda hərbi qüvvə ayıra bilmir, bu təhlükənin qarşısını almaq üçün yerli hakimlərin qüvvəsindən istifadə etməyə çalışırdı. Lakin daima bir-biri ilə müharibələr aparan yerli hakimlərin qüvvələri bu təhlükənin qarşısını almaq üçün yetərli deyildi. Elə bu səbəbdən də Pavel hökuməti Şimali Azərbaycan və Dağıstan hakimlərini öz aralarındakı müharibələrə son qoymaq və Qacarlara qarşı birləşmək üçün dilə tuturdu. O, hələ 1797-ci ilin yanvarında Həştərxan general-qubernatoru Knorrinqə göndərdiyi təlimatda göstərirdi ki, Azərbaycan xanlarını Rusiyanın təsiri altında saxlamaqla yanaşı,

onları Qacar hücumlarını birgə dəf etmək üçün öz qüvvələrini birləşdirməyə çağırmaq lazımdır.

Pavelin hakimiyyətinin ilk günlərindən başlayaraq Azərbaycan xanlıqlarına münasibətdə yeritdiyi siyasətin mahiyyəti onun elə həmin il yanvarın 5-də Qafqazdakı rus qoşunlarının komandanı İ.Qudoviçə ünvanlanmış buyruğunda daha aydın əks olunmuşdu. Buyruqda konkret olaraq yazılırdı: *«İşi o səviyyəyə çatdırmaq lazımdır ki, bizə xeyirxah münasibət bəsləyən hakimlərdən bizdən asılı olan federativ dövlət təşkil edilsin. Onların ali hökmdarı və himayədarı kimi bizim hakimiyyətimiz onlar üçün elə də ağır olmayacaq, çünki biz onlardan nə xərac, nə də digər mükəlləfiyyətlər tələb etmək niyyətində deyilik»*. «Rusiyaya ayrı-ayrı xanlıqlar deyil, birləşmiş Azərbaycan xanlıqlarından ibarət bir dövlət-ittifaq lazım idi, çünki belə bir ittifaqın olmaması onun öz xarici siyasətini yürütmək xəttini çətinləşdirirdi». Burada əsas məqsəd Cənubi Qafqazdakı siyasi vəziyyəti dondurulmuş halda saxlamaq və işğal üçün əlverişli vəziyyət yaranana qədər vaxt qazanmaqdan ibarət idi.

## 3.2.Azərbaycan Rusiyanın hərbi təcavüzü ərəfəsində

***1801-ci il mart 12-də*** *Rusiyada növbəti hakimiyyət dəyişikliyi baş verdi.* ***Sui-qəsd nəticəsində öldürülmüş Paveli I Aleksandr (1801-1825) əvəz etdi***. Hakimiyyətin yuxarı eşalonunda baş vermiş bu dəyişiklik Rusiyanın xarici siyasətinə də təsir göstərdi. Pavelin dövründə pozulmuş Rusiya-İngiltərə münasibətləri yenidən bərpa edildi. Napoleon Fransasına qarşı birgə mübarizə zərurəti bu iki dövləti öz qüvvələrini birləşdirməyə vadar edirdi. Bununla belə, onların arasındakı ziddiyyətlərin tamamilə aradan qaldırıldığını da söyləmək olmaz. Qacarlar dövlətində və Cənubi Qafqazda möhkəmlənmək məsələsi onların arasındakı münasibətlərdə gərginliyin hələ də qalmasına səbəb olurdu. Yaranmış vəziyyətdən Fransa dərhal istifadə etdi və Fətəli şaha Rusiyaya qarşı birgə mübarizə aparmaq üçün ittifaq bağlamağı təklif etdi.

I Aleksandrın hakimiyyətə gəlməsi Rusiyanın Qafqaz siyasətinin intensivliyini və aqressivliyini xeyli artırdı. Bir tərəfdən Fətəli şahın Cənubi Qafqazı itaətə gətirmək üçün hazırlıq tədbirlərini gücləndirməsi, digər tərədən isə Gürcüstanda yaranmış kritik vəziyyət I Aleksandr hökumətini real tədbirlər görməyə məcbur edirdi. Hadisələrin gedişi göstərdi ki, Pavelin Gürcüstanın təhlükəsizliyinin təmin edilməsi üçün hələ 1798-1799-cu illərdə gördüyü tədbirlər heç də yetərli deyildir. Belə ki, ağır xəstə olan sonuncu Kartli-Kaxetiya çarı XII Georginin 1800-cü il dekabrın 28-də vəfat etməsi bu çarlıqda daxili siyasi vəziyyəti daha da pisləşdirmişdi. Ayrı-ayrı şahzadələr arasında hakimiyyətə sahib olmaq uğrunda mübarizənin güclənməsi Kartli-Kaxetiya çarlığının mövcudluğu üçün real təhlükə yaradırdı. Rusiya hökuməti yaranmış vəziyyətdən öz işğalçılıq planlarını həyata keçirmək üçün məharətlə istifadə etdi. **XVIII əsrin sonunda çar hökuməti imperiyanın sərhədləri yaxınlığında, o cümlədən Cənubi Qafqazda vassal dövlətlər yaratmaq istəyirdisə, XIX əsrin başlanğıcında birbaşa bu ərazilərin işğalına keçdi.**

Pavel öz hakimiyyətinin sonlarında, daha doğrusu 1801-ci il yanvarın 20-də bu çarlıq haqqında xüsusi fərman verdi. Fərmana əsasən şahzadə David çar taxtının vəliəhdi titulundan məhrum edilir, çarlığın idarəçiliyi isə general-qubernator təyin edilmiş general-leytenant Knorrinqə həvalə edilirdi. Bu əslində Kartli-Kaxetiya çarlığının ləğvi və Şərqi Gürcüstanın Rusiya tərəfindən işğalı istiqamətində atılmış ciddi bir addım idi. Bu hadisəni həm də Azərbaycan torpaqlarının Rusiya tərəfindən işğalınıa başlanğıc adlandırmaq olar. Belə ki, Pavelin 20 yanvar tarixli fərmanı həm də əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edən Qazax, Şəmsəddil, Borçalı və Pəmbək sultanlıqlarının Rusiyanın tərkibinə qatıldığını nəzərdə tuturdu.

Pavelin dövründə başlanmış Şərqi Gürcüstanın Rusiya tərəfindən işğalı prosesi I Aleksandr tərəfindən davam etdirildi və başa çatdırıldı. Belə ki, o, 1801-ci il sentyabrın 12-də Kartli-Kaxetiya çarlığının və yuxarıda adları çəkilən Azərbaycan torpaqlarının Rusiyanın tərkibinə

qatılması haqqında Pavelin fərmanını təsdiq edən xüsusi fərman verdi və bu barədə çar manifesti elan olundu.

Şərqi Gürcüstanın, Qazax, Şəmsəddil, Borçalı və Pəmbək sultanlıqlarının Rusiyaya ilhaq edilməsi haqqında çar fərmanları Cənubi Qafqazda vəziyyəti hədsiz dərəcədə gərginləşdirdi. Bu fərmanlar, ilk növbədə, Gürcüstanla qonşu olan Azərbaycan xanlıqlarının və Qacarlar dövlətinin kəskin etirazına səbəb oldu. İrəvan və Gəncə xanları Rusiya hökumətini onlara məxsus torpaqları işğal etməkdə günahlandırmağa başladılar.

Göstərilən ərazilərin Rusiya tərəfindən ilhaqına beynəlxalq səpgidə baxış eyni olmadı. 1799-cu il müqaviləsi üzrə Rusiya ilə ittifaqda olan Osmanlı dövləti buna açıq etirazını bildirmədi. Rusiya bunun qarşılığında Osmanlı dövlətinin vassal asılılığında olan torpaqlarda ehtiyatla davranmağı üstün tuturdu. Rusiyanın Cənubi Qafqaza müdaxiləsini dayandırmaq üçün Osmanlı ilə Qacarlar arasında ciddi iş birliyi yaranmadı.

*1801-1802-ci illər ərzində Rusiya hökumət manifestlərində adları çəkilən Azərbaycan sultanlıqlarını nəzarət altına almaq üçün real addımlar atmağa başladı.* Qazax, Borçalı, Şəmsəddil və Pəmbəkə rus qoşunları yeridildi. Rusiyanın hakimiyyəti altında yaşamaq istəməyən yerli əhalisi arasında kütləvi iğtişaşlar başladı. Şəmsəddil torpaqlarını Gəncə xanlığının tarixi ərazisi hesab edən Cavad xan silaha əl ataraq buraya qoşun yeritdi. Lakin kifayət qədər qüvvəsinin olmaması onun burada möhkəmlənməsinə imkan vermədi. Belə olduqda o, Şəmsəddil əhalisinə müraciət edərək onları öz yaşayış yerlərini tərk edərək Gəncə xanlığının ərazisinə köçməyə çağırdı. Rus komandanlığının silahlı yolla Şəmsəddil əhalisinin köçməsinin qarşısını almaq cəhdləri heç bir nəticə vermədi. Qafqaz Arxeoqrafiya Komissiyasının aktlarında Şəmsəddil haqqında verilən məlumatdan aydın olur ki, XIX əsrin əvvəllərində burada, təxminən 2300 ailə yaşayırdı ki, bunun da 1900-ü Cavad xanın çağırışı ilə Gəncə xanlığının ərazisinə köçürülmüşdü.

Cavad xan diplomatik vasitələrlə də Rusiyanı Şəmsəddil sultanlığından əl çəkməyə vadar etməyə çalışırdı. O, Knorrinqə

ünvanladığı məktublarından birində yazırdı ki, Şəmsəddil torpaqları son 700 il ərzində onun nəslindən olan hakimlərə məxsus olmuşdur. Bunu əldə rəhbər tutan xan yazırdı: «*Şəmsəddili bizə heç kim verməyib və ona görə də onu bizdən almağa və ya başqasına verməyə heç kimin haqqı yoxdur*». Lakin rus komandanlığı buna nəinki heç bir əhəmiyyət vermədi, əksinə ağaları öz tərəfinə çəkməklə Şəmsəddildə möhkəmlənməyə cəhd göstərdi. Knorrinq yerli əhalini sakitləşdirmək və onlarda rus hakimiyyət orqanlarına inam yaratmaq məqsədilə Qazax və Şəmsəddilə səfər etdi. Lakin bu səfərdən sonra Qazax və Şəmsəddil əhalisinin Gəncə xanlığının ərazisinə köçməsi prosesi daha da sürətləndi. Bu məsələdə şübhəsiz ki, Cavad xanın mühüm rolu oldu. Rus zabitlərinin özlərinin verdikləri məlumatdan aydın olur ki, Cavad xanın oğlu Hüseynəli ağa Ayrum adlı kəndin bütün əhalisini öz əmlaklarını götürərək Gəncə xanlığının ərazisinə köçməyə razı sala bilmişdi.

Oxşar proseslər İrəvan xanlığı ilə Gürcüstanın rus komandanlığı arasında da ge-dirdi. Onu da göstərmək lazımdır ki, XIX əsrin ilk illərində Rusiya ilə Qacarlar dövlətinin münasibətlərinin kəskinləşməsində İrəvan xanlığında möhkəmlənmək məsələsi az rol oynamamışdı. Müstəqil siyasət yeritməyə və öz torpaqlarının bütövlüyünü qorumağa çalışan irəvanlı Məhəmməd xanın davranışı bu dövlətlərdən heç birini qane etmirdi. 1802-ci ilin əvvəllərində Fətəli şah ona hədə-qorxu dolu məktub göndərərək tabe olmasını və Naxçıvandan olan qaçqınların qaytarılmasını tələb etdi. Eyni zamanda öz sərkərdələrindən Abbasqulu xana İrəvan üzərinə hücum etmək üçün qoşun toplamaq əmrini verdi.

Gözlənilən hücum təhlükəsi İrəvan xanını fəaliyyətə başlamağa məcbur etdi. O, ilk növbədə qalanın möhkəmləndirilməsi, həmçinin ərzaq və sursat ehtiyatını artırması üçün tədbirlər gördü. Bunubla belə, Məhəmməd xan öz torpaqlarını yalnız öz qüvvəsi ilə müdafiə edə biləcəyinə ümid etmədiyindən kömək və himayə üçün Rusiyaya müraciət etdi. General-mayor Knorrinq yaranmış vəziyyətdən istifadə etmək qərarına gəldi və İrəvan xanına bildirdi ki, münasibətləri rəsmiləşdirmək üçün

nümayəndə heyəti göndərsin. Knorrinq eyni zamanda I Aleksandra müraciət edərək İrəvan xanlığını Rusiya himayəsinə götürməyi təklif etdi. O, öz təklifini onunla əsaslandırırdı ki, İrəvan xanlığının Rusiya himayəsinə götürülməsi Gürcüstanın və buradakı rus qoşunlarının təhlükəsizliyi üçün təminat ola bilər.

I Aleksandr general-mayor Knorrinqin təklifini müsbət qarşıladı və 1802-ci il aprelin 23-də ona xüsusi sərəncam göndərdi. Sərəncamda göstərilirdi ki, Rusiya İrəvan xanlığının Qacar dövləti tərəfindən işğalına laqeyd qala bilməz. Çarın fikrincə, İrəvanı ələ keçirən Fətəli şah bununla kifayətlənməyəcək və gələcəkdə hökmən Gürcüstan üzərinə hücuma keçəcək. Buna yol verməmək üçün isə İrəvan xanlığını Rusiya himayəsinə qəbul etmək və İrəvan qalasında rus qoşunlarını yerləşdirmək lazımdır.

I Aleksandrın sərəncamını yerinə yetirən Knoriinq, ilk növbədə Gürcüstandakı rus qoşunlarının gücləndirilməsi üçün tədbirlər gördü. Qafqaz xəttində olan 10 draqun eskadronu (xüsusi atlı-piyada qoşun-H.H), 7 qrenader (seçmə əsgər-H.H) rotası və 700 nəfərlik kazak dəstəsi Gürcüstana yeridildi. Bu ordu Gürcüstanın İrəvan xanlığı ilə həmsərhəd olan bölgələrində yerləşdirildi. Yaranmış vəziyyət Fətəli şahı İrəvan xanlığı üzərinə hücum etmək fikrindən daşındırdı.

Qacarlar təhlükəsinin sovuşması irəvanlı Məhəmməd xanın Rusiya ilə münasibətlərinə də təsir göstərdi. Xan Rusiya himayəsinə keçməkdən və rus qoşunlarını öz torpaqlarına buraxmaqdan qəti imtina etdi. P.Q.Butkov Məhəmməd xanın mövqeyində baş verən bu dəyişikliyin Rusiyanın düşməni hesab edilən naxçıvanlı Kəlbəli xanın və gürcü şahzadəsi Aleksandrın təsiri altında olduğunu bildirir. Əslində isə I Aleksandrın 12 sentyabr 1801-ci il reskripti ilə Pəmbək mahalının Rusiyaya qatılması bu məsələdə həlledici rol oynamışdı.

İrəvanlı Məhəmməd xan Rusiyanın Pəmbək torpaqlarını ələ keçirməsinin qarşısını almağa çalışırdı. O, rus komandanlığına bildirirdi ki, Pəmbək sultanlığı Ağa Məhəmməd şah Qacarın fərmanı ilə İrəvan xanlığına verilmişdir. Xan bu torpaqların rusların

nəzarəti altına keçməsinin qarşısını almaq üçün hələ 1801-ci ildə oraya ordu göndərməyə də cəhd göstərmişdi. Lakin general-mayor Lazarevin başçılığı ilə rus qoşunlarının buraya yeridilməsi ona öz məqsədinə çatmağa imkan vermədi. Belə olduqda o, Pəmbək əhalisinin İrəvan xanlığının ərazisinə köçürülməsi üçün tədbirlər gördü. Rus tarixçisi N.Dubrovinin verdiyi məlumata görə 6 min nəfər Pəmbək əhalisi öz yaşayış yerlərini tərk edərək İrəvan xanlığının ərazisinə köçürüldü. Lakin rus komandanlığının böyük bir hərbi dəstə ilə Pəmbəkə daxil olması vəziyyəti dəyişdirdi. Rusların İrəvan xanlığının özünü hücum hədəfi seçəcəyindən ehtiyat edən Məhəmməd xan Pəmbək əhalisini öz əvəlki yaşayış yerlərinə qaytarmağa məcbur oldu.

Rusiyanın Şərqi Gürcüstanı və bir sıra Azərbaycan torpaqlarını işğal etməsi Qacarlar dövlətinin də ciddi narahatlığına səbəb oldu.Lakin bu dövrdə Qacarlar dövləti rus işğallarının qarşısını almaq üçün çox zəif idi. Ölkə daxilində siyasi sabitliyin olmaması, müasir tələblərə cavab verən nizami ordunun yaradılmasına yenicə başlanılması Qacarlar dövlətinə Rusiyanın Cənubi Qafqazdakı işğallarına maneçilik törətməyə imkan vermirdi. Bu dövrün beynəlxalq vəziyyəti də Qacarlar dövləti üçün əlverişli deyildi. Rusiyanın sərhədlərinin cənuba doğru genişlənməsini öz mənafeləri üçün təhlükə hesab etmələrinə baxmayaraq İngiltərə və Fransa bunun üçün kifayət qədər maliyyə vəsaiti və hərbi qüvvə ayıra bilmirdilər. Onların Qacarlar dövləti sarayında tez-tez bir-birini əvəz etməsi görülən işlərin səmərəliliyini azaldırdı.

Rus işğalçı ordusuna qarşı yetərli miqdarda qüvvə çıxara bilməyən Qacarlar öz məqsədlərinə çatmaq üçün diplomatik vasitələrlə yanaşı, bölgədəki tərəfdarlarına şişirdilmiş yalançı vədlər verirdilər. Gürcüstandakı rus qoşunlarının komandanı general-mayor Lazarev Knorrinqə göndərdiyi 27 fevral 1802-ci il tarixli raportunda yazırdı ki, Fətəli şah Tiflisə nümayəndə heyəti göndərərək rus komandanlığı qarşısında Cənubi Qafqazın azad edilməsi tələbini qoymağı planlaşdırır. Qacarlar şahı bu tələbin yerinə yetirilməyəcəyi təqdirdə Rusiyanı müharibə ilə hədələyirdi.

Qacarlar dövləti Cənubi Qafqazdakı Rusiya əleyhidarlarını ona qarşı mübarizəyə ruhlandırmaq üçün öz qüvvələri haqqında hədsiz dərəcədə şişirdilmiş yalançı məlumatlar yayırdı. Yuxarıda haqqında danışdığımız raportda göstərilirdi ki, Fətəli şah ruslara qarşı müharibə aparmaq üçün Gürcüstana şahzadə Abbas Mirzənin komandanlığı altında 50 min nəfərlik qoşun göndərəcəyi haqqında öz tərəfdarlarına xəbər göndərmişdir. XIX əsrin əvvəllərində Gürcüstandakı vəziyyətin təsvirinə həsr edilmiş mənbələrdən birində göstərilirdi ki, Fətəli şah Rusiyaya qarşı müharibəyə başlamaq üçün Pirqulu xan Qacarı 20 min nəfərlik ordu ilə İrəvana göndərmişdi. Əslində isə Pirqulu xanın sərəncamında sayı 1800 nəfərdən artıq olmayan kiçik bir hərbi dəstə var idi.

Qacarlar komandanlığı öz ordusunun sayını və gücünü yaxşı bilir və bu ordu ilə ruslara qarşı uğurlu müharibə aparmağın mümkün olmadığını anlayırdı. Elə bu səbəbdən də Qacarlar dövləti bütün qüvvə ilə Azərbaycan xanlıqlarını və gürcü şahzadələrinin bir çoxunu Rusiyaya qarşı müharibəyə səfərbər etməyə can atırdı. Rusiya əleyhinə olan qüvvələri ruhlandırmaq məqsədilə yayılan məlumatlarda göstərilirdi ki, Gürcüstandakı rus qoşunları sayca çox azdır və onları buradan qovmaq elə də çətinlik törətməyəcək.

Yaranmış vəziyyətdə Qacarlar dövləti Rusiya əleyhinə olan qüvvələrin birgə çıxışına böyük ümid bəsləyirdi. Bu çıxışın təşkilində sərkərdə Pirqulu xan Qacar və gürcü şahzadəsi Aleksandr əsas rol oynamalı idilər. Əldə olan məlumatlar göstərir ki, göstərilən şəxslər 1802-ci ilin yayında İrəvan, Qarabağ, Gəncə xanlıqlarında və Car-Balakən camaatlıqlarında olmuş və onların hakimlərini Gürcüstandakı rus qoşunlarına qarşı birgə çıxışa razı sala bilmişdilər. Arxiv sənədlərindən birində göstərilir ki, «Baba xanın (Fətəli şahın– H.H.) Şuşada olan sərkərdəsi Pirqulu xan və şahzadə Aleksandr qərara gəlmişdilər ki, əvvəlcə birləşmiş qüvvələrlə hücum edib Şəki xanını hakimiyyətdən məhrum etsinlər və onu onların planları ilə razı olan başqası ilə əvəz etdikdən sonra ləzgilərin yaşadıqları ərazidən birlikdə Gürcüstana hücum etsinlər».

Rus qoşunlarını Gürcüstandan çıxarmaq üçün kifayət qədər gücü olmayan Qacarlar dövləti bu işi bölgədəki Rusiya əleyhinə olan qüvvələri birləşdirmək hesabına həyata keçirməyə çalışırdı. Yaradılacaq bu birlikdə gəncəli Cavad xana və gürcü şahzadəsi Aleksandra böyük önəm verilirdi. Onu da göstərmək lazımdır ki, Gürcüstanın rus qoşunlarından təmizlənməsi və gürcü dövlətinin bərpa edilməsi məsələsində şahzadə Aleksandr daha böyük fəallıq göstərirdi. O, Rusiyaya qarşı olan qüvvələrin vahid bir ittifaqda birləşməsində heç də Fətəli şahdan az rol oynamırdı. Dəfələrlə İranda və Gürcüstanla həmsərhəd olan Azərbaycan torpaqlarında olan şahzadə öz ətrafında xeyli qüvvə cəmləşdirə bilmişdi. Bəzi məlumatlara görə onun sərəncamında olan muzdlu döyüşçülərin sayı 5 min nəfərə çatırdı.

Şahzadə Aleksandrın Rusiya əleyhinə yönəlmiş fəaliyyətində Cavad xan da mühüm rol oynayırdı. Əsas məqsədi Gürcüstanı rus qoşunlarından təmizləmək və çar taxtına sahib olmaq olan ***Aleksandr göstərdiyi köməyə görə Şəmsəddil torpaqlarını Gəncə xanlığına qaytaracağı haqqında Cavad xana söz vermişdi***. Cavad xanın ona göstərdiyi kömək isə heç də az deyildi. Rus hərbçilərinin 1802-ci ilə aid məlumatlarından aydın olur ki, Cavad xan gürcü şahzadəsi üçün Gəncə şəhərində ayrıca ev tikdirmiş, ona hər ay 1000 manat həcmində məvacib müəyyənləşdirmişdi. Ruslara qarşı hərbi əməliyyatlar keçirmək üçün lazım olan döyüşçülərin toplanılmasında da Gəncə xanı Aleksandra yardım göstərirdi. Car-Balakənə göndərilmiş xüsusi adamlar gürcü şahzadəsinin tərəfindən döyüşməyə hazır olan hər bir döyüşçüyə 50 gümüş manat pul ödəməyi öhdələrinə götürürdülər. Gürcüstandakı rus qoşunlarının komandanı Lazarev yazırdı ki, Fətəli şah da Car-Balakən camaatlarına müraciət edərək onları şahzadə Aleksandra yardım göstərməyə çağırmış, bunun müqabilində onlardan hər birinə 100 gümüş manat məbləğində mükafat verəcəyini bildirmişdi.

Göstərmək lazımdır ki, Car-Balakən camaatlığı Rusiyanın Gürcüstandakı mövqeləri üçün daha böyük təhlükə təşkil edirdi. Çar məmurlarının özlərinin verdikləri məlumatlardan aydın olur ki,

1801-1802-ci illərdə camaatlığın ərazisindən yaşayış məntəqələri ilə yanaşı Gürcüstandan rus hərbi postlarına aramsız hücumlar təşkil edilirdi. Vəziyyət o həddə çatmışdı ki, rus komandanlığı müvəqqəti olaraq yeni ərazilər işğal etmək planını təxirə salıb bu hücumların qarşısının alınması ilə məşğul olmağa məcbur olmuşdu.

Artıq 1802-ci ilin payızında Gürcüstandakı rus işğal ordusuna qarşı birgə mübarizə aparmaq üçün xeyli qüvvə cəmləşmişdi. General Lazarevin verdiyi məlumatdan aydın olur ki, bu qüvvələr eyni vaxtda dörd tərəfdən Gürcüstan üzərinə hücuma keçməyə hazırlaşırdılar. Rus generalı özünün 6 oktyabr 1802-ci il tarixli raportunda göstərirdi ki, gürcü şahzadələri və Axalsix hakimi Şərif paşa İmeretiya və Axalsix tərəfdən, irəvanlı Məhəmməd xan və naxçıvanlı Kəlbəli xan Pəmbək tərəfdən, şahzadə Aleksandr və gəncəli Cavad xan Gəncə tərəfdən, Car-Balakən döyüşçüləri isə Kaxetiya tərəfdən Gürcüstan üzərinə hücuma hazırlaşırlar. Bu qüvvələr arasında əlaqələrin yaradılmasında və eyni vaxtda hücum planının hazırlanmasında Qacarlar dövləti mühüm rol oynayırdı. Pirqulu xan Qacarın, İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarında olub onların qüvvələrini birləşdirməyə cəhd göstərməsi haqqında rus mənbələri məlumat verir. P.Q.Butkov yazır ki, 1802-ci ilin iyulunda Şuşaya gələn Pirqulu xan Qacar burada İbrahimxəlil xan və gürcü şahzadəsi Aleksandrla birlikdə Gürcüstan üzərinə hücum planı hazırladı. Bu plana görə müttəfiqlər əvvəlcə Fətəli şaha tabe olmaqdan imtina edən şəkili Məhəmmədhəsən xanın və şamaxılı Mustafa xanın üzərinə hücum etməli və Şəkidə hakimiyyətə onlara kömək vəd edən Səlim xanı gətirməli idilər. Bu məlumatdan aydın olur ki, Gürcüstana Car Balakən tərəfdən təşkil ediləcək yürüşdə Qacarlar dövləti və Car-Balakən camaatları ilə yanaşı şahzadə Aleksandrın, qarabağlı İbrahimxəlil xanın və şəkili Səlim xanın da qüvvələri iştirak etməli idi.

Lakin Qacarlar dövləti görülən hazırlıq işlərini məntiqi sonluğa çatdıra bilmədi. Bir tərəfdən Gürcüstana hücuma hazırlaşan qüvvələr arasındakı ziddiyyətlər, digər tərəfdən isə maliyyə və hərbi ehtiyatların azlığı planlaşdırılan yürüşün baş tutmasına imkan

vermədi. Rus komandanlığının Gürcüstanın daxilindəki həyəcanların qarşısını vaxtında alması da bu hücumun qarşısının alınmasında az rol oynamadı.

Qacarlar dövlətindən fərqli olaraq Rusiyanın Qafqaz siyasəti daha məkrli, eyni zamanda daha ardıcıl olub Azərbaycan xanlıqlarının müstəqillikləri üçün real təhlükə törədirdi. Qacarlar dövləti ilə müqayisədə daha böyük iqtisadi və hərbi imkanlara malik olan Rusiya öz təcavüzkarlıq siyasətini həyata keçirmək üçün həm diplomatik vasitələrdən, həm də hərbi təzyiq metodlarından qarşılıqlı əlaqə şəklində istifadə edirdi. Yuxarıda göstərildiyi kimi, I Aleksandrın hakimiyyətə gəlməsilə Rusiyanın Qafqaz siyasətində xeyli canlanma baş vermişdi. Ümumiyyətlə, I Aleksandrın Azərbaycan xanlıqlarına münasibətdə yeritdiyi siyasətdə bir-biriylə çıx bağlı olan üç mərhələ aydın şəkildə seçilir. Birinci mərhələdə Azərbaycan xanlıqlarını Rusiyanın nüfuz dairələrində saxlamaq və onların Qacarlar dövləti ilə birləşmələrinə yol verməmək, ikinci mərhələdə Azərbaycan və Dağıstan xanlıqlarının Rusiyanın himayəsi altında ittifaqını yaratmaq və bu yolla Qacarlar dövlətinin bölgəyə gözlənilən hücumunun qarşısını almaq siyasəti yeridilirdi. Hər iki mərhələdə planlarını ört-basdır etməyə çalışır, özünü Azərbaycan xanlarının müstəqilliklərinin mühafizəçisi kimi göstərirdi. Azərbaycan xanlıqlarının Qacarlar dövləti ilə birləşmək ehtimalının çox az olduğuna əmin olduqdan sonra ***I Aleksandr hökuməti öz siyasətinin üçüncü mərhələsinə-Azərbaycan torpaqlarının işğalı mərhələsinə başladı***. *Azərbaycan xanlarının əksəriyyəti isə öz davranışları ilə Rusiyanın işğalçılıq siyasəti üçün daha əlverişli şərait yaradır, Qacarlar dövlətini öz müstəqillikləri üçün daha böyük təhlükə hesab edən Azərbaycan xanları bu və ya digər məsələrlə əlaqədar Rusiyaya müraciət etməkdə davam edirdilər. Azərbaycan xanlarından bir çoxu özlərinin qonşu xanlıqlara olan ərazi iddialarını Rusiyanın köməyilə həyata keçirəcəklərinə ümid bəsləyirdilər.*

Rus dövləti də Azərbaycan xanlarının bu vəziyyətindən məharətlə istifadə edərək onlara münasibətdə «parçala və hökmranlıq et» prinsipini tətbiq edərək siyasi dividend qazanırdı.

Bakı və Salyan torpaqları uğrunda Şamaxı xanlığı ilə düşmənçilik edən qubalı Şeyxəli xan rus çarından xahiş edir ki, «əgər siz bizə döyüşçülər göndərsəniz, biz onların köməyilə mənim düşmənim şirvanlı Mustafa xanı məhv edərək və Talışdan Şəkiyə qədərki bütün torpaqları Rusiyaya birləşdirərik». Çar hökuməti isə Azərbaycan xanlarını Qacarlar təhlükəsi ilə hədələyərək onları Rusiya himayəsini qəbul etmək üçün daha da şirnikləndirirdi. Rus konsulu M.Skibnevski bakılı Hüseynqulu xanla apardığı danışıqlarda Qacarlar təhlükəsini daha da şişirdərək onu könüllü olaraq Rusiyanın himayəsini qəbul etmək üçün dilə tutmağa çalışırdı.

*Rusiya hökumətinin Bakı xanlığına xüsusi diqqət verməsi heç də təsadüfi deyildi.* **Əvvəla**, Xəzər dənizində çox əlverişli limana malik olan Bakı şəhəri Rusiyanın şərq ölkələri ilə ticarətində mühüm rol oynayırdı. **İkincisi**, Rusiya hökuməti Bakı xanlığına və Azərbaycanın Xəzər dənizi sahillərində yerləşən digər torpaqlarına Gürcüstandakı rus qoşunları ilə əlaqə yaratmaq üçün ən əlverişli məntəqə kimi baxırdı. I Aleksandr özünün bu məsələyə həsr olunmuş reskriptlərindən birində yazırdı: «Mülkləri Araz çayının sol sahili boyunca uzanan və Kür çayına söykənən hakimlərlə, xüsusilə Bakı xanı ilə əlaqələr yaratmaqla çalışmaq lazımdır ki, bizim Gürcüstandakı ordumuza yükləri Qafqaz dağlarından keçən çətin yolla deyil, Həştərxandan su yolu ilə çatdırmaq imkanı qazanılsın».

*1801-ci ilin payızında rus çarı I Aleksandr Azərbaycan və Dağıstan hakimlərini Qacarların gözlənilən hücumlarına qarşı ittifaqda birləşdirmək ideyasını irəli sürdü.* Əslində bu heç də yeni bir ideya olmayıb atası Pavelin irəli sürdüyü ideyanın yeni şəraitə uyğun olaraq daha da inkişaf etdirilməsi idi. Yaranmış vəziyyətdən istifadə edən I Aleksandr Azərbaycan xanlarını aralarındakı çəkişmələrdən imtina etməyə və hamı üçün eyni olan vahid

düşmənə qarşı birləşməyə çağırdı. Burada vahid düşmən dedikdə, şübhəsiz ki, Qacarlar dövləti nəzərdə tutulurdu.

I Aleksandrın Azərbaycan xanlıqlarının federasiyasını yaratmaq planı onun general-leytenant Knorrinqə ünvanladığı sərəcamında daha aydın və ətraflı şərh olunmuşdu. Sərəncamda planın həyata keçirilməsini reallaşdırmaq üçün bir neçə konkret tədbirin həyata keçirilməsi nəzərdə tutulurdu.

**Birincisi,** Azərbaycan xanları və Tərki Şamxalı müzakirələr aparmaq üçün ya özləri, ya da səlahiyyətli nümayəndələri Knorrinqin Georgiyevskdə yerləşən qərargahına toplanmalıdırlar;

**İkincisi**, bütün hakimlər aralarındakı düşmənçilik hərəkətlərinə son qoymalı, öz mülklərini düşmən hücumlarından qorumaq üçün vahid ittifaqda birləşməli və buna əməl edəcəklərinə and içməlidirlər;

**Üçüncüsü,** rus çarının himayəsi altında yaradılacaq bu ittifaqın pozulmaması üçün tərəflər bir-birinə qarşı düşmənçilik hərəkətlərindən imtina etməli, aralarındakı mübahisələri öz qanun və adətlərinə uyğun həll etməli, bu mümkün olmadıqda isə rus çarına müraciət etməlidirlər;

**Dördüncüsü,** ittifaqa daxil olan hakimlərdən hər hansı birisi Qacarlar dövlətinin hücumuna məruz qalardısa, onun bütün üzvləri qüvvələrini birləşdirərək bu hücumu birlikdə dəf etməli idilər;

**Beşincisi**, danışıqlar gedən müddət ərzində Gürcüstanla qonşu olan xanlardan hər hansı biri ittifaqa daxil olmağa çalışarsa, göstərilən şərtlər daxilində onu oraya qəbul etmək lazımdır;

**Altıncısı**, bütün bu qaydalar xanların ümumi şurasında müqavilə şəklində hər bir xan tərəfindən imza və möhürlə təsdiq edildikdən sonra hər bir xana sənədin surəti verilməli, əsli isə Rusiyanın Xarici İşlər kollegiyasına göndərilməlidir;

**Yeddincisi,** müqaviləni imzalayan tərəflər Rusiya himayəsinə keçməyi arzu edərlərsə, onlara bu haqda ümid vermək və istədikləri vaxt öz nümayəndələrini Rusiya sarayına göndərmələri üçün şərait yaradılmalıdır;

Rus diplomatiyası I Aleksandrın sərəncamının yerinə yetirilməsi üçün, təxminən, bir il vaxt sərf etməli oldu. Bu müddət ərzində Dağıstan hakimlərindən Tərki şamxalı, Qaraqaytaq usmisi və Tabasaran qazisi də danışıqlara cəlb edildi. Danışıqlarda iştirak edən tərəflərin coğrafiyasına fikir verdikdə onların hamısının Xəzərsahili bölgədə yerləşməsi diqqəti cəlb edir. Bunu heç də təsadüfi hal hesab etmək olmaz. Xəzərsahili bölgələr Rusiya üçün yalnız hərbi-strateji baxımdan deyil, ilk növbədə Azərbaycan Rusiya sənayesi üçün zəruri olan xammalla zəngin idi. Digər tərəfdən, Rusiyanı Cənubi Azərbaycan və Cənubi Qafqazla birləşdirən ticarət yolları bu hakimlərin torpaqlarından keçirdi. Bölgədə hökm sürən siyasi pərakəndəlik və ara müharibələri rus ticarətinin inkişafına ciddi əngəllər törədirdi. Heç də təsadüfi deyil ki, Azərbaycan və Dağıstan hakimləri ilə aparılan danışıqlarda bölgədə rus tacirlərinin təhlükəsizliyinin təmin edilməsi məsələsinə də xüsusi diqqət verilirdi.

**Rusiyanın himayəsi altında *Azərbaycan və Dağıstan hakimlərinin ittifaqının yaradılması haqqında danışıqlar*** *1802-ci ilin sentyabrında başladı və həmin il* **dekabrın 26-da Georgiyevsk şəhərində müqavilənin imzalanması ilə nəticələndi**. Müqaviləni Tərki Şamxalı, Qara Qayfaq ucmisi, Tabasan hakimi və digər dağlı hakimlərlə yanaşı Azərbaycan xanlarından yalnız Quba və Lənkəran xanları imzaladılar. 12 maddədən ibarət olan Georgiyevsk müqaviləsinin 5-10-cu maddələri *ticarət əməliyyatlarının tənzimlənməsinə*, daha doğrusu Xəzərsahili bölgələrdə rus tacirləri üçün əlverişli şəraitin yaradılmasına *həsr edilmişdi*. Bu məsələlər sırasına *rus ticarət gəmiləri qəzaya uğrayarkən malların və insanların xilas edilməsi, bu haqda rus hakimiyyət orqanlarına xəbər verilməsi, quru yolla hərəkət edən ticarət karvanlarının təhlükəsizliyinin təmin edilməsi, rus tacirlərinə hörmət və himayədarlıq göstərilməsi* kimi məsələlər daxil idi. Qəzaya uğramış rus gəmilərindəki malların xilas edilib sahiblərinə qaytarılmasına xüsusi diqqət verilirdi. Müqavilənin yeddinci maddəsində göstrəilirdi ki, xilas edilmiş malların 1/6 hissəsi onu xials edənlərə çatmalıdır. Bu isə öz növbəsində dörd hissəyə bölünərək iki hissəsi malı xilas edənlərə, bir hissəsi xilas edilən malları

saxlayanlara, bir hissəsi isə malı xilas etmək üçün sərəncam vermiş rəisə çatmalıdır.

Müqavilənin mühüm maddələrindən olan *səkkizinci maddə* **gömrük məsələlərinin tənzimlənməsinə** həsr edilmişdi. Rusiya hökuməti **1732-ci ildə bağlanmış Rəşt müqaviləsini** əsas götürərək rus tacirlərinin Azərbaycanda gömrük haqqı ödəməkdən azad edildiklərini təkid etdiyi halda burada ilk dəfə güzəştə gedir və hamı üçün eyni gömrük tarifinin müəyyənləşdirilməsinə razılıq verirdi. Burada hər bir maldan toplanacaq gömrük haqqının miqdarı dəqiqləşdirilirdi.

Müqavilənin yerdə qalan maddələri siyasi məsələlərin tənzimlənməsinə həsr edilmişdi. Burada I Aleksandrın 24 dekabr 1801-ci il tarixli sərəncamında irəli sürülmüş bütün məsələlər əks olunmuşdu. Bu məsələlər haqqında isə yuxarıda ətraflı bəhs edildiyindən onları təkrar etməyə ehtiyac görmürük.

***Georgiyevsk müqaviləsi**nin imzalanması Qacarlar dövlətinin şahının Cənubi Qafqazda mövqeyini zəiflətdi, Xəzər dənizi hövzəsini ələ keçirməyə can atan İngiltərənin siyasi və strateji mənafeyinə zərbə vurdu. Azərbaycan və Dağıstanda rus orientasiyasını gücləndirdi.*

Lakin Rusiya heç də Georgiyevsk müqaviləsinin imzalanması ilə kifayətlənmədi. Hakim dairələrin ayrı-ayrı nümayəndələri Cənubi Qafqazın bütün ərazisini, o cümlədən Azərbaycan torpaqlarını işğal etmək üçün fikirlər səsləndirməyə başladılar. Bu məsələdə 1802-ci ilin sentyabrında Qafqazdakı rus qoşunlarının baş komandanı təyin edilən P.D.Sisianov xüsusilə canfəşanlıq göstərdi. Çünki P.D.Sisianov hələ 1796-cı ildə rus qoşunlarının Azərbaycana yürüşünün iştirakçısı olmuş, Bakı qalasının komendantı vəzifəsini yerinə yetirmişdi. Özünün hədsiz fəallığı və qəddarlığı ilə seçilən yeni baş komandan vəzifəsinin icrasına 1803-cü ilin fevralında başladı. Çar hökuməti onun qarşısında Bakı ilə Gürcüstan arasında maneəsiz əlaqə yaratmaq, Xəzər dənizi və Qara dənizi birləşdirməklə rus ticarətinin inkişafını təmin etmək vəzifəsi qoymuşdu.

Bölgəyə P.D.Sisianov çarın tapşırığını yerinə yetirmək üçün əməli fəaliyyətə başladı. O, 1803-cü ilin əvvəllərində çar I Aleksandra özünün işğalçılıq planları haqqında məlumat verdi. Bu plana görə *Rusiya ilk növbədə Dərbənd, Bakı və Salyan şəhərlərini ələ keçirməli, Rusiyanın düşməni olan Şamaxı hakimi Mustafa xanı devirib hakimiyyətə Qasım xanı gətirməli idi.* Sisianov bu planın həyata keçirilməsi üçün Rusiya hökumətindən əlavə hərbi qüvvələr yeridilməsini xahiş edirdi.

General P.D.Sisianov tərəfindən irəli sürülmüş işğalçılıq planı I Aleksandr tərəfindən həm maraqla, həm də bir qədər ehtiyatla qarşılandı. Bu planın həyata keçirilməsinin hansı nəticələrə gətirib çıxaracağı rus çarını ciddi narahat edirdi. Elə bu səbəbdən də o, bu məsələ ilə bağlı olan bir çox yüksək rütbəli məmurların, o cümlədən kansler A.R.Voronsovun, 1796-cı il yürüşünün komandanı V.A.Zubovun və Daxili işlər naziri qraf Korubeyin fikirlərini öyrənmək qərarına gəldi. Bizim əlimizdə A.R.Voronsovun və general V.A.Zubovun çarın müraciətinə cavabları olduğundan onların üzərində bir qədər ətraflı dayanmağı lazım bilirik. Bu Rusiyanın Azərbaycana dair işğalçılıq planlarının mahiyyətini başa düşmək baxımından xeyli əhəmiyyət kəsb edir.

P.D.Sisianovun Azərbaycana dair işğalçılıq planına ilk münasibət bildirən V.A.Zubov oldu. O, 1803-cü ildə I Aleksandra ünvanladığı cavabında göstərirdi ki, Sisianova Dərbəndi işğal etməyə və Şamaxıda Mustafa xanı Qasım xanla əvəz etməyə icazə vermək lazımdır. Onun fikrincə, Sisianov digər Azərbaycan torpaqlarının işğalını 1804-cü ilin yazına qədər təxirə salmalı, əsas diqqəti Gürcüstanın möhkəmləndirilməsinə yönəltməlidir.

Ümumiyyətlə, götürdükdə isə V.A.Zubov I Aleksandrı II Yekaterinanın «dahiyanə planını yerinə yetirməyə» çağırırdı. O, bildirirdi ki, II Yekaterinanın 1796-cı ildə yerinə yetirilməsi nəzərdə tutulan planının əsasını Gürcüstanı möhkəmləndirmək və Araz çayına qədər bütün torpaqları ona birləşdirməklə Rusiyadan vassal asılılığında olan güclü xristian dövləti yaratmaq təşkil edirdi. O, daha sonra yazırdı ki, əgər I Aleksandr hökuməti İranla ticarətdən maksimum gəlir əldə

etmək istəyirsə, bunun yeganə yolu II Yekaterinanın planına dəqiqliklə əməl etməkdir.

*V.A.Zubovdan fərqli olaraq kansler A.R.Voronsov Sisianovun irəli sürdüyü təklifə daha ehtiyatla yanaşırdı.* Onun fikrincə, planın həyata keçirilməsi əvvəlcədən ciddi hazırlıq işlərinin görülməsini, o cümlədən bu iş üçün səfərbər ediləcək ordunun və onun ehtiyacları üçün tələb olunan ərzağın miqdarının dəqiqləşdirilməsini tələb edir. Kansler *A.R.Voronsov P.D.Sisianovdan fərqli olaraq Azərbaycan torpaqlarının 1803-cü ildə deyil, 1804-cü ildə işğal edilməsini daha məqbul sayır* və bu aşağıda göstərilən iki səbəblə əsaslandırırılırdı: ***birincisi***, işğalın həyata keçirilməsi üçün nəzərdə tutulan ordunun komplektləşdirilməsini qısa müddət ərzində həyata keçirmək mümkün deyil, ***ikincisi***, vaxtından əvvəl keçirilən hərbi əməliyyatlar Rusiyanın müttəfiqləri hesab edilən bir çox Azərbaycan xanlarının onun işğalçılıq planlarından daha tez duyuq düşmələrinə səbəb ola bilər. Göründüyü kimi, Rusiyanın hakim dairələri özlərinin işğalçılıq planlarını gizli saxlamaqla Azərbaycan xanlıqlarının sayıqlığını azaldır, onların öz torpaqlarını qorumaq üçün ata biləcəkləri addımların qarşısını almağa çalışırdılar. Bu səbəbdən də, I Aleksandr general Sisianova Azərbaycanın Xəzərsahili vilayətlərini ələ keçirmək üçün geniş miqyaslı hərbi əməliyyatlara başlamağa icazə vermədi.

I Aleksandrın bu göstərişindən sonra general Sisianov Azərbaycanın Xəzərsahili vilayətlərini dinc vasitələrlə, Gürcüstanla həmsərhəd olan torpaqlarını isə hərbi yolla ələ keçirmək üçün addımlar atmağa başladı. General Sisianov ilk növbədə mühüm iqtisadi və strateji əhəmiyyəti olan Bakı şəhərini dinc vasitələrlə ələ keçirməyə çalışırdı. Bu zaman o, bakılı Hüseynqulu xandan rus qoşunlarını Bakıya buraxmağı tələb etdi. Sisianovun göstərdiyi hədə-qorxu tezliklə öz nəticəsini verdi. Bakılı Hüseynqulu xanın nümayəndəsi Allahverdi bəy 1803-cü ilin martında Tiflisə gəldi və Bakı xanlığının Rusiyanın himayəsi altına keçməsi məsələsini müzakirə etmək üçün Peterburqa getmək niyyətində olduğunu bildirdi. Allahverdi bəyin Peterburqa getməsinə icazə verməyən

Sisianov onu Tiflisdə danışıqlar aparmağa məcbur edə bildi. Bu danışıqların gedişində Hüseynqulu xan öz üzərinə Rusiyanın himayəsi altına keçmək və Bakı şəhərində 1000 nəfərlik rus qarnizonu yerləşdirmək haqqında öhdəlik götürdü. Lakin bu dövrdə Rusiyaya düşmən mövqeyində dayanan şamaxılı Mustafa xanın hücum edəcəyindən qorxan Hüseynqulu xan P.D.Sisianovla əldə olunmuş bu razılaşmanı təsdiq etməkdən imtina etdi.

*General P.D.Sisianov Bakı xanlığı ilə danışıqlar aparmaqla yanaşı Car-Balakən camaatlığını işğal etmək üçün tədbirlər görməyə başlamışdı. Çar generalının* ilk hücum hədəfi kimi *Car-Balakəni seçməsi heç də təsadüfi olmayıb* bir sıra mühüm səbəblərlə bağlı idi. ***Əvvəla,*** car-balakənlilər 1801-1802-ci illər ərzində dəfələrlə Gürcüstana hücumlar etmiş, nəinki gürcülərə, eləcə də buradakı rus qoşunlarına düşmən olan qüvvələrin dayaq məntəqəsinə çevrilmişdi. Qacarlar və Osmanlı dövlətləri də Car-Balakən camaatlığının antirus mübarizəsinə böyük ümid bəsləyir və bu mübarizədə onlara dəstək verməyə çalışırdılar. ***Nəhayət***, Car-Balakən camaatlığının işğal olunması mühüm hərbi strateji əhəmiyyətə malik olub digər Azərbaycan torpaqlarının işğalında önəmli rol oynaya bilərdi.

***Car–Balakən camaatlığının işğalı üçün hazırlıq işlərinə 1803-cü ilin fevralında start verildi*** və martın əvvəllərindən həyata keçirilməyə başlanıldı. General A.Qulyakovun komandanlıq etdiyi 8 topla təchiz edilmiq 6300 nəfərlik ordu martın 2-də Car-Balakənə yeridildi. Bu ordudakı canlı qüvənin əsas hissəsini, daha doğrusu 4500 nəfərini gürcü süvariləri və piyadaları təşkil edirdi. Martın 4-də Qanıx çayı sahillərində və martın 9-da Balakən yaxınlığında baş verən döyüşlərdə carlılar inadlı müqavimət göstərsələr də ağır məğlubiyyətə uğradılar və xeyli itki verdilər. Çox güclü olan düşmənə müqavimət göstərməyin mümkün olmadığını görən car-balakənlilər mübarizəni dayandırmağa və P.D.Sisianovun irəli sürdüyü şərtləri qəbul etməyə məcbur oldular. Şərtlər isə aşağıdakılardan ibarət idi: Car-Balakəndə həmişəlik rus qoşunları yerləşdirilməli, Balakən, Katex, Car, Tala, Muxax və Cınıx camaat-

larının hər birindən sədaqət əlaməti olaraq əmanət verilməli və hər il 1100 litr həcmində ipək ödəməli idi. ***1803-cü il aprelin 12-də Car-Balakən camaatlığının nümayəndələri Tiflisdə göstərilən şərtlərlə müqavilə imzalamağa məcbur oldular***. Bununla da çar Rusiyası Azərbaycanın digər torpaqlarını da işğal etmək üçün mühüm dayaq məntəqəsi əldə etmiş oldu.

Bölgədə hökm sürən siyasi pərakəndəlik, Azərbaycan xanlıqları arasında hələ də davam edən çəkişmələr və Qacarlar dövlətinin zəifliyi çar Rusiyasına Cənubi Qafqazdakı işğallarını daha da genişləndirmək üçün əlverişli şərait yaradırdı. Car-Balakənin işğalını başa çatdıran general Sisianov növbəti işğal hədəfi kimi İrəvan və Gəncə xanlıqlarını seçdi. Göstərmək lazımdır ki, rus generalı hər iki xanlığı ələ keçirmək üçün əvvəlcə hədə-qorxu metodundan istifadə etmişdi. Bununla belə, nə irəvanlı Məhəmməd xan, nə də gəncəli Cavad xan bu hədələrdən qorxmayaraq sonadək vuruşmağa hazır olduqlarını bildirmişdilər.

General Sisianov irəvanlı Məhəmməd xandan Rusiyanın təəbəliyini qəbul etməyi, rus qoşunlarını İrəvan qalasına buraxmağı və hər il Rusiya xəzinəsinə 80 min rubl xərac ödəməyi tələb etdi. Lakin bu tələblərdən heç biri İrəvan xanı tərəfindən qəbul edilmədi. Çox güclü müdafiə imkanlarına malik olan İrəvan qalasını ələ keçirmək üçün kifayət qədər gücü olmayan Sisianov müvəqqəti olaraq bu fikirdən daşındı və əsas diqqəti Gəncə xanlığının işğal edilməsinə yönəltdi.

Məlumdur ki, general Sisianov Gəncə xanlığının tabe edilməsi işinə Tiflisə gəldiyi ilk günlərdən başlamışdı. O, hələ 1803-cü il fevralın 25-də Cavad xandan Rusiyanın himayəsi altına keçməyi və sədaqət əlaməti olaraq oğlu Uğurqulu ağanı girov göndərməyi tələb etmişdi. Lakin «İran hökmdarı Baba xanın (Fətəli şahın – H.H.) fərmanını aldığını» bəhanə edən Cavad xan onun bu tələbini yerinə yetirməkdən imtina etmişdi.

***Rus komandanlığı 1803-cü ilin payızında Gəncə xanlığının işğalı üçün real addımlar atmağa başladı***. Həmin ilin noyabr-dekabr aylarında gəncəli Cavad xanla general Sisianov arasında bir-

birinin ünvanına kəskin ifadələrlə dolu olan məktublar mübadiləsi həyata keçirildi. General Sisianov Cavad xana təslim olmaq barədə ultimatum verdi. Sisianov Gəncə şəhərini ələ keçirmək üçün xeyli vaxt və hərbi qüvvə sərf etməli olmuşdu. Cavad xanın başçılıq etdiyi gəncəlilər doğma şəhərlərini son nəfəslərinə qədər müdafiə etdilər. Döyüşlər zamanı 1500 nəfər gəncəli döyüşçü həlak oldu. 1804-cü il yanvarın 3-də şəhəri işğal edən ruslar əksəriyyətini qadın və uşaqlar təşkil edən 17224 nəfəri əsir götürdülər. Gəncəni ələ keçirən ruslar Azərbaycanın digər torpaqlarını da işğal etmək üçün çox əlverişli mövqe qazandılar. *Qərbi Avropa dövlətləri tərəfindən təhrik edilən* ***Qacarlar dövləti 1804-cü ilin iyunun 16-da Rusiyaya müharibə elan etdi.*** Nəticədə Şərqi Gürcüstanı Rusiya imperiyasının tərkibinə daxil etməklə rus dövləti Qacar və Osmanlı dövlətlərinin qonşuluğunda hərbi plasdarm yaratdı və O bu mövqedən istifade edərək Azərbaycan və Dağıstanı öz tərkibinə daxil etmək üçün hərbi-siyasi mövqelərini gücləndirdi.

Azərbaycanı Rusiya üçün zəruri edən nə idi?

1. Azərbaycan ərazisinin Rusiya üçün çox böyük strateji əhəmiyyəti var idi;

Hər şeydən əvvəl çar Rusiyası Hətərxan-Dərbənd-Bakı marşrutu ilə Gürcüstanda olan rus ordusu ilə əlaqə yaratmağa can atırdı. Məhz buna görə də 1804-1813-cü illər Rus-İran müharibəsinin hərbi əməliyyatının əsas istiqaməti Naxçıvan vasitəsi ilə Təbriz-Tiflis istiqamətində, 1826-1828-ci illər müharibəsində isə Qarabağ vasitəsi ilə Təbriz-Gəncə (Yelizavetpol)-Tiflis istiqamətində getmişdir.

Asiya-Avropa ticarətində Azərbaycanın coğrafi cəhətdən əlverişli nöqtədə yerləşməsi. Rusiya öz ticarət maraqlarını, mənfəətini təmin etmək üçün Qafqazı, o cümlədən Azərbaycanı işğal edib burada ara müharibələrinə, quldur basqınlarına son qoyub, sabitlik yaratmaq istəyirdi;

2. Azərbaycanın münbit torpaqları, xammalı və faydalı qazıntılarından rus sənayesi üçün istifadə etmək;

3. Azərbaycanda möhkəmləndikdən sonra «Qacarlar dövlətinin cənubundakı dənizə yol açmaq» . Dəniz dedikdə, Hindistanın qərbindəki Ərəb dənizi nəzərdə tutulur.

Rusiyanın Cənubi Qafqazı, o cümlədən Azərbaycanı işğal etməsi Böyük Britaniyanın Şərqdə təsirinə, Ost-Hind kompaniyasının inhisarına ağır zərbə endirə bilərdi. Bu diyarın işğalı ənənəvi rus-türk rəqabətində qüvvələr nisbətini Rusiyanın xeyrinə həll edə bilərdi. Rusiya Mərkəzi Qafqazı hələ fəth edə bilməmişdi. Cənubi Qafqazın istilası dağlıların ərazilərini şimaldan və cənubdan mühasirəyə almaqdan ötrü əlverişli şərait yarada bilərdi.

Bununla da Ərəb dənizi və Hind okeanına çıxmaq imkanı qazanan rus imperiyası, Hindistan kimi zəngin bir ölkəni öz simvolu olan ikibaşlı qartalın caynağına keçirməli idi.

# NƏTİCƏ

1747-ci ildə Nadir şahın ölümündən sonra dövlətçiliyin vahid dövlət halında deyil, pərakəndə xanlıqlar formasında bərpa edilməsi Azərbaycan xalqı qarşısında ciddi problemlər yaradırdı. Ayrı-ayrı feodal hakimlərin öz mülklərini genişləndirmək və müstəqilliklərini qorumaq uğrunda apardıqları aramsız müharibələr ölkə iqtisadiyyatına ağır zərbə vurur, məhsuldar qüvvələrin inkişafını ləngidir, xalqın böyük zəhmət hesabına yaratdığı maddi nemətlərin məhv olmasına gətirib çıxarırdı. Xanlıqlar dövrünün müxtəlif mərhələlərində bu və ya digər Azərbaycan xanının ölkəni vahid dövlətdə birləşdirmək cəhdləri uğursuzluqla nəticələnirdi. Maddi və hərbi resusrların azlığı və güclü qonşu dövlətlərin müdaxiləsi onlara qarşılarına qoyduqları məqsədə çatmağa imkan vermirdi.

Həmişə olduğu kimi, xanlıqlar dövründə də Azərbaycanın zəngin təbii ehtiyatları və əlverişli coğrafi mövqeyi güclü qonşu dövlətlərin diqqət mərkəzində idi. Bu dövrdə Azərbaycan Qacarlar, Osmanlı dövləti və Rusiya kimi qonşu dövlətlərin maraqlarının toqquşduğu bir ölkəyə çevrilmişdi. Adları çəkilən dövlətlər, ilk növbədə isə Rusiya nəinki Azərbaycanda vahid dövlətin yaranmasına imkan vermir, həm də onun torpaqlarını ələ keçirmək üçün əlverişli məqam axtarırdılar. Lakin sosial-iqtisadi inkişaf baxımından bir-birindən xeyli fərqlənən bu dövlətlərin Azərbaycana münasibətdə yeritdikləri siyasət də fərqli idi.

XVIII əsrin 70-ci illərində Rusiya-İran münasibətlərində Azərbaycan önəmli yer tutmağa başlamışdı. Lakin bu dövrdə hər iki dövlətin Azərbaycan siyasətinin fəal xarakter daşıdığını söyləmək olmaz. Bir tərəfdən ölkədə hökm sürən iqtisadi gerilik, digər tərəfdən isə həmişə rəqibləri tərəfindən hakimiyyətdən devrilmək təhlükəsi altında yaşayan Kərim xan Zənd Azərbaycan torpaqlarını ələ keçirmək üçün lazımi qədər qüvvə ayırmaq imkanından məhrum idi. Bununla belə, Zənd hökuməti bölgənin daha güclü Rusiya tərəfindən işğal ediləcəyi təhlükəsinindən daima ehtiyat edir və bunun qarşısını almaq üçün diplomatik vasitələrə üstünlük verirdi.

Əsas diqqət qubalı Fətəli xanın Rusiya ilə yaxınlaşmasının qarşısını almağa yönəldirdi.

Rusiyanın Qafqaz siyasətində uzun müddət müşahidə edilən passivlik Yeddillik müharibədən sonra bir qədər canlanma ilə əvəz olundu. Lakin 1768-1774-cü illərdəki Rusiya-Osmanlı müharibəsi bu canlanmanın fəallıqla əvəz olunmasını xeyli ləngitdi. Əsas diqqəti Osmanlı üzərində qələbə çalmağa yönəldən Rusiya Azərbaycan xanlıqlarına münasibətdə çox ehtiyatlı siyasət yeridir, Azərbaycanın hakim dairələrini qıcıqlandıracaq hər hansı bir addım atmaqdan çəkinirdi. Rus diplomatiyası gələcəkdə Azərbaycan torpaqlarını işğal etmək imkanı yaranana qədər onun düşdüyü ağır vəziyyətdə qalmasında daha maraqlı idi. Məhz bu siyasətin nəticəsi idi ki, Rusiya hökuməti Quba xanlığını öz himayəsi altına almaqdan imtina etmiş, qubalı Fətəli xanın Cənubi Azərbaycanda hakimiyyətə öz adamını gətirmək məsələsində ona yardım göstərmək xahişini cavabsız qoymuşdu. Güclü Azərbaycan dövlətinin yaranması Rusiyanın işğalçılıq planları ilə ziddiyyət təşkil edirdi.

XVIII əsrin 70-ci illərinin sonundan başlayaraq Rusiyanın Krım yarımadasını ələ keçirmək uğrunda fəallığının artması onun Qafqaz siyasətinə də ciddi təsir göstərdi. Osmanlı dövlətinə qarşı nəzərdə tutulan hərbi əməliyyatlara başlamaq, Azərbaycan torpaqlarını hesabına erməni dövləti yaratmaq və Azərbaycanın Xəzərsahili torpaqları işğal etmək planlaşdırılırdı. Ümumiyyətlə, bu dövrdə Rusiyanın Qafqaz siyasətində «xristian təəssübkeşliyi» özünü aydın şəkildə göstərirdi. İran və Osmanlı dövlətinə qarşı mübarizədə Azərbaycan torpaqları hesabına gücləndiriləcək Kartli-Kaxetiya çarlığına və Azərbaycan torpaqlarında yaradılacaq erməni çarlığına böyük ümid bəslənilirdi. Krım məsələsinin tezliklə və dinc yolla həll edilməsinə baxmayaraq, Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq planı Rusiyanın Qafqaz siyasətində önəmli yer tutmaqda davam edirdi.

Əlimurad xanın hakimiyyəti dövründə də Azərbaycan torpaqları hesabına erməni dövləti yaratmaq ideyası mühüm yer tuturdu. Rusiyanın onu İran şahı kimi tanıması və hərbi yardım

göstərməsi müqabilində Əlimurad xan Azərbaycanın Qarabağ, Qaradağ, İrəvan və Naxçıvan xanlıqlarını, habelə Xəzərsahili torpaqlarını ona güzəştə getməyə hazır olduğunu bildirmişdi. «Erməni məsələsi» Rusiyanın Qafqaz siyasətində o dərəcədə dərin kök salmışdı ki, hətta qubalı Fətəli xanın Cənubi Azərbaycana birgə yürüş təşkil edərək burada torpaqlar ələ keçirmək təklifi rus diplomatiyası tərəfindən cavabsız qoyulmuşdu. Rusiya Azərbaycan ərazisində güclü dövlətin yaranmasını istəmir və hər vasitə ilə bunun qarşısını almağa çalışırdılar.

Qacarlar dövlətinin yaranması və yüksəlişi şəraitində Rüsiya-Qacarlar münasibətlərində Azərbaycan məsələsi nəinki öz aktuallığını itirmədi, əksinə keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Rusiyanın Qafqaz siyasətində müşahidə edilən müvəqqəti passivlik şəraitində yenicə yaranmaqda olan Qacarlar dövləti Azərbaycan məsələsində böyük fəallıq göstərməyə başladı. Cənubi Azərbaycan xanlıqlarını tabe etmək siyasətini həyata keçirmək üçün «türk birliyi» kartı ortalığa atıldı. Cənubi Azərbaycan xanlarının vahid Azərbaycan dövləti yaratmaq cəhdlərinin iflasa uğraması Ağa Məhəmməd xan Qacarın vahid Azərbaycan dövləti yaratmaq uğrunda mübarizə işini xeyli asanlaşdırdı.

Rusiyanın Qafqaz siyasətində XVIII əsrin 80-ci illərinin əvvəllərində müşa-hidə edilən davakarlıq həmin onilliyin sonlarında aşkar görünən passivliklə əvəz olundu. 1787-ci ildə Osmanlı dövləti ilə müharibəyə başlayan Rusiya əsas vəzifə kimi Cənubi Azərbaycanda rus ticarətinin inkişafı üçün əlverişli şərait yaratmağa və Əlimurad xanın vəd etdiyi Azərbaycan torpaqlarını ələ keçirmək üçün Ağa Məhəmməd xanın razılığını almağa çalışırdı. Birinci məsələdə Rusiya ilə əməkdaşlığa tamamilə hazır olduğunu nümayiş etdirən Ağa Məhəmməd xan Azərbaycan torpaqlarının ona güzəştə gedilməsi fikrini heç yaxına belə buraxmaq istəmirdi. Qacarlar hakimi böyük səbr və inadla Səfəvilər dövlətinin tərkibində olmuş bütün əraziləri, o cümlədən Azərbaycan torpaqlarını öz hakimiyyəti altında birləşdirmək siyasətini davam etdirirdi. Bu dövrdə

Azərbaycanda hökm sürən siyasi pərakəndəlik onun bu siyasətinin həyata keçirilməsi üçün əlverişli şərait yaradırdı.

Əvvəlcə Osmanlı dövlət ilə müharibə, sonra isə Böyük Fransa burjua inqilabına qarşı mübarizə və Polşanın bölüşdürülməsinə xeyli qüvvənin ayrılması Rusiyanın diqqətini Qafqaz məsələlərinin həllindən yayındırırdı. Belə bir vəziyyətdə Rusiya hökuməti Cənubi Qafqazda Kartli-Kaxetiya çarlığını gücləndirmək, Azərbaycan torpaqları hesabına erməni dövləti yaratmaq siyasətini müvəqqəti olaraq təxirə salmalı oldu. Əsas diqqət bölgədəki qüvvələr nisbətini olduğu kimi qoruyub saxlamağa, Ağa Məhəmməd xan Qacarın Azərbaycan torpaqlarını birləşdirməsinə yol verməməyə yönəldildi. Bölgənin ən güclü hakimləri II İraklii və Fətəli xan rus diplomatiyasının vasitəçiliyi ilə barışdı. Rusiya hökuməti məhz bu hakimlərin köməyilə Ağa Məhəmməd xanın Cənubi Qafqaza gözlənilən hücumunun qarşısını almağa ümid bəsləyirdi. Fətəli xanın güclənməsinə uzun müddət maneçilik törədən Rusiya bu dəfə onun Cənubi Azərbaycana planlanlaşdırılan yürüşünə razılıq verdi. İki türk-müsəlman hakiminin – Ağa Məhəmməd xan Qacarla qubalı Fətəli xanın bir-biriylə toqquşub zəifləməsi Rusiyanın işğalçılıq planları üçün daha əlverişli şərait yarada bilərdi.

XVIII əsrin 90-cı illərində də Azərbayan uğrunda Qacarlar və Rusiya qarşıdurmasında təşəbbüs Qacarlar dövlətinin əlində qalmaqda davam edirdi. Azərbaycan torpaqlarını birləşdirmək məsələsində çox qətiyyətli olan Ağa Məhəmməd xan Qacar eyni zamanda həm Rusiya, həm də Türkiyə faktorunu diqqət mərkəzində saxlayırdı. Əsas məqsəd bu dövlətlərin Cənubi Qafqaz məsələsində tutduqları mövqeyi yumşaltmaq, onlarla yarana biləcək hərbi qarşıdurmaların qarşısını almaq idi.

Bu dövrdə Rusiya Cənubi Qafqaz məsələsində daha çox müdafiə mövqeyində dayanır, öz işğalçılıq məqsədini diplomatik yollarla həyata keçirməyə çalışırdı. Azərbaycan xanlıqlarını Qacarlar təhlükəsilə qorxutmaqla onları Rusiya himayəsini qəbul etməyə təhrik etmək, müəyyən güzəştlər vəd etməklə Ağa Məhəmməd xanı Cənubi Qafqaza yürüş etməkdən çəkindirmək bu

dövrdə Rusiyanın Qafqaz siyasətinin əsas məzmununu təşkil edirdi. Lakin bu siyasətin reallaşması üçün atılan addımlar heç də yetərli olmayıb Ağa Məhəmməd xanın planlarını qarşısını ala bilmədi.

Ağa Məhəmməd xanın Cənubi Qafqaza 1795-ci ildə təşkil etdiyi yürüş Rusiya hökumətini cavab tədbirləri görməyə məcbur etdi. V.Zubovun 1796-cı il yürüşü zamanı rus ordusu qarşısında Ağa Məhəmməd xanı cəzalandırmaq, Azərbaycan torpaqlarını işğal etmək və burada Rusiyanın himayəsi altında erməni dövləti yaratmaq vəzifələri qoyulmuşdu. Bununla belə Cənubi Qafqazın müsəlman hakimlərinin kəskin reaksiya verəcəklərindən ehtiyat edən Rusiya hökuməti Azərbaycan torpaqları hesabına erməni dövləti yaratmaq planını gizli saxlamağa çalışırdı. Lakin XVIII əsrin 90-cı illərində nə Qacarlar dövləti, nə də çar Rusiyası Şimali Azərbaycan torpaqlarında möhkəmlənmək planlarını həyata keçirə bilmədilər.

XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Qacarlar dövlətinin və Rusiyanın Azərbaycan uğrunda mübarizəsi hədsiz dərəcədə gərginləşmiş beynəlxalq münasibətlər şəraitində gedirdi. İngiltərə və Fransa arasında Yaxın Şərqdə möhkəmlənmək uğrunda gedən mübarizə yuxarıda adları çəkilən dövlətlərin Qafqaz siyasətinə təsirsiz ötüşmürdü. Lakin 1795-1797-ci illərdə baş vermiş hərbi yürüşlərdən sonrakı ilk illərdə bu dövlətlərdən heç biri öz məqsədlərinə çatmaq üçün hərbi qüvvə tətbiq etməyə tələsmirdilər. Hər iki dövlət özlərinin Qafqaz siyasətinldə daha çox diplomatik vasitələrə üstünlük verirdilər. Bu zaman onlardan hər biri Azərbaycan xanlarını digərinin hücum təhlükəsi ilə hədələyir, onları bu yolla öz təsirləri altında saxlamağa çalışırdılar.

Qacarlar dövləti ilə müqayisədə çar Rusiyası Cənubi Qafqazda daha fəal siyasət yeridirdi. Bu siyasətin əsas məqsədini Azərbaycanda Qacarlar hakimiyyətinin bərpa edilməsinə yol verməmək, Gürcüstanın təhlükəsizliyini təmin etmək və Xəzərsahili bölgələrdə rus tacirlərinin mənafelərini qorumaq təşkil edirdi. Onu da göstərmək lazımdır ki, Qacarlar dövləti ilə müqayisədə Rusiyanın Şimali Azərbaycanda gedən proseslərə təsir imkanlarının

daha böyük olması ona bu vəzifələri reallaşdırmaq üçün əlverişli şərait yaradırdı. Rus bazarı ilə ilə sıx bağlı olan Azərbaycan xanları həm də öz aralarındakı münaqişələri həll etmək üçün Rusiya hökumətindən kömək istəyirdilər. Bu isə sonuncunun Azərbaycanda gedən proseslərə təsir imkanlarını xeyli artırırdı. Elə bunun nəticəsi idi ki, rus çarı Pavel Cənubi Qafqazın Qacarlar təhlükəsindən qorunmasında Azərbaycan xanlarının birləşdirilməsinə böyük əhəmiyyət verirdi.

1801-ci ildə Gürcüstanın Rusiyanın tərkibinə qatılması bu dövlətin Cənubi Qafqazda onsuz da möhkəm olan mövqelərini daha da möhkəmləndirdi. Avropa dövlətlərinin Gürcüstanın işğalını sükutla qarşılaması Rusiyanı Azərbaycan torpaqlarını da işğal etmək üçün şirnikləndirirdi. Bu məsələdə rus işğalına qarşı dura biləcək yeganə dövlət olan Qacarlar dövləti Rusiya ilə müqayisədə olduqca zəif idi. Rus qoşunlarını Gürcüstandan çıxarmaq üçün kifayət qədər gücü olmayan Qacarlar dövlətinin işi bölgədəki Rusiya əleyhinə olan qüvvələri birləşdirmək hesabına həmin əraziləri birləşdirmək cəhdi uğursuzluqla nəticələndi. Rus işğalı təhlükəsi ilə üz-üzə qalmış ayrı-ayrı Azərbaycan xanlarının, ilk növbədə gəncəli Cavad xanın bu işğalın Azərbaycanın içərilərinə doğru genişlənməsinə mane olmaq cəhdləri də heç bir nəticə vermədi. Qüvvələr arasındakı fərq hədsiz dərəcədə böyük idi. Qarşılıqlı inamın olmaması və şəxsi mənafelərini güdməsi bütün Azərbaycan xanlarının rus işğalına qarşı vahid cəbhədən çıxış etmələrinə imkan vermirdi.

Bölgədə yaranmış vəziyyətdən və hərbi üstünlüklərdən məharətlə istifadə edən Rusiya hökuməti addım-addım özünün əsas məqsədinə–bütün Azərbaycan torpaqlarının işğal edilməsinə yaxınlaşırdı. I Aleksandrın hakimiyyətinin ilk illərində bu məqsədin həyata keçirilməsində üç mərhələ özünü aydın şəkildə göstərirdi. Birinci mərhələdə Azərbaycan xanlıqlarının Qacarlar dövləti ilə birləşmələrinin qarşısı alındı və onlardan bir çoxu, ilk növbədə Xəzərsahili xanlıqlar Rusiyanın təsir dairəsində saxlanıldı.

İkinci mərhələdə əsas məqsəd bölgənin Qacarlar dövləti tərəfindən işğalının qarşısını bu regionda yerləşən hakimlərin qüvvələri ilə almaqdan ibarət idi. I Aleksandr tərəfindən Azərbaycan və Dağıstan hakimlərinin fedearsiyasını yaratmaq ideyasının ortalığa atılması da bu məqsədə xidmət edirdi. Özünü Azərbaycan və Dağıstan hakimlərinin dostu kimi qələmə verən Rusiya hökuməti heç də onları işğal etmək planlarından imtina etməmişdi. Çox təəssüf ki, Azərbaycan xanlarının bəziləri rus diplomatlarının məharətlə qurduqları bu tələyə asanlıqla düşdülər. Bu mərhələnin Rusiya üçün ən mühüm nəticəsi 1802-ci il dekabrın 26-da Quba və Lənkəran xanlıqlarının, habelə bəzi Dağıstan hakimlərinin Georgiyevsk müqaviləsini imzalamaları oldu. Onlar Qacarlar dövlətinə qarşı birgə mübarizə aparmaq haqqında öhdəlik götürdülər. Lakin bu rus diplomatiyası üçün yetərli olmadı.

Qacarlar dövlətinin zəifliyi və Şimali Azərbaycan xanlıqları arasında hələ də davam edən çəkişmələr Rusiyanın Cənubi Qafqazdakı işğallarının genişləndirilməsi üçün əlverişli şərait yaradırdı. Öz işğalçılıq planlarını həyata keçirmək üçün diplomatik vasitələrin yetərli olmadığını görən çar hökuməti məsələni hərbi yolla həll etmək qərarına gəldi. Bununla da I Aleksandr hökumətinin Azərbaycana dair işğalçılıq siyasətinin üçüncü mərhələsi başlanıldı. 1803-1804-cü illərdə mühüm strateji əhəmiyyəti olan Car-Balakən camaatlığı və Gəncə xanlığı işğal edildi. Bununla da Rusiyanın Azərbaycanın digər torpaqlarını da zəbt etməsi üçün əlverişli imkan yarandı.

Göründüyü kimi, XVIII əsrin son rübü-XIX əsrin əvvəllərində Azərbaycan Rusiya-Qacarlar münasibətlərində mühüm yer tuturdu. Azərbaycanın zəngin təbii ehtiyatları və əlverişli coğrafi mövqeyi onu bu dövlətlər arasında mübarizə obyektinə çevirirdi. Bir tərəfdən iqtisadi əlaqələrin zəifliyi, digər tərəfdən isə bu dövlətilərin müdaxiləsi Azərbaycan xanlıqlarının vahid dövlətdə birləşmək imkanlarını heçə endirirdi. Güclü iqtisadi potensiala və hərbi qüvvəyə malik olan Rusiya Azərbaycan uğrunda gedən rəqabətdə həmişə Qacarlar dövlətini üstələyirdi. Bu üstünlük son nəticədə

Azərbaycan torpaqlarının parçalanmasına, onun şimal hissəsinin Rusiya tərəfindən işğal edilməsinə gətirib çıxardı.

Tarix elmimizdə Rusiyanın ölkəmizi ilhaq etməsinə münasibət birmənalı olmamışdır. Məsləyə sovet ideologiyası, şəxsi karyerası və subyektiv mövqedən yanaşan tarixçilər çar Rusiyasının Azərbaycanı işğalını "bəla", "az bəla", "könüllü birləşmə" kimi qələmə vermiş, hətta sovet dövründə Rusiyanı "böyük qardaş" statusunda təqdim etmişlər. Qacarlar dövlətinin Azərbaycana münasibətini isə ancaq mənfi mövqedən yanaşmışlar.

Bu məsələyə obyektiv mövqedən yanaşan tarixçilər isə Rusiyanın Azərbaycana qarşı yönəlik siyasətini təcavüzkarlıq, işğal kimi dəyərləndirmişlər. Mənbələrin və tarixi ədəbiyyatın təhlili nəticəsində biz belə bir qənaətə gəldik ki, Ağa Məhəmməd şah Qacarın qəddarlığına, zülmkarlığına və müstəbidliyinə baxmayaraq onun İranı və Azərbaycanı bir dövlətin çətiri altında birləşdirmək siyasəti müsbət və proqressiv hal idi. Çünki Səfəvi (Qızılbaş) və Əfşar türk dövlətlərinin zamanında məhz belə olmuşdur. Bu dövlətləri möhkəmləndirən sütunlardan biri Qacarlar tayfası idi. Deməli, Qacarlar kənar bir qüvvə olmayıb mənəvi-etnik bağları cəhətdən bu regionla bağlı idilər. Onların əvvəlki türk dövlətlərinin siyasi varisi kimi həm hakimiyyət iddiasında olması, həm də İran və Azərbaycanı mərkəzləşdirilmiş dövlət halında birləşdirməsi təbii və haqlı idi. Çar Rusiyası isə bu region üçün tamamilə yabancı faktor idi. Onu buraya heç bir sosial baza, mənəvi etnik köklər bağlamırdı.

## İstifadə olunan ədəbiyyat

### Azərbaycan dilində


1. Abbasova A.A. XVIII əsrdə Rusiyanın Cənubi Qafqaza qarşı işğalçılıq siyasətində dini-etnik amillər. Avtoreferat. Bakı: Avrora. 2009, 24 səh.
2. Ağamalı Y.F. Qarabağ xanlığının digər xanlıqlar və qonşu dövlətlərlə münasibətləri. NDA, Bakı, 2003, 24 səh.
3. Arzu Əşrəf qızı. Car-Balakən camaatlığı. Bakı: UniPrint, 2009, 256 səh.
4. Azərbaycan MEA Tİ EA, f.l.siy. 1, iş.3612
5. Azərbaycan MEA Tİ EA, iş. 1795
6. Azərbaycan MEA Tİ EA , iş 1795
7. Azərbaycan tarixi. III cilddə, I cild, Bakı, Azərbaycan SSRİ EA-nın nəşriyyatı, 1961, 416 səh.
8. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək (Z.M.Bünyadovun və Y.B.Yusifovun redaktəsilə) I cild, Bakı:Azərnəşr, 1994, 687 səh.
9. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci ilə qədər. II nəşri, Bakı: Çıraq, 2009, 872 səh.
10. Azərbaycan tarixi. VII cilddə, III cild, Bakı: Elm, 2007, 592 səh., 56 səh. illustrasiya.
11. Azərbaycan tarixi. VII cilddə, IV cild, Bakı: Elm, 2007, 504 səh. 48 səh. illustrasiya.
12. Azərbaycanın Rusiya birləşdirilməsi və onun mütərəqqi iqtisadi və mədəni nəticələri (XIX-XX əsrin əvvəlləri), Bakı, Azərbaycan SSR EA nəşriyyatı, 1956, 289 səh.
13. Azərbaycanın beynəlxalq münasibətlər və diplomatiya tarixi. Dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları (1639-1828). Y.Mahmudov və K. Şükürov tərəfindən çapa hazırlanmışdır. IV cilddə I cild. Regionların inkişafı ictimai birliyi. Bakı, 2009, 512 səh.

14. Bakıxanov A.Gülüstani-İrəm. Bakı: Mömin, 2001, 287 səh.

15. Babayev A.Q. Rusiyaya qovuşmaq ərəfəsində. Bakı: Azərnəşr, 1988. 167 səh.

16. Bayramova N. Şamaxı xanlığı. Bakı: Təhsil, 2009, 396 səh.

17. Dəlili H.A Azərbaycanın cənub xanlıqları (XVIII əsrin ikinci yarısı). Bakı: Elm, 1979, 144 səh.

18. Dəlili H.A. Urmiya xanlığının tarixi oçerki (XVIII əsrin II yarısı-XIX əsrin 30-cu illərində). Namizədlik dissertasiyası. Bakı, 1967. Azərb. MEA Tİ EA, inv. 6371. 278 səh.

19. Əhməd bəy Cavanşir. Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair. //Qarabağnamələr. Bakı: Yazıçı, 1989, s. 150-190

20. Əliyev M.M. Naxçıvan xanlığı və onun Rusiyaya birləşməsi. Avtoreferat. 1986, 25 səh.

21. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Bakı: Azərnəşr, 1996, 106 səh.

22. Əliyev M., Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının tarixşünaslığı. Avtoreferat. Bakı: BDU-nun nəşriyyatı, 1996, 26 səh.

23. Əmrahov M.İ., Ənvəroğlu Ç., Həsənov H.İ. Qarabağ xanlığı. Bakı:Mütərcim, 2008, 220 səh.

24. Əminə Pakrəvan, Abbas Mirzə və Azərbaycan. Bakı: Qanun, 2010, 336 səh.

25. Quliyev Ə, Həsənov İ, Striqunov İ. XIX əsrdə və XX əsrin başlanğıcında Azərbaycanda tarix elminin inkişafı. Bakı: Azərnəşr, 1960, 224 səh.

26. Quliyev M.R. Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri. Avtoreferat. Naxçıvan: Əcəmi, 2011, 26 səh.

27. Fərzəlibəyli Ş. F. Quba tarixi, Bakı: Əbilov, Zeynalov və oğulları. 2001, 383 səh.

28. Hacinski İ. Qubalı Fətəli xan. Bakı, Azərbaycan SSRİ EA-nın nəşriyyatı, 1959, 54 səh.

29. Hacıyeva Z. Qarabağ xanlığı: sosial-iqtisadi münasibətlər və dövlət quruluşu. Bakı: Təhsil, 2007, 256 səh.

30. Hüseynzadə Ə. XIX əsrin ikinci yarısında Azərbaycan tarixşünaslığı. Bakı, 1967, 219 səh.

31. Həmidova Ş.P. XVIII əsrin ikinci yarısında Azərbaycan-Gürcüstan münasibətləri tarixindən. Bakı: Elm, 1985, 96 səh.

32. Həsənov H. XVIII əsrin 70-80-ci illərində Rusiya–İran münasibətlərində Azərbaycanın yeri, "Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin tarixi varisidir" mövzusunda beynəlxalq elmi konfransın materialları, Elmi əsərlər, xüsusi buraxılış, Bakı, 2011, s.69-72

33. Həsənzadə T. XVIII-XIX əsr Əfşarlar və Qacarlar dövrünün ictimai-siyasi xadimləri. Avtoreferat. Bakı: Elm və təhsil, 2012, 52 səh.

34. İbadov R.H. Azərbaycan XVIII əsrin son rübündə Rusiya, İran və Türkiyə münasibətlərində. NDA, Avtoreferat. Bakı, 2005, 26 səh.

35. İbrahimova N. XIX əsrin əvvəllərində Şimali Azərbaycanda Rusiya çarizminin idarəçilik sistemi (1840-cı ilədək). Avtoreferat. TIKM. Bakı, 2008, 27 səh.

36. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi (AMEA-nın müxbir üzvü, prof.Yaqub Mahmudovun redaktorluğu ilə). Bakı: Azərbaycan, 2009, 574 səh.

37. İsmayılov M., Bağırova M. Şəki xanlığı. Bakı: Azərnəşr, 1997, 76 səh.

38. Köçərli T. Qarabağ. Bakı:Elm, 2002, 472 səh.

39. Gebr J. Xacə şah (Tarixi roman) II kitab. Bakı:Gənclik, 1994, 224 səh.

40. Məmmədov S.A.Azərbaycan XV-XVIII əsrin birinci yarısında. Bakı, APİ-nin nəşriyyatı, 1981, 108 səh.

41. Məmmədova İ.M. Lənkəran xanlığının qonşu xanlıqlar və dövlətlərlə münasibətləri. Avtoreferat. NDA, Bakı, 2005, 24 səh.

42. Məmmədova İ. Lənkəran xanlığı birinci Rusiya-İran müharibəsi dövründə. Bakı: Elm, 2007, 496 səh.+ 2 xəritə

43. Mirzə Adıgözəl bəy. Qarabağnamə. //Qarabağnamələr, I kitab, Bakı: Yazıçı, 1989, s.6-102

44. Mirzə Camal Cavanşir. Qarabağ tarixi. //Qarabağnamələr, I kitab, Bakı:Yazıçı, 1989, s. 104-148

45. Mustafazadə T. T. XVIII yüzillik-XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı:Elm, 2002, 372 səh.

46. Mustafazadə T.T. Quba xanlığı. Bakı: Elm, 2005, 457 səh., 1 xəritə

47. Mustafazadə T.T. Qarabağ xanlığı. Bakı: Sabah, 2010, 333 səh.

48. Mustafayeva N. Cənubi Azərbaycan xanlıqları. Bakı: Azərnəşr, 1995, 96 səh.

49. Mustafayev C. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı: Elm, 2002, 272 səh.

50. Nasir Nəcmi. Abbas Mirzə. Bakı: Yazıçı, 1993, 128 səh.

51. Nəcəfli G. Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi əlaqələri (XVIII əsrin ikinci yarısı). Bakı:Nurlan, 2002, 132 səh.

52. Nəcəfli G. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri. Bakı:Nurlan, 2007, 248 səh.

53. Paşayeva E. 1801-1830-cu illərdə Rusiya, Türkiyə və İran münasibətlərində Azərbaycan problemi. Bakı:Nurlan, 2004, 160 səh.

54. Paşayeva E. 1801-1830-cu illərdə Rusiya, Türkiyə və İran münasibətlərində Azərbaycan problemi. Avtoreferat. Bakı, BDU-nun nəşriyyatı, 2005, 26 səh.

55. Piriyev V. Azərbaycanın tarixi coğrafiyası. Bakı: Araz, 2002, 152 səh.

56. Pənahi Semnani Fətəli. şah Qacar. Bakı: Şuşa, 2006, 255 səh.

57. Rəhimov Y.N. XIX əsr rus mənbələri Naxçıvan haqqında. Avtoreferat. Naxçıvan: Tusi, 2012, 30 səh.

58. Sadıqov H. Rusiya-Türkiyə münasibətlərində Cənubi Qafqaz problemi (1787-1829). Bakı: Elm, 1991, 175 səh.

59. Seyidova A.C. XVIII yüzilliyin sonlarında Azərbaycan xanlıqlarının siyasi müstəqilliklərini qorumaq uğrunda mübarizəsi, NDA, Avtoreferat, Bakı, 2008, 27 səh.

60. SSRİ tarixi. I hissə, Bakı: Maarif, 1985, 654 səh.

61. Calalova L. XVIII əsrin son rübündə Azərbaycan-Rusiya ticarət əlaqələri. Avtoreferat. Bakı, 2012, 26 səh.

62. Cənubi Azərbaycan tarixinin oçerkləri (1828-1917). Bakı: Elm, 1985, 314 səh.

63. Umudlu V. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828). Bakı:Elm, 2004, 180 səh.

### Türk dilində

64. Osmanlı devleti ilə Azərbaycan türk hanlıkları arasındakı münasibetlere dair arşiv belgeleri (1578-1914). Osmanlı Arşiv Daire başkanlığı. Yayın Nu: 4, Ankara, 1992, 427 səh.

65. Cemal Gökça. Kafkasiya və Osmanlı imperatorluğunun Kafkasiya siyaseti. İstanbul, 1979, 253 səh.

66. Çakmak M.A. Hanlıklar devrində Azerbaycan-Türkiye münasibetleri (1723-1829). Doktora tezi. Ankara, 1997, 250 səh.

67. İşıktan S. 1787-1792 Osmanlı-Rus harbi sırasında və sonlarında Osmanlı devletinin Dağıstan hanları ilə münasibetleri. //Kafkas araştırmaları. İstanbul, 1988, s. 25- 33

68. Kafkas araşdırmaları, İstanbul, 1988, Vesika 12, s.94-95

69. Kurat A.N. Türkiye ve Rusiya: XVIII yüzil sonundan kurtuluş savaşlarına kadar Türk-Rus ilişkileri (1798-1919). Ankara, A.İ.Basımevi, 1970, 755 səh.

70. Öztuna Y. Başlanğıcından zamanımıza kadar Türkiye tarihi. c. II, Ankara, 1967, 563 səh.

**Rus dilində**

71. Абасов Ф. Карабахское ханство. Баку: Тахсил, 2007, 278 стр.

72. Абдуллаев Г.Б. Из истории Северо-Восточного Азербайджана в 60-80-х гг. XVIII в. Баку: АН Азерб. ССР, 1958, 211 стр.

73. Абдуллаев Г.Б. Азербайджан в XVIII в. и взаимоотношения с Россией. Баку: АН Азерб. ССР, 1965, 621 стр.

74. Архив Внешней Политики Росии (АВПР), ф.Глав.арх., оп.1/10, д.2

75. АВПР, ф.Глав.арх. оп.1/13, д.9

76. АВПР, ф.77, оп.1, д.2

77. АВПР, ф.77, оп.1, д.6

78. АВПР, ф.77, оп.1, д.13

79. АВПР, ф.77, оп.1, д.15

80. АВПР, ф.77, оп.1, д.16

81. АВПР, ф.77, оп.1, д.86

82. АВПР, ф.77, оп.6, д. 8

83. АВПР, ф.77, оп.6, д.111

84. АВПР, ф.77, оп.6, д.119

85. АВПР, ф.77, оп.6, д.443

86. АВПР, ф.77, оп.6, д.471

87. АВПР, ф.77, оп.6, д.473

88. АВПР, ф.77, оп.6, д.476

89. АВПР, ф.77, оп.6, д.478

90. АВПР, ф.77, оп.6, д.479

91. АВПР, ф.77, оп.6, д.481

92. Алиев С.М. Междоусобные войны и борьба за верховную власть в Иране после распада империи Надир шаха. //Иран. История и культура в средние века и новое время. Москва: Наука, 1980, с. 27-66

93. Акты собранные Кавказской Археографической Комисси (АКАК). Под ред Ад.Берже д.1. Тифлис, 1866, д. 34,137,333, 407,509, 520, 786, 788, 818, 823, 827, 828, 829, 830, 837, 863, 894

94. АКАК. т.1, ч.II, Тифлис: Главного управление наместника кафказского, 1867, д.262

95. АКАК. т. II, Тифлис, 1868, д.1169, 1182,1272, 1383, 1667,2014

96. Алиев Ф.М. Антииранские выступления и борьба против турецкой оккупации в Азербайджане в первой половине XVIII в. Баку: Элм, 1975, 230 стр.

97. Армяно-русские отношения в XVIII веке. 1760-1800 гг. (Сб. документов), т. IV, ч.2, Ереван, А.Н.Арм. ССР, 1990, 590 стр.

98. Архив Государственного Совета, т. I, ч. I. СПб. 1869, 973 стр.

99. Архив Государственного Совета, т.2, СПб., 1888, 1036 стр.

100. Архив князя Воронцова, кн. XIII, Москва, 1879,525 стр.

101. Асадов Ф.С. История Талышского ханства и его связи с Россией. Автореферат. Дис.канд.ист.наук. Баку, 1966, 18 стр.

102. Астраханский порт с 1783 по 1827 год. //Морской сборник, СПБ № 1, т.5., 1851

103. Ахвердов А.И. Два рапорта о Дагестанских делах. //История, география и этнография Дагестана XVIII-XIX вв. Москва: Восточная Литература, 1958, 367 стр.

104. Ахмед Джевдет паша. Описание событий в Грузии и Черкесии по отношении к Османской империи от 1192 года по 1202 год хиджры (1775-1785). //Русский архив. 1888, кн. 1, №1-4

105. Ашурбейли С.Б. Очерки истории средневекового Баку: Азернешр, 1992, 408 стр.

106. Бабаев Э. Из истории Гянджинского ханства. Баку: Нурлан, 2003, 234 стр.

107. Баддели Джон. Завоевание Кафказа русскими 1720-1860 гг. (Перевод с. англ. Л.А.Калашниковой. Москва: Центрополиграф, 2011, 351 стр.

108.Багирова М.М.История Шекинского ханство и присоединение к Росии. Автореферат дисс.канд.ист.наук. Баку, 1990, 26 стр.

109. Бакиханов А.А. Гюлистан-и Ирам. Баку: Элм, Редакция, комментарии, примечания и указатели академика З.М.Бунятова. 1991, 304 стр.

110. Баку и его окрестности. Тифлис, 1889, 98 стр.

111. Бартольд В.В. Место прикаспийских областей в истории мусульманского мира. Баку, Обш-во обс. и изучения Азербайджана, 1924, 147 стр.

112. Бердзенешвили Н., Джавахашвили И., Джанашиа С. История Грузии с древнейших времен до XIX века ч. I Тбилиси, 1946, 960 стр.

113. Берже А. Фатали шах и его дети. //Русская старина, 1866, т.50, с.62-73

114. Броневский С.Б. Новейшая географическая и историческая известия о Кавказе, ч. II, Москва, 1823, 352 стр.

115. Бурнашев С.Д. Описание областей Адребижанских в Персии и их политического состояния. Курск 1793, 109 ст.//НАИИ НАНА: ф 1.оп.2 д.581

116. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 г. СПб., 1869, т.II, 601 ст., т.III, 620 стр.

117. Бутков П.Г. Выдержки из «Проекта отчета о персидской экспедиции в виде писем». //ИГ и ЭД. Москва: Восточная литература, 1958, с. 200-208

118. Витоль А.В. Из истории турецко-французских отношений.//Журнал Народы Азии и Африки. Москва, 1976, 122-138

119. Восточные известия. Астрахань,1815, №37, с.285-291.

120. Габлиц К. Исторический журнал бывшей в 1781 и 1782 годах на Каспийском море Российской эскадры под командованием капитана второго ранга, графа Войновича. Москва, 1809,120 стр.

121. Гаджиева С.М. Азербайджан во внешней политике правительства Екатерины II. Баку: Элм, 2004, 148 стр.

122. Дубровин Н.Ф. Закавказъе от 1803-1086 года. Спб.: печатано в типографии департамента уделов, 1866. Приложение № 12, с.543

123. Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе, ч. II, СПб., Типография департамента литейных проспект. 1886, ч. III, СПб., 1888, 422 стр.

124. Дубровин Н.Ф Поход графа Зубова в Персию в 1796 г. с приложением оперативной карты похода и план осады Дербента. //Военный сборник. 1874, №2-6, 230 стр.

125. Жигарев С. Русская политика в восточном вопросе, Ее политика в XVI-XIX веках. Историко юридические очерки. т.1, Москва, 1896, 465 стр.

126. Жизнеописание Ага Магомет хана Каджара, основателя ныне царствующей в Персии династии, с кратким обозрением последовавших после его смерти главнейших происшествий //Сын отечества и Северный архив. (Журнал словесности политики и истории). Т.XIX. СПб., 1835, с. 290, 332-406.

127. Зевакин Е. Прикаспийские провинции в эпохи русской оккупации.// Известия общества обследования и изучения Азербайджана. Баку, 1927, №5, с.123-134

128. Ибрагимбейли Хаджи Мурат. Россия и Азербайджан в первой трети XIX века. Москва: Наука, 1969,288 стр.

129. Иванов М. Очерки истории Ирана. Москва: Госполитиздат, 1952, 468 стр.

130. Игамбердыев М. Иран в международных отношениях первой трети XIX в. Самарканд: Самарканд. Университет, 1951, 297 стр.

131. Иоаннисян А.Р. Россия и армянское освободительное движение в 80-х

годах XVIII столетия. Ереван: АН Арм. ССР, 1947, 447 стр.

132. Иоаннисян А.Р. Иосиф Эмин. Ереван: АН Арм. ССР, 1989, 290 стр.

133. Искендерова М. Бакинское ханство и его присоединение к России. Автореферат дисс.канд.ист.наук. Баку, 1983, 30 стр.

134. Искендерова М. Бакинское ханство. Баку: Чашыоглу, 1999, 212 стр.

135. Исторический очерк кавказских войн от их начала до присоединение Грузии. Тифлис, 1899, 332 стр.

136. История дипломатии, В 3-х томах (под.ред.Потемкина) т. I., Москва: Соц. ЭКГИЗ, 1941, 566 стр.

137. История Ирана с древнейших времен до конца XVIII в. Под ред. В.Струве, И.Орбели, И.Петрушевского. Ленинград: Ленинград. Университет, 1958, 390 стр.

138. История народов Северного Кавказа конец XVIII век.-1917 г. (редактор А.Л.Нарочницкий). Москва: Наука, 1988, 659 стр.

139. Кавказский сборник, т. 18, Тифлис, 1897, с.382-386

140. Кишмишев С.А. Походы Надир шаха в Герат, Кандагар, Индию и события в Персии после его смерти. Тифлис, 1889, 420 стр.

141.Краснов М.К. Вопросы внешней политики России в трудах М.Н.Покровского. Казань, 1973, 44 стр.

142. Кузнецова Н.А. Политическое и социально-экономическое положение Ирана в конце XVIII-первой половине XIX в. //Очерки новой истории Ирана (XIX- начало XX в.) Москва: Наука, 1978, с.5-121

143. Лебедев В. Западный берег Каспийского моря при Петра I. //Журнал Минст.-во нар.-го Просвещения. 1848, № 11

144. Левиатов В.Н. О походе Фатали хана в Ардебиль. //Известия АН Азерб.ССР. 1947, № 12, с.32-49

145. Левиатов В.Н. Очерки из истории Азербайджана в XVIII в. Баку: АН Азерб.ССР, 1948, 226 стр.

146. Мамедов С.А. Исторические связи азербайджанского и армянского народов II половине XVII и I треть XVIII века. Баку: Элм, 1977, 263 стр.

147. Мамедов С.А. Азербайджан по источникам XV-первой половине XVIII вв. Баку: Элм, 1993, 240 стр.

148. Мамедова Г. Русские консулы об Азербайджане (20-60 гг. XVIII в.). Баку: Элм, 1989, 128 стр.

149. Мамедова Г. О походе В.Зубова в Азербайджан 1796 г. Баку: Элм, 2003, 94 стр.

150. Мамедова Г.Н. К вопросу о христианских меликах и меликствах Северного Азербайджана в XVIII в. //Карабах: Кюрекчайский договор-200, Баку: Тахсил, 2005, с. 67-82

151. Маркова О.П. О происхождении так называемого греческого проекта.//Журнал История СССР. Москва, 1958, №4, с.52-78

152. Маркова О.П. Россия, Закавказье и международные отношения в XVIII веке. Москва: Наука, 1966, 332 стр.

153. Милютин Д.А. История войны 1799 года между Россией и Францией в царствование имп.Павла I, т.1, СПб., 1857, 652 стр.

154. Мильман А.Ш.Политической строй Азербайджана в XIX-начале XX в., Баку: Азернешир, 1966, 318 стр.

155. Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII в. Баку: Элм, 1993, 240 стр.

156. Мустафазаде Т.Т. О месте Карабахского ханства в истории Азербайджана. //Карабах: Кюрекчайский договор-200, Баку: Тахсил, 2005, с. 89-101

157. Мустафаев Дж.М. Северные ханства Азербайджана и Россия (конец XVIII-начало XIX в). Баку: Элм, 1989,127 стр.

158. Нерсисян М.Г. Из истории армяно-русских отношений, кн. I. Ереван: Ан Арм. ССР, 1956, 405 стр.

159. Новичев А. История Турции. Эпоха феодализма XI-XIII вв. т.1, Ленинград 1963, 314 стр.

160. Очерки истории СССР Вторая половина XVIII в., Москва: АН СССР, 1956, 894 стр.

161. Покровский М.Н. Дипломатия и войны царской России в XIX столетии. Москва: Красная новь, 1924, 392 стр.

162. Полное собрание законов российской империи СПб, т. XXVI, 1830, №11489, с.763-767, 959-960.

163. Потто В. А. Исторический очерк кавказских войн от их начало до присоединения Грузии. Тифлис, 1899, 305 стр.

164. Радинг. О происшествиях, случившихся при основании русского селения на берегу Астрабадского залива. ЖМВД, 1839, №7

165. Российской Государственной Архив Древних Актов - (РГАДА), ф. Госархив, разряд. XV, д.149

166. РГАДА, ф. Госархив, р. XXIII, д.13, ч.4

167. РГАДА, ф. Госархив, р. XXIII, д.14, ч.2

168. РГАДА, ф.276, оп.1, д.654

169. РГАДА, ф.276, оп.1, д.656
170. РГАДА, ф.476, оп.1, д.738
171. РГАДА, ф.1261, оп.1, д.1447
172.РГАДА, ф.1261, оп.1.д., 1492
173. РГАДА, ф.1406, оп.1.д., 264
174. РГАДА, ф 1406, оп.1, д .339
175. Российской Государственной Военно-Исторический Архив, фонд. Военно Учетный Архив (РГВИА, ф.ВУА), ф. ВУА, д.36,
176. РГВИА, ф. ВУА, д.299
177. РГВИА, ф.ВУА, д.332
178. РГВИА, ф.ВУА, д.611
179. РГВИА, ф.ВУА, д.6164
180. РГВИА, ф.ВУА, д.6165, ч.3
181. РГВИА, ф.41, оп.200, д.629
182.РГВИА, ф. 52, оп.1/194, д.32
183. РГВИА, ф. 52, оп.1/194, д.72
184. РГВИА, ф.52, оп.1/194, д.216
185. РГВИА, ф.52, оп. 1/194, д. 267
186. РГВИА, ф.52, оп. 1/194, д. 270
187. РГВИА, ф.52, оп.1/194, д. 286,ч.1
188. РГВИА, ф.52, оп. 1/194, д. 288
189. РГВИА, ф.52,оп. 1/194, д.481, ч.1
190. РГВИА, ф.52,оп. 1/194, д.330
191. РГВИА, ф.52, оп. 1/194, 331, ч. 1, 4,5, 6,7,8,9
192. РГВИА, ф.52, оп.1/194, д. 350, ч.5, 9
193. РГВИА, ф.52, оп.1/194, д. 361,ч.1,4
194. РГВИА, ф.52, оп.1/194, д. 366,ч.2
195. РГВИА, ф.52, оп. 1/194, д.416, ч.1,2
196. РГВИА, ф.52,оп. 2/203, д.24
197. РГВИА, ф.52,оп. 2/203, д.25

198. РГВИА, ф.52,оп. 2/203, д.32

199. РГВИА, ф.52,оп. 2/203, д.37

200. РГВИА, ф.52,оп. 2/203, д.90

201. РГВИА, ф.52,оп. 2/203, д.93

202. Русская старина, журнал т. XVIII, СПб: В.С.Балашева, 1877, 820 стр.

203. Русский архив. Москва: Лебедева.1880, кн.1, 509 стр.

204. Русско-Дагестанские отношения в XVIII в начале XIX веке. Сборник документов. Москва: Наука, 1988, 356 стр.

205. Сборник Русского Исторического Общества (сборник РИО) с 1867 по 1916 гг. было издано 148 томах в Петербурге, т.5, 1870, 511 стр.

206. Сборник РИО, т.26, 1879, 728 стр.

207. Сборник РИО, т.27, 1880, 670 стр.

208. Сборник РИО, т.135, 1912, 553 стр.

209. Сборник РИО, т.142, 1885, 770 стр.

210. Сборник РИО, Т. 145, 1887, 597 стр.

211. Смирнов Н.А.Политика России на Кавказе в XVI-XIX вв. Москва, 1958, 224 стр.

212. Станиславская А.М. Русско-английские отношения и проблемы Средиземноморья. 1798-1807 гг. Москва: АН СССР, 1962, 503 стр.

213. Сысоев Б.М. Краткий очерк истории Азербайджана (Северного). Баку, Азербайджанский Археологический Комитет Наркомпроса Аз.ССР, 1925, 146 стр.

214. Ульяницкий. Исторический очерк русских консульств за границей в XVIII в. ч.1, СПб, 1899, 632 стр.

215. Утверждение русского владычества на Кавказе, (под редакцией В.Потто), в 4-х томах, т-том. Тифлис: Военно ист. отдел при штабе Кавказкого военного округа. 1901, 308 стр.

216. Цагарели А. Грамоты и другие исторические документы XVIII в., относящиеся к Грузии. т. II, вып. II, Тифлис, 1902, 396 стр.

217. Цинцадзе И. Посольство в Россию Афанасия Тбилиели и Симоне «Исторический вестник», Тбилиси, 1952, №6, с.158-159

218. Шарашанидзе З.М. Иран во второй половине XVIII в. Тбилиси: АРД, 1971, 53 стр.

219. Шенгеля Н.Н. Финансовые ведомства Османской империи и его документация. //Османская империя (система государственного управления, социальные и этнорелигиозные проблемы). Москва, 1986, с. 41-49

220. Юзефович Т. Договоры России с Востоком, политические и торговые. СПб., типография О.И.Бакста, 1869, 298 стр.

221. Юхт А.И. Торговля России с Закавказьем и Персией во второй четверти XVIII века. Журнал //История СССР, Москва 1961, с. 140-146

**İngilis dilində**

222. Avery P. Modern Iran-London: Benn, 1963, 527 pg.

223. A Chronicle of the Carmelites in Persia and Paral Mission of the XVII-th and XVIII-th sentures. T.I, London, 1939, 697 pg.

224.Bournoution G.A. The khanate of Erevan under Qajar rule 1795-1828. Costa Mesa, California And New York, 1992, 355 pg.

# MÜNDƏRİCAT


Ön söz..........................................................................................3

**I FƏSİL. XVIII ƏSRİN 70-80-Cİ İLLƏRİNDƏ RUSİYA-İRAN MÜNASİBƏTLƏRİNDƏ AZƏRBAYCANIN YERİ**.................6

1.1 Azərbaycanın daxili siyasi vəziyyəti və beynəlxalq münasibətlərdə yeri......................................................................6

1.2 XVIII əsrin 70-ci illərində Rusiya-İran münasibətləri və Azərbaycan......................................................................18

1.3 Rusiyanın Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq planı......................................................................33

**II FƏSİL. XVIII ƏSRİN 80-90-CI İLLƏRİNDƏ AZƏRBAYCAN UĞRUNDA RUSİYA-QACARLAR QARŞIDURMASININ GÜCLƏNMƏSİ**..................................52

2.1 Rusiya və Qacarlar dövlətlərinin münasibətlərinin kəskinləşməsində Azərbaycan amili..............................................52

2.2 XVIII əsrin 90-cı illərində Rusiya və Qacarlar dövlətləri arasında qarşıdurmanın daha da güclənməsi..................................74

**III FƏSİL. XVIII ƏSRİN SONU XIX ƏSRİN ƏVVƏLİNDƏ AZƏRBAYCAN RUSİYA VƏ QACARLAR MÜNASİBƏTLƏRİNİN DÜYÜN NÖQTƏSİNDƏ**.................93

3.1 XVIII əsrin sonu XIX əsrin əvvəlində Rusiya və Qacarlar dövlətlərinin Qafqaz siyasətində Azərbaycanın yeri......................93

3.2 Azərbaycan Rusiyanın hərbi təcavüzü ərəfəsində..................109

Nəticə......................................................................................129

Ədəbiyyat siyahısı....................................................................137

# HABİL HƏSƏNOV

# AZƏRBAYCAN TARİXİ

**(XVIII əsrin son rübü-XIX əsrin əvvəlləri)**

**Dərs vəsaiti**

***Çapa imzalanmış 03.11.2022-ci il***
***Kağız formatı 70x100 $^{1/16}$, çap vərəqi 9,5***
***Sifariş 320, sayı 300***

***ADPU-nun nəşriyyatı***
***Bakı, Ü.Hacıbəyli küçəsi, 68***
***Tel: (+912) 493-74-10***
***E-mail: poliqrafiya@mail.ru***